ABBAS SƏHHƏT
ABDULLA ŞAİQ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÇAŞIOĞLU
2006

## REDAKSİYA ŞURASI

*Misir Mərdanov (sədr)*
*Anar Rzayev*
*Ağamusa Axundov*
*Azad Nəbiyev*
*Bəxtiyar Vahabzadə*
*Bəkir Nəbiyev*
*Cəlil Nağıyev*
*Elçin Əfəndiyev*
*Hikmət Hüseynov (naşir)*
*İsa Həbibbəyli*
*Kamal Abdullayev*
*Qara Namazov*
*Nizami Cəfərov*
*Pənah Xəlilov*
*Vasim Məmmədəliyev*

## REDAKSİYA HEYƏTİ

*Əsgər Quliyev (baş redaktor)*
*Nəcəf Nəcəfov*
*Bilal Həsənli*
*Arif Məmmədov*
*Aida Soltanova*
*Bəhlul Abdulla*
*Soltan Əliyev*
*Teymur Kərimli*
*Yaşar Həmidov*
*Zaman Əsgərli*

*Tərtib edən ön sözün müəllifi: Baba Babayev*
*Redaktoru: Xeyrulla Məmmədov*

**Abbas Səhhət, Abdulla Şaiq.**
**A13.** Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006. – 336 s.

A $\frac{4702060000-199}{082-06}$

© "*Çaşıoğlu*" nəşriyyatı, 2006



Abbas Səhhət

# ABBAS SƏHHƏT (1874-1918)

XX əsrin əvvəllərində romantizm Azərbaycan ədəbi-mədəni həyatın müxtəlif sahələrində bu və ya digər dərəcədə təzahür etsə də ilk növbədə poeziyada aparıcı və əsas istiqamətə çevrildi. Romantizm və onun əsas nümayəndələri: Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu, Ə.Salmasi və başqaları haqqında qədərincə araşdırmalar aparılaraq tədqiqat əsərləri yazılsa da, baxmayaraq sovet siyasi rejiminin amiranəliyi, romantizm bütövlükdə, əsaslı şəkildə öyrənilmişdir. Kommunist ideologiyasının təsiri ilə ötən əsrin 50-ci illərinə qədər romantizmin nümayəndələri panislamist, pantürkist, millətçi hesab olunmuş və əksinqilabçılıqda günahkar sayılmışlar. 1960-cı illərdən başlayaraq ideoloji ifratlar dəf olundu, romantizm də obyektiv tədqiq edilərək öz elmi qiymətini aldı. Fədakar tədqiqatçılarımızın sayəsində həyat və yaradıcılığı ciddi elmi planda öyrənilən əvəzsiz ziyalılardan, qüdrətli söz ustalarından biri də Abbas Səhhətdir.

Abbasqulu Əliabbas oğlu Mehdizadə (Abbas Səhhət) 1874-cü il Şamaxının Sarıtorpaq məhəlləsində ruhani ailəsində anadan olmuşdur. Şairin atası molla Əliabbas «Qüssə» (Sıxıntı — B.B) təxəllüsü ilə şeirlər yazmış və özünün açdığı mollaxanada dərs demişdir. İlk təhsilini atasının məktəbində alan Abbasqulu 1881-ci ildə 7 yaşındaykən mollaxanada oxumağa başlayır, fars və ərəb dillərini öyrənir «Gülüstan»ı oxuyur, Quranı oxuyub başa çıxır. Fenomenal yaddaşı sayəsində o, Azərbaycan və şərq ədəbiyyatı ilə ciddi maraqlanır. Firdovsi, Sədi, Nizami, Füzuli kimi klassiklərin əsərlərini mütaliə edir. 1894-cü ildə atası onu dini təhsil almaq üçün Məşhəd şəhərinə göndərir. Bir il mədrəsədə təhsil alandan sonra o, tibbi təhsil almaq üçün Tehrana gedir. Tələbəlik illərində — 1898-ci ildə Şiraza səfər edir, orada o, Sədiyə və Hafizə həsr etdiyi şeirlərini yazır. 1900-cü ildə Darülfünunu bitirir, həkimlik diplomu alır və bir müddət sarayda həkimlik edir. 1901-ci ilin əvvəllərində vətəni Şamaxıya qayıdır. Şamaxıda M.Ə.Sabirlə, A.Ə.Nasehlə, M.Qərrah kimi şairlərlə tanış olur. Az müddət ərzində onların arasında möhkəm dostluq yaranır. Şamaxının mədəni-maarif işlərində fəallıq göstərən A.Səhhət şair və ədəbiyyat həvəskarları ətrafına yığaraq ədəbi məclis təşkil edir. Şair «Səhhət» təxəllüsünü də bu zamandan işlətməyə başlayır. Bu təxəllüsündə o, şeirləri ilə xalqının mənəvi yaralarını müalicə etmək amalını ifadə etmişdir. Təbiəti etibarı ilə mədəni tədbirlərdə çalışmağı sevən Səhhət Şamaxı və onun yaxın kəndlərində peşəkar bir həkim kimi də tanınırdı. O, 1906-cı ildə fəaliyyətinə icazə verilən realnı məktəbdə ana dilindən dərs deyir. Pedaqoji fəaliyyətlə yanaşı Səhhət ədəbi yaradıcılığını da davam etdirir. «Həyat», «İrşad» kimi qəzetlərdə, «Dəbistan», «Rəhbər», «Məktəb», «Zənbur» jurnallarında əsərlərini çap etdirir. 1905-ci ildən sonra A.Səhhət şeirləri, yüksək poetik səviyyəli tərcümələri, elmə-təhsilə, mədəniyyətə çağıran məqalələri ilə oxucuların diqqətini cəlb edir. Hətta, onun şeirlərinə nəzirələr yazılır, «Molla Nəsrəddin»in marağına səbəb olur. Rus dilini öyrəndikdən sonra rus ədəbiyyatı ilə müntəzəm məşğul olur. Krılov, Puşkin, Lermontov, Nekrasov, Qoqol, Saltıkov-Şedrin, Ostrovski, Qorki kimi rus yazıçılarının əsərlərini oxuyur və milli oxucular üçün faydalı saydıqlarından tərcümələr edir. 1912-ci

ildə İrandakı milli azadlıq hərəkatına həsr etdiyi «Ölmədin qeyrəti» poemasını yazır. Ən yaxın dostu, sirdaşı, yaradıcılığına ehtiram və məhəbbət bəslədiyi Sabirin ölümündən sonra onun əsərlərini toplayaraq «Hophopnamə» adı ilə 1912-ci ildə çap etdirir və kitaba bu gün də əhəmiyyətini itirməyən, şairin həyatını öyrənmək baxımından qiymətli mənbələrdən sayılan tərcümeyi-halını yazır. A.Səhhət 1912-ci ildən başlayaraq kitabçalarını nəşr etdirir. «Sınıq saz» adlı şerlər məcmuəsi, rus şairlərindən etdiyi tərcümələrdən ibarət «Məğrib günəşləri» adlı iki hissəli kitabları da həmin il işıq üzü görür. Şairin «Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi», «Tağı və Nağı» adlı əsərləri ilk uşaq pyesləridir. 1906-cı ildə Bakıda müəllimlər qurultayında qoyulan mühüm məsələlərdən biri də yeni tədris proqramları əsasında məzmunca daha dolğun dərsliklərin yaradılması idi. Bu zamandan başlayaraq yazılan dərsliklər içərisində A.Səhhətin tanınmış pedaqoq M.Mahmudbəyovla birlikdə yazdığı «Üçüncü il» adlı dərsliyi də mühüm yer tutur. Bir müddətdən sonra A.Səhhət yenə M.Mahmudbəyovla birlikdə «Türk ədəbiyyatına ilk qədəm» adlı müntəxəbat tərtib edir.

1913-cü ildə Volqa boyu səyahət edən A.Səhhət Stavropolda istirahət edir. Səyahətdən aldığı təəssürat, rast gəldiyi, eşitdiyi qəribə əhvalat və hadisələr «Volqa səyahəti» romanının yazılmasına səbəb olur. Şairin bu ilk nəsr əsəri itmiş, əlyazması da tapılmamışdır. A.Səhhətin müasiri, tanınmış pedaqoq Camo Cəbrayılbəyli roman haqqında xatirələrində məlumat vermişdir. Xatirələrindən bəlli olur ki, «Volqa səyahəti» romanın da məişət məsələləri ilə birgə təbiət təsvirləri, lirik ricətlərə də geniş yer verilibmiş. 1914-cü ildə A.Səhhət «Əli və Aişə» nəsr əsərini qələmə alır. Mövzusu Azərbaycan ailə və məişətindən götürülmüş bu romanda qadın hüquqsuzluğundan, kəndlilərin acınacaqlı tragik həyatından bəhs olunur. 1916-cı ildə «Şair, şeir pərisi və səhərli» adlı poeması ilə A.Səhhət sözün həqiqi mənasında XX əsr Azərbaycan poeziyasının ən parlaq, gözəl nümunələrindən birini yaratdı, fitri şairlik istedadını bir daha nümayiş etdirdi. 1915–1917-ci illər arasında görkəmli sənətkar bir sıra hekayələr və publisist məqalələr yazır. «Bədbəxt ailə», «Cərrahlıq», «Qaragünlü Həlimə» hekayələri məhz həmin illərin məhsuludur.

A.Səhhətin 1917-ci ilə qədər yazılan məqalələri ədəbiyyat, maarif-mədəniyyət məsələlərinə həsr edilmişsə («Təzə şeir necə olmalıdır?», «Sabir», «Sınıq saz» və «Məğrib günəşləri» kitablarına yazılan müqəddimələr, «Məktəblərdə ana dili», «Edadi məktəblərdə milli tərbiyə» və s.), inqilabdan sonra «Şamaxıdan» adı altında dərc etdirdiyi məqalələr siyasi məzmundadır.

İctimai-siyasi baxışı, dünyagörüşü və yaradıcılığı əsas etibarılə demokratik mahiyyət daşıyan Abbas Səhhətin siyasi hadisələrə münasibətində məhdudluğun olması da yox deyildir. Hər halda bütün bunları şairin inqilab beşiyi olan Azrbaycanın paytaxtı Bakı şəhəri ilə sıx əlaqə saxlaya bilməməsi ilə əlaqədar olmuşdur. Nəticəsi isə aydındır, paytaxtda baş verən hadisələrdən vaxtında və ətraflı xəbər tuta bilmirmiş. Təqib-təzirlərə dözə bilməyən şairin doğma yurdu Şamaxıda yaşaması mümkünsüz olur və 1918-ci ilin mart ayının əvvələrində A.Səhhət ailəsi ilə birlikdə əvvəlcə Göylər kəndinə köçür. Millətçilərin fitnə-fəsadları güclənir. Artıq kənddə yaşamağın da bəlalar və faciələrlə nəticələnə biləcəyini duyan şair qardaşı Məhəmməd Rzanın ailəsi ilə birlikdə qaçqınlara qoşularaq şəhərdən çıxırlar. Etibarlı mənbələrin verdiyi məlumata görə A.Səhhət var-yoxunu, bütün əlyazmalarını, əsasən yaradıcılığının son illərində yazdığı, mətbuatda nəşr olunmayan, həmçinin mətbuat üçün məqbul sayılmayan — yasaq olunmuş əsərlərini qaçqın düşərkən özü ilə apara bilməmişdir. Bu hadisələrlə bağlı ən səhih məlumatı akademik K.Talıbzadə 1955-ci ildə nəşr etdirdiyi «Abbas Səhhət» monoqrafiyasında vermişdir. Alim həmin bilgiləri məlum hadisənin şahidləri olan Səkinə xanım Abidovadan, Səh-

hətin qardaşı arvadlarından və şairin oğulluğu Böyükağa Mehdizadənin verdikləri məlumata istinad edərək yazmışdır. Onların dediklərinə görə ailə əvvəlcə Ağsuya, sonra isə bir neçə kənd keçərək bir həftəyə Sığırlı kəndinə gedib çıxırlar. Akademik K.Talıbzadə sözü gedən monoqrafiyasında yazır: «...Çap olunmamış əsərlərini Şamaxıda qoyub çıxdığı üçün Səhhət çox peşman və narahat imiş. O, deyirmiş ki, mən ancaq son əsərlərimlə xalqıma əsil xidmət göstərə biləcək, adımı həmişəlik əbədiləşdirəcək idim. Odur ki, şair yolların qorxulu olmasına, Şamaxıda qarışıqlığın davam etdirilməsinə baxmayaraq, oğulluğa götürdüyü dayısı oğlu Böyükağanı əlyazmalarını gətirmək üçün Sığırlıdan Şamaxıya göndərir. Böyükağa Mehdizadə Şamaxının yaxınlığına qədər gedirsə də, şəhərə daxil ola bilməyib geri qayıdır. İki gün Sığırlıda qaldıqdan sonra hər iki ailə qatarla Qarasuya, oradan isə piyada Sabirabad rayonuna yola düşür...».

Bir neçə ay (verilən məlumata görə üç ay) Sabirabadda (o vaxt Petropavlovka adlanırdı) yaşadıqdan sonra acınacaqlı bir vəziyyətdə Gəncəyə köçür. Şairin Gəncəyə köçməsini belə ehtimal edirlər ki, Sabirabadda da vəziyyətin gərginləşməsi onu qorxudur, digər tərəfdən isə pis vəziyyətdə yaşamaları maddi vəziyyəti yaxşı olan qayınatası və baldızı ailələrinin Gəncədə olmasını nəzərə alaraq ora getməyi qərara alır. Lakin qədim Gəncə şəhərində də tale onun üzünə gülmür. İlk günlərdən yatağa düşür. Bir aydan çox ac qalan, müalicə olunmayan şair 1918-ci il avqust ayının axırlarında yatalaq xəstəliyindən vəfat edir. İstedadlı Azərbaycan şairi Abbas Səhhət Gəncədə «Səbisgər» qəbristanlığında dəfn olunmuşdur. Deyiləsi sözləri çox idi. Arzuları yarımçıq qalan şair qorxunc və müdhiş hadisələrin qurbanı oldu. Gələcəyə böyük inam və ümid bəsləyir, vətəninin zülm və işgəncələrindən azad olacağına inanırdı. XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan, mənalı və məzmunlu şeirləri ilə dillər əzbəri olan, gözəl tərcümələr müəllifi, xalqının maariflənməsi üçün bütün şüurlu həyatını qurban verən Abbas Səhhətin ədəbi-elmi, pedaqoji yaradıcılığı, əsrlər boyu Azərbaycan oxucuları tərəfindən məhəbbət və ehtiramla oxunacaqdır.

1905-ci ildən sonra şairin hərtərəfli ədəbi-ictimai fəaliyyət dövrü başlayır. A.Səhhət bir tərəfdən Mədəni-maarif işləri görür, müəllimlik edir, kitabxana və qiraətxanaların açılması işində fəallıq göstərir, rejissorluq edir, müxtəlif əsərləri dilimizə çevirir, bədii yaradıcılıqla məşğul olur. Onun ədəbi yaradıcılığında «Əhmədin qeyrəti» poeması, «Neft fantanı» pyesi kimi əsərlər xüsusi yer tutur. «Şair», «Tərcümeyi-halım, yaxud hulul», «Nəseh», «Sabir», «Oxucularıma», «Bəyani-hal», «Şərarə» kimi şeirlərdə romantik qəhrəmanın yeni, böyük ədəbiyyat uğrundakı mübarizəsi və bu mübarizənin çətinlikləri öz əksini tapmışdır. «Şair, şeir pərisi və şəhərli» poeması A.Səhhətin yaradıcılığının zirvəsində dayanan bədii nümunədir. Şair bu poeması ilə sonki zamanın kəskin, konfliktli ədəbi mübarizələrində öz mövqeyini bildirmişdir. Bu poemadan sonra şair «Bədbəxt ailə», «Qara günlü Həlimə» hekayələrini, «Təxliyyə yaxud qaçqın», «Şərarə» şeirlərini yazır, müharibəni təsvir edən publisist yazılarını dərc etdirir. Vətənə həsr olunan əsərləri içərisində «Vətən» şeiri həm ideyasına, həm də bədii məziyyətlərinə görə güclüdür. A.Səhhət ölkənin taleyi həll olunan ağır bir məqamda, hər bir azərbaycanlının qəlbində, milli şüurunda elə-obaya sevgi hissinin gücləndirilməsi talе yüklü məsələyə çevriləndə bu şeiri yazdı, müqəddəs vətəninin mənəvi sərhədlərini poetik şəkildə açıb göstərdi və tərənnüm elədi.

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim...
Vətən — əcdadımızın mədfənidir,
Vətən — övladımızın məskənidir.
Vətəni sevməyən insan olmaz;
Olsa, ol şəxsdə vicdan olmaz.

Yazılma tarixi bir əsri haqlayan «Vətən» şeirinin poeziyamızda yaşama tarixi isə xalqımızın və onun tükənməz vətən sevgisinin tarixi ilə ölçülür. Çünki, şeirdə biz həqiqi vətəndaş ürəyinin — səsini şair qəlbinin çırpıntılarını görürük.

A.Səhhət lirik şair olmuşdur. Lakin onun lirikası da ideya istiqaməti və şəkli xüsusiyyətləri ilə ziddiyyətli bir yol keçmişdir. Tədqiqatçıların haqlı olaraq göstərdiyi kimi bu lirikanın ilk dövrü (1890–1905) şəxsi, qeyri-ictimai motivlərlə səciyyələnirsə, əsas mərhələsi (1905–1917) ictimailiyi və orijinallığı ilə seçilir. Bu illərdə A.Səhhət yaradıcılığında realizmə qüvvətli meyil oyanır. Şairin ədəbi yaradıcılığında uşaqlar üçün yazdığı əsərlər mühüm yer tutur.

Kiçik yaşlı uşaqlar üçün yazdığı şeirlər diqqəti daha çox cəlb edir və bu gün də dillər əzbəridir. «Yaz», «Bağça», «Cücələr», «Quşlar», «İlk bahar», «Ana və bala» və s. əsərləri kiçik yaşlıların ruhuna, zövqünə daha yaxındır. Bu şeirləri oxuduqda hiss edirsən ki, müəllif şifahi xalq ədəbiyyatına bələd olan və ondan məharətlə istifadə edən istedadlı bir sənətkar olmuşdur. «Gün və külək», «Tülkü və meymun», «Tülkü və qurd», «Ulaq və aslan», «İt və kölgəsi» təmsilləri A.Səhhətin uşaqlar üçün yazdığı əsərlər içərisində ən nümunəvilərıdır.

A.Səhhətin tərcüməyə yaradıcı şəkildə yanaşması, orjinala sadiq qalma cəhdi, doğma dildə poetik ifadə etmək məharəti və ustalığı onun tərcümələrinin özünəməxsusluğun təmin edən əsas amillərdən sayılmalıdır. Qərb və rus ədəbiyyatından tərcümələrlə A.Səhhət həm milli ədəbiyyatı dünya söz sənətinin nailiyyətləri ilə tanış edirdi, həm də ən başlıcası professional milli tərcümə məktəbinin yaranması üçün ənənə formalaşdırırdı.

A.Səhhət o şəxsiyyət və yaradıcı ziyalılardandır ki, xalq üçün faydalı yaşamaq üçün əllərindən gələni əsirgəməyiblər.

**Baba Babayev,**
*filologiya elmləri namizədi.*

# ŞEİRLƏR

## ŞEYX SƏDİ

Sədi, aya şairi-şirinkəlam!
Xabgəhin rövzeyi-darüssəlam.
Dur, oyan ey dahiyeyi-ruzgar!
Gör vətənin oldu nasıl tarü mar.
Məzeai-pakindir əgər Dilgüşa,
Heyf deyil, məncə, bu gün dilgüşa.
Aç gözünü, bax vətən övladına,
Sevgili əqabına, əhfadına.
Oldu fəramuş nəsihətlərin,
Vermədi heç faidə zəhmətlərin.
Hikməti-əşarına bilixtilaf
Eylər ikən əhli-cahan etiraf,
Qədr qoyarkən hamı asarına,
Sözlərinə, şiveyi-göftarına.
Hər dilə nəql oldu kəlamın sənin,
Tutdu bütün aləmi namın sənin.
Yatdılar əhfadların xabdə
Etmədilər rəkz adına abidə.
Qədrini bilsəydi əgər ağniya,
İsminə min məktəb olurdu bina.

*1898.*

## XACƏ HAFİZ

Hafiz, ey mürşidi-sütudəsiyər!
Hafiz, ey ustadi-şeirü hünər!
Əsərindir mütərcimi-lareyb,
İştə sənsən bu gün lisanül-qeyb.
Bir məali cəhanisən, hafiz!
Bir cahani-məanisən, hafiz!
Düşünülsə nədir mətalibini,
Dərk edər əhli-haq məratibini.
Müştətirdir həqiqət ilə məcaz,
Mündəric hər birində bir ecaz.
Leyk dövri-zəmanə eylədi ğədr —
Kim, sənə layiqincə qoymadı qədr.
Olsa idi iranlılar arif,
Elmü fənni-zəmanədən vaqif,
Qədrini kamilən bilərlər idi,
Heykəlin burda rəkz edərlər idi.

*1898*

* * *

Ey könül, yatmagilan, dur gözün aç, bidar ol!
Xabi-qəflətdən oyan bir, bu zaman hüşyar ol!
Şərqi-əqsayə nəzər qıl, necə gör qovğadır,
Nə qiyamətdü, nə şurişü nə vaveyladır!
Bütpərəst tayifəsi gör nə cəsarət ediyor,
Sülhü asayişi dünyadə o qarət ediyor.
Diplomat dairəsi vəz eliyən qanunu
Hətк edib yer üzünün taifeyi-yapunu.
Rus eskadrasına birdən o şəbxun elədi,
Boylə nalayiq işi dövləti-yapun elədi.
Çün verildi bu xəbər sevgili sultanımıza,
İmperaturi-müəzzəm, şahi-zişanımıza.
Manifest verdi o dəm ləşкəri-xunaşamə,
Ta кi tənbeh ola ol taifeyi-bədnamə.
Hərb elanı təmamən dağılıb dünyayə —
Ki, yapon dövləti-rus ilə durub dəvayə.
Sadiqül-qövl rəiyyətlər ediblər hümmət,
İmperaturə dilü can ilə qılsın xidmət.
Biri sursat, birisi pul, birisi can verdi,
Biri öz canını sultanına qurban verdi.
Əmr edibdir üləma sinfinə şeyxülislam —
Ki, məsacidlərə dəvət oluna xasü əvam.
Çağıraq suzi-cigərdən hamımız Allahı —
Ki, müzəffər edə bu rəzmdə şahənşahı.
Çün yetişdi bu xəbər nahiyeyi-Şirvanə,
Hansı Şirvan кi, olub zəlzələdən viranə.
Sabiqən elmi-qəzavətdə dəbiri-qazi,
Haliya məsnədi-izzətdə mudiri-qazi,
Yəni Əbdülhüseynzadə, o şəxsi-tahir,
Üləma firqəsini eylədi кullən hazir.
Edibən zöhr namazını cəmaətlə əda,
Pəs çıxıb minbərə səsləndi кi, ey əhli-vila,
Bilin, ey qövm, bu günlər nə fəraqət dəmidir,
Cümlə məcruhə bu günlərdə ianət dəmidir.
Malü can ilə кoməкliк eləyin sultanə,
Haq-taala bu təriq ilə yazıb Qurana.
Saniyən, cümlə bu mətləbdən olun siz agah,
Əmr edibdir sizə bu barədə bir alicah,
Nüкtədayi-rəhi-din, hadiyi-кüll, fəxri-ənam,
Şiəməzhəblərə Qafqasdə şeyxülislam,
Buyurub şeyx hər ol кəs кi, müsəlman olsun,
İmperaturə gərəкdir кi, sənaxan olsun.
Əmri-baridir səlatinə itaət vacib,

Bu itaətdə müsəlləmdi ianət vacib.
Hamılıqnan deyin, ey qövm ki, ey bari-xuda,
İmperaturimizə ömri-təvil eylə əta.
Daima rəzmdə əfvacını mənsur eylə,
Düşmənin kor elə, məğlub elə, məqhur eylə.
Çün yetirdi bu məqamə sözü ol mürşidi-din,
Xalqdan çıxdı göyə nəreyi — Amin! Amin!

*1904*

## ŞAMAXI ZƏLZƏLƏSİ

Keçmişdi keçən şəb gecədən bir neçə saat,
Məhtab ilə olmuşdu cahan qərqi-lətafət.
Qəndili-dirəxşan qəməri göydə hüveyda,
Bir səhneyi-şadi edib afaqdə peyda.
Bir sümtü sükut, aləmə müstəvlivü qalib.
Küllən hamı zərrati-cahan uyquya talib.
Olmuşdu təbiət elə müstəğrəqi-əskan.
Etmişdi bu aramı onun aləmi heyran.
Tutmuşdu sükunət ilə bir həddi-nihayət,
Ta kim, bəşərin ruhuna etmişdi sirayət.
Damani-zilalı-şəb edib aləmi məstur,
Tərk etməyə amalını aləm hamı məcbur.
Yer bəstəri-rahətdə, cahan uyquya mail,
Lakin bu sükunət özü bir türfə şəmail.
Qayətdə gözəl bir gecə, qayətdə fərəhnak,
Qayətdə səfabəxş, pəhayətdə tərəbnak.
Bir novmi-qəriq içrə cahan çümlə giriftar,
İlla bu sükulətdə kəvakib gözü bidar.
Ol məkzərseyi-dilkəşə min çeşmlə guya
Bir riqqət ilə çərx özü eylərdi təmaşa.
Lakin dili-aşüftəvü şuridəvu şaiq,
Birdən edib ol məzzərəsi qəti-əlaiq,
Ətrafına olduqda çü nəzzarəsi mətuf,
Bir özgə xəyalata edib himməti-məsruf.
Çarpışdı, ilişdi gözə bu türfə səharı,
Şirvanın o divanə olan şəhrü həsarı...
Düşdükcə o istəkli vətən səmtə nigahım,
Əflakə ucaldı o zaman şöleyi-ahım.
Of, istəməm artıq görəm ol qəmli məkanı.
Baxdıqca yaxar şəleyi-ahım dilü canı.
Bir növ olub zəlzələdən yeksərə viran,
Tapmaz dəxı abadlığı surəti-imkan.
Daşlar qarışıb torpağa, evlər mütəlaşi.

Xakі-siyəh ətfali-sitəmdidə fəraşi,
Hərdəm gətirir mənzərəsi qəlbi sütuhə.
Bir qədr camır san yığılıb daməni-kuhə,
Bir məskən uzaqdan nəzərə gəlsə də qabil,
Yaxşı nəzər etdikdə görürsən mütəmadil,
Hər yanda böyük xəndəkü hər küçədə min dağ.
Əzbəs tökülüb bir-birinin üstünə torpaq.
Murdarlıq ilə həp dolu əsvaqü məabir.
Yağmurlu havalarda dolaşmaq mütəəzzir.
Yay fəsli tutar çən kimi toz ruyi-həvam,
Tozdan dolu xalqın ciyəri, məğzi-dəhanı.
Əsdikcə yel afaqı tutar buyi-süfunət,
Heç vəchlə mümkün deyil imkani-sükunət.
Dünyada olurmuş belə zillətlə məişət?!
Aya, bu imiş ruzi-əzəldən bizə qismət?!
Aşüftə edib xalqı məgər zəlzələ hövli,
Yox, Yox ! Buna baisdi fəqət məhfəzəquli!
Yox kimsə ki, biçarələrin dadına çatsın,
Ərbabi-ğinanın başı, yarəb, yerə batsın!
Hərçənd yığılmışdı yarım milyon ianə,
Bəl etdi onu bir neçə əyani-zəmanə,
Ol məhfəzələr şərri əgər olmasa zail,
Tapmaz mərəzi-cəhli-vətən Səhhəti-kamil.

*1906*

## DƏVƏT

Arxadaşlar! Elm lazımdır ki, tapsın din həyat.
Elm ilən hasil olur izzət, tapar millət nicat.
Səy edin ta bizlərə əhsənlər etsin kainat,
Elmsiz ömr etmədən min dəfə ərcəhdir məmat.
Keçdi dövri-zuri-bazu, elmü fəzl əyyamıdır!
Arxadaşlar! Oxuyun, elm oxumaq həngamıdır!

Bax, əcanib bərrü bəhrə elm ilə sultan olub,
Cəhlü qəflətlə vəli islam evi viran olub,
Dideyi-dinpərvəran bu hala xunəfşan olub.
Çarə axtarmaq gərək, həm əhdü həm peyman olub.
Keçdi dövri-zuri-bazu, elmü fəzl əyyamıdır!
Arxadaşlar! Oxuyur, elm oxuyur həngamıdır!

Bu qədər bəsdir təməddün gülşənində xar olaq,
Dəm o dəmdir xabi-qəflətdən dəxi bidar ola,
Tərk edək həm ixtilafü iftiraqı, yar olaq,
Bu vətən övladının əhvalına qəmxar olaq.
Keçdi dövri-zuri-bazu, elmü fəzl əyyamıdır!
Arxadaşlar! Oxuyun, elm oxumaq həngamıdır!

Arxadaşlar! Çox fənadır aşikarə halımız,
Qəmfəza bir mənzərə ərz eylər istiqbalımız,
Payimal olluq bu növ keçsə gər əhvalımız,
Babi-məktəbdən olur hasil qamu amalımız.
Keçdi dövri-zuri-bazu, elmü fəzl əyyamıdır!
Arxadaşlar! Oxuyun, elm oxumaq həngamıdır!

Vaqif olmaqlıq gərəkdir ehtiyaci-millətə,
Ariz olmuş dürlü afətlər mizaci-millətə,
Səhhət istərsən əgər, səy et əlaci-millətə,
Elmdir, billahi, mucid ibtihaci-millətə.
Keçdi dövri-zuri-bazu, elmü fəzl əyyamıdır!
Arxadaşlar! Oxuyun, elm oxumaq həngamıdır!

*1906*

## QƏZET NƏDİR?

Ey sananlar qəzeti şeyi-həba.
Bu təğafül nə rəvadır, əcəba?
Görüyorsuzmu Firəngistanı —
Ki, müsəxxər eləmiş dünyanı?
O kəmalata qəzet baisdir,
Çünki hər elmdən o bəhisdir.
Bütün ol dəbdəbəvü cah-cəlal,
Meyvələrdir, bu qəzet əsl nihal.
Didəvü guşi-vətəndir qəzetə,
Yəni çavuşi-vətəndir qəzetə.
Aləti-durnümadır qəzetə,
Çeşmeyi-abi bəqadır qəzetə.
Qəzət ayineyi-İskəndərdir,
Cümlə sərgəştələrə rəhbərdir.
Qürəbalarla gözəl həmdəmdir,
Halı aşüftələrə həmqəmdir.
Edəsən gər ona hər növ əza,
İnciməz zərrəcə səndən əsla.
Gah səninçin oxuyar mərəkələr,
Gah səninçin danışar məzhəkələr.
Gah edər qəlbini əşar ilə şad,
Gah edər dürlü vəqaye tedad.
Şükr kim, bizlərə də lütfi-xuda
Eyləyibdir belə bir nemət əta.
Bizdə bu cüzi olan həycanə,

Qəzet olmubmu səbəb, aya nə?
Bəs gərəк səy eləyəк izzət ilən,
İştiraкında onun hümmət ilən.
Olmayaq razı əsə sərsəri-cəhl.
Qılmaya məhv bizi ləşкəri-cəhl.
Getsə gər badi-fənayə «İrşad»,
Olacaq xaneyi-millət bərbad.
Sönə gər şəmi—«Füyüzat»i-vətən,
Nurlanmaz dəxi zülmati-vətən.
Gər zəfər yetsə «Dəbistan»ımıza,
Kimdi «Rəhbər» dəxi tiflanımıza?
Ağlayıb-gülməyə gər «Molla əmu»,
Yatacaq milləti-İslam qamu.
Yaşa, ey naməyi-«İrşad», yaşa!
Ey edən milləti dilşad, yaşa!
Ey «Füyuzat» ilə feyzin cari,
Səndə, var çünкi «Həyat» əsari.
Yaşa, ey «Rəhbər»i-əbnayi vətən,
Qıl «Dəbistan» ilə ehyayi-vətən!
Çox yaşa, çox yaşa, ey «Molla əmu»!
Sizlərə göz tiкib islam qamu.
Nə qədər var cahan, var olasız!
Millətin dərdinə qəmxar olasız!

*1906*

## DİLBƏRİ-HÜRRİYYƏTƏ

A sevdiyim, aç bir niqab üzündən,
Məcnun təк Leylaları divanə qıl!
Xosrovlar bəzmində şirin sözündən,
Şuriş sal tazə-bir əfsanə qıl!

*

A hürriyyət! A münfərid əməlim!
İştə sənsən səadəti bəşərin.
Könlümdəкi ən istəкli gözəlim,
Rəfahəti, fəlahəti bəşərin.

*

A sövdiyim, neçün fərar edirsən?
Üz döndərmə, getmə, şitab eyləmə!
Gönülləri çox biqərar edirsən.
Aç bir üzün, göstər, hicab eyləmə!

*1907*

## YAD ET!

Vəqta кi, кeçər bu leyli-zülmət,
İşraq edər əxtəri-həqiqət,
Elm ilə ziyalanar bu millət,
Qalxar bu təəssübü cəhalət,
Surət hamı ruh olar, məani,
Aləm hamı eşq olar, məhəbbət,
Ey dərк edən ol gözəl zəmani,
Qıllam sənə iştə bir vəsiyyət:
Yad et məni, qaibanə yad et!

Vəqta кi, gələr o şanlı əyyam,
Olmaz günə əbri-tirə hail,
Hər yerdə olar güruhi-islam
Qanuni-təкamül ilə кamil,
Bir fəcri-həyatbizi-ürfan
Saçdıqca cahana nuri-hiкmət,
Bir çöhreyi-xəndərizü şadan —
Verdiкcə cahaniyanə nəzhət
Yad et məni, arifanə yad et!

Vəqta кi, qaçar səhabi-övham,
Bir dadlı üfüq olar nümayan,
Xurşidi-həq eylər ərzi-əndam
Məsud yaşar ümum, insan.
Baxdıqca, cəvanibü nəvahi
Behcətdə olar riyazi-cənnət.
Rövşən olar etila səbahi,
Payanə yetər bu qəm, bu möhnət.
Yad et məni, sadiqanə yad et!

Vəqta olar ittihadi-ara,
Qalxar bu təanüdü təxəllüf,
İslam olar elmü fənnə dara,
Mazisinə eyləyər təəssüf,
Bir ləhzə məni təxəttür eylə,
Olduqca qədəmgüzari-izzət,
Bədbəxtliyimi təsəvvür eylə —

Kim, öldüm, ürəкdə qaldı həsrət,
Yad et məni, dustanə yad et!

Vəqta кi, yetər zəmani-hazir,
Gül təк açılar tutuq ürəкlər.
Torpaqda yatar bu qəmli şair,
Qəbrində çıxar soluq çiçəкlər.
Batində olar o halə nazir,
Həsrətlə bu dağıdari-firqət.
Bax millətə, eylə sən təfaxür,
Amma кi, bəxatiri-üxüvvət,
Yad et məni, aşiqanə yad et!

*1908*

## VAVEYLAYİ-NİFRƏT

Təməddün əhli olmuş elm ilə alim, ziyalanmış.
Pozulmuş milləti-islamın əxlaqı, fənalanmış.
Ülumi-dinü dünya кəsbinə məmur ikən bizlər,
Fəqət bir elmi-din əxz etməyə xalq iкtifalanmış.
Nə qəflət! Elmdən eylər təbərra vaizü qazi,
Vəhalonкi qivami-şər elm üzrə binalanmış.
Qaçıb elmin pərisi кişvəri-islamdən Qərbə,
O yari-dilrübayə əhli-məğrib aşinalanmış.
Dolub Əhriməni-cəhl ilə Şərqin darülimani,
Tutub əmrazi-nəfsaniyyə xalqı, mübtəlalanmış.
Bu yanda höкmfərma din adı altında dinsizliк,
O yanda elmi-əxlaq ilə bütlər etidalanmış.
Bu yanda zülmü istibdadi-dinidən, məazzallah,
Hezaran dürlü mövhumat ilə başlar həvalanmış.
O yanda sayeyi-hürriyyəti-əfкardən başlar
Çıxıbdır övci-ərşə gün кimi gitinümalanmış.
O кəs кim dami-təzvir eyləmiş övradü əzкari,
Deyərlər müttəqidir, saqqalı ağdır, hənalanmış.
Baxılmaz siyrətü əxlaqa ya ətvarü rəftara,
Müqəddəsdir hər ol кəs кim, ridalanmış, əbalanmış.
Vəli hər кəs кi, təğyiri-libas etsə, həman saət
Nəzərlərdə olur mənfurü məyub, iftiralanmış.
Əgər bir yerdə bir haq söz desə, qətli olur vacib
Deyərlər кafir olmuş, rahi-həqdən inhinalanmış...

Hanı bir kəsdə cürət, dəm vura həqqü həqiqətdən,
Səbahi-tirədə şəmsi-həqiqət ixtifalanmış.
Təməddün yox, təəllüm yox, təğafül çox, təcahül çox,
Ürəklər lövhəsində nöqteyi-beyza qaralanmış.
Bu dərdə öz təbibi-haziqin göndər, əlac etsin,
Məzaci-milləti-islam Səhhətdən cidalamış.

*1903*

## YAZ

Qızışdırar bahar ayı yerin, göyün havasını,
Dəyişdirər, tünüklədər xəlaiqin libasını.
Bəzəklənir, düzəklənir, bağın fəzası rənglənir,
Yaşıllanır, həm allanır, şükufələr çiçəklənir
Bitər çəməndə laləlrər, əlində al piyalələr,
Səhər zamanı dür kimi düşər ot üstə jalələr.
Sürü-sürü qoyunları çoban yamacda otladar,
Alar ələ papağını, oxur şikəstə, fit çalar.
İnək, camış, qoyun, quzu çıxar naxırda otlağa,
Köçər arandan el, gedər yavaş-yavaşca yaylağa.
Taxıl yerin şum eyləyib əkin əkər əkinçilər;
Əlində dəryaz ot biçər mayıs ayı biçinçilər.

*1908*

## YAY

Təmuz ayında dan yeri ki, başlayar açılmağa,
Səmaya doğru qırmızı alov durar saçılmağa.
Kəsər qəraru taqətin yayın havası quşların;
Qaçar ağaclar altına, gələr sədası quşların.
Divar dibində kölgədə xoruz, toyuqlar uyqular,
Naxırçılar qaramalı sürüb sərin suya salar.
Burünməsilə alnının tərin əkinçilər silər,
Hərarətin sərinlədən havada bir külək dilər.
Yavaş-yavaş dəyər, yetər ləzətli, dadlı meyvələr:
Gilasü albalı, kalı, xoş iyli sarı heyvalar.
Biçər biçinçi arpanı, döyər əkinçi xırmanı,
Çuval-çuval döyüb yığar əkinçi arpa-buğdanı.
Əgər ki, yayda zəhməti əkinçinin ziyad olur,
Ziyad olursa, qış günü o da o qədr şad olur.

## PAYIZ ÇAĞINDA

Payız çağında hər səhər soyuq-soyuq külək əsər.
Ağaclara, budaqlara dəyəndə yarpağın tökər.
Xəzan ayında meyvələr şürü edər savılmağa,
Bazara turp, kök, kələm, soğan gələr satılmağa
Küləkli qar, yağış yağar uzun-uzadı yaylağa,
Köçər o vaxt el-oba, enər tamamı qışlağa.
Günüzlərin qısalması yetər bu vaxt qayətə,
Gecələrin uzanması yetər o dəm nəhayətə.
O vaxt şəhrü qəryənin məkatibi güşad olur,
Oxumağa uşaqların həvəsləri ziyad olur.

*1908*

## QIŞ

Payız çatanda axıra boranlı, qarlı qış yetər,
Soyuq, yağış, küləkli qar xəlaiqi məlul edər.
Havanın onda artırar soyuqluğunu günbəgün,
Ağacların vərəqləri düşər, xəzəl olar bütün.
Donar şirin sular bütün, düşəndə şaxta onlara,
Məşəqqət ilə sındırıb qarı yığarlar ambara,
Dəyirman işləməz, donar, gəliş-gediş çətinlənər,
Bazarda nırxı şeylərin o dəm ziyadə yüksələr.
Qopanda qarlı fırtına cahanı tarmar edər,
Qırar, yıxar ağacları, qiyamət aşikar edər.
Sükuta dalıyor meşə, cahanı başqa hüzn alar,
Qar üstə ol zaman fəqət qırıldaşar da qarğalar;
Qaçarlar isti yerlərə tamam quşlar ol zaman,
Bizimlə qışlayar fəqət dolaşa, sərçə, sağsağan,
Geyər cırıq bürünməsin soyuqda titrəyər, əsər,
Gedər odunçu meşəyə, ağac qırar, odun kəsər.

*1908*

## VƏTƏN

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim.
Məni xəlq eyləmiş əvvəlcə xuda,
Sonra vermiş vətənim nəşvü nüma.

Vətənim verdi mənə nanü nəmək,
Vətəni, məncə, unutmaq nə deməк?!
Anadır hər кişiyə öz vətəni:
Bəsləyib sinəsi üstündə onu.
Südüdür кim, dolanıb qanım olub.
O mənim sevgili cananım olub,
Saxlaram gözlərim üstə onu mən.
Ölərəm əldən əgər getsə vətən,
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.
Vətən — əcdadımızın mədfənidir.
Vətən — övladımızın məsкənidir.
Vətənin sevməyən insan olmaz.
Odsa, ol şəxsdə vicdan olmaz.

*1909*

## ALİMNÜMALAR

Üzü insan, qafada heyvandır,
Zöhddə iddiası Səlmandır.
Ərəbi bir uzun don əynində,
Mündəris bir aba da çiynində.
Qoymuş on beş yetimi bicamə,
Başına bağlamışdır əmmamə.
Keçirib mütəxanələrdə günün,
Yeyib ancaq yoğunladıb boynun.
Qürbət içrə gedib gəzir neçə il,
Fiкr edir bəsdir etdiyim təhsil.
İndi Allah vaкili oldum mən,
Şəri-ənvər dəlili oldum mən,
Bir cahangir, bir cahannəxvət.
Vətənə onda eyləyir övdət.
Hər zaman xalqı etməyə iğfal
Gətirir bir şalə uzun saqqal.
Xalq bir-bir gedib öpürlər əlin,
Anlamaz кimsə hiyləsin, əməlin.
Bir nəfər baş çıxartsa fəndindən,
Doğradar orda bənd-bəndindən.
Millətin ehtiyacına dair —
Danışan кəsləri edir кafir.

Vird edib кafir olmayan sözünü,
Qulağın кar edib, yumub gözünü.
İbn Sinanı eyləmiş кafir,
Rumi Movlanı eyləmiş кafir.
İşi başdan-ayağa qüllabi,
Söyləyir кafir oldu Farabi
Öyrənib hiyleyi-şərin mütləq.
Başına cəm edib neçə əhməq,
Bərşiкəst eyləyir də məxluqi,
Tovlayıb doldurur da sənduqi.
Bu bizə pişvayi-din olmuş,
Füqərə malına əmin olmuş.
Vay bizim tirəbəxt halımıza,
Vay fəlaкətli bəd məalımıza!
Belə millət itib puç olmazmı?!
Qanlara qərq olub boğulmazmı?!

*1910*

## SABİR

Sabir, ey aləmi-xəlqə tərcümal!
Ey hər anda кasə-кasə zəhr udan!
Ey qoca bir qövmə ağlarкən gülən,
Naləsilə xalqı dağlarкən gülən.

Gülməyində qanlı-qanlı giryələr
Hər musəlman кönlünü məhzun edər.
Qəm sənə ol qədr təsir eyləmiş,
Giryəni hüznün gilovgir eyləmiş.

Bir acı gülməк olub ondan əyan
Кəsrəti-ālamını eylər bəyan.
Şeirdə tərhi-növ icad eylədin,
Qoqolu, hüqoları yad eylədin.

İqtidari-şairanən faşdır,
Sən günəşsən, hasidin xəffaşdır.
Etmərəm qaib səvadi-naməni,
Ruhbəxş əsəri-novкi-xaməni.

Xatirim şeirinlə şirinkamdır,
Layiqi-təqdiri-xassü amdır.
Tərzü üslubi-bəyanın sadədir,
Cəzbi-qəlb etməkliyə amadədir.

Xassdır bu şiveyi-rövşən sənə,
Mərhabalar, Sabirim, əhsən sənə!
Ey mücəssəm duyğu, ey ülvi bəşər,
Ey çamurluq içrə düşmüş saf zər,

Tənü lən eylərsə hər nadan sənə,
Ya müsaid olmasa dövran sənə,
Qəm yemə, təxfif ver alamına,
Az çəkər, heykəl yaparlar namına.

*1911*

## TƏRƏQQİ VƏ TƏBİƏTİN QANUNU

Yay fəsliydi, bir gün axşam çağında,
Gəzişirdim Qız Qalası dağında.
Bir-bir baxırdım ol köhnə asara.
Viran olmuş sura, bürcə, hasara.
Qərib-qərib, mübhəm-mübhəm xəyallar
Gəlirdi fikrimə dürlü suallar.
Deyirdim ki, dünya bir şəxsə bənzər,
Doğar, törər, nümüvv edər, yüksələr,
İnsan kimi hər dövrə bir az yaşar,
Sonra yavaş-yavaş ixtiyarlaşar.
Ölər, qalar bir-iki viranəsi,
O da olar bayquşların lanəsi.
Bir müəyyən qanun üzrədir həyat,
Bir doğuş, bir təkamül, bir inhitat.
Böylə qoyulmuş aləmin binası,
Dəyişməkdir tərəqqinin əsası.
Dəyişmək olmasa tərəqqi olmaz,
Təbiətin bu qanunu pozulmaz.
Dəyişməklə mümkün olur təkamül.
İnsan doğar, törər, edər tənasül.
Təbiətdən gərək alınsın ibrət,
Təcəddüdlə olur bəqayi-millət.
Dünyanın əvvəlindən ta bu halə,
Aləmdə olmuş min-min istihalə.
Hanı əski Roma, əski yunanlar?

Hanı əski tərəqqilər, imranlar?
Min-min belə saysız binalar yıxmış,
Sonra yeni bir mədəniyyət çıxmış.
Hanı əski asurilər, kəsrilər?
Hanı əski kəldanilər, misrilər?
Cümləsini məhv eyləmiş zəmanə,
Hər birindən qoymuş cüzi nişanə.
Bu ondandır: vaxta görə təkamül —
Etmədilər, göstərdilər təkahül.
Bu ondandır: zəmanəyə müvafiq —
Dəyişməyib, çıxardılar əvaiq.
Boş etiqadlara məğrur oldular,
Puç olmağa axır məcbur oldular.
Hansı şeydir dəyişməyən dünyada,
Göyərtidə, heyvanatda, havada?
Neçün dəyişməsin fikri insanın,
Təqazası deyilmi bu dünyanın?
Tarix bizə göstərmirmi bu halı?
Cahil qövmün mühəqqəqdir zəvalı!

*1911*

## OXUCULARIMA

Ey möhtərəm qarelərim! Topladığım bu əşar,
Həp ürəkdən çıxan bütün ixtiyarsız fəryaddır.
Mötərifəm ifadəcə, onda pək çox nöqsan var.
Divanəlik asarıdır, məsulluqdan azaddır.

Zira könlüm həvəslərin pəncəsində zəbundur.
Qurtarmaram, nə etməli? Bir çarəsiz cunundur.
Əvət, soyuq bir əsərdir, məmnun etməz heç kəsi,
Soyuqluqdan ancaq mənim xatirimi yandırır.

Toxunmadan sızıltılı çıxan həzin naləsi,
Əldən düşmüş bir «Sınıq saz» olduğunu andırır.
Düşündükcə mən şeirimin soyuqluğun gizlicə —
Çox ağlaram, odlu, yanar ürək ilə hər gecə.

Ağlım çatmaz, zehnim yetməz, ruhum fəryad qoparar
Vicdanımı əzər ikən ən dəhşətli həqayiq.
Uyku görmüş bir lalam mən, aləm əhli bütün kar,
Söyləməkdən mən acizəm, dinləməkdən xəlayiq.

Mən sakitlik bacarmaram, yox, xaric əz-imkandır.
Məğzimdəki cunun dağı cün bir yanar vulkandır.

*1912*

## ALƏMİ-İSLAMA

Dinlə əlhanını sınıq sazımın,
Millətə qəlbən ağlayan bacıdır.
Odlu məzmunları soyuq yazımın
Xəstə ruhun davasıdır, acıdır!

Xəstəlik olmuş olsa ruhani,
Nəf qılmaz əlaci-cismani.

Sən, ey afaqi-növhəbari-həzin!
Nə üçün xəstəhalü nalansan?
Qoparıb məhşəri-fəqanü ənin
İnləriz biz də ta pərişansan.

Gülmədən sən gülərmi heç üzümüz?
Tərəbəngiz olarmı ya sözümüz?

Nə fətət qəlbi-zarımız ağlar,
Günümüz şam olub keçər qəm ilə.
Ruhumuz, həm məzarımız ağlar,
İlimiz başlanar məhərrəm ilə.

Musiqimiz də qəmli-qəmli çalar,
Ağlamaq ilə könlümüz açılar.

Daha artıq bu yəsü kərbətdə,
Səni görmək bizə həram olsun.
Yaşamaqdan bu hali-zillətdə,
Xoşdur ölmək, şərəfli nam olsun.

«Ey, sən ey nəcmi-zahiri-dərxab»
Oyan, artıq ürəkdə qalmadı tab!

Açıl, ey şəmsi-qəm səhaibdən,
Yüksəlib dövreyi-kəmalə yetiş!
Qurtar, ey sevgilim, məsaibdən,
Xubruluqda etidalə yetiş!

Çıx ki, bitsin ləyali-firqətimiz,
Gül, tükənsin dümui-həsrətimiz!

*1912*

## ÖLÜ ŞƏHƏR

Kim baxarsa haçaq bizim şəhərə,
Bir məzarlıq kimi gələr nəzərə.
Hökmfərmadır onda sümtü sükut,
Sarmış afaqını dumanlı bulut.
Rəxnələnmiş həsarü divarı,
Səqfi çökmüş, qədimi asarı
Qəmli mazisini hekayət edər,
Taleindən bütün şikayət edər.
Nə gurultu, nə küy, nə səs vardır,
Bir neçə ruhsuz qəfəs vardır.
Dirilikdən əsər-əlaməti yox,
Həşri var, şurişi-qiyaməti yox.
Bəs ki viran, uçuq, pərişandır,
Tibqi bir vadiyl-xamuşandır.
San yapılmış nişanədir qəmdən,
Ya ki, bir qitə cismi-aləmdən.
Kəsilib bir yana atılmışdır,
Xakinə abi-qəm qatılmışdır.
Qışda hər yanda lil, çamur, palçıq,
Yayda tozdan havası olmur açıq.
Gecə hər səmti qapqara zülmət,
Nə Xızır var, vəli nə abi-həyat.
Qaradır xalqının gündüz də günü.
Qovuşubdur bulutlara tütünü.
Qəhri-ənqaz ilə səqətliyi var,
Daha bədtər adam qəhətliyi var.
Getməyib hər kəsi ki, qalmışdır, —
Dərdü qəmdən şaşıb bonalmışdır.
Bisəmər giryələr ilə dilşad,
Cümlənin şüğlü boş bir istimdad.
Bixəbər elmü fənni-dünyadən,
Müftəxir, ixtilafi-bicadən.
Qopsa aləmdə şurişi-məhşər,
Ölü tək onlara heç etməz əsər.
Diridirlər əgərçi surətdə,
Ölüdürlər, vəli, həqiqətdə.

*1912*

## YADINDAMIDIR?

Ey hüsni-mücəssəm mələkim, nazlı nigarım,
Ey idulim, ey idyalım[1], ey sevgili yarım,
Yadındamıdır mazi — o keçmiş gözəl əyyam?
Yaz fəsli, gözəl bir gecə, nurani bir axşam?
Ay bədr idi, on dörd gecəlik, saf səmadə
Afaqə fərəhbəxş idi əşraqü ziyadə.
Bir parça bulut hərdən edib gərdişi-şirin,
Ağuşə çəkirdi qəmərin qusi-münirin.
Bir ləhzə ayın dövrü yarımzülmət olardı,
Sonra çəkilirdi bulut, ay bir də çıxardı.
Naz ilə baxardı gülərək ruyi-zəminə,
Bənzərdi həyadən yaşınan tazə gəlinə.
Yadındamıdır ol gecə? Həmsağərü həmduş
Ol mənzərəyə qarşı çəmən üstə həmağuş,
Yalnız ikimiz yan-yana əyləşmiş idik şad,
Bir cənnəti-əladə, qəmü qüssədən azad.
Çatmışdı budaq baş-başa sərvü gülü şümşad,
Bir çətri-təbii yədi-qüdrət edib icad.
Ay nuru yaşıl yarpaq arasında firuzan,
San təbiyə olmuşdu zümürrüdlə brilyan.
Canpərvər idi çeşmeyi-safın cərəyanı,
Zövqavər idi səfheyi-ayın ləməanı.
Seyr eylər idik ol fərəhfza çəmən üstə.
Ahəstə oxurduq dəxi rindanə şikəstə.
Hərçənd ki, yox indi ümidim o vüsalə,
Neylim, gəlirəm naləyə düşdükcə xəyalə.
Əski-rüxun olmuş didi-qəmididədə mənquş,
Haşa, olasan dövri-zəman ilə fəramüş?!
Getdinsə də, getməz ürəyimdən qəmi-eşqin,
Məncə iki dünyaya dəyər aləmi-eşqin.
Yoxdur həvəsim sərvü gülü laləyə sənsiz,
Bülbül kimi dair gəlirəm naləyə sənsiz

*1912*

## FÜZULİNİN BİR QƏZƏLİNİ TƏRBİ

Dərdə düşdüm əsərindən sitəmi-hicranın,
Çarədən ötrü dolaşdım nərəsin dünyanın,
«Dəhənin dərdimə dərman dedilər cananın,
Bildilər dərdimi, yoxdur dedilər dərmanın».

Eşq ikən ruzi-əzəl xilqəti-aləm səbəbi
Vaizin xalqı nədir nəhyi dəmadəm səbəbi,
«Olsa məhbublərin eşqi cəhənnəm səbəbi
Hurü qilmanı qalır «kəndisinə rizvanın».

Mələyim, nuri-camalın səri-afaqə dolub,
Atdı bütxanəni Çin əhli, sənə səcdə qılıb,
«Keçdi meyxanədən el, məsti-meyi-eşqin olub,
Nə mələksən ki, xərab etdin evin şeytanın»?

Vur nə qədr istər isən ox ciyərim yarəsinə,
Getmərəm hərgiz ətibba yanına çarəsinə,
«Vurmazam səhhət üçün mərhəm oxun yarəsinə,
İstərəm çıxmaya zövqü ələmi-peykanın».

Qoydu könlümdə fələk istədiyim hər diləyi,
Şöleyi-ah ilə mən də yaxaram nöh fələyi,
«Yerdən, ey dil, göyə qovmuşdu sirişkin mələyi,
Onda həm qoymayacaqdır oları əfqanın».

Dili-divaneyi-Səhhət edəməz tabi-cünun,
Onu seyd etməsə zülfün kimi qüllabi-cünun,
«Ey Füzuli, olubam qərqeyi-girdabi-cünun,
Gör nə qəhrin çəkirəm dönə-dönə dünyanın».

*1912*

## NİTQİ-MƏNZUM

Qardaş, gözün aç, bircə oyan, gör nə zəmandır,
Dünya üzü elm ilə bu gün rəşki-cənandır.
Afaqı işıqlatmış iyirminci qərinə,
Məğriblilərin yer üzünə hökmü rəvandır.

Bəsdir bu qədər qəflət ilə yatdın, əzizim,
Allahı sevərsən, bir ayıl, yatma, oyan, dur!
Diqqətlə öz əhvalına bir dəm nəzər eylə,
Billah, bu qədər qəflətin əncamı yamandır.
Din getdi, vətən getdi, dəyanət unuduldu,
İslamıdan ancaq quru ad qədər iczü rəzalət.
Bica yerə islam adını qoyma yalandır,
İslam olanın elmü kamalı gərək olsun.
Əslafımızın şöhrəti məşhuri-cəhandır.
Türk oğlu, müsəlman balası cahil olarmı?
Billah belə eybi danışmaq xeyri girandır.
Elm ilə, şücaətlə gərəkdir yaşayaq biz,
Fitrət dəyişir, sanma bu qan yenə o qandır.
Quran buyurubdur bizə alim gərək olmaq,
Zənn etmə ki, şair sözdür, bəlkə yalandır.
Qanuni-həyatdır: yaşamaz cahil olan qövm,
Səy eylə oxu, qeyrət elə, qardaş, amandır!

*1912*

## «YOLDAŞIM ÜÇÜN GÖZ YAŞI...»

Getdin, niyə gəlmədin, həbibim?
Ey vah, o nasıl yaman gedişdi.
Atdın vətəni neçün, qəribim,
Arxandan əcəl məgər yetişdi?
Ax, bilməyirəm nə növ qıymış
Qurşunla səni edən kəs itlaf?
İnsanlar, aman, nə zalim imiş!
«Şeytanlar edərdi bəlkə insaf!»
Uçdun, mələkim, neçün yox oldun?
Əflakə apardımı mələklər?
Rəna çiçəyim, nə tezcə soldun?!
Bilməm niyə az yaşar çiçəklər?
Yahu, uzun ömrü yaz deyilmi?
Dərdi-dilimi «olaydı bir dəm
Layiqlicə şərh edə biləydim.
Olsaydı qübari-xatirim kəm,
Bəlkə gözümün yaşın siləydim.
Amma nə edim, bu mümkün olmaz,
Zira səni bir də görməram mən.

Qan ağlasa kaş, könül yorulmaz,
Daim qılaram ölüncə şivən.
Ta sən Bakı qumlarında yatdın,
Şirvanda mən ağlaram hər anda.
Sübh ulduzum, ax, nə tezcə batdın?
Dan ulduzu tez batar çıxanda.
Bir dəm yaşayış çox az deyilmi?!

*1912*

## YAY GECƏSİ

Axşam oldu, gün batdı, şamlar yandı.
Ta səhərdən axşamacan durmadan
Gün altında tər tökərək çalışan
Əkinçilər, biçinçilər uzandı.
Yorğun-arğın hərə bir yanda yatır,

Hər şey sakit, hər yer səssiz-səmirsiz,
Ancaq hünü, milçəklərin vız-vızı
Bu sükutu pozur... Əkinçi qızı
Uykuda bürküdən, milçəkdən girsiz
Qollarını bu yan, o yana atır.

Var bu kənddə yenə elə yoxsullar
Nə cütü var, nə kotanı, nə kəli,
Ölmək istər, yetişməyir əcəli,
Allahpayı dilər, ağlar, zoqquldar,
Axşamacan xırmanları dolaşır.

Ey insanlar, fərz deyilmi bizlərə,
Rəhm eyləmək, əl tutmaq acizlərə?
Onların da var biz kimi ürəyi,
Bir arzusu, bir eşqi, bir diləyi.
Onlar sizdən daha artıq çalışır,
Yaşamaqçın hər zəhmətə alışır.

*1912*

## YAY SƏHƏRİ

Əkinçilər,— yay gecəsiydi kənddə,—
Yorğun, arğın yeni çimir etmişdi.
Arvad, uşaq xırmanlarda, həyətdə
İşdən qurtarmış, uykuya getmişdi.
Birdən xoruzlar hinlərdə banladı,
Qarı nənə sübh olduğun anladı.

Səs eylədi,—oyandı oğlu, əri,
Əsnəyərək qalxdı yataqdan bular,
Çağırdılar nökərləri, rəncbəri,
Oyandılar səsə qohum-qovşular.
Azan səsi gəlir minarələrdən,
Çıxır çölə xəlayiq dərələrdən.

Böyük-kiçik, rəiyyət, xanım, ağa
Yapışdılar hər biri bir peşəyə:
Gəlin gedir inəkləri sağmağa,
Odun gətirməyə nökər meşəyə,
Biri gedib ələf tökür kəllərə,
Biri baxır xırmandakı vəllərə.

Günəş çıxır, dağdan uçur dumanlar,
Həvəslə istinin, tozun içində
Çalışırlar bu bir yığın insanlar
Xırmanlarda, tarlalarda, biçində.
Bu zəhmətlər şərh olunmaz, uzundur,
İnsaniyyət həp bunlara mədyundur.

*1912*

## ƏKİNÇİ NƏĞMƏSİ

Darı, küncüt, arpa, buğda əkməsəm,
İlin üç fəslində zəhmət çəkməsəm,
Ac qalmazmı gözəl, məsum uşaqlar?

Mənsiz kətan, kəndir verməz zəmilər,
Çadırsız, yelkənsiz qalar gəmilər,
Nazik donsuz yayda uşaqlar ağlar.

Suvarmasam, yanar otlar, çiçəklər,
Ac qalanda süd verməsə inəklər,
Nədən olar şor, pendir, yağ, qaymaqlar?

Ot biçməsəm, qırılmazmı qoyunlar?
Hardan olar hasil o vaxtı yunlar?
Qışda nədən olar kürklər, papaqlar?

Əkinçi hər kəsdən artıq çalışar,
Onun əməyilə insanlar yaşar,
Qida verər məxluqata torpaqlar.

*1912*

## QIŞ

Bir az əvvəl sağa-sola uça-uça fırlanan,
Parça-parça qarlar indi yavaş-yavaş düşüyor.
Buruq-buruq bacalardan çıxır tüstü, ağ duman,
Küçələrdə it soyuqdan zingildəyir, üşüyor.
Hərdən külək qalxır, yerdən qarı qapıb sovurur,
Gəlib-gedən insanların üz-gözünü qovurur.

Dağı, daşı qar büsbütün ağ kəfənə bürümüş,
Pəncərənin şüşələri buz bağlayıb donmuşdur.
Dəyirmanın, bulaqların suyu donmuş, qurumuş,
Sərçə, dolaş yem axtarır, qar üstünə qonmuşdur,
Dövlətlilər isti evdə rahat yeyib yatırlar,
Un almağa ac, yanıqlar paltar-palaz satırlar,

Allahpayı diləyəni acıqlanıb söyürlər,
«Allah versin, get, kəsb elə» deyib hər kəs rədd edir.
«Acam, donub ölməkdəyəm» desə qovub döyürlər.
Bir deyən yox fəhləliyə bunlar getmir, kim gedir?
Bu yazıqlar deyilmidir fabriklərdə çalışan,
Lağımlarda külüng çalan, zəhmətlərə alışan?!

*1912*

## ƏHMƏDİN QEYRƏTİ

Fabrikləri, insanları, daş-torpağı qapqara
«Çornı-Qorod» adlı şəhrin fabrikində çalışan,
Gurultuya adət etmiş, partıltıya alışan,
Çoxdan vardı Əhməd adlı bir iranlı biçara.
Qürbət içrə fəhləliklə saxlar idi öz başın,
Həm vətəndə dul anasın, yetim bacı-qardaşın,

Qabarladıb şişirtmişdi əllərini, çiynini,
Ağır, böyük maşınların zəncirləri, zəhməti.
Çalışdıqca əksilməzdi hərkiz onun qeyrəti,
Çox sevərdi vətənini, millətini, dinini.
Bir gün səhər Əhməd gördü əldə qəzetsatanlar —
Bağırırlar: «Alız, baxız, kim, İranda yanğın var».

Qəzetəni alan kimi rəngi-ruyi saraldı.
Gördü yenə yazılmışdır: «İran olmuş viranə»,
Şahi-məxlu Odessadan qayıtmışdır İranə.
Fikrə getdi, qüssəsindən göy başına daraldı.
Birdən-birə sonra qalxıb dedi: «Mən də gedərəm,
Vətənimi xainlərdən müdafiə edərəm».

O gün çıxan paraxodla gəlib çatdı vətənə.
Qış mövsümü, qayət soyuq, yağmurlu bir havada
Gördü ancaq arvad-uşaq qalmış kənddə, obada.
Kişilərin şah qırdırmış qaniçən şahsevənə.
Xanlar, bəylər talan etmiş rəiyyətin yurdunu,
Eyləyirlər mühafizə xain İran qurdunu.

Hər yer viran, səssiz, sanki matəm çökmüş çöllərə..
Vətənini belə görcək qeyrətindən ağladı,
Uğurunda ölmək üçün belin möhkəm bağladı.
Pa-piyada düşdü yola, getsin çatsın ləşkərə.
Taqət kəsən qarlı külək gərçi davam edirdi,
Cəsarətli Əhməd lakin qeyrət ilə gedirdi.

Bir neçə gün yol gedəndən sonra birdən eşitdi
Biyabandan gəlir şeypur səsi, vətən nəğməsi,
Baxdı gördü yürüş edir fədailər dəstəsi.
Al bayrağın təməvvücün görcək sevindi, getdi,
Yavuqlaşıb salam verdi, tüfəng aldı, yanaşdı,
Yorulmadan onlar ilə bir çox qarlı dağ aşdı.

Keçdikləri tarlaları tanıyırdı, bilirdi.
Bir də dönüb baxar ikən öz kəndləri göründü,
Əndamına rəşə duşdu, qəlbi gup-gup döyündü.
Göz yaşını ətəyilə gizlin-gizlin silirdi.
Çox istədi gedib görsün anasını haqlasın,
Qorxdu bəlkə getməyinə mane olub saxlasın.

Gedirdisə Əhməd lakin xeyli pərişan idi.
Bu əsnada şeypur səsin duyub kənddən yüyürdü —
Yol tərəfə bir çox uşaq; Əhməd baxanda gördü
Öz qardaşın, uşaqların arasında tanıdı,
Yavuqlaşıb qardaşıyla qucaqlaşdı, öpüşdü,
«Anamıza salam eylə» — deyib ordan ötuşdu.

Gənc əsgərin könlü bir az rahat oldu; fərdası —
Firuzkuhun civarına gedib yetişdi ordu,
Şahpərəstlər Yefrem xanla olmuşdular rubəru.
O gün səhərdən başlandı yaylım atəş davası.

Yağmur kimi yağan güllə tufanının önündə
Yarpaq kimi duşən vətən qurbanların görəndə.

Qorxdu Əhməd, rəngi qaçdı, tir-tir əsdi əlləri.
Bir az sonra hər tərəfdən verildikdə komanda
Aslan kimi birdən-birə cüratləndi o anda,
Meyitlərin arasından addımladı irəli.
O bir ovuc əsgər o gün altı saat atışdı.
Birdən güllə yağmuruna qar yağmuru qatışdı.

Düşmən topçu atəşilə yürüş etdi irəli,
Gönüllülər çəkilməyə məcbur oldu, Yefrem xan:
«Yoldaşlarım, mən gedirəm, — dedi, — gəliz dalımcan».
Əhməd dedi: «Mən də burda ölüb dönmərəm geri».
Fədailər dilirana ricət etdi dübarə,
Şahpərəstlər şikəst tapıb, üz qoydular fərarə.

O balacan igid Əhməd almamışdı heç yara.
Fəqət hərbin o «səfalı» hənganında bir qurşun
Gəlib dəydi sağ qoluna, etdi onu qərqi-xun,
Bihal oldu, qan apardı yıxıldı torpaqlara...
Bu hal ilə əsrə qədər müharibə uzandı,
Nəticədə fədailər şanlı zəfər qazandı...

Üç ay sonra yaz fəsliydi, gün düşmüşdü çöllərə.
Gənc əsgərin dul anası dizin qucub inlərdi,
Oturmuşdu astanada cavan oğlun bəklərdi.
Gəlib gedəndən sorurdu, göz dikmişdi yollara.
Birdən gördü oğlu gəlir, şadlığından ağladı,
Ana, oğul, bacı-qardaş bir-birin qucaqladı.

*1912*

## YUXU

Zindan kimi, qəbir kimi qaranlıq —
Bir gecəydi, hər şey, hər kəs yatmışdı,
Çulğamışdı hər tərəfi dumanlıq,
Aləm ölüm yuxusuna batmışdı.
Bu zülmətdə mən müztərib, pərişan,
Səsdən, işıqdan axtarırdım nişan.
Birdən-birə bu sakitlik pozuldu,

Oynaşdılar qan yağdıran bulutlar.
Bir fırtına yox, bir qiyamət oldu,
Düşdü şahablar, ildırımlar, odlar...
Mən qorxudan bihuş olub yıxıldım,
Qəş aləmində bir tamaşa qıldım.

Gördüm ki, bir rəna çəmənlikdəyəm,
Dörd yanımda var al-əlvan çiçəklər;
Bənövşəlikdə, yasəmənlikdəyəm,
Könül açır yavaş əsən küləklər.
Uçur, qonur ağaclara bülbüllər,
Əfşan-əfşan durmuş yaşıl sünbüllər.

Fəvvarələr atır, axır bulaqlar,
Yeridiyim yollar parlaq, sədəfli,
Açılmış güllər, göy, yaşıl zanbaqlar,
Bir cənnətdir bu gülşən hər tərəfli
Heyran-heyran bu yerdə seyr edirdim.
Bilməyirdim vəli hara gedirdim.

Yanımda bir pəri gördüm nagahan,
Mənə lütfü nəvazişlər eylədi.
Göstərdi bir tərəfdə bir sayəban:
«Otur burda, bu yer sənindir» — dedi.
Belə deyib qayib oldu nəzərdən,
Mən o bağı seyr edirdim o yerdən.

Hərçənd çox nəşəlidir məskənim,
Yer, göy, ətrafım olmuşdu qərqi-nur.
Nədənsə çırpınırdı könlüm mənim,
Oturmuşdum mən o yerdə bihüzur.
Çox keçmədən heç bilmirəm nə oldu,
Birdən o dadlı mənzərə pozuldu.

Bir zülmətli bulud qopdu şimaldan,
Puç eylədi, dağıtdı ol cənnəti.
Mən oyandım çox dəhşətlə o haldan.
Xatirdəykən o yuxunun ləzzəti,
Durdum gördüm işıqlanıb dan yeri,
De: xeyr olsun bu yuxunun təbiri.

*1912*

## YAY SƏHƏRİ

Od tutub qırmızı ataşla yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngilə işıqlandı üfüq.
Bir qədər çaydan uzaq, od qalamış dağda çoban,
Oyadır öz sürünün otlaya yaylaqda çoban.
Yumuşaq göy çəmənin üstə düşüb şeh gecədən,
İsti yoxdur, hələ var bir balaca meh gecədən.
Ar dumanlar ucalır göy üzünə dağlardan,
Çox sərindir havası, keçmə bu yaylaqlardan.
Gün çıxır, göydə bulut qırmızı rəngə boyanır,
Kəndlilər çox yorulub, uykudan indi oyanır.
Pəyədən mal-qaranı bəzi çıxardır qırağa,
Bəzi səhrayə gedir işləməyə, bəzi bağa.

*1912*

## OĞLUM ÜÇÜN

Mələkim, yavrucuğum, şükr edirəm Allaha,
Rəhm edib sən kimi nemət mənə əhsan etdi.
Qılaram səcdə müdam icz ilə ol dərgaha —
Ki, həyatınla bu gün gönlümü xəndan etdi.
Mən səninlə sevərəm ömrü, həyatı, canı,
Mən səninlə görürəm indi geniş dünyanı.

Səni çoxdan arayıb həsrət ilə bəklərdim,
Sənsiz afaq qaranlıq görünürdü gözümə.
Səndən ötrü çox uzun illər idi inlərdim,
Qəmlərim yox oluyor, sən gülər ikən üzümə.
Mən səninlə sevərəm ömrü, həyatı, canı,
Mən səninlə görürəm indi geniş dünyanı.

1912

## SABİR

Sabir! Ey sən sevimli şairimiz,
Müttədir, duzlu sözlu Sabirimiz!
Necə qan olmasın sınıq gönlum?
Səni çox tez ayırdı bizdən ölüm!
Yox, yox, əsla sən ölmədin, dirilsən,
Ən böyük qəhrəmanların birisən.
Qələminlə, dilinlə, halın ilə,
Köhnələnməz şirin məqalın ilə
Süngülər açmayan yolu açdın,
Qələmindən cəvahirat saçdın.
Zulmü, cəhli, təəssübü yıxdın,

Ucalıb ərşi-davərə çıxdın.
Çəkdin islam yolunda çox zəhmət,
Sən özünçün yaşamadın heç vəqt.
Ağladın millət üçün illərlə,
Acı gülməklə, dadlı dillərlə
Göstərib çarəyi-nicatımızı,
Nəzm qıldın nəvaqisatımızı,
Sevə-sevə bizə oxutdurdun,
Xeyli bidətləri unutdurdun.
Heyf kim, vermədi sənə qiymət
Qəlbdən aşiq olduğun millət.
Artdı gündən-günə qəmü kədərin,
Şişdi, axır vərəmlədi cigərin.
Kədərin toplanıb qübar oldu,
Nazənin cisminə məzar oldu.
Uyu rahət hüzuri-vicdanla,
Mən də ayati-paki-Quranla
Sənə təzim edib səlam edərəm,
Daima ərzi-ehtiram edərəm!

*1913*

## VƏTƏN

Qafqaz qitəsidir mənim vətənim,
Simürğün sayəsində məskənim.
O məmləkətdə mən vüçudə gəldim,
Xalqıma qarşı sücudə gəldim.
O yerdə kim, qara quşu, tərlanı—
Adlanmışdır Qaf dağının sultanı.
O yerdə kim, vardır qalın ormanlar,
Dağlarında gəzir vəhşi çeyranlar.
O yerdə kim, göyün üzü şəffafdır,
Çeşmələri qayət sərindir, safdır.
Səfalıdır latif abü havası,
Ürək açar laciverdi səması.
Bulutlara dəyir uca dağları,
Cənnət guşəsidir gözəl bağları.
Çöllərində bitər əlvan çiçəklər.
Fərəhlənir bütün tutğun ürəklər.
Övladları qeyrətlidir, damarlı,
Şücaətli, hünərli, etibarlı.
Meyvəlidir ormanında ağaclar.
Şaqqıldayır qırqovullar, turaclar.

Cəh-cəh vurar çəməndə bülbülləri,
Meh əsdikcə ətir saçar gülləri.
O yerdə kim, həmişə sərvü şümşad,
Səbzü xürrəm yaşar xəzandan azad.
Hər küncündə bir cür xəzinə yatmış,
Torpağını xaliq qızıl yaratmış.
Camedir hər cürə lətafətləri,
Tamam etmiş həq onda nemətləri.
Gözəl torpaq, gözəl ölkə, gözəl yer!
Dünya üzrə bimislü bibədəl yer!
Bu cür gözəl məmləkəti kim sevməz?
Bunca firavan neməti kim sevməz?
Mən vətəni canım kimi sevərəm,
Ruhum, ətim, qanım kimi sevərəm

*1914*

## ŞAİR, ŞEİR PƏRİSİ VƏ ŞƏHƏRLİ

Səfalı bir mayıs axşamı... Günəşin qürubundan bir az sonra saf, lacivərdi asimana ucalan qürsi-qəmərin əşiəyi-siminі sakin və müəttər bir meşənin kölgəli ağaclarının arasından süzülərək yaşıl çəmənlərin və ən yaxından axan suyun səthini işıqlandırır; suya ən yaxın bir yerdə şair tək-tənha oturub məhtaba qarşı təmaşayi-təbiət edərkən birdən-birə qalxıb deyir:

İllər, aylar gəzirəm boş-boşuna, bikarə,
Laubalı yaşayış etdi məni avarə...
Bilmirəm mən nə üçün bülhəvəsəm, binəngəm,
Öz halımdan özüm, Allah da bilir, diltəngəm.
Bu gözəl mənzərənin seyrinə dalmaqdan isə,
Təkü tənha bu çəmənzardə qalmaqdan isə,
Daha xoşdur gedib öz dərdimə dərman etsəm,
Qəmi-fərdanı düşünsəm, onu saman etsim.

Ayağa durub getmək istədikdə, ildırım təraqələri kimi səslər eşidib ətrafdakılar şairin nəzərində titrər və əhvalı pərişan olur. Bu əsnada yaxınındakı uca dağın təpəsində gözəl bir qız surətində nurani bir kölgə zahir olur. Əlindəki santur deyilən musiqi aləti ilə şairə xitabən:

**Şeir pərisi**

Şairim! Seyr elə ətrafı, təbiət nə gözəl,
Bax mənim hüsnümə, inşad elə bir dadlı qəzəl.

Kölgə şairə yaxınlaşaraq, əlindəki musiqi alətini təqdim edərək deyir:

Al, bu santurumu çal, gəldi bahar əyyamı,
Nəğmə əyyamı, mey əyyamı, xumar əyyamı.
Öp şirin ləblərimi, guşeyi-əbrulərimi,
Sırma geysulərimi, nərgisi-cadulərimi,
Vəcdə gəl, nəğməsəra olmağa ağaz edəlim,
Gəl bərabər üçalım, göylərə pərvaz edəlim.

**Ş a i r**

Sevgilim, eşqü həvəsdən daha mən bizarəm,
İndi bir başqa dilarama pərəstişkarəm.
Ürəyimdə daha yox qönçə dodaqlar dərdi,
Vardır ev dərdi, qadın dərdi, uşaqlar dərdi.
Biri əkmək, biri başmaq, biri paltar diləyir,
Verdiyi qərzi də hər gündə tələbkar diləyir.
Mən bu halətlə necə bir də olum qafiyəsənc?
Get bir asudə adam tap, daha vermə mənə rənc.
Atmışam mən həvəsi, eşqi, daxi dilbəri də,
Səni də, şeiri də, ilhamı da, dəftərləri də.

**Şeir pərisi**

Bəs, a nankor, sənə bəxş eylədiyim təbü hünər?

**Ş a i r**

Səndən ol barədə çox razı idim yoxsa məgər?
Təbi-şeiri mənə verdikdə həvəsnak etdin,
Hüsnə məğlub edərək, könlümü qəmnak etdin.
Görməsəydim səni mən, düşmənə kam olmaz idim.
Uymasaydım sənə, mənfuri-əvam olmaz idim.
Mən də bir tacir olub toplar idim simü zəri,

Xalqca varlığımın onda olardı dəyəri.
Öldüyüm vaxt verərlərdi mənimçin ehsan,
Xalq söylərdi: əcəb adəm idi hacı filan.
Ya ki, bir molla olub soymağa məxluqatı.

Xahişi-nəfslə şərh eylər idim ayatı;
Mənə təzim edərək söylər idi xasü avam:
«Hamiyi-şəri-mübin, naşiri-dini-islam».
Zülfunə lakin o gündən ki, əsir oldum mən,
İştə, bax, müflüsü möhtacü fəqir oldum mən,
Daha yoxdur həvəsim nağmələrə, aşarə,
Yox, bulardan əbədən dərdimə olmaz çarə.
Sənə dildadə olandan bəri bədbəxt oldum,
Tay-tuşum içrə siyəhruzü siyəhbəxt oldum.

### Şeir pərisi

Hankı taledir, a nankor, bu fəna dünyada,
Sənə mən verdiyimə faiq ola mənada?
Mənəvi dürlü məziyyət sənə ənam etdim,
Münkəsir xatirini məhbəti-ilham etdim.
Mən qutardım səni süflani əziyyətlərdən,
Müstəfiz etmədəyəm göydəki nemətlərdən.
Müqtədirsən ucalıb ərşə qədər getməkdə,
Cənnəti, həm də cəhənnəmləri seyr etməkdə.
Olmuşam həmdəmi-ruh istədiyin vaxt sənə,
Sən deyirsən ki, qıyıb verməmişəm bəxt sənə?

### Ş a i r

Bəli! Sən saldın, əzizim, bu yaman hala məni
Həsrət etdin paraya, izzətü iqbala məni.
Tifli-nabaliğ ikən məktəbə etdikdə davam,
Sən təcəlla eləyib qəlbimə qıldın ilham.
Əvvəl asan görünürkən gözümə dərsi-hesab,
Birər əqrəb olub ərqam mənə verdi əzab.
Sonra gündən-günə divanəsər etdin məni sən
Məktəbimdən soyudub dərbədər etdin məni sən.
Dərsi, bəhsi buraxıb, şeirə həvəskar oldum,
Hərzəkar, aşiqi-şuridəvü biar oldum.

Keçdi əyyami-şəbabım, yenə sən çəkmədin əl.
El-ulus tənənə rəğmən oxudum nəğmə, qəzəl.
Hansı bir kəsbə yapışdım ki, yar olsun tale
Sən çıxıb qarşıma hər ləhzədə oldun mane.
Qoca bir millətin amalına qəlbimdə məkan —
Verib, etdin məni azarkəşi-bari-giran.
Sənə məftun olaraq əmrinə təqlid etdim,
Hər fəna işdə müsəlmanları tənqid etdim.
Təlxkam etdi qərəz əhlini şirin süxənim,
Ölkədə get-gedə bədxahlarım artdı mənim.
Bir zaman çıxmadığından dili-naşadımdan,
Döydülər, soydular, əl çəkmədim irşadımdan.
Görmüb islah əsəri surəti-halımda mənim,
Düşmən oldu mənə axırda əyalım da mənim.
İndi xeyrim nədə isə, onu dərk eyləmişəm,
Haydı, yavrum, daha şairliyi tərk eyləmişəm.

## Şeir pərisi

Şairim! Qəm yemə, aləmi-cəhan fanidir,
Cavidani yaşayış ləzzəti-ruhanidir.
Sən mükafatını insanlığa xidmətdə ara,
Əbədi zövqü, təsəllini həqiqətdə ara.
Kölgəyə aldanaraq sevmə cəfa aləminin,
Yüksəl ülviyyətə, seyr eylə səfa aləmini.
Aləmin fani qüyudatına pabənd olma!
Zəhmətindən usanıb eyşinə xürsənd olma!
Uçma alçaqlara, sən tairi-ülviyyətsən,
Qaç əsarətdən əgər aşiqi-hürriyyətsən.
Sən gərək rahi-həqiqətdə cahandan keçəsən,
Xanimandan keçəsən, baş ilə candan keçəsən.
Şair oldur ki, həqiqətlərə dildadə ola,
Şairin fikri, xəyalı gərək azadə ola.
Gəl mənimlə aparım övci-səmavata səni,
Orada nail edim dürlü füyuzata səni.
Orada könlün əlaiqdən olur varəstə,
Sənə təqdim edər əfvaci-mələk güldəstə.
Orada huri pərilərlə edərsən xəndə,
Bəxtiyarlıqla yaşarsan əbədi fərxəndə.

Ş a i r

Ey əzizi-dilü can, ey fərəhi-qəlbi-məlul!
Edərəm işte bu təklifini şükranla qəbul!
Tabeəm indi sana nərya aparsan, gedərəm,
Necə ilham edəsən, öylə təğənni edərəm.
Təк cahanın qutarım möhnətü alamından.
Gəlmişəm təngə məlali-səhərü şamından.
Al məni şəhpərinin üstə, apar balayə,
Oradan ta кi, həqarətlə baxım dünyayə.
Dilrüba nəğmələrim ruha fərəhbəxş olsun,
Ta sözüm sineyi-ərbabi-dilə nəxş olsun.

Şair bu sözləri vəcd və istiğraq halında söyləyərəк bihuşanə yıxılıb hərəкətsiz qalır. Görünməкdə olan bu səmavi sima nəzərdən qaib olur. Şair aşiqanə bir halda mat-məbhut qalmış iкən şəhərli qiyafəsində bir cavan zahir olub, şairə yaxınlaşıb diqqətlə ona baxdıqdan sonra qərib bir təbəssümlə öz-özünə:

Ş ə h ə r l i

Buna bax, gör necə yatmış burada asudə,
Yazmayır, işləməyir, vaxtı itir bihudə.
Bənzi solğun, halı pozğun, hərəкətsiz, məbhut,
Canlı meyyitmi, deyim, ya кi diri bir tabut?

Şair onun sözünü eşidərəк qapanmış olan gözlərini açdıqdan sonra durub oturur və deyir:

Ş a i r

Həm də məcnunsifət, aludeyi-qəm, məsti-qəram,
Bunu da söylə кi, təsvirciyin olsun tam.

Ş ə h ə r l i

Yaxşı təsvirdir, əvət, söylə, nə halətdir bu?
Ölüsən, ya dirisənmi, nə кəsalətdir bu?

Ş a i r

Düşgünəm çox, nə edim?

Şəhərli

Qalx, kişi, aç bir gözünü.
Bulanar könlü bu halda görən olsa üzünü.

Şair

Di buyur, get!

Şəhərli

Utanırsanmı heç ətvarından?
Xəbərin varmı fəna şiveyi-rəftarından?
Belə ciddi və mühüm vəqtdə ərbabi-hünər
Sən kimi atilü batil oturar yoxsa məgər?
Hər kimin qəlbi, ya vicdanı deyildir satılıq,
Hər kimin daş kimi yoxdur ürəyində qatılıq,
Millətin halını gördükdə gərəkdir yansın,
Dərdinə qalmağa daim özünü borc sansın.
Təbi şeirin ki, sənin şöhrət edib dövranə,
Məsiyətdir baxasan bunca qəmə biganə.

Şair

Məndə varmış tutalım, sən dediyin fəzlü hünər,
Mən nə iş yapmalıyammış, ya əlimdən nə gələr?

Şəhərli

Bu nə axmaq danışıqdır, kişi, sən şairsən,
Şil deyilsən ki! Yazıb işləməyə qadirsən.
Tərcüman olmaq üçün giryələrə, xəndələrə,
Salı vermiş səni xəllaqi-cahan bəndələrə.
Qalx, oyan, cürət elə, rəd kimi fəryad et!
Bu fəlakətdə qalan millətinə imdad et!
Görməyirsənmi bu biçarə vətəndaşlarını,
Bacı-qardaşlarını, sevgili dindaşlarını —
Zülm zəncirinin altında çəkir işgəncə?
Eybdir sən uyasan gəncəfəyə, şatrancə.
Gecə bulvarda, klublarda, günüz bağlarda —
İtə vaxtın, bitə ömrün, həp oyuncaqlarda.
Mənfəət verməyi bildikdə, bacardıqda, sənə —
Borc deyilmi edəsən nəfli xidmət vətənə?
Ananın dərdinə övlad şərik olmazmı?
Ananın halı vəxim olsa, oğul solmazmı?
Vətən uğrunda gərək şəxs fədakar olsun,
Boylə mövsümdə yatan kimsələrə ar olsun.

## Ş a i r

Anladım mətləbini, etmə məzəmmət bicə,
O böyük işləri ancaq yapar ərbabi-düha.
Mən zəif qəlbli bir qorxağam, aciz, tənbəl,
Xalqa xoş gəlmək üçün nəzm edərəm nəğmə, qəzəl.
Həm də yazdıqlarımın əksəri namövzundur
Rəbtsiz, həşv zəvaidlə bütün məşhundur.
Hanı məndə o kəyasət, o dərayət, o zəka,
Qoca bir millətə ta qalxıb olam rəhnüma?
Sizcə şairlik, ədiblik, görünür, səhl işdir,
Xeyr, əfkarınız ol barədə çox yanlışdır...

## Ş ə h ə r l i

Demirəm dahi ol, iblağ elə bir tərzi-nəvin,
Yaxud inşad elə söylənməmiş əşari-mətin.
Tərzi-təhrirdə mən söyləmirəm nadirsən,
Deyirəm yazmağa madam ki, sən qadirsən.
Nə gərəkdir yazasan faidəsiz nəğmə, qəzəl,
Yoxmu könlündə məgər gizli, böyük, milli əməl?
İştə öz fikrini ibraz edərək mümtaz ol!
Laəqəl millət ilə naladə həmavaz ol!
Sayılırsan vətən övladlarının bir fərdi,
Vətən, imdadına iştə çağırır hər fərdi.
Ya ər ol, ortaya çıx, gəl kömək et qardaşına,
Ya gedib evdə otur, həm də ləçək sal başına.
Ər-qadın, yaşlı-cavan, zorlu-zəif, şalı-gəda,
Hər kəs etsin gərək imkanı qədər borcun əda.
Şəbi-yeldadə necə kim, ufacıq ulduzlar,
Nur saçmaqla qaranlıq gecəni yaldızlar,
Sən də duzsuz, yaramaz, nasəlis əşarın ilə,
Lakin atəşli, ürəkdən çıxan əfkarın ilə
İldırımlar saçaraq fırtınalar icad et!
Nəzmə çok qəmli təəssürlərini inşad et!

## Ş a i r

Sözlərin haqdır, ayət, zənn edirəm arifsən.
Lakin əhvali-mühitə yəqin az vaqifsən.
Vətənə, millətə sanma deyiləm dildadə,
Yazmaq olmaz fəqət olmazsa qələm azadə.
Həqqə, namusa, nicata, qələmə and olsun,
Ərşə, fərşə, günəşə, sübhi-dəmə ad olsun,
Çox həqiqət mənə təlqin eləyir vicdanım,
Yoxdur ondan birini söyləməyə imkanım.
Danışarkən haqi göydən yetişən buyruqla,
Tıxanıb sözlərim ağzımda qalır yumruqla.
Doğru söz söylədiyim haldə məsul oluram,
Çarəsiz nağmə, qəzəl yazmağa məşğul oluram.
İstərəm qoşmağı, lakin yük ağır, yol da yoxuş,
Necə uçsun qanadı sınmış, əzilmiş bir quş?
Çəkmədən bari-qəmi riştəyi-canım üzülür,
İçdən xuni-cigər yaşlı gözümdən süzülür.
Daha tabavəri-qəm olmadığıy üçün ürəyim,
Dərgəhi-haqdən odur sanki niyazım, diləyim:
Bizlərə səbr, mətanətli ürək etsin əta,
Ta azıb etməyəlim rahi-məhəbbətdə xəta.

*1916*

# UŞAQ ŞEİRLƏRİ

## MƏKTƏB UŞAĞI

İştə bir ayineyi-süni xuda,
İştə bir dahiyeyi-əqlü zaкa.
İştə bir tifləкi-məsumsifat,
İştə bir кudəкi-şirinhərəкat.
Olmuş elmü ədəbə çox mail,
Bir zaman dərsdən olmaz qafil.
Hər sabah uyкudan olcaq bidar,
Dərsi-duşinəsin"eylər"təкrar.
Geyinib məкtəbinin formasını,
Zivəri-duş eləyir çantasını.
İstəyir yaxşı bilə elmi-hesab,
Cəhd edir öyrənə tarixi-кitab.
Gecə-gündüz çalışır mərdanə,
İstəyir sibqət edə əqranə.
Bütün əfalı təaliпərvər.
Bütün amalı məaliкüstər,
Könlünün arizuyi-yeкtası
Vətənü millətinin əhyası.
Fiкrü ziкri bütün əhrarana,
Lövheyi-sinəsi məsumanə.
Zehni ayineyi-rövşən кimi saf,
Çeşmeyi-abi-bəqa təк şəffaf.
A çocuq! Ey şərəfəfzayi-vətən,
Ey güli-gülşəni-rənayi-vətən!
Sən əzizi-vətənü millətsən,
Səməri-nəxleyi-ülviyyətsən.
Oxu, ey bülbüli-şeydayi-vətən!
Ta sənə fəxr edə əbnayi-vətən.
Nəğəmatında var asari-nicat,
Oxu, ey bülbüli-şirinnəğəmat.

*1907*

## ANA VƏ OĞUL

Hər sabah gün кi, saçar aləmə nur,
Danədən ötrü uçar cümlə tüyur,
Quşlar ol dadlı civiltilə oxur.

Aç gözün uyqudan, ey tifli-qəyur,
Yatma bu payədə rahət, a çocuq!
Etmə tənbəlliyi adət, a çocuq!

Gün çıxıb dağü daşa nur səpər,
Hamı dünyada çalışmağı sevər,
Hərə bir səmtə gedər əhli-hünər.
Ana övladına şəfqətlə deyər:
Yatma bu payədə rahət, a çocuq
Etmə tənbəlliyi adət a, çocuq

Yanaşar bəstəri-ətfala ana,
Uyqudan yavrusu istər oyana,
Əyilər ta üzü-üzə dayana,
Çox yavaşca söləyər onda ona:
Yatma bu payədə rahət, a çocuq!
Etmə tənbəlliyi adət, a çocuq!.

O gözəl, sevməli, ol nurlu bəbək,
Uyqusundan oyanar əsnəyərək,
Didə məxmur, özü misli-mələk,
Mədəri onda edər böylə dilək:
Yatma bu payədə rahət, a çocuq!
Etmə tənbəlliyi adət, a çocuq!

Ayıl, oğlum, bu qədər eyləmə xab,
Dur götür qoltuğuna indi kitab,
Məktəbin vaxtı keçir, eylə şitab,
Cəhd elə elm oxu həngami-şəbab,
Yatma bu payədə rahət, a çocuq!
Etmə tənbəlliyi adət, a çocuq!

*1907*

## CÜCƏLƏR

Cücələrim birər-birər,
Suyu görüb yavuq gələr,
İçər, gedər eşələnər.
Yeyər, içər cücələrim,
Doyub qaçar cücələrim.

Cücələrim lümək-lümək,
Qanadları gödək-gödək,
Yem axtarar, tapar yemək,
Yeyər, içər cücələrim,
Doyub qaçar cücələrim.

Gecə dönəndə gündüzə
Cücələrim gəzə-gəzə,
Səhər hindən qaçar düzə,
Yeyər, içər cücələrim,
Doyub qaçar cücələrim.

Cücələrim bəzəklidir,
Bəzəklidir, düzəklidir,
Sarı, çil-çil, hər rənglidir.
Yeyər, içər cücələrim,
Doyub qaçar cücələrim.

*1907*

## QARI VƏ QULLUQÇULARI

Bir qarının bir xoruzu var idi,
Hər gün obaşdandan o banlar idi.
Sübh çox ertə oyanardı qarı,
Durğuzar idi hamı xidmətkarı.
İnciyib axırda o qulluqçular,
Ol xoruzu öldürübən atdılar
Ta ki, kəsilsin səsi, asudəcə,
Bəlkə doyunca yatalar hər gecə.
Çünki qarı bildi bu keyfiyyəti,
Özgə sayaq oldu onun niyyəti.
Sonra gecə olmamış ikən yarı,
Onları bir-bir oyadardı qarı.

*1907*

## QARANQUŞ BALALARI

A quşcuğazlar, nə yaraşıqlısız,
Can kimi bəslənməyə layiqlisiz.
Nədir o istəkli, o heyran baxış,

Nə dadlı cik-cik, nə gözəl çırpınış!
Birdən ucaldı niyə cik-cikləriz.
Pəh-pəh, açılmış sarı dimdikləriz.
A bəxtəvərlər, ananız gəldimi?
Qondu yuva üstünə, dincəldimi?
Görçək onu səslənməyə başladız,
Civiltilərlə əcəb alqışladız.
Yem gətirib yoxsa sizə verməyə,
Ya ki gəlib bir quru dindirməyə?

*1907*

## ATA VƏ OĞUL

Ay dədə, dur get mənə çox şeylər al!
Bir dənə çanta, bir-iki dəftər al!
Mən dayım oğluyla gəlirdim bayaq,
Gördüm o məktəbdə oxur çox uşaq.
Durdum ora pəncərədən baxmağa,
Dərslərinə azca qulaq asmağa.
Dərsləri yetdikdə, dədə, axirə,
Oxudular elliyi birdən-birə.
Hamısının yaxşı tuturdu səsi,
Hər kim ola görsə düşər həvəsi.
Çöldə məni gördü müəllimləri,
Tutdu apardı özü lap içəri.
Xeyli danışdırdı məni, dinlədi,
Sonra nəvazişlə mənə söylədi:
— De səni göndərsin atan məktəbə,
Elm oxuyub ta yetəsən mətləbə.

*1907*

## İT VƏ KÖLGƏSİ

Bir it ağzında bir sümüklə səhər,
Su kənarından eyləyirdi güzər.
Suda öz kölgəsin görüb o zaman,
Sandı bir özgə itdir ol heyvan.
Sümüyü atdı tez o bir yana,
Suya vurdu özün hərisanə,
O iti ta ki, qorxuya salsın,
Bəlkə ağzındakı əti alsın.

Tapmadı bir şey, oldu çox qəmgin,
Həm itirdi nahaq yerə xörəyin.
Kölgəyə uyma, hirsü qəflətdən —
Ta əlin çıxmasın həqiqətdən.

*1907*

## YAZ

O gün ki, fəsli-yaz olar,
Gecə, günüz taraz olar.
Havanın artar istisi,
Daha soyuqluq az olar.
Ərir dağın, çölün qarı,
Axar dərələrə sarı.
Gurultu ilə sel gələr,
Salar sədaya çayları.
Qaranquş ol zaman gələr,
Yenə tikər yuvasını,
Qonar yaşıl ağaclara,
Oxuyur gözəl havasını.

*1907*

## QUŞLAR

Quşlar, quşlar, a quşlar!
Qaranquşlar, a quşlar!
Cəh-cəh vurun burada,
Gah yerdə, gah yuvada.
Qonun bu tək budağa,
Çox getməyin uzağa.
A quşlarım, getməyin,
Məni qəmgin etməyin.
Quşlar, neçin gedirsiz?
Yoxsa ki, seyr edirsiz?
Quşlar uçdu, əkildi,
Vay, səsləri kəsildi.
Bir səs gəlir uzaqdan,
Mən dinlərəm bayaqdan:
Söylər ki, qış yavuqdur,

Sizin yerlər soyuqdur.
Var isticə ölkələr,
Qışda bizə xoş gələr.
Səbr eylə, qoy yaz olsun,
Bir qar, yağış az olsun,
Sovqat gətirər quşlar,
Sizə gözəl mahnılar.

*1908*

## OT BİÇİNİ

Göy çəmənin ətri tutub hər yeri,
Çulğalayıb dağ, dərəni, çölləri.
Əldə biçinçi darağı səfbəsəf,
Ot darayırlar qarılar hər tərəf,
Ot qurusun burda yığarlar şələ,
Yaş otu bir yanda sərərlər hələ.
Kəndlilər əllərdə təmamən yaba,
Arabaya otu yığarlar qaba.
Arabaya ot qalanar, dağ olar,
Kəndlilərin onda kefi çağ olar.
Arabaya at qoşulub gözləyir,
Sanki qaxılmış yerə, tərpənməyir,
Əymə kimi saxlamış ayaqların,
Sallayıban hər iki qulaqların.

*1908*

## TƏNBƏL

Çox yatma, dur, a tənbəl,
Yatsan olar iş əngəl.
Gün dağlara yayıldı,
Hər bir yatan ayıldı.
Yar-yoldaşın səhərlər
Tez məktəbə gedərlər.
Sən çaştədək yatırsan,
Pal-paltarın atırsan.
Xeyrü şərin qan, oğlum,
Öz halına yan, oğlum.
Bir azca himmət eylə,
Bir azca qeyrət eylə.
Hər kim dilər şad olsun,
Getsin çalışqan olsun.

*1908*

## GÜLLƏRİN BƏHSİ

### Q ı z ı l g ü l

Mən şahıyam qönçələrin, güllərin,
Ən gözəl istəklisi bülbüllərin.
Mən hamıdan yaxşı yaraşıqlıyam,
Sevməliyam, ətrə bulaşıqlıyam.
Fəxr edərəm hələtimə, həngimə,
Qırmızı yarpaqlarıma, rəngimə.
Bağı tutar ətri-dəhanım mənim,
Eybi nədir varsa tikanım mənim?!

### A ğ z a n b a q

Əldə mənim ağ qədəhim vardır,
Ağzınadək ətr ilə sərşardır.
Var arıdan ötrü qızıl tək tozum,
Boyda, buxunda da qəşəngəm özüm.
Gərçi uzundursa mənim yarpağım,
Yoxdu yenə lovğalığım, azmağım.
Haf, kəpənək, xırda qarışqa yenə,
Gündə gələrlər, sığınarlar mənə.

### Ş ə b b u

Gər yox isə sevməli rəngim mənim,
Şux deyildirsə də həngim mənim,
Ətrim uzaqdan bürüyür aləmi,
Valehü heyran eləyir adəmi.
Xalq deyər çün hamı şəbbu mənə,
Fəxr üçün, əlbəttə, yetər bu mənə.
Mən ümərələr bağının malıyam,
Güllər arasında tamaşalıyam.

*1908*

## QARIŞQA VƏ MİLÇƏK

Dedi bir gün qarışqaya milçək:
— Sən zirəksən və ya ki, mən zirək?

Hara mən istəsəm uçub gedərəm,
Özümə hər yeri yuva edərəm.
Hər xörək üstünə qonub yeyərəm,
Səndən artıq hünərliyəm deyərəm.
Məni hərgəh ki, qovsalar, qaçaram,
Uçmağa onda qol-qanad açaram.
Qanadım vermiş ixtiyar mənə,
Yoxdur əsla qəmim, nə var mənə?
Xörəyimdir həmişə amadə,
Kim yaşar mən kimi bu dünyadə?
Xabgahım həriri dibadır,
Mənzilim bəzmi-şahü paşadır.
Yoxdur əsla nə hörmətin, nə yerin,
Söylə, aya, nədir sənin hünərin?
Dedi qarışqa: — Kəs daha sözünü,
Bəsdir, az tərif eylə öz-özünü.
Yay günü yığmayanda mayəhtac,
Qış olanda, odur, qalarsan ac,
Çəkərəm yayda mən əgərçi cəfa,
Sürərəm qış zamanı leyk səfa.

İşdən ötrü ki, getmədi tənbəl,
İşinin axırı olar əngəl.
Çəksə hər kim ki, bir qədər zəhmət,
Olar, əlbəttə, aqibət rahət.

*1909*

## AYI VƏ ARILAR

Bir ayının düşdü yolu bir zaman
Bal arısı kəndisinə nagəhan.
Yıxdı yerə kəndini dərhal ayı,
Ta dağıdıb sonra yesin bal, ayı.
Agah olan tək arılar haldan,
Oldular aşiftə bu əhvaldan.
Ol ayını döyməyə bilittifaq —
Eylədilər həmlə hərə bir sayaq.
Gördü fənadır işinin axiri,
Qaçdı o saət ayı ordan geri.

*1909*

## TÜLKÜ VƏ QURD

Tülkü gəzəndə yıxılıb nagəhan,
Bir quyuya düşmüş idi bir zaman.
Torpağa sürtmüşdü üzün, həm gözün,
Qurtara bilməzdi ölümdən özün.
Düşdü qəzadan ora qurdun yolu,
Baxdı ki, görsün quyu boşdur, dolu.
Tülkü onu gördü, salam eylədi,
Ağladı, yalvardı belə söylədi:
— Qurd lələ, səndən edirəm iltimas,
Sən məni bu təhlükədən qıl xilas.
Qurd dedi: — Çox-çox yanıram halına,
Xatirim aşiftədir əhvalına.
Bilmirəm axşam edəcəksən necə?
Sübh açacaqsan nə sayaq bu gecə?
Tülkü dedi: — Çox sağ ol, ey qurd lələ,
Boş danışıqdan nə yetər hasilə?
Sən belə hərgah mənə qəmxar isən,
Halıma rəhmin gəlib ağlar isən,
Bir qədər ip tap mənə qıl iltifat,
Ver mənə bir növ ilə burdan nicat.
Yoxsa ki, etməz quru söz iktifa,
İş gərək olsun, nə əbəs iddia.

*1909*

## TÜLKÜ VƏ MEYMUN

Dedi bir tülküyə bir gün meymun:
— Səndə, yoldaşcığazım, çoxdur yun,
Mən, görürsən ki, nə cür üryanam.
Müstəhəqqi-kərəmü ehsanam.
Tükün əndazədən artıq görünür,
Quyruğun, gör necə, yerlə sürünür.
Elə bir lütfü inayət, tülkü,
İltimasimi icabət, tülkü.
Saxla əvvəl sənə lazım olanı,
Ver mənə sonra o artıq qalanı.
Bürüyüm mən də onunla özümü,
Mərhəmət eylə, qəbul et sözümü.
Söylədi tülkü: —Əbəsdir bu xəyal,

Məndən ol mərhəməti etmə süal.
Quyruğum gərçi uzundur, a кişi,
Var onun кəndinə məxsus işi.
O həmişə süpürür torpağı,
Mənə lazımdır onun olmağı.

*1909*

## AYI VƏ ŞİR

Əlbir olub bir ayı bir şir ilə,
Ovladılar dovşanı tədbir ilə.
Olmadılar razı onu bölməyə,
Çıxdı iş axır ölüb-öldürməyə;
Çeynədilər, dişlədilər, diddilər,
Bir-birini al qana qərq etdilər.
Özlərini taqətdən saldılar,
Hər biri bir səmtə düşüb qaldılar.
Tülкü uzaqdan görüb ol haləti,
Bildi кi, yox heç birinin taqəti.
Gəldi götürdü ovu, etdi fərar,
Həsrət ilə baxdı dalınca bular.

*1909*

## OĞRU VƏ ANASI

Bir məкtəbli oğurladı bir vəqti
Yoldaşının кitabını xəlvəti.
Evlərinə gizlin onu gətirdi,
Öz istəкli anasına yetirdi.
Validəsi oğurluğun anladı,
Yavrusunu nə qarğdı, nə danladı.
Öz tutduğu işdən uşaq xoşlandı,
Bundan sonra oğurluğa dadandı.
Fiкr eylədi: «Nə yoğurdum, nə yapdım,
Əcəb işdir, hazırca кöкə tapdım»
Kəsb etmədi, cib кəsməк adət etdi,
Quldur oldu, ev кəsdi, qarət etdi.
Oğrulara yar oldu, yoldaş oldu,
Quldurlara, qaçaqlara qoşuldu.

Bir iş üstə axır müqəssir oldu,
Divanbəyi hökm eylədi, tutuldu.
Qanun üzrə mühakimə olundu,
Fərman çıxdı, asılsın, hökm oxundu.
Zavallı ta cəzasını dinlədi,
İzn istədi, bir neçə söz söylədi:
— Ay hakimlər, müqəssirəm, doğrudur,
Həqiqətdə mənim anam oğrudur.
Əvvəl dəfə oğurluğa uyarkən,
Yoldaşımdan kitab oğurlayarkən,
Etsə idi anam məni məzəmmət,
Olmaz idim indi bu növ bədbəxt.
Mənə anam belə olmuş müdəbbir,
İnsaf ilə deyin, kimdir müqəssir?

*1909*

## GÜN VƏ KÜLƏK

Bir zaman oldu bir belə qovğa,
Külək ilə gün etdilər dava.
Dedi əvvəl külək: — Edək bir fən,
Mən görək güclüyəm və ya kim, sən?
Gün dedi: — Bax, budur, bu dağda çoban,
Gücünü hər nə varsa eylə əyan;
Hansımız açdırar onun yaxasın,
Bacarıb da çıxartdırar çuxasın,
Deyərik kim, onun gücü çoxdur,
Ona dünya üzündə tay yoxdur.
Külək ol dəmdə bərk əsib qayaya,
Toz qopartdı, güc eylədi çuxaya.
Çuxasın çəkdi ol çoban başına,
Getdi söykəndi bir qaya daşına.
Nə qədər yel soyutdusa havanı,
Çoban artıq büründü bərk çuxanı,
Vermədi bir nəticə tədbiri,
Bəlkə bərəks oldu təsiri.
Günə növbət çatan kimi o zaman,
Vasəti-asimanda oldu əyan.
Belə bir isti torpağa saldı,

Alışıb yanmağa çöl az qaldı.
Çobana isti güc gəlib o zaman
Çuxasın, paltarın çıxartdı haman,
Yel çalışdı nə qədr qurdu kələk,
Yenə axırda oldu gün zirək.
Güc və zor ilə heç bir iş aşmaz,
İş əlində həlim olan çaşmaz.

*1909*

## SƏRÇƏ VƏ QIRĞI

Sərçəni bir qırğı edərkən şikar,
Bir tələyə oldu qəzadan düçar.
Cütçü görüb tutdu onu ol zaman,
Qırğı gəlib naləyə etdi fəğan,
Söylədi: «Rəhm eylə, məni qıl xilas,
İcz ilə səndən edirəm iltimas.
İstər idim ovlamağa sərçəni,
Sən niyə nahaq yerə tutdun məni?
Verməmişəm mən ki, xəsarət sənə,
Sən də dəxi vermə əziyyət mənə».
Cütçü baba böylə deyib qeyznak,
Eylədi ol, qırğını ol dəm həlak.

Xalq ilə hər kəs necə rəftar edər,
Haqq onu ol dərdə giriftar edər.
Yaxşılığa yaxşı cəzalar alar,
Pisliyə həm dürlü əzalar alar.
Səy elə əxlaqını qıl xubtər,
Xülqi-Həsən sahibi ol, ey pəsər.

*1909*

## ULAQ VƏ ASLAN

Bir xoruz ilə bir zaman eşşək
Kənd içində gəzirdilər tək-tək.
Nagahan gördülər ki, bir aslan
Üz qoyub kənd sarı gəlir qərran.
Qorxudan saldılar xüruşü səda,

Bir-birə dəydi kəttavü koxa.
Vəzü övzaı çünki gördü yaman,
Qayıdıb qaçdı çöl sarı aslan.
Belə görcək ulağ güman etdi:
«Qorxdu məndən bu şir, qaçıb getdi».
Daha şövqündən olmadı rahət,
Elədi şiri qovmağa cürət.
Qayıdıb şir baxdı məstanə,
Gördü eşşək gəlir dilirana.
Güldü bir qədr onun səfahətinə,
Dərkinə, fəhminə, fərasətinə.
Tutdu yıxdı yerə o nadanı,
Yırtdı, cırdı, dağıtdı heyvanı.
Dirilikdən olan zaman məyus,
Anlayıb eşşək eylədi əfsus:
— Gücümü mən bilə-bilə nahaq,
Şirə qıldım hücum mən əhməq.
Mən bilirdim bu aslanın hünərin,
Çəkirəm indi səhvimin zərərin.

*1909*

## İLK BAHAR

Gəldi martın doqquzu,
Bayram etdik novruzu
Qar əridi, yox oldu,
Çaylarda su çox oldu.
Dağlar, çöllər dişərdi,
Novruz gülü göyərdi.
Gecə-gündüz tənləşir,
Hava hərdən çənləşir,
Dağa qalxır dumanlar,
Tez-tez yağır neysanlar.
Yüngül, sərin meh əsir,
Yağmuru birdən kəsir.
Aralanır bulutlar,
Təravətlənir otlar.
Düşür günün ziyası,
Artır yazın səfası.
Göy üzündə bir qəşəng
Tağ görünür yeddi rəng.
Gözəl qövsi-qüzehlər,

Qəlbə verir fərəhlər.
Quşlar ötür çöllərdə,
Ördək üzür göllərdə.
Əsir isti küləklər,
Uçur qazlar, ördəklər.
Yarpaqlanır ağaclar,
Yaşıllanır yamaclar.
Seyrə çıxır uşaqlar,
Göy çəməndə oynaqlar.

*1912*

## İKİ UŞAQ

Yoldaşına bir uşaq
Dedi: —Dur gəl oynayaq.
Oynamağın vaxtıdır,
Qızıl gülün taxtıdır.
Qızıl gülü əkərlər,
Misqal ilə çəkərlər.
Gedək görək uşaqlar
Bağda nə cür oynaqlar.
Yoldaş dedi: — Qardaşım,
Dinmə, ağrıyır başım.
Açılsa gül, olsa yaz,
Mənim gönlüm açılmaz:
Mən dərsimi bilmirəm,
Oynamağı neylirəm.
Buna dedi o birsi:
— Bu gün qoy qalsın dərsi,
İndi hələ gəl gedək,
Bağda gəzib seyr edək.
Ertə durarsan səhər,
Dərsi edərsən əzbər.
Yoldaşı verdi cavab:
— Danışma bəd-bihesab,
Sübhə bu günkü kişi,
Qoymaz ağıllı kişi.
Dərsimi hazırlaram,
Sonra gedib oynaram.

*1912*

## KÖÇ

Səhər-səhər yaz çağı,
Köçür oba yaylağa.
Gəlinlərin balağı,
Batır lilə, batdağa.

Arvad, kişi, oğlan, qız,
Gön çarıqlı, başmaqlı,
Gedir qoruq-qaytaqsız,
Gəlin, qızlar yaşmaqlı.

Qoyun, quzu, at, eşşək,
Salmış çölə qalmaqal,
Dəvə, maya, nər, köşək,
Lökləyirlər dalbadal.

Kişi əlində çomaq,
Sürür yüklü öküzü.
Dəvə üstə bir uşaq
Çox oxuyur bu sözü:

«Ağ dəvə alçaq gedər,
Qolunda qolçaq gedər.
Ağ dəvənin gözləri,
Yerə dəyər dizləri.
Endi çaya yuh-yuh,
Ağca maya yuh-yuh».

*1912*

## ANA VƏ BALA

Oturmuş ana,
Basmış bağrına —
Nazlı körpəsin,
Layla der ona.

Uşaq yatmayır,
Baxır, ağlayır,
Anası onu
Bu cür oxşayır:

«Dağda darılar,
Sünbülü sarılar,
Qoca qarılar,
Bu balama qurban.

Bir bölük atlar,
Atlar göy otlar,
Ərsiz arvadlar,
Bu balama qurban.

*1912*

## İKİ DANA

Getmişdi bir cüt dana,
Otlamağa bir yana.
Naxırdan ayrıldılar,
Bir dərədə qaldılar.
Axşam olanda biri,
İstədi dönsün geri,
Yoldaşın dümsüklədi,
Bu cür ona söylədi:
— Ay dana, dana, dur gedək,
Qarnını doldur gedək.
Yoldaşı verdi cavab:
— Etmə, canım, iztirab,
Tələsmə çox, ertədir.
Eşitdikdə bu sözü
Kəndə qayıtdı özü.
O birsi orda yatdı,
Qurd da gəlib dağıtdı.
Yoldaşı gəldi səhər,
Ta ondan tutsun xəbər.
Gördü ki, o can verir,
Rəhmi gəlib dindirir:
— Ay dana, dana dartadır.
— Dindirmə, dərdim artadır.
— Mən sənə dedim gəl gedək,
Sən niyə dedin ertədir?

*1912*

## MƏKTƏB ŞAGİRDİ

İştə bir tərbiyəli, aqil uşaq,
İştə bir zirək, ayıq, kamil uşaq.
Geyinib məktəbinin formasını,
Götürüb qoltuğuna çantasını,
Məktəbə şövqi-tamam ilə gedir,
Keçməsin vaxtı deyə sürət edir.
Gecə-gündüz çalışır mərdanə,
İstəyir sibqət edə əqranə.
Könlünün arizuyi-yektası:
Vətənü millətinin ehyası.
A çocuq, get, sənə haq yar olsun,
Cümlə halında mədədkar olsun.
Elm təhsili əziyyətli isə,
Qışda yol getməyi zəhmətli isə,
Qorxma, qeyrətlə çalış, əlbəttə,
Biləcəksən, oxusan tez vəqtdə —
Ki, cahan içrə böyük insanlar,
Nə qədər zəhmətə düşmüş onlar.
Sinfi-ədadini təhsil eylə,
Məktəbi-alidə təhsil eylə.
Səy elə, sən də böyük insan ol,
Doğruluqda bu ada şayan ol!
Qoy cahan elm ilə pürnur olsun,
Vətən o sayədə məmur olsun.

*1912*

## AŞPAZ VƏ PİŞİK

Keçmiş əyyamda, köhnə dövranda
Bir böyük padişahın İranda,
Bir nəfər kamil aşpazı var idi,
Təbx işində ziyadə pərkar idi.
Bişirərdi gözəl fisincanlar,
Hazır eylərdi dürlü büryanlar.
Dadlı-dadlı, lətif müsəmmalar,
İştaha artıran mürəbbalar,
Leyk mətbəx pişikləri hər vəqt,
Yazıq aşpaz edən kimi qəflət,

İttifaq eyləyib cumarlar idi,
Ətdən, aşdan qapıb qaçarlar idi.
Aşpazın təlx olardı övqatı,
Xərci artıb itərdi zəhməti.
Darıxıb lusquda çəkirdi keşik,
Rastına düşsə idi hansı pişik,
Fikri ondaydı kim, vurub yıxsın,
Onları öldürüb əvəz çıxsın.

Vardı ormanda bir qanan meymun.
Çox fərasətli, kardan meymun,
Düşdü təşvişə, yapdı bir şura,
Yığdı meymunları, dedi guya:
— Cümlə qəflətdəsiz, a qardaşlar!
Başımızda böyük fəlakət var.
Padşah aşpazı gəlib qəzəbə,
Etmək istər pişiklərə qələbə.
Olacaqdır müharibə burada,
Qorxuram biz tələf olaq arada.
Yetməmişkən bizə bu işdə zərər,
Edəlim başqa bir diyara səfər.
Dedilər: — Ay qoca, zəifləmisən,
Çaşıb aqlin, yazıq, xəriflәmisən.
Biz hara, padşah sarayı hara,
Biz hara, cəng, təbl, nay hara?
Yaxşı fikr et bir, ay canım, sən özün,
Bizə aya nə dəxli var bu sözün?
İstər aşpaz pişiklə cəng etsin,
Bizə ondan neçün ziyan yetsin?
Hansı aqil edər buna bavər —
Ki, yetər bizlərə bu işdə zərər?
Qoca meymun çox eylədi israr,
Sözünə heç kəs etmədi iqrar.
Gördü şey çıxmayır mübahisədən,
Qorxduğuy üçün o qanlı hadisədən,
Özü yalqızca etdi tərki-vətən,
Başqa ormanda eylədi məskən.
Aşpaz isə gəlib daha təngə,
Hazır olmuşdu ol zaman cəngə:
Bişirib yığmış idi yağlı pilov,

Mürği-turş, dolma, küftə, şorba, çilov,
Doldurub düzmüş idi nimçələri,
Bəzəmək istəyirdi xönçələri —
Ki, qəfildən pişiklər etdi yürüş,
Getdi talana mürği-turşü xuruş.
Qaçdılar dişra, çəkdilər mirrov.
Qapdı aşpaz yanar bir odlu kösöv.
Birin öldürdü, qoymadı dəbərə.
Birisin damda vurdu, saldı yerə,
Birinin arxasınca silbələdi,
Filhəqiqət olarla cəng elədi.
Lakin od düşdü, dam-dirək yandı,
Padişahlıq, təvilə odlandı.
Gərçi sevdürdü yanğını hüzzar,
Heyf, yanmışdı bir neçə atlar.
Yığdı baytarları o dəm soltan,
Dedi:— Tez atlara edin dərman!
Ərz qıldı tamam baytarlar:
— Şahım, at yansa bircə dərmanı var.
Xeyli meymun yağı gərək buluna —
Ki, yanan atlara əlac oluna.
Soltan əmr etdi, ləşgər atlandı.
Çıxdı fərman, sərəsgər atlandı.
Pəhlivanlar götürdü tirü kaman,
Oldu fövrən mühasirə orman.
Dörd tərəfdən atıldı qurşunlar,
Güllədaran olundu meymunlar.
Qoşun öldürdü onları yeksər,
Qaçıb ancaq qutardı bircə nəfər.
O da artıq əzabü zəhmət ilə,
Min bəlalarla, min əziyyət ilə,
Ol qoca meymuna gedib çatdı,
Surəti-macəranı anlatdı.
Ağlaşıb oldularsa çox qəmgin,
Qoca sonra ona verib təskin,
Söylədi:—Baxmayan böyük sözünə,
Şübhə yoxdur, ziyan vurar özünə.

*1913*

## BİR MƏKTƏBDƏ İMTAHAN

İmtahan məclisi qurulmuşdur,
Zalda sкamyalar qoyulmuşdur
Bir-birindən beş-altı arşın uzaq,
Hər bir sкamya üzrə təк bir uşaq,
Nəzmü tərtib ilə oturmuşlar,
İmtahançın siyahi tutmuşlar.
Bunların qarşısında azca кənar
Yaşıl örtüкlü bir böyüк miz var.
Üzvi-məxsus olan müəllimlər,
Həp oturmuş nizam ilə yeкsər.
Qapılar örtülüb qalanmışdır,
Arxasında noкər dayanmışdır.
Qeyz ilə durmuş ortalıqda müdir,
İmtahan yazısın edir təqdir.
Rəd təк gurlayan zamanda səsi,
Çıxmayır, san, çocuqların nəfəsi,
Hamının qarşıda qələm-кağızı,
Qurumuşdur yazıqların boğazı.
Əsəbilikdən işte bəzi çaşır,
Əlləri titrəyir, dili dolaşır,
Bəzinin qorxudan gözü qaralır,
Ürəyi çırpınır, üzü saralır.
Bəzi tutmuş iкi əlilə başın,
Fiкrə dalmış, unutmuş arкadaşın.
Özünə yoldaşın görüb üsкün,
Bəzi olmuş həyatına кüsкün.
Gah mudirin acıqlı qaşqabağı
O sayaq qorxudub yazıq uşağı —
Ki, yazıq büsbütün itirmiş özün,
Yazmağa tapmayır dünənкi sözün.
Ayrı-ayrı hərə кitabət edir,
Xacələr onlara nəzarət edir.
Hansı şagirddə varsa istedad,
Fiкrə piçidədir, yazır dilşad;
Hansı şagirddə кim bətaət var,
Surətində qəribə halət var,
Yarü yoldaşlarından ar edəcəк,

Bəlкə axırda intəhar edəcəк.
Bu sayaq кəsbi-elmə rağib iкən,
Bu sayaq xacələr məvazib iкən,
Tifli-məsumlar imtahan tutdu,
Başlarında biliк məкan tutdu.
Aldılarsa qızıl nişanlarını,
Heyf bilməzlər öz lisanlarını.
Əcnəbi dillərində çox mahir,
Öz lisanında dilləri qasir.
Atalar çoxları əvamünnas,
Öz yanında edir bu növ qiyas:
«Öz dilindən heç olmasın xəbəri,
Onu bilməкliyin nədir səməri?»
Öz dilin, bilməmiş yarım-yamalaq,
Tərbiət alsa əcnəbidən uşaq,
Hissi-milliyyət onda bitməzmi?
Adı dünya üzündə itməzmi?

*1913*

# HEKAYƏLƏR

# CƏRRAHLIQ

*A.P.Çexova nəzirə.*

Dəllək dükanıdır. Dükanın içərisindəki sağ tərəfdə olan şirəli səkinin üstünə salınmış yırtıq həsirin üzərində başıaçıq oturan müştərinin üstünə qırmızı, çirkli fitə salınmış; qabağında başı keçəl balaca şagird ovuc ilə tasdan su götürüb müştərinin təpəsindən tökür və boynuna, boğazına calanırkən onun başını isladır.

Sol tərəfdəki səkinin üstündə palçıq manqalı kənarında qoyulmuş iki balaca tasda isti su buğlanır.

Dəllək şagirdi hərdən burnunu ətəyinə silib başını qaşıyarkən, müştərinin başını ovmaqda idi. Ustası dəllək Məşədi Əsgər bir örü aşağa, bir örü yuxarı geydiyi tara qədək arxalığının döşü və ətəkləri çirkdən qara meşin kimi işıldayır, sürtülüb yırtılmış ciblərinin ağzı sadır bağlamış; belindəki kisəbəndinin yarısı yeyilmiş qayışının üzərinə hərdən ülkücü savlayıb sürtür və ağzındakı demi çubuğunun tüstüsünü dodağının küncündən püskürərək havada dumanladır. Bu halda motalpapaq, şal çuxalı, uzun boylu, çalsaqqal bir kişi qapıdan içəri girib salam verir. Sonra çirkli, qara səpkili ağ dəsmal ilə bağladığı sağ gözünün üstünə əlini qoyub, sol sipalaq gözü ilə oyan-buyana baxıb:

— Usta buradadırmı? — deyə soruşur.

Usta Əsgər demi çubuğunu əlinə alıb əsnəyəndən sonra:

— Aha, xoş gördük, a Molla Eyvaz dayı, nə əcəb səndən? Nə qulluğun var?

— Şükr olsun, ay usta. Ömrünə duaçı varam.

Əlindəki xurcunu səkinin üstünə qoyub ayaq üstündə durduğu halda:

— Ancaq, canına sağlıq, bir neçə gündür ki, dişim ağrıyır. Nə çay içə bilirəm, nə çörək yeyə bilirəm, nüzlə duası da yazdırdım, yenə toxtamadı. Bilmirəm bu necə dərddir? Ox... ox.. Belə sızıldayır ki, elə bil qulağımın içinə mıx çaxılır. Lap beynimin içi də lükküldəyir. Az qalır başım partlasın. İnan ki, namusuma qısılıb ağlamıram. A kişi, bu çayı binə qoyanın Allah evini yıxsın. Bundan irəli yüz yaşında kişilərin ağzındakı dişləri sədəf kimi idi. Bu çay zəhirmar bədənimizin axırına çıxdı.

Usta Əsgər:

— Gözünə nə olub, a kişi, bağlamışsan?

— A kişi, bu dişim zəhirmar sancdığına görə bağlamışam. Yoxsa gözüm ağrımır.

Usta Əsgər:

— Dəsmalı aç, bir baxım görüm.

Molla Eyvaz:

— Vah, vah, dişim elə sancır, elə sancır ki, ürəyimin başı zoqquldayır. Ağzımı aça bilmirəm, danışa bilmirəm. Üz-gözüm də şişib, gecələr səhərəcən yata bilmirəm

Usta:

— Zərəri yoxdu, otur, aç ağzını görüm.

Molla Eyvaz oturub dəsmalı açandan sonra ağzını aralayır. Usta Əsgər də başını əyib onun ağzına baxır. İllərdən bəri tənbəki tüstüsündən saralmış dişlərin arasında palasa bağlamış çirkli bir çürük diş görünür.

Molla Eyvaz:

— Nə qədər ağzıma sumaq tutmuşam, nə qədər təzək tüstüsü vermişəm, dincəlməmişəm. Üzdən iraq, erməni Melkumdan da diş dərmanı alıb qoydum, heç bir köməklik eləmədi. Bilmirəm bu necə dərddir məni tapdı? Allaha pənah, orucluq da gəldi çatdı. Daha heç dava-dərman eləmək olmaz.

Usta Əsgər (bir qədər dayanandan sonra):

— Molla dayı, gərək dişin çəkilsin?

—Sən yaxşı bilirsən, nə ərz edim, hər nə eləməlisən elə; ancaq bircə dincəlim... Allah ömür versin, Allah səni əskik eləməsin. Mən gecə-gündüz sənə duaçı varam.

Usta Əsgər

— O nəmənədir? Mənim əlimdə su içməkdən də asandır, — deyib köhnə bir fitəyə bükülmüş karastıların içindən bir kəlbətin çıxardır. — Cərrah deyəndə çətin bir şey deyil, ancaq adət lazımdır. Əl gərək əsməsin, vəssalam!.. Odur, srağa gün Marağalıoğlu Hacı Bəydəmirin də dişi ağrıyırdı. Kişi İran sövdəgəri, çiynində kabili kürk, ayağında sağrı başmaq. Bir dəqiqədə dişini çəkdim, qurtardı getdi. A kişi, zarafat deyil, sümük sındırmışam, bunları öyrənincə qat-qat qabıq qoymuşam. Mənim əlimdən hər şey gəlir. Qol qanı almaq, məlazə cərtmək, dilaltı qanı almaq... Bunlar sənə zarafat gəlməsin; gərək biləsən ki, qeyfal qanı hansıdır, oseylim hansıdır, əkhəl hansıdır. Qaldı diş çəkmək, diş çəkmək mənim əlimdə su içməkdən də asandır. Bu saat çəkərəm. Yoxsa hər dana-dolaq, cana-cuna adamın işi deyil. Elə diş var kəlbətin ilə çəkərlər, eləsi var maşın ilə çəkilir, eləsi də var ki, qarmaq ilə çəkilir. Onların yerini bilmək lazımdır.

Usta Əsgər kəlbətini ətəyinin ucuna siləndən sonra istifham halətilə ona baxıb yerə qoyur, sonra maşını götürür:

— Hə, aç ağzını, çox arala! — deyib Molla Eyvaza tərəf yönəlir. — Bu saat çəkərəm qurtarar gedər. Bu üç püskəli dişdir; gərək bıça-

ğın ucu ilə azaçıq ətini aralayım, vəssalam, qurtardı getdi.

Dişin ətini кəsir.

—Hə, çətini bu idi.

Molla Eyvaz:

— Nə deyim, Allah sənə кoməк olsun. Nə acəb, кişi sən varsanmış. Yoxsa bu camaat batıb qırılardı.. Allah sənə ömür versin.

Usta Əsgər:

— Bax, tərpənmə, ancaq ağzını yaxşı arala.

Kəlbətini götürüb ağzına aparır:

— Dayan, dayan, tərpənmə, bir azacıq davam elə, bu saat qurtarım. — Zor ilə dişi çəкir. — Ancaq söz burasındadır кi, azı dişdir. Özü də üç püsкəli.

Gərəк кötüyü sınıb içəridə qalmasın. — Çəкir.

Molla Eyvaz:

— Vay dədəm vay! Ox, ox, ox...

Usta Əsgər:

—Dayan, dayan, bu saat qurtarım, əlimə yapışma, əlimi burax. Çəкir.

Molla Eyvaz:

—Vay, nənə vay! Vay, baba vay! A кişi çəк çıxsın, daha nə uzadırsan.

Usta Əsgər:

— Sənə zarafatmı gəlir, bu cərrahlıqdır a!.. Birdən olmaz. Budur, budur az qalıb.

Molla Eyvaz ayaqlarını dizlərinə qədər qalxızıb titrədiyi halda surəti boğumtul, qara-qırmızı rəng alır, tər üzündən damcılayır, töyşüyə-töyşüyə nəfəs alır.

Usta Əsgər isə var gücü ilə qollarını tərpədib çəкməyə çalışır... Qayət əziyyətli bir dəqiqə кeçəndən sonra кəlbətin şaqqıltı ilə dişi sındırıb Molla Eyvazın ağzından bayıra atılır. Molla Eyvaz dişi çəкilib qurtarmış zənn edərкən, barmağını ağzına aparır. Laкin dişinin sınmış olduğunu hiss etdiкdə:

— Çəкdin? Bu sənin gördüyün iş!.. Canına dəysin.

Ağlar və istehzaкaranə bir səslə:

— Allah yaman gündən saxlamasın. Elə qabiliyyətin bu imiş? Canım, bir işi bacarmırsan, daha nə üçün boynuna çəкirsən? A кişi, sən məni öldürdün кi... Gözümün qabağı qaranlıq gətirir.

Usta Əsgər:

— Sən nə üçün əlimi tutursan? — Acıqlı bir halda: — Mən çəкirəm, sən mənim dirsəyimin altından vurursan, nə bilim nə oyun çıxardırsan. Qoydun məgər bir görüm mən nə qayırıram.

Molla Eyvaz:

— Sən salmısan zırpılığına, daha ona mən nə qayırım. Bir qələti eləyə bilmirsən, daha nə boş danışırsan.

Usta Əsgər acıqlı bir halda:

— Qələt də elə, daha uzun danışma, aç ağzını görüm. Öyrənmisiniz havayı yeməyə. Bu ölü halvası deyil ki, damağını şaqqılda-da-şaqqıldada yeyəsən. —Molla Eyvazı yamsılayaraq — «başarmırsan, başarmırsan». Buyurun, indi bu mənə öyrədəcək; başından böyük danışmağına bax. Marağalı Bəydəmirin sənin ağırda əskinası var, dişini çəkdim, heç uf da demədi... Min dəfə üst-başı səninkindən təmizdir. Heç əlimə də yapışmadı. Otur, ağzını aç görüm, məni mətəl eləmə.

Molla Eyvaz:

— A kişi, başım gicəlir, qoy bir nəfəsimi dərim a... — Oturur. — Uzun dartma, bir dəfə çək çıxsın, müxtəsər elə.

Usta Əsgər:

— İndi bu mənə öyrədəcək. Allahın lənətinə gələsən, kor şeytan ha. Aç ağzını! — Kəlbətini salır. — Bu cərrahlıqdır a... Sənə zarafat gəlirmi yoxsa? — Qollarını tərpədib çəkir. — Tərpənmə, az qalıb çıxsın, kötüyü lap dərindədir.— Çəkir.— Başını tərpətmə. Hə, belə, belə. Bir azacıq dayan, ha.—Xırçıltı səsi eşidilir. — Daha indi qurtarar.

Molla Eyvaz ölü kimi hərəkətsiz oturub, gözləri bərəlib dukanın səqfinə dikilmiş, rəngi-ruyu ağarıb, üzündən tər axır.

Usta Əsgər:

— Ax, kiçik kəlbətin burada olsaydı, nə yaxşı olardı.

Bu halda kəlbətin dişi buraxıb Molla Eyvazın ağzından bayıra atılır. Molla Eyvaz nəfəsini alandan sonra tez barmağını ağzına soxub ağrıyan dişinin əvəzində başqa bir dişinin çəkilib laxlamağını görərkən:

— Tfu! Boynunu Allah sındırsın! Canım, sən meşədən tutulmamışsan, ayı deyilsən ki... Ağrıyan dişi qoyub başqasını nə üçün çəkib laxladırsan? Allah kəssin qabiliyyətini!

Usta Əsgər:

— Ağzıbaşına danışma, yekəbaş! Bunun sir-sifətinə bax, başından böyük danışmağına bax! Marağalı oğlu hacı Bəydəmir böyük tacir, neçə illər İranda olmuş, ağıllı adam, hacı kişi, kabili kürkü yüz manata dəyər, o bir kəlmə artıq-əskik danışmadı... Amma bu məni gör necə danlayır.

Molla Eyvaz səkinin üstünə qoyduğu xurcunu götürüb, əlini üzünə qoyduğu halda mırıldaya-mırıldaya qapıdan çıxıb getdi.

*1915*

# BƏDBƏXT AİLƏ

Kars və Ərdahandan qaçıb qurtarmış bir dəstə ac-yalavac, çıl-çılpaq arvad-uşaqlar Tiflisdə müsəlmanlar məhəlləsinin küçələrində səfil-sərgərdan qalmışdılar. O cümlədən beli bükülmüş ağsaqqal həmid adlı bir kişi, qoca bir arvad ilə küçənin bir tərəfində, quru torpaq üstündə oturub onbeş yaşında xəstə bir oğlan uşağının başını dizi üstünə almışdı. Qoca arvad daima xəstə çocuğun üzünə baxarkən gözlərindən axan qanlı, odlu yaşı başındakı yırtıq köhnə şal ilə silirdi.

Xəstə çocuq bənzi saralmış, qızdırmadan ləhləyirdi. Tez-tez kəsik-kəsik nəfəs alırkən çox-çox öksürürdü. Dodaqları quruyub, üzünün tənələri incəlmişdi. Bihuşluq halında düşmüş xəstə titrək, zəif səslə:

— Ay nənə, bir az su — deyə bulanıq, solğun gözlərini açıb yenə də qapadı. Qoca kişi dərindən bir ah çəkib sakitanə ağlarkən ayağa durdu, yaxındakı qapını açıb su istədi. Dərhal Müslümbəy adlı uzunboylu, xoş simalı bir cavan su gətirib o kişiyə verdi. Qoca kişi suyu alıb xeyir-dua edərkən nəvəsinin yanına gəldi.

— Bala, su gətirmişəm, al iç, — deyə uşaqın başını əlilə qaldırdı.

Xəstə çocuq titrək, arıq əlini uzadıb su qabına yapışdı və bihiss bir halda sudan bir neçə udum içdisə də, peydər-pey öskürək onu lap dildən saldı.

Müslümbəy bu heyndə qapının ağzında dayanıb onların bu fəlakətli halına baxırdı. Qoca kişiyə xitabən:

— Əmi, bu uşaq sənin nəyindir, oğlundurmu?—deyə sual etdi.

Həmid kişi yenə bir ah çəkib:

— Qardaş, bu uşaq mənim nəvəmdir, oğlanlarımı öldürdülər, qızlarımı, gəlinlərimi əsir apardılar. Mən başıbəlalı ancaq bu uşaqcığı bir noilə götürüb qaçmışam. O da yolda bu noilə xəstələndi... Şükür Allahın kəreminə!—deyib də ağlamaq boğazını tutub sakit oldu.

Müslümbəy nəhayətdə bu sözdən qəmləndi. Daha bir söz deməyib evinə qayıtdı. Bir qədərdən sonra küçəyə çıxıb:

— A kişi, əmi! Uşağı evə gətiriniz! — dedi.

Müslümbəyin bu məhəbbətindən fəlakətzədə ailənin üzündə şadlıq əsarı göründü. Müslümbəyə xeyir-dualar edərək, xəstəni içəri apardılar.

Müslümbəy onlara mənzil verib rahat elədikdən sonra;

— Mən gedib uşaq üçün həkim gətirim, — deyə onlara təsəlli verdi.

Bir o qədər keçməmişdi ki, xəz paltolu, qara şlyapalı, çalsaqqal bir doktor Müslümbəy ilə bərabər içəriyə daxil oldu. Xəstəni müayinə edib nüsxə yazdıqdan sonra, dışarı çıxıb getmək istədi. Həmid kişi doktorun əqəbincə gəlib onun ayaqlarına yıxıldı. Onun ölü rəngində olan uçuq bənzində qorxu əlaməti müşahidə olunarkən:

— Cənab doktor, səhhət ümidi varmı? — deyə müntəzirane halətlə sual etdi.

Doktor:

— Xeyr, onun işi müalicədən keçib, — deyə çiyinlərini oynatdı. Sonra başını aşağı dikib mütəkəbbirane bir halətlə faytona tərəf yollandı. Qoca kişi:

— Doktor əfəndim! Allah xatirinə, əgər mümkünsə müzayiqə etmə. Bir böyük külfətdən bircə buna göz dikmişəm, — deyə qorxulu bir əda ilə doktorun önünə keçdi.

Doktor dayanıb fikrə getdikdən sonra:

— Hələ bu dərmanı veriniz baxalım necə olur? Fəqət... — deyə sözün axırını söyləməyib mütəəssifanə bir əda ilə əlini tərpətdi, sonra Müslümbəylə xudahafiz edib faytona əyləşdi.

Sevgili nişanəsinin həyatından ümidi kəsilmiş qoca kişi ayaq üstə quruyub qaldı. Var əzası titrərkən hökürtmə çalıb ağlamağa başladı. Müslümbəy mehribanlıqda o yazığa təsəlli verib evə qayıtdı. Qoca Həmid gözlərinin yaşını əlilə silərkən içəriyə girdi. Nəvəsi fərasətlə babasının pozğunluğunu dərk etdiyindən yataqda dikəlib:

—Baba, buraya gəl! — deyə onu çağırdı.

Həmid kişi nəvəsinə yaxınlaşıb:

— Bala, sözün nədir? — deyib əyləşdi.

Uşaqcıq dəfətən arıq, nazik qollarını qalxızıb babasının boynuna saldı, nənəsi də o sevgili balasını qucaqladı, hər üçü şiddətlə ağlaşdılar. Sonra xəstə çocuq:

— Baba, mən bilirəm doktor sənə nə söylədi — deyib yenə baba və nənəsini qucaqladı və başını babasının çiyninə qoyub töşküyə-töşküyə bir qədər sakit oldu. Bir az dincəldikdən sonra:

— Baba, atamdan-anamdan sonra mən daha ölməyimi istərəm. Ancaq sənə vəsiyyətim odur ki, səbr elə, çox ağlama. Nə etməli, qəzadan bizim üçün belə imiş...

Qoca kişi öz saqqalı uzunu axan göz yaşlarını silərkən:

—Bala, ölüm mənim üçündür. Allah sənin ölümünü mənə göstərməsin... Qorxma, bala, Allah qoysa sağalarsan... — deyə nəvəsinin üz-gözün tumarladı.

Xəstə çocuq:

— Baba, mən bilirəm, axır nəfəsimdir. Ancaq səndən təvəqqem odur ki, məni özün qəbrə qoyarsan və əgər bu şəhərdə qalmalı olsa-

nız, tez-tez mənim qəbrimin üstə gələrsən, məni unutmayasan— deyərək nəfəsi kəsildi. Yenə də baba və nənəsini qucaqlayıb hər üçü ağlaşdılar. Müslümbəy onları ovudub təsəlli verdi. Sonra doktor yazdığı nüsxəni öz nökərinə verib dərman almağa göndərdi. Sonra Həmid kişiyə xitabən:

— Əmi, səsin nə üçün xırıldar? Məgər sən də xəstəmisən? — deyə soruşduqda qocanın əyalı:

— Ay başına dönüm, xəstə deyildir, lakin üç gündür ki, çöllərin buzu, qarı bu yazığın qidası, xörəyi olmuşdur, — deyə cavab verdi.

Müslümbəy:

— Vay, siz acımızmış... Bəs nə üçün, niyə söyləməyirsiniz?—deyə dərhal onlar üçün yemək tədarük etdi və bir qədər də süd gətirib xəstə çocuğa içirtdilər. Bir saatdan sonra nökər dərman gətirdi; ondan da xəstəyə verdilər. Müslüm sonra öz işinə getdi.

Lakin əsr zamanı idi ki, xəstəyə ğişvə ariz oldu. On dəqiqədən sonra ayıldısa da, lakin bütün əhvalı xarablaşmağa üz qoydu. Əl-ayağı soyudu, alnında soyuq tər əlaməti göründü, verilən dava-dərman boğazından keçməyib hiyənglərindən bayıra töküldü. Gecənin yarısınacan bu hal üzrə qaldı. Sevgili balasını bəstəri-ehtizarda görən qoca arvad yumruqla öz sinəsinə vurarkən ərinə xitabən:

— A kişi, görməyirsənmi, heç olmasa yasin oxu, balam Quransız keçinməsin — deyə haykırdı.

Bədbəxt qoca kişi çaşıb özünü — itirdiyindən «yasini-şərif» əvəzinə «Həmd surəsi» oxumağa başladı. Bir o qədər keçmədi ki, xəstə çocuğun üzünə ölüm rəngə qonub bir-iki dəfə çənə çaldıqdan sonra, nəfəsi qət oldu. Bu vaxt o bədbəxt qocaların başına sanki qiyamət qopdu. Gecənin yarısı özgənin evində, qərib ölkədə ev sahibi narahat olmasın deyə ixtiyarsız ucalan fəryadlarını sinələrində boğarkən, o soyumuş bədəni qucaqlayıb sızıldadılar...

## QARAGÜNLÜ HƏLİMƏ

Qış fəsli idi. Təqribən gecə yarısından dörd saat keçmişdi. Dağların, qayaların zirvələri zəif, sönük bir işıqla ağarmışdı. Günəş hənuz tülu, etməmişdi. Hava qayətdə soyuq idi. Yalçın qayaların, yüksək dağların üzərində tərakim etmiş qar komaları və buz parçaları əcəb təribə surətlər təşkil etmişdi. Şiddətli əsən soyuq külək ağacların qurumuş budaqlarına, qayaların buzlu yarğanlarına çarpdıqca vahiməli səslər törədirdi. Neçə gündən bəri arası kəsilmədən eşidilməkdə olan top gurultuları bir az yavaşımışdı. Get-gedə hava işıqlanıb günəş ziyasının müqəddimətilceyişi ətrafdakı dağların zirvələrində nümayan oldu. Bu heyndə Bayburt şəhərinin içərisinə bir hövlnak çaxnaşma düşdü. Bu vəhşət qalanın təslim ediləcəyi xəbə-

rindən nəşət etmişdi. Əhali sərasimə əlinə gələni götürüb qaçışırdılar. Bəşər balaları qoyun-quzu kimi mələşərkən çöllərə dağılmaqda idi. Qohum-qonşuları, heç kəs heç kimsənin yadına düşmürdü. Hər kəs öz canının qeydində, hər kəs öz başının harayında idi. Anbarlara, tayalara od vurulmuşdu. Şiddətli küləyin zərbəsindən yanğın anbaan artmaqda idi. Bir neçə saat ara vermiş top atəşi yenidən fəaliyyətə başlamışdı. Peydərpey atılar top qumbaralarının düşüb partlamasından hər tərəfdə bir atəş tufanı vücuda gəlmişdi. Bir az fasilədən şəhər bom-boş boşaldı. Getməyə qüdrəti olanlar tamamən qaçıb dağıldılar. Yalnız bəstəri-ehtizarda bulunan yetmiş yaşlı Hacı Nuru kişinin əyalı Həlimə kəsrəti-hüzn və kədərindən çıldırmaq dərəcəsinə gəlmiş ikən əzizliklə böyütdüyü balalarını xilas etməyi düşünürdü. Ancaq ağlına bir şey gəldi: belə ki, qorxudan titrəyib dili tutulmuş, çığırışan on yaşlı Zeynəb adlı qızının və altı yaşlı Əhməd adlı oğlunun əlindən tutub evlərinin zirzəmisinə apardı. Sonra oranın döşəməsi üzrə təbiyə edilmiş bir taxta qapını qaldırıb titrək bir səda ilə: «Burası pək əski bir lağımdır, mədxəli bura isə, məxrəci məmləkətimizin içərisindədir. Allaha əmanət olasınız, balalarım, bu yol ilə gediniz, hər halda bir tərəfə salamət çıxarsınız ümid edirəm» — deyə Həlimə geri döndü.

Zavallı çocuqlar qorxudan nə lağımın içərisinə girməyə, nə də analarının yanına qayıtmağa cürət edirdilər. Cansız bədən kimi hərəkətsiz qalmışdılar.

Göy gurultusundan daha dəhşətli olan top qumbaralarının tərəqələri getdikcə artmaqda idi. Həlimə isə ərinin balini-ehtizarından dizlərini qucçub odlu göz yaşları tökməkdə idi. Ta ki, qalanın içərisində olan yanğın get-gedə artıb bunların da evlərinə yetişdi. Bir dəqiqədə atəş evin dörd tərəfini əhatə etdi. Ağlayıb, sızlayıb saçlarını yolmaqla gah bayıra yüyürüb, gah içəriyə qayıdırdı. Bu heyndə şeypur sədası eşidildi. Bununla pişdarların qalaya yaxınlaşdığını anladı. Vəhşətdən bütün özünü itirmişdi. Acı, qara tüstü evin içərisinə dolub buruq-buruq pəncərələrdən xaricə çıxırdı. Qırmızı alov küləyin şiddətindən hər dəm zəbanə çəkib yan-yörəni gəmirirdi. Biçarə Həlimə ərinin yarı ölü cəsədini qucaqlayıb evdən kənara çıxarmaq istədisə də, yağmur danəsi kimi tökülən güllələrə məruz olmaq qorxusundan bu fikirdən daşındı. Lakin bir qədər çəkmədi ki, alışmaqda olan pal-paltarı evdə bir halət törətdi ki; o qoca xəstə əri da unudub, o atəş dalğalarının arasından özünü həyətə-bərəyə atdı. Bir neçə dəqiqədən sonra o, alışan məqbərənin töküntüləri altında zirzəmidəki lağımı da mədxəlin qapanıb, biçarə tifillər orada qalmağa məhkum oldular.

O fələkzədə çocuqlar qaranlıqda qorxuşub çığrışırdılar. Yekdigərini görmürdülərsə də, lakin əl-ələ yapışıb lağımın içərisinə doğru bir neçə addım irəlilədilər. Lağımın yeri rütubətli olduğundan

tez-tez ayaqları sürüşüb yıxılmaq dərəcəsinə gəlirdi. Bir qədər getdikdən sonra Əhmədin ayağı bir şeyə toxunub üzüüstə yıxıldı. Alnı nəyə çarpdısa, yarılıb isti bir şey üzüaşağı cari oldu... Ağrının şiddətindən bihal olub tərpənmədi. Zeynəbin əli qardaşının əlindən üzüldü. Fəqət onun iniltisini eşidirdisə, necə olduğunu görmürdü. O bədbəxt qızcığaz öz itiyini aramaq qəsdilə əlini lağımın divarına sürtüb «Əhməd! Əhməd!» — deyə qardaşını çağırırdı. Qəzadan həmin yerdə bir neçə yol ayrıcı vardı. O yetim qızcığaz qardaşını aramaq üçün əlini lağımın divarına sürtə-sürtə bir neçə addım getdikdən sonra dəlilər kimi mütəvəhhişanə bir halda dayandı. Zira ki, Əhmədin zığıltısı daha eşidilməmiş oldu. Naümidliyə qarışmış bir qorxu onun vücudunu sarsıb dizləri taqətdən düşdü. Ucadan ağlamasını şiddətləndirdisə də, lakin lağımın divarında əksi-səda törədən öz səsindən başqa qeyri səs eşitmədi. Qüssədən bağrı çatlamaq dərəcəsinə gəldi. Oyan-buyana yüyürməkdən lağımın divarına əlləri, üzü toxunub yaralandı. Qanlı barmaqlarıyla, vəhşətli qəlbilə itirdiyini nə qədər aradısa, bir əsər, bir nişanə bulamadı. Bilaxirə məbhut bir halətdə dayanıb nə edəcəyini bilmirdi. Bu halda çox uzaqdan qayət zəif işıq kimi bir şey gözünə çarpdı. Ürəyi o qədər şiddətlə döyündü ki, çırpınmasını özü eşidirdi. Çox zəhmətlə sürünə-sürünə o, işıq gələn tərəfə yönəldi. Burası lağımın məxrəci idi. Vəqta ki, lağımdan kənara çıxdı, günəşin nuru onun alnına düşüb havanın soyuğu vücuduna təsir etdikdə ağlı başına gəlib yurdsuz-yuvasız bir biyabanda bulunduğunu dərk etdi. Abadanlıq aramaq xəyalı ilə buyan-oyana diqqət etdikdən sonra çox uzaqda yıxılmış bir tabiyə gözünə sataşdı. İstədi ki, oraya girib qardaşı Əhmədi xilas etmək üçün yardım diləsin. Qədəm götürüb irəlilədikcə ayağının altında qan sıçrayıb üz-gözünə səpələndi. Yerə baxdıqda bir əsgər meyidi gördü. Sonra dönüb geriyə diqqət etdisə bir məhşəri-əmvat içərisində bulunduğunu müşahidə etdi. Vəhşəti fövqəladə artıb ağlaya-ağlaya buyan-oyana qoşmağa başladı. Ayağı-ayağına dolaşa-dolaşa çox getməmişdi ki, bir dərədən beş-on nəfər yaraqlı atlı çıxdığını gördü. Zavallı uşağın qorxudan dizləri titrəyib yerə çökdü. Bu atlılar əsgərlər idi. Onlar o bədbəxt qızcığaza yaxın gəlib əl ilə işarə edərək:

— Qorxma, qorxma — deyə özlərilə getməyə əmr etdilər. O, biçarə qardaşının yanında qalmaq lazım gələrkən xahi-nahaxi onların əmrinə itaət etdi. Bu minval ilə bir neçə ay Anadolu xərabələrində səfilsərgərdan dolaşırdı. Bu müddətdə özü kimi bir neçə nəfər kiçik yaşlı uşaqlar da ona yoldaş olmuşdular. Əsgərlərin əllərindən töküləmləri, bayıra atdıqları şeyləri yeməklə ölümdən betər bir həyat keçirməkdə idi. Təinki bir gün havanın kəskin şiddətli boranı o zavallı çocuğu bir məxrubə evin daldasına sığınmağa məcbur elədi. İçəri girdikdə orada bir neçə nəfər aciz, əlli kişi-arvad gördü ki, libas deyilən şeydən ancaq sətri-övrətdən başqa əyinlərində bir şey yox idi.

Ahü əninləri eşidib-görənin ürəyini кabab edər idi. Laкin onların arasında quru torpaq üzrə düşüb qalmış bir insan heyкəli, bir arvad şəкli var idi... Belə bədvi-nəzərdə hər кəs onu görmüş olsaydı, onun insan olub-olmadığını yəqin edəməzdi. Zira кi, şəкli-şəmaili dönmüş idi. Üzü-gözü tamamən yanmış və qırışmış idi. Kirpiкsiz olan qanlı göz qapaqlarını tez-tez qırpırdı. Bəlli idi кi, işıq onun gözlərinə əziyyət edirdi. Bədəninin görünən yerlərinin dərisi tamamilə yanıb qırmızı ət qalmışdı. O arvadın кim və nərəli olduğunu bilmədiyi halda Zeynəbin ona rəhmi gəlib pərəstarlıq etməк üçün ona yanaşdı. Laкin biz tanıyırız кi, bu arvad həman Həlimə və Zeynəbin anası idi. O, həsrətlə çıxan xırıltılı səs ilə:

— Allah xatirinə, bir içim su, — deyə zarıdı.

Zeynəb dərhal qayıdıb soyuqdan donmuş barmaqlarını həvrıxa-həvrıxa sınıq bir qab parçasında ona su gətirdi. O arvad suyu içdiкdən sonra sanкi Zeynəbin bu qədər mərhəmətini dərк etməyib böht və süкuta dalmışdı. Laкin qayət ahəstə səslə bir neçə sözlər təкrar edirdi. Zeynəbə o arvadın səsi aşina gəldisə də, tanımadı. Çünкi o zavallı heyкəl bir parça ət və sümüкdən başqa bir şey deyildi. Zeynəb tərəhhümamiz bir qorxu ilə aşağı əyilib onun sözlərinə qulaq verdiкdə: «Zeynəb, Əhməd!.. Zeynəb, Əhməd!..» — söylədiyini anladı. Bu кəlmələri eşitməкdən Zeynəbin ürəyi dalına dəyib bir söz söyləməк istədisə, laкin ağlaması danışmağına mane oldu. Dərhal o balaca əllərini ürəyinin üstünə qoyub guya bununla ürəyinin çırpıntısını azaltmaq istəyirdi. Daha artıq səbr edəməyib titrəк bir səda ilə:

— Anacan, anacan!.. — deyərəк balaca qollarını əlilə arvadın boynuna doladı... Bu dəqiqədə sanкi qaragünlü Həlimənin sönüк müşairində bir işıq vücuda gəldi. Yetimə balasını tanıyıb quyu dibindən çıxan кimi bir səslə:

— Ox, yavrum Zeynəb, sənmisən? Bəs qardaşın Əhməd hanı? —deyə ana-balanın odlu göz yaşları bir-birinə qarışdı...

*1917*

# PYESLƏR

# CƏHALƏT SƏMƏRƏSİ YAXUD BİR YETİMİN XOŞBƏXTLİYİ

MƏCLİS ƏHLİ

F a i q ə f ə n d i. — Müəllim
Ə s ə d Ə h m ə d o v — Səyli şagirdlər
S a d a y H ə s ə n z a d ə — Səyli şagirdlər
İ s m a y ı l — Tənbəl və nadinc şagird.
D a d a ş — Əsədin atası.

Məclis məktəbin müəllimlər otağında əmələ gəlir. Faiq əfəndi sandalyada oturub qəzet oxuyur. Həyətdə uşaqların oynamaq səsi gəlir. İsmayıl döşü açıq, üzü mürəkkəb ilə qaralanmış içəri girir. Gözlərini vəhşi kimi açıb-yumub çığıra-çığıra danışır və getdikcə səsini yavaşıdır.

İ s m a y ı l *(ağlaya-ağlaya).* Müəllim əfəndi, Saday Həsənzadə dərs oxuduğum yerdə gəlib başıma bir yumruq çırpdı ki, ağlım başımdan çıxdı. Bir baxınız, yeri şişibdir *(göstərir).*

Faiq Əfəndi. Mən səni də tanıyıram, Sadayı da. *(Çeşməyini düzəldir).* Saday heç vaxt elə iş etməz.

İ s m a y ı l. Müəllim, hamıdan xəbər alınız, mən heç nə etmirdim. Öz yerimdə oturub dərsimi oxuyurdum. O neçə dəfə məni vurub, amma mənim yazığım gəldiyi üçün gəlib sizə şikayət etməmişəm. *(Əlini başına aparıb yalandan deyir.)* Of... Of... Necə ağrıyır.

F a i q ə f ə n d i.. *(Baxıb görür ki, döşü, qarnı açılmış, pencəyi düymələnməmişdir).* Bu nədir? Qarnın açıq, təkbəndsiz. Döşünü düymələmək də bilmirsənmi? Ədəbsiz!.. O nədir, üzün qapqara qaralmışdır? Məgər sən üzünü yumursan?

İ s m a y ı l. *(Ağlaya-ağlaya)* Yuyuram, müəllim. *(Özünu elə göstərir ki, guya utanır).*

F a i q ə f ə n d i.. Bu qara nədir, üzünü-gözünü bulamısan?

İ s m a y ı l. Qara pisdir, müəllim əfəndi, yayılır.

F a i q ə f ə n d i.. Necə qara pisdir, yayılır? Üzünə yazmırsan ki.

Bu vaxt Əsəd Əhmədzadə içəri girir.

Ə s ə d. Müəllim əfəndi, bu İsmayıl Sadayı elə vurdu ki, yazığın burnundan qan bulaq kimi axır.

*İsmayıl bunu eşidəndə Əsədə qaş gözlə acıqlanıb hədələyir və özünü elə göstərir ki, guya ağlayır.*

İ s m a y ı l. Müəllim, hamı şagirdlər mənimlə düşməndirlər. hamısı gəlib yalandan sizə şikayət edir ki, siz mənə tənbeh edəsiniz.

F a i q ə f ə n d i. Ey nadinc, elə bunun üçün qabaqca şikayətə gəlmişsən?

S a d a y *(üzü yuyulmuş içəri girir).* Müəllim əfəndi, mən bilmirəm bu İsmayıla nə etmişəm? Dünən bir erməni uşağı ilə küçədə savaşırdı, mən də gedib aralaşdırdım. İndi məndən razılıq etmək əvəzinə vurub burnumu qanatdı.

İ s m a y ı l *(ağlaya-ağlaya).* Müəllim əfəndi, yalan deyir, siz də onun sözünə inanırsınız.

Ə s ə d. Bax odur, alnını da dünən erməni uşağı vurub.

F a i q ə f ə n d i. Ay yaramaz, bəs deyirsən Saday səni vurmuşdur?

S a d a y *(təəccüblə).* Mən səni nə vaxt vurdum?

İ s m a y ı l *(ağlaya-ağlaya).* Hə, sən vurdun da...

F a i q ə f ə n d i. Səsini kəs, ədəbsiz! Nadinclik etdiyin bəs deyil, gəlib bir böhtan da deyirsən?! Bu gün bir saat naharsız qalarsan. Get!

İ s m a y ı l *(ağlaya-ağlaya).* Müəllim əfəndi, mən nə eləmişəm?

F a i q ə f ə n d i. Daha nə edəcəksən? Min dəfə sənə tapşırmışam ki, dinc ol, savaşma, küçə uşaqları ilə gəzmə. Amma mənim sözlərim heç sənə təsir etmir.

İ s m a y ı l *(ağlaya-ağlaya).* Müəllim əfəndi, dükanımızın qabağında yazıqca-yazıqca oturmuşdum, heç kəslə işim yox idi...

F a i q ə f ə n d i *(sözünü kəsib).* Hə, yazıqca-yazıqca, doğru deyirsən. Çox yazıq oğlansan, maşallah.

İ s m a y ı l. Bəli, yazıqca-yazıqca oturmuşdum. Birdən qonşumuz bir erməni uşağı gəlib başıma vurdu, qaçdı. Mən də durub onu vurdum.

F a i q ə f ə n d i. Sənin dükanda nə işin var idi?

Ə s ə d. Müəllim əfəndi, hər gün məktəbdən çıxıb dükana yüyürür.

İ s m a y ı l. Mən getmirəm, anam yollayır.

F a i q ə f ə n d i *(yan tərəfə).* Taxsır bunların ata-anasındadır, evladlarına tərbiyə vermək əvəzinə küçə-bazarın canına salırlar. Uşaq zay olur, gedir. Bundan sonra bunlardan adam olarmı? Tərbiyəsizlik, ədəbsizlik bunlarda kök bağlamışdır. *(İsmayıla).* Mən sənə deməmişəmmi ki, dükana getmə? Dünən atanı çağırıb ona demədimmi? İtil burdan! Saat üçəcən naharsız qalarsan!

İ s m a y ı l. Daha getmərəm, müəllim əfəndi, bu dəfəlik məni bağışla. Uşaqlar hamısı mənimlə düşməndirlər.

F a i q ə f ə n d i. Səni min dəfə bağışlamışam. Amma əsla halına təfavüt etməmişdir. Get!.. Əsəd, sən dayan, səninlə sözüm vardır.

*İsmayıl və Saday gedirlər. Otaqdan çıxan vaxt İsmayıl Sadayı dürtmələyir və qayıdıb gözaltı müəllimə baxır.*

F a i q   ə f ə n d i. Əsəd, hərçənd çox zəhmət çəkdim, amma şükürlər olsun ki, zəhmətim itmədi. Qori darül-müəlliminində olan pansiona bir nəfər şagird qəbul etmək üçün verdiyimiz ərizəni oranın müdiri qəbul etmişdir. Sənin çalışqan və səyli olmağına görə qərar qoymuşuq ki, oraya göndərək. Görürsən ki, səyli olmaq nə qədər yaxşıdır. Sən çalışqan və səyli olmasaydın, bu gün bu xoşbəxtlik bir başqa şagirdə qismət olacaq idi. İndi get, ata-anana xəbər ver ki, sabah səni Qoriyə göndərəcəyəm. Əzizim, orada çalış, səy et, qoy müəllimlər səni sevsinlər. İnan ki, üç ildən sonra bir alim və kamil insan olub vətəninə qayıdacaqsan. O vaxt millət və insaniyyətə xidmət edərsən.

Ə s ə d. *(Başaşağı ilə).* Əfəndim, təşəkkürlər edirəm. Sizin yaxşılıqlarınızı mən heç vaxt unutmaram.

F a i q   ə f ə n d i. Get evinizdə de ki, paltarlarını hazırlasınlar. Sabah gərək gedəsən.

*Əsəd gedir. Faiq əfəndi qəzet oxumağa başlayır. Bu halda Saday içəri girir və bir tərəfdə qəmgin dayanır. Müəllim onu görmür. Bir azdan sonra müəllim başını qaldırıb görür və onu çağırır.*

F a i q   ə f ə n d i. Saday, buraya gəl görüm, nə üçün ağlayırsan?

S a d a y. Əfəndim, məgər mən çalışqan deyiləm? Məgər mən tənbələm?

F a i q   ə f ə n d i. Necə? Sənə kim deyir ki, tənbəlsən?

S a d a y. Bəs Qoriyə Əsədi göndərirsiniz, məni nə üçün göndərmirsiniz? Onun ata-anası var, mən yetiməm, onun üçünmü? Müəllim əfəndi, təvəqqe edirəm, məni göndəriniz. Söz verirəm ki, gecə-gündüz çalışıb çox yaxşı oxuyaram. Oranın müəllimlərindən soruşarsınız, əgər pis oxusam, yenə məni geri qaytararsınız.

F a i q   ə f ə n d i. Saday, paxıllıq etmə! Paxıllıq çox yaman sənətdir. Doğrudur, Əsədin atası var. Amma onlar da fəqirdirlər. O qədər varlı, pullu deyillər ki, uşaqlarını elm oxumağa göndərsinlər. Yenə təkrarən deyirəm, paxıllıq yaxşı xasiyyət deyildir. Sən də çalış, onun kimi olasan. Səni də Allah qoysa, gələn il göndərərəm. İndi hələ balacasan.

S a d a y. Əfəndim, inanız ki, artıq səy edəcəyəm. İndi Əsəddən bir az geri qalmağımın səbəbi odur ki, xalamın evində nökərçilik edirəm. Pansiona girəndə dərsdən başqa heç bir işim olmayacaqdır. O vaxt mən çox yaxşı oxuya biləcəyəm. Mən heç bir sinifdə qalmaram.

F a i q   ə f ə n d i. Mən sənə inanıram. Amma sən də inan ki, indi daha onu qoyub səni göndərmək olmaz. Qoridə də bilirlər ki, biz oraya kimi göndərəcəyik.

S a d a y. Əfəndim, çox təvəqqe edirəm ki, mümkün olsa...

F a i q ə f ə n d i.. Gələn il, Allah qoysa, səni göndərərik. Get xatircəm ol! *(Saday gedir).* Ax, nə olaydı ki, qüdrətim olaydı, bu uşağı ağlamağa qoymazdım. Göndərib öz xərϳimlə oxudardım. Həm qabil, həm səyli və həvəsli bir uşaqdır.

*Dadaş kişinin səsi gəlir. Bayırdan kəndli dili ilə çığırır.*

D a d a ş. Mollaxana buradır?

F a i q ə f ə n d i. Buyurunuz, buyurunuz!

*Dadaş Əsədin əlindən tutub içəri girir və ayaq üstə durur.*

D a d a ş. *(Çığıra-çığıra).* Salam-əleyküm, molla! Necəsən, yaxşısanmı? Allaha şükür biz yaxşıyıq.

F a i q ə f ə n d i. Əfəndim, buyurunuz, əyləşiniz.

D a d a ş. Elə belə də yaxşıdır, rahatdır. Sağ olasan, ay mollacan! Axır sən bu uşağı lap zay etdin, getdi ha... Bu gün bu mənim əhvalımı pozub xarab eləmişdir.

F a i q ə f ə n d i. *(gülümsünür).* Nə olub məgər?

D a d a ş. A kişi, mən nə bilim, yaxamdan tutub deyir ki, Aarıdurmu, Furudumu, nə zəhirmardır, deyir oraya gedəcəyəm. Bıq a!.. Ağlını qara aparıb, dəli olub. Axır, bilmirəm, bundan axund olaϳaq, əfəndi olacaq? Axır nə olacaq, görək?

F a i q ə f ə n d i.. Nə üçün, Dadaş dayı? Oxuyar, müəllim olar. Bəs sən istəmirsən ki, uşağın oxuyub kamil bir adam olsun?

D a d a ş. A kişi, mənim uşağım bir az siyahı-səriştə başa düşdü, çoxdur. Daha çox oxusa veçdən çıxar. İndi heç bilmirəm bunu sən necə başdan çıxartmısan? Axır bunun nə dediyidir?

F a i q ə f ə n d i.. Dadaş dayı, bəs biz dörd-beş ay bundan irəli Əsəd barəsində danışmadıqmı və sən də mənə söz vermədinmi ki, Əsədi göndərək getsin oxusun? İndi bəs nə üçün razı olmursan? Görürsən ki, bir növlə çara tapmışıq. Nə üçün zəhmətimiz hədər olsun?

D a d a ş *(yaltaqlıq ilə).* Sənə qurban olum, mən nə vaxt söz verdim?

F a i q ə f ə n d i. Neϳə nə vaxt söz verdin? A kişi, bəs dörd-beş ay bundan irəli ağsaqqalların yanında gəlib bizdən razılıq etmədinmi?

D a d a ş. A başına dönüm, o vaxt sən mənə bir yəqin söz demədin. Ancaq dedin ki, yazaq, nə bilim daha nə dediniz. Mən də bir kəlmə dedim, hə, yaxşı... Bı, a!.. Qələt etmədim ki! Vay... Oda-oyuna düşdük, a kişilər...

Əsəd *(atasına yavaşϳa).* Yavaş, a kişi, yavaş! Bir az qayda ilə danış.

F a i q ə f ə n d i.. A qardaş, mən səni cəbrən oğlunu göndərməyə vadar etmirəm ki... Mən sənə ancaq yaxşılıq edirəm. Daha oda-oyuna nə üçün düşürsən? Uşağını müftə oxumağa göndərirlər. Sən gərək razılıq, təşəkkür edəsən.

D a d a ş. Yox, mollacan, sən olasan o Allah, bizim uşağın yaxasından əl çək. Mən ölməmişəm ki, o çöldən-çölə, dağdan-dağa düşsün, özgələrin qapısında nökər olsun. Məgər mənə eyib deyil? Axır mən də özüm üçün bir adamam.

F a i q ə f ə n d i. A qardaş, nə sözlər danışırsan? Bir kəlmə başa düş və anla! Biz sənin uşağını göndərmirik ki, gedib nökərçilik eləsin. Biz göndəririk ki, gedib oxusun, adam olsun, mədəni bir insan olsun.

D a d a ş. Pah, bu nə sözdür? Bədəni olsun? İndi mən oxumamışam, bədənim yoxdur? Adam deyiləm? *(Tərəfə).* Kişilər, görünüz bircə nələr danışır bişmiş toyuğun da gülməyi tutur.

F a i q ə f ə n d i.. Yaxşı adamsınız, Dadaş dayı, amma elminiz olsaydı, lap gözəl olardı.

D a d a ş. Necə, yəni burun-qulağımı dəyişdirərdim?

Ə s ə d. Ata, mən getmək istəyirəm, sən Allah qoy gedim.

D a d a ş *(oğluna).* Kəs səsini, heyvan! *(Başına bir qapaz vurur).*

F a i q ə f ə n d i.. Dadaş dayı, qulaq as, gör nə deyirəm. Nahaq yerə uşağını bəxtsiz etmə. Belə iş mindən bir uşaq üçün mumkün olur. Əsəd qabil və səyli uşaqdır. Ona mənim hayfım gəlir. Yəqin bilirəm ki, bir neçə il Qoridə oxuyandan sonra çox kamil bir müəllim olar.

D a d a ş. Mollacan, sən olasan Allah, bu xatanı mənim başımdan rədd et! Bilirəm, sizdən bir uşaq istəyiblər, bir yetimdən-zaddan tapınız, göndəriniz. Daha mənim oğulcuğazımı əlimdən almayınız. Mollacan, ver əlini öpüm. Allah xatirinə, məni bu oddan-alovdan qurtar, uşaqcığı da evdən-eşikdən hürkütmə, avara etmə, dərəyə-təpəyə salma. Sən Allah, mənə yazığın gəlsin.

Ə s ə d *(yavaşca).* Nə üçün qoymursan gedim, ay dədə, birçə de görüm? Sən Allah qoy, mən getmək istəyirəm.

D a d a ş. Sən çox qələt eləyirsən! Heyvərə, axmağın biri!..

Ə s ə d. Ay dədə, belə çığırma! Bu cür bərk danışmaq ayıbdır.

D a d a ş. Adə, demirəm səsini kəs! Axmaq-axmaq danışma! Bu saat dərini boğazından çıxardaram!

F a i q ə f ə n d i. Qardaş, bəlkə sən başqa cür fikir eləyirsən. Bu qədər bil ki, Qoridə bir böyük məktəb var. Mən də orada oxumuşam. Sənin oğlunu da oraya göndəririm.

D a d a ş. *(Təəccüblə.)* Pi... a... Mən o qədər axmaq deyiləm ki, anlamayım.

F a i q ə f ə n d i. Di yaxşı, atan rəhmətlik, biz də istəyirik sənin oğlun gedib orada oxusun. Elmli, kamallı, mədəni insan olsun.

D a d a ş *(tərəfə).* Yavaş ye, boğazında qalar. Buna bax, məni aldatmaq istəyir. *(Müəllimə).* Axır, mollacan, eyib olmasın, Əsədin

anası deyir ki, mən uşağımdan bir saat da ayrılmaram. İstəyirsən gedək bizim evə, gör anası nə qiyamət qopardır.

F a i q ə f ə n d i. Həqiqət bilmirəm sizin bu işlərinizə nə ad qoyum?

D a d a ş. Mollacan, istəyirsən məni burda tut bir yaxşıca kötəklə, lap dur başımı da yar. Ancaq məni bu tələdən qurtar. Allah xatirinə, məni bu xatadan azad et.

F a i q ə f ə n d i. Dadaş dayı, sonra peşiman olarsan. Amma daha o vaxt çarə olmaz, vaxtı keçmiş olar.

D a d a ş. Nə üçün peşiman oluram. Uşağımdan əl çəkmişəmmi?

F a i q ə f ə n d i. *(tərəfə).* A kişilər, lap mən təəccüb edirəm ki, dünyanın bu işıqlı vaxtında, iyirminci əsrdə belə də qəribə, nadan avam olurmuş?

D a d a ş *(tərəfə).* Ax... bu mollalar nə danışırlar ha... Ay bunlar uzunçu olur ha... *(Müəllimə).* Doğrusu, mən sənə uşaq verməyəm. Mən uşağımı küçədən tapmamışam ki... Yumşaqlıq ilə deyirəm, görürəm qanmırsan. Görünür ki, məni axmaq tapmısan. Bilirsən ki, nə elərəm?..

F a i q ə f ə n d i. Bundan artıq daha nə edəcəksən? Siz də deyirsiniz ki, biz də atayıq, adamıq. Ay maşallah!

D a d a ş. *(Lovğalandığı halda oturduğu yerdən qəzəbli qalxır).* Mən kimdən əskiyəm? Səndən əskiyi it yesin. Yəni sən bu kağızın ağını-qarasını qandın, adam oldun?.. Biz heyvan olduq?... *(tərəfə).* Buna bax, gör nə danışır.

F a i q ə f ə n d i. Qardaş, mənim vaxtım yoxdur ki, səninlə savaşam. Səninlə danışmaq vaxtı tələf etmək, vaxtı öldürməkdir.

D a d a ş. Necə? Məni öldürmək! Sən nəçisən ki, məni öldürəsən?! Ölkənin yiyəsi sənsən? Güc deyil ki! Mən uşağımı vermirəm da!..

F a i q ə f ə n d i. Qardaş, sən tarı, get başımdan ol. Səninlə danışmağa mənim vaxtım yoxdur.

D a d a ş. Hə, hər ildə üç-dörd dəfə bir-iki vərəq çərəkələrini uşaqlara verib pul alanda vaxtın olar!?

Ə s ə d. *(Atasına).* Ata, bir az ədəbli danış, ayıbdır.

D a d a ş *(oğluna).* Səsini kəs, axmaq! Uzun danışma! Düş qabağıma gedək. *(Qayıdır müəllimə).* Sən də qalmayasan, məktəbin də. *(Sonra oğlunu boynunun ardından itələyir).* Sür gedək, nadan.

*Bunlar çıxandan sonra səhnənin arxasında uşaq ağlaya ağlaya atasına deyir.*

Ə s ə d. Ata, nə üçün belə qilü qal edirsən?

D a d a ş *(oğluna).* Ada, demirəm səsini kəs, yoxsa, yoxsa lap təpəni əzərəm. Axmağın biri!..

F a i q  ə f ə n d i *(yalnız).* İndi gəl belə adamlar üçün həqqi-səy elə, zəhmət çək. Axırda bu da aldığım muzd. Doğrusu, bizim müsəlmanlar üçün müəllim olmaqdan çətin əzab olmaz. Çalış, vuruş, zəhmət çək, əziyyətdə qal, buna yalvar, ona yaxar, bunun üçün iş düzəlt, axırda razılıq əvəzinə, buyur, söyüş eşit. Ah, bilmirəm, biz nə vaxt öz xeyir və şərimizi qanıb, dost-düşmənimizi tanıyacarıq.

*Bu halda İsmayıl ağlaya ağlaya içəri girir.*

İ s m a y ı l. Müəllim əfəndi, mən oturub dərsimi oxuyurdum, lap nahaq yerə Saday gəlib mənə bir təpik vurdu. Az qalmışdı ki, lap yıxılıb qolum sınsın.

F a i q  ə f ə n d i. İtil, cəhənnəm ol, nadürüst! Mən tanıyıram sən nə yuvanın quşusan!

İ s m a y ı l. *(Ağlaya ağlaya).* Elə siz həmişə Sadayın sözünə inanırsınız.

F a i q  ə f ə n d i. Döşünü düymələ, paltarını düzəlt, biədəb. Bu nədir qarnın, döşün açıq, gəlib qabağımda dayanmısan. Get Sadayı buraya çağır. *(İsmayıl gedir. Səhnənin arxasında ucadan deyir).* Saday? Saday!

İ s m a y ı l. Buyur, buyur, indi sən də mənim kimi naharsız qalarsan.

S a d a y. *(Saday qorxa qorxa gəlir və dayanır qapı ağzında).* Müəllim əfəndi, inanız ki, mən heç bir şey etməmişəm. İsmayıl özü...

F a i q  ə f ə n d i. *(onun sözünü kəsib).* Saday, qulaq as, dinlə. Sən yetim olduğun üçün Allah-taalanın sənə rəhmi gəldi. Sən Əsəddən xoşbəxt oldun. Daha Qoriyə onu göndərməyəcəyəm. Get, hazırlan, sabah Qoriyə səni göndərəcəyəm.

*Saday şadlığından özünü itirmiş bir halda o yan bu yana baxır.*

F a i q  ə f ə n d i. Nə üçün mat-məəttəl qalmısan? Sabah yəqinən gedəcəksən. Get, hazırlan, vəssalam!

S a d a y. Mənim qiymətli və sevgili müəllimim! Siz bu gün məni əhya etdiniz, mənə dirilik verdiniz. Allah sizdən razı olsun. Bilmirəm nə növ ilə sizdən razılıq edim.

F a i q  ə f ə n d i. Get, əzizim! Ümidvaram ki, az bir vaxtda kamil bir insan olub öz vətəninə qayıdarsan. Vətən və millətinə xidmət edərsən Get elmin nuru ilə işıqlan və bu qara camaata qandır ki və mədəniyyət insanın xoşbəxtliyidir. Get, Allah sənə kömək olsun!

***1912***

***P ə r d ə***

# TAĞI VƏ NAĞI

Bir pərdəli pyes

ƏFRADİ-MƏCLİS

Tağı — cavan oğlan, qarovulçu,
N a ğ ı — cavan oğlan, papaqçı.
Q a r ı — ev yiyəsi.

## BİRİNCİ PƏRDƏ.

Kasıb bir evdə vaqe olur. Tağı əlində yaylıq, içində ət, yorulmuş daxil olur, yaylığı mizin üstə qoyur.

T a ğ ı. A кişilər, belə gün кeçirməк olar? Gecələr sübhə кimi yatmayıb qarovul çəк, bununla belə aldığın donluq da səni görməsin. Gündə də bir düкançı gəlir кi, nə bilim bu gecə mənim düкanımı кəsiblər. İndi gəl aldığın donluğu da buna ver кi, xəcalətdən qurtarasan. Səhər çörəyini günorta, günortanı axşam saat 8-də yeginən. *(Əti doğramağa başlar).* Bu günləri canımdan, boğazımdan кəsib var-yoxumu vermişəm yarım girvənкə ətə; çünкi, Allah ölənlərinizə rəhmət eləsin, mənim rəhmətliк nənəm deyərdi кi, balam, cümə axşamı ocağın altını boş qoyma. Odur кi, mən də onun sözünü yerinə yetirirəm *(Maşını yandırıb əti tavaya töкür.)* Bu bişməкdə olsun, mən gedim çayçıdan çay alım gətirim, çünкi bu şoğəribin üstündən çay içməsəm, əlüstü əngəl eləyəcəк. *(Gedir.)*

*Bir qədərdən sonra Nağı əlində çiyər, övqatı qaralmış gəlir.*

N a ğ ı. Allah кəssin belə güzəranı, Allah! A кişilər, səhər-səhər damağın çağ açırsan düкanını bir tiкə alış-veriş eləyəsən *(əlindəki çiyəri mizin üstə qoyur)*, elə oturmağını görürsən, bir də görürsən girdovoy girdi içəri: «Zaкrivay yes!». Günahкar olursan deyəsən: «Nə üçün, yenə nə olub bəyam?». Bir də gördün, bir dürtmə boynunun ardına vurdu кi, «paşolt pirsidsкi lopatкa, sevodni padşah anadan olan günü rabatay?». Bəli, bağladım. Bu gün belə getdi. İndi кamali-istirahətlə yenə düкanda oturub papaq tiкirsən, bir də aqaloşniк gəldi: «Ada, razve sənim ne anaiş кi, bu gün padşah taxta çıxan gün rabatay?». Pah atonnan, bu gün də bağladıq. Nə bilim, o biri gün gəlir кi, bu gün taxtdan düşən günü rabatay. A кişi, təк padşah olsa yaxşıdır, bunun arvadı var, oğlu var, qızı var, nəvəsi var, nəticəsi var, nə bilim iti var, qurdu var, ziri var, zibili var. A кişilər, lap

adamı cana doydurublar. *(Ciyəri götürüb tavaya tökmək istədikdə əti gördü.)* Aha... bu nədir? *(Qayıdıb ciyəri mizin üstə qoyar.)* Burada ki, ət var! Bunu bura kim tökmüş olsun? *(fikirləşir.)* Hə, yəqin ki, bu qarının işidi. Evi boş görüb... Yaxşı, zalımın qızı, indi sənə göstərərəm. *(Tavanı götürüb pəncərədən atar, ciyəri tavaya töküb qovurmağa başlar.)* Bu burada qovrulmaqda olsun, mən də gedim bir dəstə kəvər alım. *(Gedər.)*

*Bir azdan sonra Tağı əlində çay daxil olur, çayı mizin üstə qoyub əti qovurmağa getdikdə, ciyəri görüb təəccüblə.*

T a ğ ı. Aha, bu nədir? Bu ki, ciyərdir. Ət ki, dönüb ciyər olmaz. Aha, yəqin bu qarının işidir. *(Qapıya tərəf.)* Ay sən özün öləsən, «deyə-deyə aşna, çıxdın ocaq başına». Sənin kimilərin xoruzunu çoxdan qoltuğuna vermişəm. *(Ətəyilə tavanı götürüb qapıdan atmaq istədikdə, kalmədə olan Nağı ilə burun-buruna toxunarlar).*

*Hər ikisi*: Paho...

*Bir birinə baxdıqdan sonra Tağının əlini tava yandırdığından, maşının üstə qoyar və acıqlı Nağıya baxar. Nağı əhəmiyyət verməyib gedib ciyəri qovurar. Tağı təəccüblə.*

T a ğ ı. Balam, sən kimsən?

N a ğ ı. *(ciyəri qurdalar.)* Balam, bəs sən kimsən?

T a ğ ı. Mən sənə buyururam, sən kimsən?

N a ğ ı. Mən də sənə ərz edirəm, sən kimsən?

T a ğ ı. Aha, bu yaxşı! Balam, sən burda nə edirsən?

N a ğ ı. Əvvəl sən söylə görüm, sən burda nə eləyirsən?

T a ğ ı. Mən bu otağı qarıdan kirayə tutmuşam.

N a ğ ı. Nə? Adə, mən ki, bunu qarıdan tutmuşam.

T a ğ ı. Hə, həpənd balası, həpənd, getdikcə çaşırsan ha!..

N a ğ ı. Qırışmal oğlunun ağız-burnunu vurub dağıdacağam. *(Balaca qulaylanır.)*

T a ğ ı *(acıqlı)*. Adə, otağımı yalandan kiraya tutmuşam dediyin bəs deyil, bir heyvərə-heyvərə də danışırsan?

N a ğ ı. Adə, mənim otağımı adına salmaq istəyirsən?! Allah vurub səni də, sənin babanı da! Otaq mənimdir.

T a ğ ı. Adə, belə eləmə ki, yıxım ayağımın altına, qol-qabırğanla hesablaşım ha?!

N a ğ ı *(bir dürtmə vurur Tağıya)*. Adə, kimin, adə?

T a ğ ı *(Tağı da bir dürtmə vurur)*. Adə, sənin...

N a ğ ı *(bir yumruq)*. Deyəsən lap başdan çıxırsan. Otaq mənimdir.

T a ğ ı. Xeyr mənimdir. *(O da vurur).*

N a ğ ı. Mənimdir.

*Vuruşurlar. Bu dəmdə qarı içəri gəldikdə bunlar qızışdıqlarından qarıya bir neçə yumruq dəyir. Tağı qarının qolundan yapışıb bir tərəfə çəkir.*

T a ğ ı. Ağız, de görüm, otaq kimindir?

Q a r ı. Sənin.

T a ğ ı *(Nağıya).* Gördün?

N a ğ ı *(qarını bir tərəfə çəkər).* Doğrusunu de, kimindir?

Q a r ı *(Nağıya).* Sənin!

N a ğ ı *(Tağıya).* Gördün ki, mənimdir?

T a ğ ı. Xeyr, mənimdir!

N a ğ ı. Allah səni vurmuşdu. *(Vuruşurlar, qarı aralıqda əzilir).*

Q a r ı *(döyülə-döyülə).* Ay balam, bir dayanın, bura gəlin, oturun. *(Aralarına girib hər ikisinin qolundan tutur. Hərəsini bir stul üstündə oturdub aralarında durur. Nağıya).* Ev sənindir. *(Tağıya).* Ev sənindir. *(Onlar hər ikisi də mat bir birlərinə baxırlar. Qarı Nağıya).* Bax, sən gündüzlər dükana gedib axşamlar gəlirsən. *(Tağıya.)* Sən gecələr gedib gündüzlər evə gəlirsən. Mən də ki, sonsuz, kimsəsiz qarıyam. Bu otağı bir-birinizdən gizlin hər ikinizə vermişəm ki, bir növ belə hey... sizin də işiniz keçsin, mənim də. İndi öpüşünüz. *(hər ikisini miz üstündən əydirib öpüşdürür.)* Bu gün də ki, cümə axşamıdır, düyüdən-zaddan bişirmiş olarsınız, yəqin ki, bu qoca qarını da yaddan çıxarmazsınız.

*Tağı və Nağı mat məbhut camaata baxdıqlarından qarı üsulluca çıxıb gedir. Tağı və Nağı hərdən bir birinə baxıb gülürlər və üzlərini o yana çevirirlər.*

T a ğ ı. Balam, sənin adın nədir?

N a ğ ı. Bəs sənin adın nədir?

T a ğ ı. Mənim adım Tağı!

N a ğ ı. Mənim də adım Nağı!

T a ğ ı. Sənətin nədir?

N a ğ ı. Mən papaqçıyam. Bəs sən nə işdəsən?

T a ğ ı. Mən də dərğayam, dərğa!

*Birdən ayaq səsi eşidilir, hər ikisi qapıya gedib qapını tuturlar.*

N a ğ ı. Aha, deyəsən gələn var, yəqin qarıdır. Qoyma!

T a ğ ı *(qapını bərk tutur).* Bərk tut, məbada buraxasan. Zalım qızı yəqin ki, yeməyə gəlib.

Q a r ı *(qapı dalından).* Qorxmayın, içəri gəlməyəcəyəm, poçtadan kağız var, onu gətirmişəm.

T a ğ ı və N a ğ ı. Aldada bilməzsən, açmarıq.

Q a r ı *(o tərəfdən).* Elə isə qapını balaca aralayın, kağızı verim.

*Onlar qapını aralar, kağızı Nağı alar.*

N a ğ ı *(üstünü oxuduqdan sonra).* Bu kağız sənədir, burada Tağı yazılıb. *(Kağızı uzadır Tağıya).*

T a ğ ı *(alıb oxuyur).* Xeyr, sənindir, burada Nağı yazılıb. *(Kağızı Nağıya vermək istər. Nağı almaz).*

N a ğ ı. Xeyr, xeyr. Öləsən də Tağı yazılıb, görmürsən? *(Barmağı ilə kağızın ardını göstərir).*

T a ğ ı *(acıqlı kağızı mizin üstə çırpar).* Burada Nağı yazılıb!

*Nağı labüd qalıb kağızı oxuyur.*

N a ğ ı. Əzizim Tağı!

T a ğ ı. Xeyr, Nağı!

N a ğ ı. Əvvələn, ümdə mətləb vücudunuzu Allah-taala salamat eləsin və səniyən, əgər bu tərəfin əhvalın bilmək istəsəniz, mətləb burdadır ki, sən yola düşəndən sonra əminin get-gedə halı xarablaşıb, indi lap ölüm halındadır. *(Tez kağızı, mizin üstə atar.)* A kişi deyirəm sənindir, deyirsən belə. *(Bir yana çəkilir.)*

T a ğ ı *(bir qədər Nağıya baxıb oxuyur.)* Evdə məndən başqa bir kimsə olmadığından, əmin üçün korluq keçir. Çünki mən bir tək ona lazımınca qulluq edə bilmirəm. Əmin xahiş edir ki, əlində su da olsa, odda olsa qoyub gəlsin. Mənə bir növ xidmət eləsin ki, bu gün-sabah dünyadan gedəcəyəm, bəlkə bir növ dərmanlar vasitəsilə babat olam. Əmin qızı sənə qurban olsun! Gəl ki, əmin yazıqdır. Barı hərdənbir dalına alıb bağda gəzdirərsən. Bəlkə təzə hava ilə bir ləzzət alsın. *(Nağıya.)* Al, al, mənim belə qohum-qardaşım yoxdur. *(Nağıya göstərir.)* Bax, burada Nağı yazılıb, bu kağız sənindir!

N a ğ ı. Xeyr, Tağı yazılıb. Görürsən ki, nöqtə iki dənədir.

T a ğ ı. Xeyr, nöqtə bir dənədir, ancaq yazanda qələmi bərk basıblar, qalın düşüb, ona görə də, iki dənə kimi görünür, al *(uzadır.)*

N a ğ ı. Xeyr, qələmi bərk basmayıblar, həqiqətən, bişək-bişübhə iki dənədir.

T a ğ ı *(kağızı başına çırpar).* Adə, deyirəm zəhirmar sənindir. Ay sənin belə...

N a ğ ı *(sözünü kəsər).* Adə, deyirəm sənindir. *(Bərkdən.)* Adə, aşkar Tağını görmürsən? İki dənə nöqtə qoyulub, iki dənə.

T a ğ ı. Xeyr, xeyr, nöqtə bir dənədir. Yəqin yanından milçək keçib, bir nöqtə qoyub, ona görə Tağı oxunur. Görmürsən, biri lap yorun, biri cunquşdur. Aya var, aya yox.

N a ğ ı. Adə, sənindir deyirəm. Burada Tağı yazılıb.

T a ğ ı. Nundur.

N a ğ ı. Teydir.

T a ğ ı. Deyirəm nundur.

N a ğ ı. Mən də deyirəm teydir.

*Vuruşurlar. Bir qədərdən sonra qarı əlində başqa bir kağız daxil olur, o da düşər yumruq altına.*

Q a r ı. Ay bala, ay balam, məni öldürdünüz. Alınız postdan yenə kağız gəlib.

T a ğ ı *(bir birlərinə baxırlar).* Bu da sənə gəlib.

N a ğ ı *(kağızı alır. Qarı gedir.)* Bax burda lap aşkar Tağıdır, dəxi bunun başqa şəkki-şübhəsi yoxdur.

T a ğ ı *(alar baxar).* Balam, burda Nağıdır. Nun hərfi lap aydın bilinir.

N a ğ ı. Xeyr, səhvin var, tey hərfi aşkardır, bura da keyfi-ma-yaşa deyil. Budur, budur iki dənə nöqtə səddi-İskəndər kimi durub gözünün qabağında.

T a ğ ı *(labüd qalır).* Allahü əkbər. *(Kağızı alar, oxuyar.)* Əzizim Nağı!

N a ğ ı. Xeyr, T a ğ ı!

T a ğ ı. Salam-duadan sonra yazıb sizə bildirirəm ki, əvvəlinci kağızı sizə göndərəndən iki saat sonra əminin lapdan canı çıxdı. Öləndə o rəhmətlik bu vəsiyyəti elədi: Mənim yatdığım yerdə torpağın içində küpdə qızıl var. Onu götürərsən, əmin oğluna da kağız yazarsan ki, gəlsin *(Nağıya.)* Bax, bu kağız mənimdir.

N a ğ ı *(cəld əlindən qapar və bir tərəfə çəkilər.)* Xeyr, burada aşkar Nağıdır. *(Oxuyur.)* Ev-eşikdə olan-olmazı satarsınız və mənim sür-sümüklərimi köç edib göndərərsiniz Kərbəlaya. Orda qızılları yeyib-içib kef edərsiniz.

T a ğ ı *(əlindən qapır. Bir tərəfdə).* Aha, kef edərsiniz. İndi sənin yolunu gözləyirəm.

N a ğ ı *(daldan qapar).* Tez gəl, əz tərəfi... *(Tağıya).* Balam, bu kağız da, qabaqkı kağız da mənimki imiş, mən heç bilməmişəm. *(Bükübb cibinə qoymaq istər.)*

T a ğ ı. Dayan, dayan, səni Allah vurmuşdu. Kağızı mənə ver. *(Onun qolundan tutar. Nağını bərk itələyər.)*

N a ğ ı. Adə, itil o yana, mənim səfərim var!

T a ğ ı. Ada səninlə deyiləm? *(Yapışıb mizin üstə yıxar, sonra Nağı durub vuruşurlar. Səs-küy duşər).*

Q a r ı *(daxil olur).* Ay balam, yenə nə oldu?

N a ğ ı. Sən Allah, ay qarı nənə, bir bunu oxu görək Tağıdır, ya ki, Nağı?

Q a r ı. Ay balam, mən oxumaq hardan bilirəm?

T a ğ ı *(ağlar).* Ay qarı nənə, Allah ölənlərinizə rəhmət eləsin, mənim rəhmətlik əmim Allah rəhmətinə gedib. İndi onun...

N a ğ ı *(onun sözünü kəsər, ağlaya-ağlaya).* Xeyr, ay qarı nənə, o rəhmətlik mənim əmimdir, kağız mənə yazılıb.

T a ğ ı *(bərkdən).* Xeyr, mənə yazılıb. *(Qaşınır.)*

N a ğ ı. Xeyr, mənə yazılıb.

*Vuruşmaq istəyirlər. Qarı aralaşdırır.*

Q a r ı. Nənə sizə qurban olsun, vuruşmayınız, dayanınız mən çöp gizlədim, hansınız tapsa, kağız onundur. Hə, necəsiniz, razısınız ya yox?

T a ğ ı. Razıyam.

N a ğ ı. Mən də razıyam.

Qarı. yerdən çök götürüb gizlədir. Nağıya.

Q a r ı. Hə, tap görək.

N a ğ ı *(fikirdən sonra).* Ver bundan!

Q a r ı *(əlini açır, çöp o biri əlindən çıxır). Bax, uduzdun. (Kağızı alıb Tağıya verir.)* Bax, daha vuruşmayınız, kağız bu kişinindir. *(Gedir. Tağı şad olub ora burasını düzəldir).*

N a ğ ı. İstər lap fələk gəlsin, ölsən də kağız mənimdir ki, mənimdir.

T a ğ ı *(nəvazişlə).* Balam, atam oğlu, bax bu kağız mənimdir, üstündə əmim qızı İsmətin adı yazılıbdır. Atası Yaftuməli mənim əmimdir ki, Allah rəhmətinə gedib: mən də Mirzə Əsgərin oğluyam. Atam Kərbəlaya gedəndə məni əmimə tapşırmışdı. Özü də yolda Bağdadda Allah rəhmətinə getdi. Odur ki, əmim məni özünə oğulluğa götürmüşdü.

N a ğ ı *(təğəyyüri hal ilə).* Sən Mirzə Əsgərin oğlusan? O da mənim əmimdir, mən də papaqçı Yaftuməlinin oğluyam.

T a ğ ı. Vaxsey, əmi oğlu!

N a ğ ı. Tağı əmi oğlu!

*Hər ikisi qucaqlaşanda pərdə düşür.*

***P ə r d ə.***

# MƏQALƏLƏR

## TƏZƏ ŞEİR NECƏ OLMALIDIR?

Muhərrir əfəndilərim! Ədəbiyyatımızın islahatına dair məqalələr dərc etmək istəsəniz, əfkari-acizanəmi qəzetinizin bir guşəsində səbt etməyinizi rica edirəm.

Şuərayi-sabiqəmizin əşar və əbyatının təbii əhvalə muğayir olduğundan oxuyan kəslərə kəsalət və nifrət gətirməyi və heç bir surətdə insan uçun mərifət və ibrət dərsi ondan hüsulə gəlmədiyi məlumdur. Məsələn: qəddin sərv ağaçına oxşadılması, ya məhbubun üzünü bədr aya bənzətdikləri kimi və yainki qaşları yaya və kirpikləri oxa təşbih tutduqları qəbil. Və bu qədər var ki, təzə səbkdə bu anacan bizim şuəralardan bir nəfər olmayıb ki, bu mətləbə multəfit olub, öz şeirini təbii hissiyyatın məzmununa dair nəzm etmiş olsun.

Bizim burada danışdığımız bu mətləbdir ki, təzə şeir necə olmalı?

Yazı yazdığımız vaxt hər şeydən muqəddəm hissiyyata tabe olmaq gərək, tainki kəlamın oxuyanların qəlbində təsiri ola və başqasının hissiyyati-qəlbisini oyandıra. Bəs bu surətdə hissiyyatı bilmək lazımdır.

Hissiyyat iki növdür: cəli və təbii. Hissiyyati-cəliyyənin kimsəyə təsiri ola bilməz. Hissiyyati-təbiiyyədir ki, başqasına təsir edər, yazılmış şeirin maz! munları bir lövheyi-nəqqaş kimi tamam nükat və dəqaiqi-mətləbi bəyana gətirər. Məsələn: Lətif bir yazın, günəş qüruba mühəyya olur; qürubun qaranlığı dağlara, dənizlərə yavaş-yavaş yayılır, hər tərəf sakit və asudətövr, axşamın bəxş elədiyi hissiyyat hər zərrədə əyan olur, bir az sonra günəş qürub edər, sahillə-rin üzərində təməvvüc edən buxar zail olur; fəqət günün qürubuna mütəaqib ay çıxır, biz də bu mənzərəni tamaşa edib hissiyyatımızı, əfkarüxəyalatımızı yazıb təşrih etdikdə, əlbəttə ki, oxuyanlar qəlbinə artıcaq təsir bağışlayıb başqasının hissiyyati-qəlbisini oyandırar. Məsələn, bu növ nəzm etməliyik:

Yaz mövsimi endikcə səmadan yerə axşam,
Gün nuru verir dağlara min rəngi-dilaram.
Ahəstəliyiynən üfüqə eyləyir ahəng.
Şəffaf səmadə görünür şövqi-fəzarəng.
Quşlar, o fərəhbəxş çiviltiylə havadə
Öz lalələri səmtinə eylərlər iradə.
Gül bərki parıldar günəşin nuruna qarşı,
Səssiz dərədə bərq vurar cari olan su.
Bir badi-mülayim olar ol dəmdə pədidar,
Ətrafə uzaq güllərin ətrin edər isar.
Keçməz o qədər şəms olur qaib üfüqdən,

Ancaq qalır ol dəm bir işıq rəngi-şəfəqdən,
Zülmət qanadın şam çəkər ruyi-cahana.
Məxmur düşər cümleyi-zərrati-zəmanə.
Bu an, bu saat ki, hülul eylədi axşam,
Bir sümti-qəriq narə təbiət tutar aram.
Gəlməz qulağa şeylərin ol vəqt sədası,
İlla ki, axan çayların ahəngü nəvası.
Əsdikcə neyistanə bütün rəşə salır bad,
Min nəğmeyiqcansuz edər ol rəşələr icad.
Mən bir belə mövsimdə bahar axşamı dilkir,
Bir lövheyi-eşq eylər idim qəlbdə təsvir.
Başımda o ziba sənəmin şövqi-vüsalı,
Etmişdi pərişan saçı tək fikrü xəyalı.
Sərkərm o təxəyyüldə nikar ilə həmağuş,
Etmişdim o dəm aləmi bilmərrə fəramuş,
Nagah gözəl bir quş uçub gəldi sədayə.
Səsləndi ki, səbr eylə, a Səhhət, bu balayə.

*1905*

## EDADİ MƏKTƏBLƏRDƏ MİLLİ TƏRBİYƏ

«Zakavkazskaya reç» qəzeti 271-ci sayında edadi məktəblərdə ana dilinin acınacaq bir halda təlim edilməsinə dair bəhs açıb deyir ki: «Zaqafqaziyada olan edadi məktəblərdə ana dilinin təliminə etina etməmək barəsində dəfəat ilə yerli mətbuat səhifələrində uzun-uzadı məqalələr dərc edilmişdir. Bu dillərin fəna bir halda tədris edilməsinin səbəbləri çox isə də, lakin ən ümdəsi məktəb mudirlərinin ədəmi-təvəccöhləridir».

Ana dilləri bu halacan qeyri-məcburi dərs sayıldığından altıncı saatda öyrədilir. Yəni mütəallimlərin yorulmuş və başqa bir şey öyrənməyə əsla meyl və rəğbətləri qalmadığı bir vaxta təalluq edilməsidir. Hətta darülmüəlliminlərdə bu dərslərə artıq əhəmiyyət verilməsi lazım ikən, bu dərslər məramnamədə qayət ixtisar vəchilə keçilmişdir. Bəzi zükur və ünas gimnaziyalarında ana dilinin təlimi ancaq 1905—1906-cı illərdən başlanmışdır. Hətta bu məktəblərdə ana dilinin təlimi elə fəna bir vəzə qonulmuşdur ki, müəllim və mütəəllimlər kəmali-meyl və rəğbət izhar etdikləri halda yenə faydalı bir nəticə əldə edilmir. Halbuki, edadi məktəblərdə ana dilinin məüulanə qayda təhtikə alınması sair dərslərdə də şagirdlərin istedadlarının artmasına səbəb ola bilər və mütəallimlərin əqli və zehni səviyyələrini yuksəltməyə muçib olar. Təəccüb orasıdır ki, bu qədər vazeh bir həqiqət bizim iş başında olanlarımızın maarif və elm təlim və tərbiyəsinə müraqib olan möhtərəm zəvatın nəzəri-diqqətlərini cəlb etməmişdir. İstər rəsmi hökumət məktəblərində, istər qeyri-rəsmi Tiflisin birinci zukur gimnaziyasında ana dilinin təliminə dair erməni qəzeti «Mşak»ın 27-ci nömrəsində aşağıdakı sözləri oxuyuruq: «Səneyi-cariyyənin ibtidasından bəri yeni müdir Y. S. Quladze cənablarının səy və ehtimamı ilə birinci zükur gimnaziyasında olduqca ciddi və şayani-təhsin bir təbdil görünür. Qeyri məsələlər zümrəsində erməni və gürcü dillərinin təliminə də artıq müvazibət edilir. Məlumdur ki, qafqazlılar üçün bunlar bir əhəmiyyəti hayiz olan ana dili hökumət məktəblərində nəzəri-etibarə alınmır və bu dillərin təlimi həmin məktəblərdə olduqca qəmli və acınacaq bir haldadır. Lihaza birinci zükur gimnaziyasında erməni və gürcü dilləri də bu ana qədər təlim və tərbiyə qanununa zidd olan elə şəraitin altında bulunurdu. Lakin məzkur gimnaziyanın indiki müdiri Y. S. Quladzenin vaxtında həmin dərslərə dair olan təvəccöh bütün-bütünə dəyişdi. Əvvəla, hər şeydən müqəddəm, altıncı saat dərsi ləğv edilib, həmin dərslər də sair dərslərə bərabər təlim üçün qərarə alınmış beş saatın zümrəsinə idxal edildi. Saniyən, heç bir nəfər şagird ana dilini öyrənmək vəzifəsindən azad edilzməz. Binanleyh ana dili dərslər cərkəsində hesab olunur. Ondan əlavə yeni müdir cənabları dərslərin sayını da artırmaq təşəbbüsündə bulunub. Bu dərslərin gimnaziyanın səkkizinci

sinfində də təlim edilməsini qərara almışdır və həmtanin müdir cənabları erməni və gürcü dillərində olan ədəbi əsərlərin mütəəllimlərə məxsus olan kitabxanada mövcud olmasını dəxi lazım bilmişdir.

Tənzimat dairəsində el qaydası ilə bu məsələ həll və qət olunca-ya qədər nə yaxşı olardı ki, Qafqaz maarif nahiyəsinin naziri cənabları dəxi birinci zükur gimnaziyasında Quladze cənablarının yapdığı kimi sair məktəblərin hamısında ana dillərinin təlim edilməsinin məcburi bir qayda təhtinə alınmasına əmr verə idi. Unutmamalıdır ki, hökumət məktəblərində ana dilinin yalnız səthi surətdə təlim edilməsi qətiyyən istəniləcək bir şey olmadığından əlavə, yerli əhalinin milli mədəniyyət nöqteyi-nəzərilə də faydasızdır».

«Zakavkazskaya reç» qəzeti «Mşak»ın bu sözlərini yazdıqdan sonra öz tərəfindən bunu əlavə edir ki: «Quladze cənabları 5-ci zükur gimnaziyasında müdir olduğu zaman yenə də ana dilinin qayda üzrə təlim edilməsinə az əhəmiyyət vermirdi. Quladze cənablarının həmin səyi və təvəccöhü 5-ci gimnaziyanı hər bir cəhətdən məmduh və müstəhsən bir dərəcəyə isad etdirməsinə səbəb oldu. Belə ki, Quladze cənablarının müdirliyi vaxtında beşinci gimnaziya şagirdləri tərəqqi və təali cəhətindən Qafqaz maarif nahiyəsinin nəzarəti altında olan məktəblərin arasında birinci mövqeyi ehraz etmişdi».

Möhtərəm qonşularımızın öz qəzet sütunlarında yazdıqları bu bəyanatı ərz və izah etdikdən sonra tərəfi-acizanəmdən əlavə olaraq millət başbilənlərinin xidmətlərinə ərz olunur ki, ana dilini bilməyən bir uşağın şifahən öyrəndiyi yalan-yanlış şeylər onun zehnində mələkə bağlarmı? Bu qədər ümumi və ictimai qüsurlarımız, millətimizi tanımamağımız məhz öz dilimizi bilməməzlikdən deyilmidir? Belə isə, siz cənablar, şəri borcunuz deyilmidir ki, bu məsələ xüsusunda çalışasınız? Hər kəsə vacib olduğu halda az-çox fərz deyilmidir? Madam ki, fəxamətli canişin həzrətləri dini ehtiyacatımıza dair hər bir istidadlarımızı ifa etmək mərhəmətindədirlər, əcəba bu fərz mətləbdən ötəri indi ərzi-ehtiyac etməyib nə vaxt edəcəksiniz?

Qonşularımız erməni və gürcülərin ev tərbiyələri qat-qat bizlərdən artıq olduğu halda onlar bu yolda var qüvvələri ilə çalışarkən, bizim başbilənlərimiz neçün sükutu ixtiyar etmişlər?

Qaliba, Hökumət məktəblərində oxuyan cavanlarımızın millətləri ilə əlaqəsiz olmalarında kimlər müqəssirdir? Millət bu yardımı siz cənablardan gözləməyib kimlərdən gözləsin?

***1915***

## MƏKTƏBLƏRDƏ ANA DİLİ

«Mşак» qazetinin son 9 və 11-ci nömrələrində müxtəlif imzalar ilə «Hökumət məктəblərində ana dili sərlövhəsi ilə məqalələr nəşr edilib erməni və gürcü dillərinin hökumət məктəblərində təəssüf olunacaq bir halda tədris edilməsin mövqeyi-müzaкirəyə qoymuşdur. Fəqət bu dəfə yenə «Mşак»ın 18-ci nömrəsində baş məqalə olaraq bu məsələdən bəhs açıb gürcü və müsəlmanları da bu yolda müttəhidən çalışmağa dəvət etdiyinə görə həmin məqaləni ixtisar vəchilə tərcümə edib qarenin кərami-həzəratına təqdim edirəm. Məqalə sahibi yazır кi:

«Bu günlərdə Valeri Bryusov oxuduğu mühazirəsində möhкəm və mətin dəlillər ilə sabit etdi кi, erməni əizzəsi, yaxud təzкirəli mütəxəssislər (кi, darülfünun qurtarmış diplom sahibi olan doктorlar və mühəndislər və dəva vəкillərindən ibarətdir) öz ana dillərindən və öz tarix və ədəbiyyatlarından bixəbərdirlər. Və bunun yeganə səbəbi o dərslərin hökumət məктəblərində qeyri-məcburi olmasıdır. İstər erməni, istər gürcü cavanları edadi məктəbləri iкmal etdiкdə bu ədəbiyyat və tarixlərinə biganə qalırlar. Darülfünuna davam etdiкləri halda bəzən öz dillərini öyrənməyə meyl və rağbət göstərirlərsə də, müqəddəmati şeylər bilmədiкlərindən yenə də istənilənaticə hasil olmur. Ana dilinin əhəmiyyət və lüzumunu hökumət ərbabı və maarif vəziri təsdiq edir. Zira кi, tərbiyeyi-ətfal nöqteyi-nəzərincə bədihiyyati-əvvəliyindəndir кi, lazımınca öz ana dilini bilməyən bir çocuq hökumət dilini öyrənə bilməz.

Madam кi, bu həqiqət meydandadır, ana dilini ciddi və əsaslı bir qayda üzrə qoymalı və məcburi dərslər zümrəsinə daxil etməlidir, Çünкi dərslər məcburi olduqda məктəb müdirinin də qanun muçibincə təvəccöh və etinasını cəlb edəcəкdir; sair məcburi dərslər təlim edildiyi кimi, ana dili də meyl və həvəs ilə oxunacaqdır. Belə olduqda, əlbəttə кi, məlum olan zəvat da mütəxəssis olan ərbabi-daşşdən təyin ediləcəкdir. Sair dərslərin müəllimləri кimi, ixtiyar və imtiyazi-məxsusəyə dara olub öz vəzifələrini icra etməкdə vicdani və qanuni bir məsuliyyət altına alınacaqlar. Zənnimcə erməni millətí öz rüəsalarının və başbilənlərinin, xassə кatalікos çənablarının və padşahlıq duma məbusanının vəsatəqə ilə həmçinin edadi məктəblərdə olan valideyn çəmiyyətinin çəddü-çəhdilə bu xüsusda çalışmağı özlərinə borc bilməlidirlər.

Lazım olan yerlərə ərzi-hal verib hökumət məктəblərində ana dilinin məcburi bir qayda və qanun təhtinə alınmaq şərəfinə nail olarlar.

Şəкsiz кi, gürcü və müsəlmanlar da bu mətləbdə bizimlə müttəfiq olub çalışarlar. Necə кi, Qafqaz maarif müdiri cənabları da dəfələrlə ana dilinin lüzum və əhəmiyyətini təsdiq etmiş və bu dərsin

qayda ilə təlim edilməsinə rağbət göstərmişdir. Ümidimiz çoxdur ki, cüzi hümmət edilsə, bu qanuni və haqiqi xahişimiz tezlik ilə suratpəzir olar».

«Mşak»ın bu məqulanə təklifinə bilmirəm bizim başbilənlər nə deyəcəklər? İştirak edəcəklərmi, ya yox?

Münasib məqam ikən onu da ərz edim ki, həmən Bryusov Bakıda erməni ədəbiyyatına dair oxuduğu mühazirəsində zimnən demişdir ki, «Qafqaz türklərinin ədəbiyyatında o qədər calibi-nəzər və şayani-etina bir şey olmadığından ondan vaz keçirəm». Necə ki, bu barədə «Zakavkazskaya reç» qəzetində də bir işarə var idi.

Əvət, professorun bu bəyanı türklər haqqındakı cəhalətindən və onlara qarşı laqeydliyindən olmuşsa da, sözü bəzi xəbərsiz nəzərlərdə tutarlı ola bilər. Bu barədə biz özümüz müqəssirik. Çünki ən vəsi və ən məbzul səhayifi-ədəbiyyəmizi və lisanımızın keçirdiyi ədvari-tarixiyyəyi mürəttəb və tədəvvün bir şəklə qoymaq yenə də bizim borcumuzdur. Ərəblərin, farsların, rusların ədəbiyyatından daha qədim olan o dağınıq və pərişan bir halda kuşeyi-nisyana atılmış asari-ədəbiyyəmizi təhərri və tədvin etmək bizim ədiblərimizin vəzifəsidir. Madam ki, biz bu xüsusda təkahil və təkasili ibraz edirik, əlbəttə ki, əcnəbilər ona ətfi-nəzər etməzlər.

Məsələn, o cümlədən kiçicik bir misal: madam ki, Firudin bəy Köçərlinski cənablarının Qafqaz ədəbiyyatına dair cəm etdiyi məcmuə neçə sənələrdən bəri cəmiyyətlərimizin əlində bazicə olaraq qalmışdır, biz özümüz elə əsərlərə qədr-qiymət verməyib, nəşrinə hümmət göstərmirik və belə müəllifləri təğrib və təşviq etmirik, bir daha yeni müəlliflər yeni-yeni əsərlər yazmağa həvəs edərmi? Haşa və kəlla! Belə olduqda sairin bizi nərədən bilib və nə ilə tanıyacaqdır? Yaxud lisan və ədəbiyyatımızı məktəblərdə oxumaq üçün var qüvvəmizlə çalışmazsaq, övladımız onları necə bilər və nərədən öyrənər? Ümidvarız ki, bizim də başbilənlərimiz, bizim də qeydkeşlərimiz erməni və gürcülərlə bərabər bu yolda çalışacaqlar və bu məşrun istidamız dərəceyi-qəbulə yetişəcəkdir.

*1916*

# TƏRCÜMƏLƏR

## BALIQ, ÖRDƏK VƏ XƏRÇƏNG

Bir balıq, ördək ilə bir xərçəng,
Bir zaman oldu üçü həmahəng.
Yüklücə bir araba çəkmək üçün,
Öz yerindən onu dəbərtmək üçün,
Qoşulub çəkdilər isə nə qədər,
Oldu zəhmətləri axırda hədər.
Araba getmədi əsla qabağa,
Deyəsən batmış idi bir batağa.
Bəs nədən ötrü bu iş müşkül idi?
Yük deyil çox da ağır, yüngül idi.
Ördəyin meyli göyə uçmaq idi,
Balığın qəsdi suya qaçmaq idi.
Gərçi xərçəng də güc etməkdə idi,
Fikri, heyfa, geri getməkdə idi.
Burda kim haqlı, müqəssir kimdir?
Qoy onu bilsin o kim hakimdir.
Bu qədər biz bilirik ki, bu cəhət —
Qalmış orda araba bihərəkət.

## CÜTÇÜ VƏ İLAN

Qış günü bərk çovğun idi bir səhər,
Cütçü baba yoldan edirdi güzər.
Gördü qar üstündə yatıb bir ilan,
Şiddəti-sərmadan olub nimcan.
Şaxta qurutmuş bədənin sərbəsər,
Zərrəcə yox hissdən onda əsər.
Xatiri yandı ilanın halına,
Qıldı tərəhhüm onun əhvalına.
Qapdı götürdü qar üzündən onu,
Kəndə gətirdi o əziz mehmanı.
Od qırağında ona verdi məqam,
Mümkün olan qədr elədi ehtiram.
İsti əsər etdi qü bir an ona,
Gəldi o saat deyəsən can ona.
Qovzadı yerdən başın ol bədgühər,
Oldu vəlinemətinə həmləvər.

Söylədi cütçü: a nəməknaşünas,
Nemətə böylə olunurmu sipas?
Böylə deyib qapdı ocaq daşını,
Əzdi o saət ilanın başını.

*1909*

## QURD VƏ QUZU

Su kənarında qəflətən, naçar
Bir quzu bir gün oldu qurda düçar
Quzu qorxub dayandı xeyli məlul.
Qurd olarkən su içməyə məşğul
Fikri oyandı kim, tapıb nə desin,
Quzunu bir bəhanə ilə yesin.
Dedi: —Axmaq quzu, məgər korsan,
Məni yoxsa görüb də saymırsan?
De görüm bir neçün suya girdin?
Niyə sərçeşməni bulandırdın?
Qorxa-qorxa quzu dedi: — Əcəba,
Mən ki, səndən dayanmışam aşağa.
Səni gördükdə etmərəm cürət,
Su kənarına gəlmərəm heç vaqt.
Qurd acıqlandı, söylədi: — A yasar,
Səndə var cürbəcür yaman hallar.
İl yarımdır eşitmişəm bunu mən:
Danışırsan dalımca çox sözü sən.
Quzu and içdi, gəldi fəryada:
— Yox idim mən o vaxt dünyada.
Sən bilirsən, mənim yaşım azdır,
Anadan olduğum həmin yazdır.
Qurd cavab tapmadı, qəzəbləndi,
Qışqırıb çox acıqlı səsləndi:
—Tutalım, sən o vaxt olmamısan,
Anadan ya ki, heç doğulmamısan,
Var imiş ki, atan, anan o zaman,
Nə deyirsən, bu doğrudur, ya yalan?
Bu yerə çün yetirdi qurd sözünü,
Tutdu, yırtdı, dağıtdı ol quzunu.

*1909*

*M. Y. Lermontov*

## MITSIRİ

*(poemadan bir parça)*

1859-cu ildə Şeyx Şamil əsir oluncaya qədər çar Rusiyası istila ordusu ilə Dağıstan arasında uzun müharibələr gedirdi. Bu müharibələrin birində bir rus generalı əsir düşmüş altı yaşında bir naxoş dağıstanlı uşağını Gürcüstan monastırlarının birinə gətirir. Burada rahiblər bunu müalicə edib sağaldırlar və tərbiyələri altında onu rəhbanlığa hazırlayırlar.

Əsirin həmişə fikri və xəyalı vətənə qaçmaq imiş. Bu xəyal ilə bu əsir cavanlıq sinninə erdikdən sonra bir gecə fırtına və borandan istifadə edərək qaçır. Rahiblər isə bunu təqib edərək üç gündən sonra yaralı və zəif bir halda tapıb yenə monastıra gətirirlər. Oğlan gün-gündən elə zəifləşir ki, çox çəkmədən öləcəyi aşkar olur. Ona görə rahiblərin biri onun yanına tövbə və istiğfar verməyə gəlir. Bu da labüd qalaraq axırıncı gücü ilə qalxıb deyir:

### I

—Gəlmisən məndən almağa iqrar,
Eyləyim ta ki tövbə, istiğfar.
Çox sağ ol, xeyli razıyam mən həm,
İstərəm bir nəfər ola həmdəm —
Ki, deyəm ta ona bu qəmlərimi,
Çəkdiyim möhnətü ələmlərimi,
Bəlkə tutqun ürəkciyim açıla,
Ruhumun tər dumanları qaçıla.
Kimsəyə mən yamanlıq etməmişəm,
Bəd əməllər dalınca getməmişəm,
Agah olmaq dilərsən işdən əgər,
Sənə bir nəfi yox onun o qədər.
Amma bir də ürəkdə hər nə ki var
Lazımınca açıb deməkmi olar?
Mən az ömr etmişəm səbavətdə,
O da keçmiş bütün əsarətdə.
İki böylə ömür verərdim mən,
Ya bacarsam, dəyişdirərdim mən,
Öylə bir ömr ilə ki, qorxuludur,

Dəhşətü iztirab ilə doludur...
Mən tanırdım bir iqtidar, ancaq
Məndən almış o ixtiyar ancaq.
Mənə hökm eyləmişdi bir xülya,
Atəşin şövq, odlu bir sövda.
O mənim fikrimi dolandırdı,
Qəlbimə düşdü, yaxdı, yandırdı
O məni hücrədən kənarə çəkər.
O məni dəştü guhsarə çəkər,
Bir gözəl, bir sevimli dünyayə,
Qaynayan, pürhəyatü qovğayə.
Orda dəhşət içində leylü nəhar
Bulud altında gizlənir qayalar
Adəm oğlanları üqabəsa,
Gəzər azadə orda bipərva.
Mən bu eşqi ürəkdə gizləmişəm,
Gecələr göz yaşımla bəsləmişəm.

## II

Dəfələrlə eşitmişəm, qoca, mən —
Ki, ölümdən qutarmısan məni sən.
Nə üçün?.. Qalmışam həzin, tənha,
Zillət ilə böyümüşəm burada.
Mən o solğunca yarpağam lərzan —
Ki, qopardıb atıb məni tufan.
Bu qaranlıq ev içrə bisahib,
Ürəyim tifl, taleim rahib.
Mən müqəddəs ata-ana sözünə
Tapmadım bir əvəz olan kəlmə.
Qoca! Əlbəttə, sən çox istəmisən,
Həm bu babətdə səy eyləmisən, —
Unudam ta ki, madəri, pədəri,
O müqəddəs, o dadlı kəlmələri.
Yox, əbəs fikrdir, xətadır bu,
Nabəca, həm də narəvadır bu.
Mənlə o kəlmələr doğulmuşdur,
O mənim cüzi-canım olmuşdur.
Gördüm ağyarın aşinaları var,
Vətəni, qövmü, əqrəbaları var;

Amma yoxdur mənim atam və anam,
Olara pis günümdə arxalanam.
Nə də bir yari-mehribanım var,
Türbəsindən nə də nişanım var.
Bu yanan sinəmi oğuşdurram,
Başqa bir sinəyə qovuşdurram,
Tanışım olmaz isə də o mənim,
Yalnız olsun sevimli həmvətənim.
Heyf, əcəl gəldi, üstümü aldı.
Daha könlümdə arizum qaldı.
Ölürəm indi burda, qürbətdə,
Xanimansız, yetim, əsarətdə.

III

Bilmək istərmisən azadlıqda
Mən nələr görmüşəm uşaqlıqda?
Görmuşəm çox gözəl-gözəl şeylər;
Söyləsəm gər, bəyani tul çəkər.
Arasından dumanların baxaraq,
Görünür, gördum, ol zaman çox uzaq,
Təpəsi sanki parlayan almaz,
Uca, tərpənməyən, mühib Qafqaz.
Onu gördüm, gönül səfalandı,
Nə üçün, bilmədim, cilalandı.
Mənə sanki o anda söylədilər:
Bax, sən orda keçirmisən günlər.
Evmiz? düşdü onda xatirimə,
Gəldi, durdu, göründü gözlərimə
Göymüzün o sevimli mənzərəsi,
Kölkədə düşmüş evləri, dərəsi.
Eşidirdim mən atların səsini,
Qəryəyə axşam üstü dönməsini,
Atların kişnəyib yüyürməsini,
Aşina itlərin də hürməsini.
Yadıma düşdü hampalar, qocalar,
Ayın aydınlığı olan gecələr —
Ki, bizim doqqaza gəlirlər idi.
Yığılıb köftku edirlər idi.

Bu xəyallar təmami növbət ilə,
Nəzərimdən savışdı sürət ilə.
Mən bu əfкara daldığım yerdə
Zahir oldu atam bərabərdə.
Necə evmizdə görmüşəm o sayaq
Geymiş idi dəmir geyim, qolçaq.
Cümlə qovğa libası əynində,
Beldə xəncər, tüfəngi çiynində.
İri, tutqun gözü, acıqlı qaşı,
Etinasız, qürurlu кəc baxışı.
Bir də düşdü anam, bacım yadıma;
—Yetsin Allah qəriblərin dadına,
Biri cantəк məni qucaqlar idi,
Biri lay-lay deyib də oxşar idi.
Dərələrdən əsən səfalı yeli,
Dadlı, şırşır axan dayazca seli,
Sarı çay qumların qucaqlar idim,
Üzərində bütün gün ağlar idim.
Su üzündən кeçirdilər quşlar,
Dəstə-dəstə gözəl qaranquşlar.
Çox sevinclə qanad açarlar idi,
O qədər alçacıq uçarlar idi, —
Toxunurdu qanadları sulara,
Çox baxırdım həvəslə mən olara.
Bir də gəldi xəyalıma кöyümüz,
Rahət, asudə yurdumuz, evimiz.
Ocağın qarşısında hər axşam
Əyləşib söhbət eyləyirdi babam:
— İştə, кeçmiş zamanda insanlar
Necə rahət yaşardılar onlar.
Vardı dünyada, xeyir, həm bərəкət,
Bolluq idi, ucuzdu hər nemət,
O zamanlarda şimdidən afaq
Pəк cəlallıydı, həm də pəк parlaq.

## IV

Bilməк istərmisin — bayaq demişəm —
Ki, azadlıqda mən nə eyləmişəm?
Mən bu üç gündə ömr edib rahət,

Yaşamaqdan çox almışam ləzzət.
Olmasaydı əgər bu üç xoş gün,
Mənim ömrüm olurdu pək düşkün
Qocalıqda sənin həyatıntək,
Çəkdiyin qəmli müşkülatın tək
Var idim çoxdan ol təmənnadə,
Dolaşaydım çıxıb bu səhradə.
Bir görəydim gözəlmidir bu cahan,
Bir biləydim neçün doğub insan?!
Məhbəs üçünmü ya azadlıq üçün,
Dərdü qəm, qüssə, ya ki şadlıq üçün.
O gecə yıldırım, yağış, tufan
Sizi qorxutmuş idi bipayan.
O zaman siz yıxıldınız xakə,
Qıldınız səcdə xaliqi-pakə.
Qapını mən üsulluca açdım,
Fürsəti fotə verməyib qaçdım.
Sevinirdim görəndə fırtınayı,
Sel kimi səslənən köpüklü çayı.
Buluda eylədikcə ətfi-nəzər,
Tutur idim əlimdə şimşəklər.
Bu divarlar içində, söylə mənə,
Vermək üçün nə mümkün idi sənə?
Əvəzində o eşqi-xülyanın
İştidadında böylə tufanın,
Odlu qəlbimdə eyləyib həycan,
Məni etmiş bu növ sərkərdan.
Çox yüyürdüm çölə, dağa, dərəyə,
Bilməyirdim vəli neçün, nerəyə.
Hava tutqun, bulud dumanlıq idi,
Gecə hərçənd pək qaranlıq idi.
Qorxmayırdım gedəndə mən yalnız,
Göydə əsla yox idi bir ulduz,
Ta işıqlandırıb çətin yolumu,
Bir görəydim də bəlkə sağ-solumu.
Ormanın saf havasını, qaçaraq,
Nəfəs almaqla şad idim ancaq.
Çox yüyürdüm, yoruldum axırda,
Taqətim həp kəsildi bir yerdə,

Uzanıb otlar içrə gizləndim,
Bir qədər dinlədim, ürəкləndim.
Yoxdur arxamca anladım кi, gələn,
Səcdə qıldım sevindiyimdən mən.
Keçmədi çox, dayandı hər tufan,
Oldu bir az işıq havada əyan,
Fərq verdim o halda mən çox uzaq,
Görünən dağların başın ağ-ağ.
Nəqş кimi gəlirdilər nəzərə,
Mən uzanmışdım ol zamanda yerə.
Hərəкətsiz düşüb də qalmış idim,
Paк dərin bir süкuta dalmış idim.
Dərələrdə ulardı çaqqallar,
Zənn edərdim кi, bir çocuq ağlar.
Gah xışıldardı xallı, parlaq ilan,
O qara daşların arasından.
Amma mən zərrəcən darılmaz idim,
O qaranlıqda heç də qorxmaz idim.
Çunкi mən də, qoca, inan, o zaman
Vəhşilər təк qaçırdım insandan.
Sürünüb əfi təк uzanmış idim,
Gizlənib yerdə daldalanmış idim.
Bir ağac vardı orda xeyli uca,
Çox əziyyətlə dırmanıb ağaca,
Nerə etdimsə diqqət ilə nəzər,
Meşə gördüm dağı, daşı yeкsər.
Endim ol vəqt çarəsiz aşağı,
Başladım zar-zar ağlamağı.
Ürəyim çatlayırdı qeyzimdən,
Gəmirirdim soyuq və yaş yeri mən.
Gözyaşım axdı torpağa o qədər,
Durdu onda alovlu şəbnəmlər.
Etiqad et buna yəqinən, inan:
İstəməzdim кoməкliк insandan.
Çünкi səhrayi vəhşilər кimi mən
Yad idim insan adlıya əbədən.
Qoca, and olsun eylə sən bavər,
Bir dəqiqə səsim çıxaydı əgər,
Diləsəydi dilim dönüb yardım,
Rişəsindən onu qopardardım.
Var yadında yəqin, bilirsən sən,
Çocuq iкən heç ağlamazdım mən.
Laкin orda utanmadım əsla,
Ağladım zar-zar bipərva.

Orda bir kimsə yoxdu ta utanım,
Gizlədim ağlamağı, ta dayanım.
Meşəlikdi yanım-yörəm yeksər,
Bir də tək, göy üzündə qürsi-qəmər.
Ormanı eyləmişdi qərq ziya.
Bir qala vardı məndən az oyana,
Basıb ötmüşdü qumla cığ yerini,
Bürümüşdü ağac da yanlarını.
Düşmüş idi ora ayın işığı,
Aydın etmişdi qumlar ilə cığı.
Keçdi bir kölkə qəflətən orda,
Bənzədi parlayan gözü qurda.
Sonra gördüm ki, vəhşi bir heyvan
Oldu dəhşətlə ortalıqda əyan.
Sıçradı qumlar üzrə, atlayaraq,
Oynadı, yatdı, durdu fırlayaraq.
Tanıdım, pars idi, o heyvanı,
Ormanın daimi nikəhbanı.
Gəmirirdi həvəslə bir gəmigi,
Ağ gümüş tək parıldayırdı tükü.
Qanlı gözlə baxırdı göy üzünə,
Havlayırdı, dururdu ay üzünə.
Diklənib gah aya mırıldardı,
Titrədib quyruğun da haylardı.
Bir tikanlı ağac qapıb yerdən,
Gözlədim qovğanın zamanını mən.
Susadım arslan kimi qanına,
Hazır oldum hünərlə meydanına.
Bəli, çarəm nədir? Qəzavü qədər —
Ömrümü başqa yolda qıldı hədər.
Yoxsa şimdi vətəndə olsa idim,
Tay-tuşum içrə mən də olsa idim,
Bil, yəqin qəhrəman olurdum mən,
Adlı bir pəhləvan olurdum mən.

V

Gözləyirdim durub da pusquda mən,
O da duydu hənirtimi birdən,
Qəflətən nalə çəkdi, atlandı,
Bütün ətrafı basdı sarsıntı.
Pəncəsiylə yerin qumun, daşını

Qazdı кinlə, qıcırdadıb dişini.
Ayaq ustundə sonra diк qalxdı,
Uzanıb bir mənə təraf baxdı.
Etdi birdən quduz кimi həmlə,
Məni qorxutdu əvvəl ölməklə.
Leyк mən verмədim ona fürsət,
Onu vurmaqda eylədim sibqət.
Mənim vurmam da eylə cəld oldu,
Ağacım balta təк başın böldü.
Çəкdi, insan кimi o dəm nərə,
Fırlayıb ta dəmin sərildi yerə.
Yarasından bulaq кimi al qan
Töкülürкən, dubarə nərəzənan
Sinəmin üzrə qalxdı, atlandı,
Bu sayaq qovğamız alovlandı.
Verмədim mən macal ona, durdum,
Ağacı hülqünə soxub burdum.
İкi dəfə o hərçi qırpındı,
Axırıncı gücüylə tərpəndi.
İкi yoldaş кimi qucaqlaşdıq,
Dolaşıb cüt ilan кimi aşdıq.
Çevrilib yer üzündə hər iкimiz,
O qaranlıqda çox dolaşdıq biz.
Elə qorxunc idi o dəm halım,
Yırtıcı, vəhşi pars кimi zalım,
Ürəyim odlandı qeyzimdən,
Bağırırdım daxi onun кimi mən.
Deməli, mən də pars кimi o zaman,
O tərəflərdə doğmuşam anadan.
Belə insan кimi danışmanı mən,
San unutmuşdum ol zaman qətən.
Qəzəbimdən, inadü кinimdən
Elə səslər çıxırdı sinəmdən,
Deyəsən кim, bu sözlərə heç vəqt
Dil uşaqlıqda etməmiş adət...
Düşmənim düşdü gücdən, əlhasil,
Nəfəs aldı ağır-ağır, müşкil.
Məni axırda bir də bərк sıxdı,
Çanağından bəbəкləri çıxdı.
Sonra saкit bir uyquya getdi.
Göz yumuldu, bəbəкləri itdi.
Leyк can verdi o dilirana,
Rubəru düşmən ilə mərdanə,
Necə кim qovğada mübarizlər —
Ölsə də, bir igidliк ilə ölər.

## VI

Sən görürsən sinəmdakı yaranı,
Çox dərindir kəsilməyir də qanı.
Parça-parça didilmiş ət, dəridir,
İti caynaqların əsərləridir.
Hələ onlar sağalmamış, bir bax,
Həm saralmaz gər örtməsə torpaq.
Məni ağuşuna çəkəndə məzar,
Onda bunlar həmişəlik sağalar.
Çıxdı yaddan həman dəqiqə yaram,
Səy qıldım ki, tez qaçıb qutaram.
Nə qədər vardır qüvvətim yenə də
Gəzdim avarə sübhətək meşədə.
Leyk mən çəkmişəm əbəs zəhmət,
Yox imiş taleyimdə ol qismət.
Verməyən vəqt mən qəzayə riza,
Gülür imiş mənə o dəmdə qəza.
Meşəlikdən çıxanda oldu səhər,
Sübh işıqlandı, batdı kövkəblər.
Gün çıxıb dağ başından uçdu duman,
Qaralırdı qalın, qara orman.
Görünürdü uzaqda tək bir kənd,
Gönlüm olmuşdu bir qədər xürsənd —
Ki, eşitdim yaxındakı dərədən
Güclü gumbultu, bərk külək birdən,
Oturub dinlədim eşitdikcə,
Artdı ol səs qulağa yetdikcə.
Dönüb arxa tərəf qılanda nəzər
Həp uzaqdan göründü iki nəfər.
Tanıdım ki, gəlir dalımca mənim,
Qorxudan əsdi, titrədi bədənim.
Bildim indi gəlib məni tutacaq,
Bir də bu məhbəs içrə qaytaracaq.
Bu qədər çəkdiyim əziyyətlər
Hamısı getdi bədə, oldu hədər.
Bu qədər iştiyaq ilə neçə gün
Çalışıb səbr qılmışam nə üçün?
Ondan ötrü ki, mən də azadə

Yaşayıb ömr edəm bu dünyadə.
Taqətim qalmayıb daha cəbrə,
Ürəyimdə aparıram qəbrə
Həsrətin çəkdiyim əziz vətənin
İştiyaqi-vüsali ilə sənin
Ol həqarətli rəhmü rəfətini.
Həm bu yersiz olan məzəmmətini
Hələ mən şübhəliydim onda, bu cür
Zənn edərdim: bu gördüyüm yuxudur.
Ta ki, səsləndi qəflətən naqus,
Oldum ol vəqt büsbütün məyus.
Çün tüfuliyyətimdən indiyədək
Məni daim bu səs edər diltəng.
Dadlı-dadlı, gözəl-gözəl röyam
Bütün olmuş onun səsilə həram.
Uyqu hər vəqt ki, qapardı məni,
Mən görərdim müdam əziz vətəni.
Bacı-qardaşımı, ata-anamı,
Yar-yoldaşımı, nənə-babamı,
Hürr, azadə kuhu səhranı,
Harın atlarla, ilxıçı, çobanı.
Qayalar içrə daldı çəngü cidal,
Edir idim bu barələrdə xəyal...
Dinlədim ol sədanı qüvvətsiz,
Ahü əfğansız, eşqü həsrətsiz.
Eşidən vəqtdə həman səsi mən,
Elə bildim ki, çıxdı qəlbimdən
Biri guya külüng ilə vurdu,
Sinəmin taxtasın əzib qırdı.
O zaman anladım itib amayim,
Qaldı bir də qiyamətə diləyim.
Qəti surətdə vazeh oldu mənə —
Ki, məhal əmrdir, dönəm vətənə.

## VII

Sözümü mən daha tamam elədim,
Cümlə təqririmi xitam elədim.
Söylədim mən qəziyyənin olanın,
Sən bilirsən yəqin işin qalanın.

Ya inan, ya inanma heç sözümə,
Fərqi yoxdur, müsavidir gözümə.
Məni bir şey edər fəqət məhzun —
Ki, vətəndə mən olmadım mədfun.
Məni ol xaki-pak isitməyəcək,
Soyumuş nəşimi çürütməyəcək.
Duyğusuz dörd divar içində mənim
Bu acı sərgüzəşti-pürmihəşş
Heç kimin könlünü bulandırmaz,
Ürəyin, az da olsa, yandırmaz.
Tez bu məchul adam çıxar yaddan,
Qalmaz əsla nə ad, nə san, nə nişan.

## VIII

Əlvida, ey ata, xudahafiz!
Əlini ver mənə, xudahafiz!
Gör necə od tutub yanar bədənim,
Var uşaqlıqdan od sinəmdə mənim.
Quş kimi bulmayır da danəsini,
Yandırır şimdi həbsxanəsini.
Etmək istər o canibə övdət,
Vermiş aləmlərə qəmü möhnət.
Leyk bunlar mənə nə lazımdır,
Gərçi ruhum behiştə azimdir.
Qoy o cənnətdə aşiyan tutsun,
O müqəddəs yeri məkan tutsun.
Tifl ikən mən vətəndə ki, var idim,
Uçurum dağlar üzrə oynar idim,
Əgər o şanlı günlərin yerinə,
Ya o qiymətli ellərin birinə,
Versələr min behişt rövzəsini,
Bil, dəyişməm bir dəqiqəsini!..
Bilirəm, az qalıb ki, çıxsın can,
Çox da çəkməz, gəlir çatır o zaman.
Buyur, ol gün məni aparsınlar,
Bağımızda, o yerdə qoysunlar.
Orda ki, yasəmən gül açmışdır,
Bütün ətrafa ətir saçmışdır.

Oranın çox səfalıdır havası,
Ağ çiçəklər açıb akasiyası.
Günəşin qarşısında yarpaqlar
Titrəyəndə qızıl kimi parlar.
Var gözəl laləsi, yaşıl çəməni,
Orda qoysunlar əmr eylə məni.
Bir doyunca olum nəzərəndaz,
Görünür orda çün bizim Qafqaz.
Bəlkə ordan səba yeli sovuşa,
Bu bizim bağa bir güzarı düşə.
Həsrət ilə baxanda mən vətənə,
Gətirir ayrılıq salamı mənə...
Bəlkə axır nəfəs alan yerdə,
Eşidəydim vətən səsin bir də.
Elə fikr eylərəm o saətdə,
Başım üstündə vəqti-rehlətdə
Bir əziz doğma qardaşım vardır,
Sevgili yarı yoldaşım vardır.
Uzadıb diqqət ilə əllərini,
Siləcək alnımın sərin tərini.
Sanaram, yoldaşım əziz kəs ilə,
Məni oxşar həzin-həzin səs ilə.
Yataram bu xəyal ilə rahət,
Daha heç kimdən eyləməm nifrət!.

*1910*

*Əmir Xosrov Dəhləvi,*

## OĞLUMA NƏSİHƏT

Xızrım, ey əziz canım oğlum!
Ey çeşmeyi-zindəkanım oğlum!
Sən tiflsən indi, çarüdəhmah,
Dünya işinə deyilsən agah.
İndi sənə eylərəm vəsiyyət,
Əlbəttə, sözümdən etmə qəflət.
Vəqta кi, oğul, cavan olarsan,
Rövşəndilü кarıdan olarsan,
Heç vəqt nəsihətim unutma,
Cahillər ilə əlaqə tutma.
Qoydum o səbəblə Xızr namın,
Ta daimi olsun ehtiramın.
İstərsən əgər nicatın olsun,
Xızrım, əbədi həyatın olsun,
Кəsb eylə maarifü məani,
Ömrün ola ta кi, cavidani.
Laкin olamaz bu ömr cavid,
Ta olmuyasan misali-xurşid.
Elm əhlin ucaldar asimanə,
Gün кimi şəfəq salar cahanə.
Amma üzünə açılmaz ol gənc,
Ta çəкməyəsən əziyyətü rənc.
Etsən tiкana əgər təhəmmül,
Gülşəndə dərərsən ol zaman gül.
Mədəndə çıxar qabaqca torpaq
Axır bulunar tilayi-bərraq.
Bax, neyşəкərin кəsəndə bəndin,
Tutmuş qamış içrə gizli qəndin.
İbrət elə sadə bu məsəldən,
Zənbur ilə qisseyi-əsəldən.
Ol elm cəhadının şəhidi,
Ol hər iкi aləmin səidi.
Elm əhli olarкən etmə, amma
Təzvir ilə cəm mali-dünya.
Et qəlbini zəngi-hiylədən saf,
Ol alim olarкən əhli-insaf.

Quldurluğa elmi alət etmə,
Növi-bəşərə xəyanət etmə.
Öyrən o sayaq gözəl fəvaid
Ta nəfiç ola ümuma aid.
Cəm eylə o qism danişü fən
Sevsin səni ta ki, dostü düşmən.
Dünya malına çox olma mail,
Ancaq çalış ol ülumə nail.
Dövlət o deyil ki, bihədü mər
Cəm eyləyəsən tilayi-əhmər.
Dövlət odur əmn ola məzacın,
Həm olmaya xalqa ehtiyacın.

*1909*

*A. S. Puşkin*

## QAFQAZ

Qafqaz altımdadır, ən müdhiş olan zirvədə mən —
Tutmuşam tək uçurum, qarlı dağ üstündə qərar.
Qaraquş uçmağa qalxarsa uzaq bir təpədən,
Nə qədər yüksək uçarsa, yenə dövrəmdə uçar.
Buradan mən görürəm çeşmələri qaynamada,
Şübhəli, qorxulu uçqunları ilk oynamada.
Burda məndən aşağı göydə bulut oynaqlar,
Arasından bulutun dağda su qaynar, çağlar,
Görünür onların altında böyük daz qayalar,
Onun altında zəif cığ, qurumuş kol-kos var.
Daha ondan aşağı rəngi yaşıl ormanlar,
Orda quşlar ötər, ətrafı gəzər ceyranlar.
Sığınıb dağda yapılmış komaya insanlar;
Dırmaşır sərt qayalar üzrə bütün heyvanlar.
Yürüyür dağ aşağı orda çoban da dərəyə,
İştə məftunlaşır insan bu gözəl mənzərəyə.
Orda kim, daim Arağva çayı qəltan-qəltan,
Çarparaq kölgəli sahillərə eylər cərəyan.
Dar keçid içrə fəqir atlı da pünhan oluyor,
Orda şiddətlə Terek nəhri xüruşan oluyor,
Oynayır, çəng eləyir daz qayalarla döyüşür,
Acımış dalğaları, daşları çeynər, ötüşür.
Tömə görmüş qəfəsi-ahən içindən san şir —
Çırpınır, ğərriş ilə sahili guya gəmirir.
Leyk, əfsus! Nə var tömə onunçün, nə sürur,
Onu müdhiş qayalar hər iki yandan sıxıyor.

## PEYĞƏMBƏR

Ruhani təşnəliklə yorğun ikən
Zulmətli bir çöldə sürünürdüm mən.
Altı şəhpərli İsrafil nagəhan,
Əsnayi-rahımda oldu nümayan.
Mələkuti cismi-lətifi ilə,
Röya kimi dəsti-xəfifi ilə
Toxundu çox yavaş kipriklərimə,
Kəramət nuru gəldi gözlərimə,
Baxdım bəsirətlə ərzü səmayə,
Vaqif oldum həqaiqi-əşyayə.
Qulağımı ləms etdi ol zamanda,
Duydum uçur mələklər asimanda.
Mən onların təsbihini dərk etdim,
Külli-mövcudatın səsin eşitdim,
Balıqların dəryalarda sədasın,
Nəbatatın çöldə nəşvü nümasın.
Qanlı əlin ağzım tərəf uzatdı,
Tutdu günahgar dilimi qopartdı.
Qoydu ora həkimanə bir əfi —
Nişi, asan olsun münkirlər dəfi.
Sonra şəmşir ilə sinəmi yardı,
Həyəcanlı ürəyimi çıxardı.
Alovlanan od qoydu ol məkanə —
Ki, daima yanıb çəksin zəbanə.
Meyit kimi düşmüşdüm ol səhradə,
Cismim yerdə, ruhum ərşi-alada.
Təbliğ etdi mənə əmri-xudanı
Eşitdim sövti-həzrəti-sübhanı:
—Ey peyğəmbər! Dur, gör, eşit, qiyam et!
Get, əmrimi məxluqata elan et!
Səhra, dərya mövcudatın oyandır,
Kəlamınla xalqın qülubun yandır.

*1912*

*Q. R. Derjavin*

## ANA DUASI

Qamış evdə yanır bucaqda çıraq,
Oynayır ortalıqda körpə uşaq.
Qar yağıb çöldə, amma çovğun var,
Qarı yerdən külək qapıb sovurar.
Belə fikr eyləyir o vaxta uşaq:
«Bircə yay günləri gələr də haçaq?»
Ata ümid ilə baxar uşağa,
Büzülübdür anası bir bucağa.
Cəhrəsi qarşısında ip əyirər,
Uşağıyçün belə dua eləyər:
— Qadir Allah, cəlalın hörmətinə,
Kibriyavü kəmalın hörmətinə,
Ərzim oldur ki, barkahında
Balamı saxla öz pənahında.
Könlümü sağlıq ilə şad eylə,
Baxtin, ömrün uzun, ziyad eylə.
Böyüsün, gənc bir cavan olsun,
Qocalan vaxta kamran olsun!

*1912*

*M.V.Göte*

## ƏRDO MƏLƏK

Gecə vaxtı, hava külək, duman, çən,
Meşə içrə atlı kimdir bu gedən?
Bir atadır, körpə oğlu qucaqda,
Qorxa-qorxa atasını uşaq da —
Qucaqlamış, gözün örtüb gizlədir,
Qoca kişi ona məhəbbət edir:
— Oğlum, neçün gizlədirsən üzünü,
Nədən qorxub bərk yumursan gözünü?
— Ata, ata, süpürkəsaqqal gəlir,
Ərdo Mələk gəlir, odur, Al gəlir!
Odur ha, yerlə sürünür saqqalı,
Bax döşünə tökülübdür ağ yalı.
— Qorxma, oğlum, Ərdo yoxdur, yalandır,
O ağaran su üzündə dumandır.
— Nazlı bala, göyçək uşaq, gəl mənə,
Yaxşı-yaxşı qaqqa verim mən sənə.
Gəzdirərəm, gəl səni boynumda mən,
Bəsləyərəm gül kimi qoynumda mən.
Var anamın çoxlu qızıl, paltarı,
Qızlarımın əlvan oyuncaqları.
— Ata, eşitməyirsənmi kim, nələr
Ərdo Mələk mənə yavaş vəd elər?
— Oğlum, qorxma, o yarpaqdır səs edir,
Külək quru yarpaqları tərpədir.
— Yoxsa istəməyirsənmi, ey uşaq,
Ay işığında gecələr oynayaq?
Gəl, qızlarım sənə laylay çalsınlar,
Şuyub oxşasınlar, nəy çalsınlar.
— Ata, qaranlıqda Ərdo qızları —
Əllərilə, bax, çağırır bizləri.
— Yox, oğlum, yox, o köhnə boz qovaqdır,
İşıldayan sınıq, çürük budaqdır.
— Gözəl uşaq, ağrın, dərdin canıma
Öz xoşunla gəlməz isən yanıma,
Axırda mən güclə aparram səni,
Gəl yanıma, darıxdırma çox məni.
— Qoyma, məni Ərdə vurdu, ay dədə!
Ox, ox, yaralandım, yandım, vay dədə!
Qorxub atın qırmancladı atası,
Hey çığırır, sızıldayır balası.
O vaxtda ki, gəlib evə yetişdi,
Qorxusundan yazıq uşaq ölmüşdü.

*1912*

*Maksim Qorki*

## GÜN ÇIXIR, BATIR...

Gün ki səhərlər çıxır, axşam batır,
Əksiləməz zülməti zindanımın.
Sanma ki, bir ləhzə keşikçim yatır,
Fikri qalıb məndə nigahbanımın.
Hər necə istərsən, elə çək keşik,
Arxayın ol, mən buradan qaçmaram.
İstəyirəm gərçi mən azadəlik,
Zənciri amma bacarıb açmaram.
Ax, siz, a zəncir, a zəncirlərim!
Siz də dəmir bəkçimsiniz hər zaman.
Sizləri müşküldür açım, sındırım,
Çatladı bağrım, aman Allah, aman!..

*1912*



Abdulla Şaiq

# ABDULLA ŞAİQ
# (1881–1959)

İki quruluşun şahidi kimi mürəkkəb yaradıcılıq yolu keçən XX əsr Azərbaycan ədəbiyyatının klassiki Abdulla Şaiqin ədəbi irsinin üçüncü minilliyin oxucularına çatdırılması mühüm və əhəmiyyətli ədəbi-mədəni hadisədir. A.Şaiq ədəbiyyat tariximizdə A.Bakıxanov, İ.Qutqaşınlı, M.F.Axundov, Z.Marağalı, Ə.Talıbov, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, S.S.Axundov və s. söz ustaları ilə bir sırada duran sənətkardır.

XX əsrin ilk əvvəllərində ədəbiyyata gələn A.Şaiq səmərəli, məhsuldar yaradıcılıq axtarışları aparmış, pedaqoji fəaliyyətlə məşğul olmuş, dərsliklər, elmi nəzəri məqalələr yazmış, bədii tər- cümə sahəsində qələmini sınamışdır. A.Şaiqin yaradıcılığı xalqın ziddiyyətli və yaxın mürəkkəb tarixi keçmişinin bədii salnaməsidir. Onun yaradıcılığının birinci mərhələsi 1917-ci il inqilabından əvvələ, ikinci mərhələsi isə Sovet dövrünə düşür. Hər iki mərhələdə poeziya və nəsrin müxtəlif janrlarında gözəl sənət nümunələri yaradan A.Şaiqin əsərləri dövrün ədəbi prosesinin ancaq məzmununa, ruhuna, xarakterinə yox, eyni zamanda inkişaf meyillərinə ciddi təsir göstərmişdir. A.Şaiqin nəsri Azərbaycan bədii nəsrini mövzu, janr, tematika, problematika baxımından zənginləşdirmiş, milli epik ənənənin, bədii təhkiyənin istiqamətinə və inkişafına təkan vermişdir. Yazıçının bədii irsini yüksək qiymətləndirən M.Hüseyn onun nəsr tarixindəki yeri haqqında danışarkən yazırdı ki, A.Şaiq «...lirik nəsrimizin təməl daşını qoymuşdur». A.Şaiqin yaradıcılığı, eyni zamanda Azərbaycan ədəbiyyatında realizm və romantizm metodunun tarixi inkişaf mərhələlərini və spesifik cəhətlərini öyrənmək baxımından da əhəmiyyətlidir. Görkəmli ədib romantizm metodu ilə yaradıcılığa başlamış, realizmə meyl etməsinə baxmayaraq, uzun müddət romantizmin nəzəri-estetik prinsiplərinə sadiq qalmışdır. Ədib keçmiş sovet dövründə realizm yaradıcılıq metodunda da gözəl nəsr nümunələri yaratmışdır. Lakin yazıçının bu dövrdə yaratdığı nəsr əsərlərində romantik ruh özünü göstərir.

Abdulla Şaiq 1881- ci il fevralın 24-də Tiflisdə Axund Mustafa Talıbzadənin ailəsində dünyaya göz açmışdır. A.Şaiqin valideynləri Borçalının Sarvan kəndindən idilər. Atası Axund Mustafa dövrünün sayılan, seçilən nüfuzlu ziyalılarından olmuşdur. A.Şaiq 7 yaşında məktəbə getmiş, 4 il oxumuş, fars, rus və ərəb dillərini öyrənmişdir. 1893-cü ildə anası Mehri xanım Şaiqi qardaşı ilə Xorasana aparmış, orada yaşadıqları 6 il müddətində o, fars dilini mükəmməl öyrənmiş, rus yazıçısı Krılovun bir çox təmsillərini fars dilinə tərcümə etmişdir. Qürbətdə çox qalmayan Mehri xanım 1900-cü ildə oğulları ilə Tiflisə qayıdır. Bir müddət burada yaşadıqdan sonra böyük qardaşı ilə həmin ilin payızında Bakıya köçür, imtahan verib müəllimlik hüququ alır. A.Şaiq ədəbi-pedaqoji fəaliyyətə də bu illərdə başlayır. 6 sinifli məktəblərin birində müəllimlik edir. Atası vəfat etdikdən sonra ailənin ağır yükü A.Şaiqin öhdəsinə düşür. Görkəmli sənətkar 1902–1904-cü illərdə Bakıda yeddinci rus-tatar məktəbində, 1904–1906-cı illər Sabunçuda altısinifli məktəbdə, sonralarsa Bakı üçüncü kişi gimnaziyasında, realist məktəbdə, APİ-də və digər tədris ocaqlarında pedaqoji fəaliyyətlə məşğul olur.

A.Şaiq Bakının ictimai-siyasi, ədəbi-mədəni mühitində fəal iştirak edir. M.Ə.Sabir, N.Nərimanov, A.Səhhət, S.Qənizadə, M.Hadi, H.Cavidlə tanışlığı dostluğa çevrilir. Ədib rus və Avropa ədəbiyyatını mütəmadi oxumaqla kifayətlənmir, həm də bədii tərcümələr edir. 1906–1907-ci illərdə ilk mətbu şeiri «Laylay» «Dəbistan» jurnalında nəşr olunur. Silsilə uşaq şeirləri qələminə alır, müəllimlər qurultayında proqram komissiyasına üzv seçilir. Ədib «Molla Nəsrəddin»in bağlanmasına Stavropoldan etiraz teleqramı göndərir. 1908-ci ildə A.Şaiqin Tiflisdə «İkinci il» dərsliyi çapdan çıxır. Fəal yaradıcılıq axtarışlarını davam etdirən sənətkar «Məktub yetişmədi», «Hürriyyət pərisinə», «Yad et» və s. kimi klassik əsərlərini yazır. M.Fətəlinin, H.B.Zərdabinin, M.Ə.Sabirin, Mirzə Cəlilin əxlaqi dərk və təlqin etmələrini A.Şaiq də ədəbi və ictimai fəaliyyətində davam etdirdi. Onun əsas məramı doğma xalqının maariflənməsi və ictimai-milli şüurunun yüksəldilməsi olmuşdur. XX əsrin əvvəllərində Bakı fəhlələrinin acınacaqlı həyatı yeni yaranacaq bədii əsərlərinə zəngin material verirdi. O, neft mədənlərində çörək pulu üçün gecə-gündüz çalışan insanların əzabını, ağrısını, kənd zəhmətkeşlərinin faciəvi həyatını öz dərdi kimi duyur və yaşayırdı. Dözülməz insan ağrı-acısı onun hekayə, povest, romanları ilə yanaşı poeziya və dramaturgiyasında yüksək poetik səviyyədə əksini tapmışdır. «Məktub yetişmədi» hekayəsində, «Əsrimizin qəhrəmanları» və «Araz» romanlarında sözügedən məsələnin təsvirinə üstünlük vermişdir. A.Şaiq ictimai fəaliyyətində olduğu kimi, bədii yaradıcılığında da doğma xalqının, vətəninin zülmdən, cəhalətdən, nadanlıqdan qurtarmasına, maariflənməsinə, azadlığa nail olmasına, milli - bəşəri dəyərlərlə yaşamasına kömək etməyə çalışmışdır. Onun məfkurəsi, idealı ömrünün sonuna qədər, akademik M.İbrahimov demişkən «...bəzən dumanlanmasına baxmayaraq, Şaiqin varlığına hakim olmuş, ürəyinin dərinlərində yaşamış bədii təfəkküründən heç vaxt ayrılmamışdır». Yazıçı Azərbaycanın ağır, dözülməz vəziyyətini, çarizmdən və onun ağır müstəmləkə siyasətindən çəkdiyi əzab və işgəncələri görmüş, müşahidə etmiş və bütün bunları şeirlərində, hekayə, roman, pyes və poemalarında təsvir etmişdir. Görkəmli ədib həmvətənlərinin faciəsini öz ağrısı kimi yana-yana, lirik-psixoloji ahəngdə təsvir etmişdir. Ədibin «Araz» romanı XX əsrin əvvəllərində mürəkkəb inqilabi hadisələrə, Bakı fəhlələrinin azadlıq mübarizəsinə həsr olunmuşdur. Yazıçı romanı 1930-cu ildə yazmağa başlamış, əsərdən «İki şam ağacı» adlı bir parçanı «Ədəbiyyat və in- cəsənət» qəzetində dərc etdirmiş, 1937-ci ildə əsəri tamamlayıb, nəşriyyata təqdim etmişdir. «Araz» romanı 1940-cı ildə işıq üzü görmüşdür. Abdulla Şaiq 1911-ci ildə mövzusu Borçalı həyatından alınmış «Dursun» povestini yazmışdır. 1912-ci ildə nəşr olunan bu əsər uzun müddət «Bədbəxt ailə» romanı kimi tanınmışdır. 1933-cü ildə isə ədibin özü əsər üzərində cüzi düzəlişlər aparmış və onu «Dursun» adlandırmışdır. A.Şaiqin hekayələri, povest və romanları da Azərbaycan bədii nəsrin yaranması və inkişafında mühüm rol oynamışdır. O, əsərlərinin mövzusundan asılı olmayaraq həmişə xalqın, zamanın ən aktual, gərəkli problemlərinə toxunmuş, cəmiyyətin inkişafına və saflaşdırılmasına, pak duyğular, qabaqcıl ideyalar təbliğ etməyə çalışmışdı. Bu baxımdan «Xasay» povesti xüsusi maraq doğurur «İki müztərib, yaxud əzab və vicdan» romanını, «Qarakilə xatirəsi» hekayəsini nəzərə almasaq, «Xasay» povesti Şaiqin sevgi mövzusunda yazılmış yeganə nəsr əsəridir. Əsər təkcə Şaiqin yaradıcılığında yox, bütövlükdə Azərbaycan klassik nəsrində lirik-dramatik və psixoloji planda yazılmış ilk nümunələrdəndir. «Köç» əsəri onun nəsr yaradıcılığında özünəməxsus yer tutan qiymətli əsərlərdən biridir. A.Şaiqin ilk dram əsəri 1909-cu ildə yazdığı «Gözəl bahar» pyesidir. Onun «İki ailəyanın məhvi», «Ədhəm», «Şair və qadın», «İdeal və insanlıq» kimi dərin məzmunlu, aktual ideyalı poe-

maları da xüsusi maraq doğurur. Son yüz ildə çox az azərbaycanlı tapmaq olar ki, A.Şaiqin əsərləri ilə böyüyüb arsaya çatmasın, indinin özündə də körpələr də, kiçik yaşlı uşaqlar da dili topuq vura-vura «Keçi», «Dovşan» və s. şeirləri əzbər deyirlər, yaşlılar isə uşaqlıq illərini xatırlayırlar. 1906-cı ildə o, «Cəfər və Bətin» iqtibas etmiş sonra isə «Tülkü həccə gedir», «Yaxşı arxa», «Tıq-tıq xanım» adlı mənzum hekayələrini qələmə almışdır. Fidanların psixologiyasını yaxşı bilən həssas sənətkar həm də onların sevimli dramaturqu olmuş, «Nüşabə», «Danışan kukla», «İntiqamçı xoruz», «Çoban», «Xəbərçi kağız», «Aldanmış ulduzlar», «İldırım», «Ana», «Xasay», «Vətən», «Eloğlu», «Bir saatlıq xəlifə» kimi dram əsərlərini yazmışdır. Digər əsərlərində olduğu kimi, o, pyeslərində də balaca tamaşaçılarını vətəni sevməyə, xeyirxahlığa, düzlüyə, mərdliyə qorxmazlığa çağırır. Vətənpərvərlik, düşmənə nifrət bu pyeslərin leytmotivini təşkil edir. Şaiqin uşaqlar üçün yazdığı əsərlər öz təbiiliyi, psixoloji dərinliyi, dilinin axıcılığı, obrazların həyatiliyi ilə hələ yüz illər sonra da neçə-neçə nəslin sevə-sevə oxuyacaqları əsərlərdir, «Xoruz», «Keçi», «Uşaq və dovşan» və s. dediklərimizə parlaq nümunədir. Nasir, şair, dramaturq, tərcüməçi, pedaqoq A.Şaiq yaradıcılığı boyu ədəbiyyatımızın nəzəri məsələləri ilə də ciddi məşğul olmuş, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, M.Fətəli, H.Hadi, A.Səhhət, M.Ə.Sabir yaradıcılığı haqqında dəyərli mülahizələr söyləmiş, Hüseyn Cavid ilə birlikdə dərslik kimi «ədəbiyyatın poetikası»nı yazmışdır. O, «Uşaq çeşməyi» (1907), «Uşaq gözlüyü» (1910), «Gülşəni-ədəbiyyat» (1910), «Milli qiraət» (1919), «Gülzar» (1912) kimi dərsliklər yazıb ictimaiyyətə təqdim etmişdir. O, Azərbaycan müəllimlərinin I–II qurultaylarının hazırlanmasında komissiya üzvü kimi böyük iş görmüşdür.

Sənətkarın latın qrafikasında ilk seçilmiş əsərlərinə onun əsərləri ilə yanaşı, müəyyən səbəblərdən qadağan olunmuş yeni bədii nümunələri də salınmışdır. «Arazdan Turana», «Vətən», «Vətənin yanıq səsi», «İntizar qarşısında», «Yeni ay doğarkən», «İki mücahid», «Ülkər» və s. bu kimi əsərlər XXI əsrin oxucularında onun irsinə güclü meyil oyadacaq. Abdulla Şaiqin oğlu akademik Kamal Talıbzadə «Arazdan Turana» (2003) kitabında yazır: «...məlum səbəblər üzündən Azərbaycan oxucusunun diqqətindən kənarda qalan bu kimi əsərlərində türkün ümumiləşmiş, mübariz, mifik surəti, vətən sevgisi, döyüşkənliyi, qüdrəti, türk qadınının paklığı, ucalığı tərənnüm olunur, türkün hələ indiyə qədər (yəni 1920-ci illərə qədər) poeziyamızda açılmayan sifətləri, mübarizliyi, fədakarlığı canlandırılır».

Oxuculara təqdim olunan bu kitaba A.Şaiqin repressiya illərində yazılmış, keçmiş sovet dövründəki milli zülmü, siyasi zorakılığı, ruslaşdırma siyasətini cəsarətlə tənqid edən silsilə şeiryri də daxil edilmişdir.

Ədəbiyyat nümunələrini dilimizə çevirən mahir sənətkar, iki seçki keçmiş SSRİ Ali Sovetinin deputatı, görkəmli ictimai-siyasi xadim, el ağsaqqalı və nümunəvi pedaqoq, dövlət mükafatları ilə, orden və medallarla təltif olunan, «Əməkdar İncəsənət Xadimi» adına layiq görülən görkəmli Azərbaycan ədibi bütün şüurlu həyatını xalqına xidmət edən nadir şəxsiyyət olmuşdur.

Abdulla Şaiq 24 iyun 1959-cu ildə Bakıda vəfat etmiş, fəxri xiyabanda dəfn olunmuşdur.

**Baba Babayev,**
*filologiya elmləri namizədi.*

# 1905–1917

## VƏTƏN

Ey çeşmimin önündə mücəssəm vətən, vətən!
Qəlbim kimi ələmlərə həmdəm vətən, vətən!
Fikrim sarayını dolaşırsan zaman-zaman,
Qanlı kəfənlə, dərd ilə toəm vətən, vətən!
Baxdıqca həsrət ilə o solğun camalına,
Çeşmimdə tar görsənir aləm, vətən, vətən!
Axşam-səhər o gül üzünü isladan nədir?
Göz yaşlarınmı yoxsa ki, şəbnəm? Vətən, vətən!
Dəhşət içində cismi-şərifin donub durur,
Xolmuş vücudi-pakinə bilməm, vətən, vətən!
Baxdıqca gül-çiçəkli o gülgün çəmənlərə,
Möhnət evi sanır onu adəm, vətən, vətən!
Sənsən səbəb bəqayi-dilü cani-natəvan,
Canım kimi nolar səni sevsəm, vətən, vətən!
Gördükcə dərdini əriyir cismi-natəvan,
Ney tək sızıldayır dili-pürqəm, vətən, vətən!
Qarşımda dərd, matəmə batmış gözəl mələk,
Səslər həzin səda ilə hərdəm, vətən, vətən!
Ey xaki-pak, söndümü parlaq ziyaların?
Oldunmu zülmə, möhnətə həmdəm, vətən, vətən?
Övladi-naxələfmi səni saldı bu günə?
Ey vah, bu dərd, möhnətə dözməm, vətən, vətən!
Aç, aç o qəmli köksünü, ey məxzəni-məlal,
Bas bağrına bu Şaiqi möhkəm, vətən, vətən!

*1905*

## BÖYUK XADİM

*(Həsən bəy Zərdabinin vəfatı münasibətilə)*

Bu sənmisən, ey dahiyə, ey naemi-müzəffər?!
Almış səni ağuşuna tabuti-mükəddər!
Ey şanlı «Əkinçi!», sən idin gəncliyə rəhbər!
Aldı səni bizdən ölüm, ey nur saçan ülkər!
Ey adlı, şərafətli, fədakar, böyük insan,
Aləmlərə sığmaz vətənə etdiyin-ehsan.
Ruhun ola şad, ey ata, inamla çalışdın,
Sönməz, böyük ümmid ilə, vicdanla çalışdın.
Bar verməmədir bəslədiyin dadlı diləklər,
Almış sənin ətrafını, bax, canlı çiçəklər.*
Həsrət gözünü aç bir an, ey şanlı mücahid!

Minlərcə bu məktəbli cavanlar buna şahid.
Yordu o zəif cismini zəhmət və məşəqqət,
Doğma vətənin qoynuna gir, ol daha rahət.
Gəlmiş hamı qəlbində kədər son görüşə, bax!
Mümkünmü səni, ey böyük insan, de, unutmaq!

*1907*

## ƏKİNÇİ

Yaz qapını aldı, əkinçi, oyan!
Dur ayağa, tarla səni gözləyir,
«Şumla yeri, dur gəl, əkinçi» — deyir.
Haydı, a zəhmət mələyi, qalx, oyan!

Qızdı günəş, aləmə verdi həyat,
Qonşuların tarlasını xışlayır,
Qan-tər içində hamısı işləyir,
Zəhmətinizlə yaşayır kainat!

Borclarına indi, gözüm, çarə qıl!
Çul, palazı qışda satıb soymusan,
Külfətini quru yerdə qoymusan,
Haydı, oyan, dərdinə bir çarə qıl!

Təknədə şey yox, nə axurda saman,
Külfətinin səndə qalıbdır gözü.
Yaz günəşi qarşılayır bax, sizi,
Haydı, a zəhmət mələyi, dur, oyan!

*1907*

## ƏKİN NƏĞMƏSİ

Çək, şumla yeri, durma daha, qaşqa kəlim, çək!
Bəslər, a kəlim, danaları yer qucağında,
Qalxar yaşıl otlar, göyərər hər bucağında,
Çək, şumla yeri, durma daha, qaşqa kəlim, çək!
Şimdi sənə yem, su verərəm, durma, kəlim, çək!

*1907*

## KÖÇ

May olcağın el köçür yaylaqlara.
Səs-küy düşür meşələrə, dağlara.
Atlar kişnər, qoyun-quzu mələşir,
Qara mallar bir-birilə səsləşir.
Qız-gəlinlər düzənlikdə çapır at,
«Hey» vurunca at, açır qol-qanad.
Yollar dağdır, ya meşə, ya düzənlik,
Hər tərəfi basmış böyük bir şənlik.
Bir çay kənarında düşürlər axşam,
Səfalı bir yerdə olurlar aram.
Od qalayıb qızlar suya gedirlər,
Qocalar yığışıb söhbət edirlər.
Rahət edir cavanlar malı, atı,
Çoban tütək çalır, oxur bayatı.
Bir tərəfdə sürü, naxır otlaşır,
Bir tərəfdə colma-cocuq oynaşır.
Gecə olur, başlarını atırlar,
Arabalar arxasında yatırlar.
Məhtab gecə. Göydə ulduzlar axır,
Seyrək buludlar arxasından baxır.
Meşə, dağ-daş sükut içində inlər,
Yalnız hürür orda-burda köpəklər.

*1907*

## PARÇALAR

Bərqi-əşarım saçar ətrafə atəşparələr,
Şölələnmiş atəşi-şeirimlə səngi-xarələr,
Od tutub sızlar bütün dağ, daş, dərə, səyyarələr,
Bəs neçin bu daşürək cahillərə etməz əsər?

İnanın, dostlarım, mənə inanın!
Bir zaman məhv olar bu istibdad!
Qalar ancaq bu zülmdən bir ad!
Utanın, indi zülmdən utanın!

Sanma bu dərdü qüssəmin səbəbi
Olmamaqdır bu dünya kamınca,
Qəlbimi yandıran budur ancaq:
Vətəni görmədim məramımca.

*1908*

## İYİRMİNCİ ƏSRƏ XİTAB

Məzlumların ümidisən, ey əsri-pürxətər!
İzlər böyük addamlarını bir sürü bəşər!
Dövrü zəmanədən nə gətirdin bizə xəbər?
Hiddətli bərq, saiqələrdən nə var əsər?
Tufanlı ildırımlarının qəhr, hiddəti
Xofü ümid ilə yaşadır cümlə milləti.
Qaldır buludlu pərdələri, anlasın cahan,
Sönməz günəşmi, ya qara bir kölgədir doğan?
Varmı ümid bir daha feyzü səadətə?
Ya çəkmədə bizi yenə girdabi-zillətə?
Bu qırmızı şəfəqlər içində nihan-nihan
Doğmazmı nur, mehr, məhəbbət cahan, cəhan?!
Ey vah!.. Ənqərib bu əmvaci-kibriya,
Bir sahilə səfinəmizi zövq edərmi ya?
Duydum, bu üstümüzdə buludlardır oynaşır.
Məşriq dənizləri qabarır, yüksəlir, coşur.
Bilməm, bu dağlar, bu məhabətli fırtına
Öksüz bu milləti çıxararmı o bir yana?

*1908*

## HÜRRİYYƏT PƏRİSİNƏ

Söndün nə çapıq, ruhuma qüvvət verən ey nur,
Ümmidi-vüsalınla sənin bən yaşayırdım,
Şövqünlə o daşqın dərələrdən həm aşırdım,
Hicran məni, ah, etdi yenə xəstəvü rəncur.

Oynatmadadır qəlbimi atəşli bir ahəng,
Vulkan kibi püskürmədə ətrafə şərarə,
Nolmuş ki, yaxırsan bəni sən, ey dili-parə?
Etmişmi həyatı bu mühitin səni də təng?

Müzlim gecə, ətrafı bulud çən bürüyərkən,
Göz yaşlarının bəslədiyi ey gözəl ümmid,
Qarşımda təcəssüm edərək ver bənə təyid,
Bu zülmət ilə sübhə qədər ta vuruşum bən.

*1908*

## YAD ET

Vaqta ki, gülər bahari-amal,
Hər yerdə yaşıllanar çəmənlər,
Vaqta ki, olar müsaid iqbal,
Bülbüllər ötər, susar zağanlar,
Parlaq bir işıq alar fəzanı,
Dünyanın üzü dönər cinanə,
Gəzdikcə o aləmi-ziyanı,
Baxdıqca o gülşəni-cəhanə,
Yad et məni — şairanə yad et!

Vaqta ki, gələr sevimli ati,
Bir dairəyə girər həqayiq,
Nuru bürüyər bütün cihati,
Ulduzlar ilə yanar məşariq,
Vəqta ki, bulud, duman görünməz,
Qalmaz daha zülmdən nişanə,
Yerlərdə bəşər üzü sürünməz,
Qurd-quş sığınar bir aşiyanə,
Yad et məni — Şaiqanə yad et!

Atəşli, münir amallərimlə,
Bir gün düşərəm soyuq məzarə.
Əşari-təranəpərvərimlə
Bir gün susaram dönüb qubarə.
Vaqta ki, bu şairi-vətəndən
Dünyada nə iz qalar, nə bir nam,
Üzdükcə səadət içrə şən-şən,
Sürdükcə dəmadəm ömrü xoşkam,
Yad et məni — qaibanə yad et!

*1908*

## NİŞANLI QIZ

Zülmət gecədə nişanlı bir qız
Bir hüzn, kədər içində yalqız,
Atəşli düşüncələrlə inlər,
Bəxtindən uzun şikayət eylər.
Həsrətlə qucaqlayıb dizini,

Yaqut üzüyə dikib gözünü,
Ən haqlı bir etirazla ağlar,
Fəryadı bu kainatı dağlar.
Söylər: «Bu üzük mənə nişandır,
Könlüm tək onun da baxti qandır,
Layiqmidir, ey həyat, — söylər, —
Bir div ola bir pərilə həmsər?
Heyvan kibi sərvətə satıldım,
Suçlu kibi zindana atıldım.
Ey taleyim, etmə gəl bənə naz,
Qan qusmağa neylərəm qızıl tas?
Bən yalğızam, ah, yox müinim,
Dağ-daşları sızladır əninim.
Söndürdü atam çırağımı, ah!
Bir qönçə, tikanla oldu həmrah».

*1908*

## BAHAR

Haydı, bu boranlı qış da bitdi,
Alqışladığım bahar yetişdi.
Qızdı günəş, əsdi isti yellər,
Qarlar əridi, axışdı sellər.
Çöllər, dərələr tamam oyandı,
Hər yan yeni rəng ilə boyandı.
Oldu yenə yamyaşıl ağaclar,
Dağlar, təpələr, bütün yamaclar.
Gülşəndə bənövşələr açıldı,
Səhralara lalələr saçıldı.
Quşlar qayıdıb oxur təranə,
Şaxlarda tikirlər aşiyanə.
Hər şeydə fərəh, sevinc, təravət,
Artıq oyanıb, gülür təbiət.
Görcək bunu qalmaz ixtiyarım,
Təbrik edirəm, gözəl baharım!

*1908*

## DAĞLAR

Çeşməli yaşıl dağlar,
Yazdır, gül, açıl, dağlar.
Başın otdur, çiçəkdir,
Ətrin ətək-ətəkdir.
Havan xoş, suyun sərin –
Arın, kəpənəklərin
Budaq-budaq uçur şən,
Bal, mum tutur güllərdən.
Çörəyim bişir sacda,
Sürüm otlar yamacda.

*1908*

## ŞİKAYƏTLƏRİM

Yenə hər yanda hökm edir zülmət!
Yenə söndü o nazənin ülkər!
Gecə-gündüz tapındığım dilbər,
Yenə qaldıq vüsalına həsrət.

Yenə dilsiz süкut içində bütün
Qaralır nur saçan düşüncələrim.
Ürəyimdə sönür o qüvvələrim,
Yenə hər şey qara, cahan küsgün.

Yenicə uçmağa qanadlandım,
Onu zülm ilə qırdı bir səyyad.
Sızlaram, indi eylərəm fəryad!
Nə qədər sadə idim, aldandım!

Bu qaranlıqları sevən bayquş
Ruhumu pəncəsiylə cırmaqlar.
Ürəyim həsrət atəşində yanar,
Dözə bilməz belə həyatə bühuş.

Sözümü dinlə, dinlə, ey qəhhar!
Bu qışı ya gözəl bahar eylə,
Ya məni gözsüz eylə, kar eylə,
Ya ki azadə bir diyara çıxar!

*1908*

## CƏHALƏTLƏ MÜCADİLƏ

Noldunuz, ey vətən qayıqçıları!
Qaldı dərya üzündə yelkəniniz.
Susdunuz, yox sədavü şivəniniz,
Ey elin şanlı hayqırıqçıları!

Qəlbinizdə tükəndimi cürət?
Fırtına, dalğa, çənmi yollarınız?
Yoxsa gücdənmi qaldı qollarınız?
Nə çapuq söndü ateşi-himmət?

Əldə etmək üçün böyük əməli
Qorxmayın, həp igidcə qalxışınız.
Fırtına, dalğalarla çarpışınız,
İləri, arqadaşlarım, iləri.

Şəfəq altında, ya ki tək erkən,
İnamın sahilə dəmir atarız,
Şu qaranlıq dumanları yutarız,
Sizi alqışlayar mühüti-vətən!

## VƏTƏNƏ QAYIDARKƏN

Ey bulanıq Kür, dərə, səhra, çəmən!
Bu görünən sənmisən, ah, ey vətən!
Könlüm açıldı yenə gördüm səni.
Ey ulu əcdadımızın mədfəni!
Çoxdan idi həsrət idim vəslinə.
Aç qolunu, aç, sənə gəldim yenə.
Ömrümün ilk şərbətini, ey vətən,
Sevə-sevə sən bənə içdirmisən.
Mən uşaq ikən hələ, ey şux mələk,
Dağ çəmənindən yığar idim çiçək.
Dayəm idi şu dərə, dağlar bənim,
Oynağım olmuş idi bağlar bənim.
Kür çayının fırtınası, nəğməsi,
Sellərinin vəhşi, fəqət xoş səsi,
Nənni oxurdu bənə, ah, ey vətən!

Bən beşiğimdə hələ yavru ikən,
Ah, cocuqluq nərəyə getdin, ah!
Ah, səadət nə çabuq bitdin, ah!
Duymaz idim onda bu zillətləri,
Çəkməz idim bunca səfalətləri.
Şəfqəti-madərlə o dəm şad idim,
Dürlü oyuncaqlara mötad idim.
Anlamaz idim ki, nədir qəm, mihən,
Ah, vətənim, söylə şu hüznün nədən?
Qaplamış ətrafını zülmət, duman,
Siffətini pozmuş o zalım xəzan.
Qəmlərinə, yasına dözməm də bən,
Aç bənə ağuşunu aç, aç, vətən!
Qollarını aç, a göylər dilbəri,
Çünki cocuq məlcə edər madəri.

*1909*

## HƏR ŞEY KÖHNƏ

Doğarmı bir yenilik bu hilalın altında?..
Bu yer, bu göy, bu günəş köhnə, bu həyat köhnə!
İdarə köhnə, bəşər köhnə, kainat köhnə!
Cahan yaşarmı bu müdhiş zəvalın altında?

Axıb gedir bulanıq çay kimi qara dövran,
Zavallı millətimin haqqı olmada pamal!
Yetiş, yetiş daha sən, ey ümidi-istiqbal!
Bu zillət ilə keçinsinmi böylə qanlı zaman?
Sönük sitarələr ilə gecəm yanar, heyhat,
Nə oldu dadlı o peymanlar, ədl, ünsiyyət?
Buludlara bürünən ey günəşli hürriyyət!
Bitir bu zülmləri, ver cahana şanlı həyat!

*1909*


12

## VƏRƏMLİ HƏYAT

Əsir doğuldum, əsir getdim, ah, gənc ikən,
Vərəm ciyərlərimi dəldi, ömrümü biçdi.
Bahar içində həyatım bulud kimi keçdi,
Bütün ümidimi qırdı o ruzgari-mihən.
Gömüldü, soldu içimdə şükufeyi-əməlim,
Mənə təsəlli üçün şimdi sən yetiş, əcəlim!
Vətən, vətən! Mənə oldun məzari-yəs, nədən
Soyuq damarlarımı, ah, isitmədi günəşin.
Əməl çiçəklərimi heç bitirmədi yağışın,
Dodaqlarımdakı alqırmızı nədir görünən?
Yaralı qəlbimin, ey vah, əksi-möhnətidir
Və ya ki, ömrümün amali-dağı-həsrətidir.

Çiçəklənib dodağımda əməllərim, heyhat!
Baxın, baxın nə qədər pürməlal, pürşivən.
Mənə yetişdi şu solğun çiçək bir ümmətdən
İyirmi beş sənəlik bir həyat üçün sovqat.
Onu təpiklədi mazi, məzara gömdü bu hal,
Fəqət nasıl baxacaqdırsa, bilməm, istiqbal?

*1909*

## İKİ QIRLANĞIC

Bir sərin, saf səhər, gözəlcə hava,
Bürünüb yamyaşıl çəmənə səhra.
Dağ, yamaclar sükut içində tamam,
Dərələrdən axardı çay aram.
Dağ başından günəş saçardı ziya,
Qızarırdı şəfəqləriylə fəza.
İki pürzövq, nəşə qırlanğıc,
Bir budaqda oxurdular: vic, vic!..
«Bən də gəlməklərin edib təbrik,
Oldum onlarla zövq-şövqə şərik».
Oxuyun, quşcuğazlarım, şən-şən,
Qəlbim olsun çiçəkli bir gülşən.
Oxuyun, quşcuğazlarım, azad!

Eyləyin nəğmənizlə qəlbimi şad!
Çox uzun sürdü ayrılıq və səfər,
Oralardan gətirdiniz nə xəbər?
Çox zaman eyləmişdiniz ki, səfər,
Şu vətəndən gətirdiniz nə xəbər?

*1909*

## BU DA BİR ŞEİRİ-FANİYİ-DİGƏR

Çiçək altında bir kiçik kəpənək
Düşüb əfsürdə, çırpınır bipər.
Qızınır son günəşdə titrəyərək,
Əcələ pəncə fırladır bifər.
Çəkilincə günəş həyatı sönər,
Sabaha qalmaz artıq ondan əsər,
Bu da bir şeiri-faniyi-digər.

Ya ki məhsullu, qoş-qoca bir ağac
Devrilib çöldə sərnigun olmuş.
Şaxlarını yolçular edər tarac,
Yoluq, əfsürdə qəlbi xun olmuş.
Saralıb yarpağı zəbun olmuş,
Günəşi sönmüş, ömrü dun olmuş.
Bu da bir şeiri-şakiyi-digər.

Bir qoyun çöldə ayrılıb sürüdən
Dolaşır, yol arar, zavallı mələr.

Önünə bir ayı çıxar birdən,
Ürkərək qorxudan durub titrər.
Ayının pəncəsində hey inlər,
İztirabati-qəlbini dinlər.
Bu da əhbabə naveki-digər.

Bürüyür kainatı sis və duman,
Nagahan sim-siyah olur aləm,
Qopar üsyan qılıqlı bir tufan.
Gurlar həm arxasınca bərqi-kərəm,

Çəkilir sis-duman, olur bərhəm,
Açar əzhar, günəş doğar xürrəm.
Bu da bir şeiri-şadiyi-digər.

*1909*

## LAYLAY

Laylay mələgim, sevdiciğim, yavrucuğum, yat!
Bir də ələ düşməz bu cocuqluq dəmi, heyhat!
Türk oğlusan, əcdadın ulu, şanlı, sərəfraz,
İştə vətənindir, a quzum, şanlı bu Qafqaz.
Şimdi cocuq ikən uyu gəhvarədə rahət,
Bak, bak, bürüyür dağ-daşı çən, fırtına, zülmət.
Getdikcə coşub, daşlara Kür kəndini çarpır,
Saçdıqca köpük dalğalanır, hiddəti artır.
Müzlim gecə, ətrafı bulutlar bürüyür, ah!
Bayquşlar ötür dəhşət ilə, artırır ikrah.
Yavrum, uyu şimdi, səhər ertə oyananda,
Parlaq günəş iştə səni alqışlayar onda.

*1909*

## BİR MƏLƏKƏ

*(«Molla Nəsrəddin» məcmuəsinə)*

Mahtablı gecə... Kənari-dərya,
Əsməkdə nəsimi-xoş, müəttər.
Titrərdi yaşıl-yaşıl çəmənlər.
Qəlbimdə cahan — cahani-sevda.

Bu anda mələkdi, yoxsa huri,
Vicdanımı inlədirdi bir qəm.
Səslərdi həzin səs ilə hərdəm:
«Aclıq bürüyübdü Zəngəzuri».

Ay, ulduz olub da dərdə qəmxar,
Sanki baxışırdı mat-mabhut.
Bir qəmli sükut içində lahut,
Dinlər o həzin sədanı təkrar.

*1910*

## HAMIMIZ BİR GÜNƏŞİN ZƏRRƏSİYİZ

Əsrlərdən bəri zülmə alışan,
Qan qusan, qan qusan, ey şər insan!
Aldımı qəlbinizi qisvəti-şum?
Yakdımı ruhunuzu badi-səmum?
Gəlyormu sizə xoş qanlı həyat?
Unudulmuş bəşəriyyat heyhat!
İştə tarixi açıb bir bakınız!
Fitnəni, zülmü, nifaqı yakınız!
Hamımız bir yuva pərvərdəsiyiz!
Hamımız bir günəşin zərrəsiyiz!
Ayramaz bizləri təğyiri-lisan,
Ayramaz bizləri təbdili-məkan.
Ayramaz bizləri İncil, Quran,
Ayramaz bizləri sərhəddi-şahan.
Ayramaz bizləri ümman, mühit,
Ayramaz bizləri səhrayi-bəsit.
Ayramaz bizləri həşmətli cibal,
Ayramaz Şərq, Cənub, Qərb, Şimal.
Yetişər kinü küdurət daşımaq?!
Qoxumuş məzbəhələrdə yaşamaq?!
Uzadın dəsti-üxüvvət, sıxalım
Rişeyi-zülmü, nifaqı yıxalım!
Qəlbimizdə yaşasın mehr, səfa,
Uzadaq bir-birinə dəsti-vəfa.

*1910*

## QIŞ

Parça-parça düşüyor quşbaşı göydən yerə qar,
Sarılır ağ mitilə, san, dərə, sahrə, dağlar.
Sarıyor göy üzünü tar uçuşan qarlı duman,
Savırır göy üzünə qarları birdən burağan.
Toplayır bir yerə gah qarları bir dağ kibi,
Qazıyor, püskürüyor damları dəbbağ kibi.
Çayları don tutaraq, ormanı bir hüzn alıyor,
Tərk edib quşlar onu, qəmli sükuta dalıyor.
San, qocalmışdı təbiət ağarıb muyi-səri,
Qarlar altında uyur çölləri, kuhsarələri.
Dayanın, qar-borana, fırtınaya bir gün olar,
Qış bitər, yaz yetişər, qəmli bulutlar da uçar.

*1910*

## DAĞLAR SULTANI

Dan atınca xoruz-beçələr banlar,
Çən-dumankən dərə, təpə, ormanlar,
Sürünü yayar dağa çobanlar,
Təbiətin zövqünü onlar alar.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Gözəl olur bu yerlərin səhəri,
Məncə, vardır dünyalarca dəyəri,
Quşlar oxur, səba açar gülləri,
Alır başqa bir lətafət hər yeri.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Günəş yaxın dağın ucundan doğar,
Buludları gözəl rənglərlə boyar,
Dumanları dağlara doğru qovar,
Hər tərəfi bir gözəllik qucaqlar,
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Gözəl olur bizim elin yaylağı,
Gül-çiçəkdir bu yerlərin otlağı,
Bir behiştə bənziyor hər bucağı,
Durna gözü kibi vardır bulağı.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Mal qapıya gələndə axşam-səhər,
İnək mələr, buzov mələr, dağ mələr,
Səsə-küyə düşər, köpəklər hürər,
Dərə, dağ, daş həzin-həzin səs verər.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Hara baxsan — çölə, yamaca, dağa,
Çoban görərsən söykənib çomağa,
Qoymaz gözdən sürüsünü irağa,
Bu sürüyə həm nökərdir, həm ağa.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Çomaq əldə dolaşır dağı-daşı,

Qoyun-quzu, köpək, tütək yoldaşı,
Azacıqdır aşı, ağrımaz başı,
Bu xoşbəxtə hər nə desən yaraşı.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Sərin-sərin bulaqlardan su içər,
Kəsər, yeyər, kök quzulardan seçər,
Ömrü belə gözəl yerlərdə keçər,
Ot-çiçəklər solan zamanda köçər.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Varı-yoxu var sicimi, çatısı,
Patavası, çuxası, həm qartısı,
Bir də nehrə çalan gözəl Fatısı,
Oxuduqca ürək dələr bayatısı.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.

*1911*

## İNTİZAR

Çıxdı kənddən üç ayın müddətinə usta Səfər,
Fəhləlik qəsdi ilə etdi yaxın şəhrə səfər.
Bitdi üç ay, keçər on gün, nə xəbər var, nə pəyam,
Gözləyir ailəsi kənddə onu biaram.
Qış idi, qar yağıyor, səslənir hiddətli boran,
Bir çıraq idi həmin daxmada hakim olan.
Soba nəzdində həzin mürgüləyir sısqa cocuq,
Başının kölgəsi divara düşüb, rəngi soluq.
Bir tərəfdə anası həm əgirir cəhrəsini,
Qəmli zülmət bürüyüb alnını, həm çöhrəsini.
—«Gəlmədi, noldu?»—deyir: «Yox xəbər, Allahım, aman,
Bir müsibətmi buna üz verib, ey vah, inan.
Bənə rəhm eylə, canım zillət içində çürüyür,
İştə bir xəstə qadın yalqız əlindən nə gəlir?»
Baxaraq yavrusuna qəlbinə dolur qorxu:
«Dur, quzum, mürgüləmə! Gir yatağa uyu!»
«Yatmayarsın nə üçün, sən də ana! Dur uyuyaq!»

«Hövsələm yox daha, sıxdı bəni bu cəhrə, yumaq.
Nə olur? Ah, bu dünya bənə zülmət görünür,
Gözlərim həp qaralır, həm yürəgim də döyünür».
«Ağlama, ah, ana can!» — qalxaraq ol yavrusu dedi,
Başını annəsinin çiyninə dalğın söykədi.
Bir səs oldu qapıda, qalxdı cocuq cəld: «Ana!
Bax!
Babam gəldi, papaq, bikə gətirmiş də bana».
Qapıdan girdi Səfər şad, səlamət, xürrəm,
Cocuq qaçdı, sarıldı babsından mohkəm.
(Nikitindən təbdildir).

*1911*

## MƏRHUM SABİR ƏFƏNDİYƏ[1]

Bir geniş cəbhə, bir səmayi ziya,
Bir ənis çöhrə, şux bir sima.
Gözlərində dərin bir ülviyyət,
Bir üfüqsüz səbat, ciddiyyət.
Bir təbəssüm dodaqlarında ayan,
Duruyor həp sönər kibi lərzan.
«Zahiri gərçi pək gülər kibidir,
Batini həp yetimələr kibidir».
Gülüyor, hıçqırıqla ağlayaraq,
Ağlıyor, həp gülər kibi duraraq.
Böylə simayi por vüqarilə,
Bütün əşar abdarilə,
Şairanə, dəqiq rəmzilə,
Güldürür bir lətifə tərzilə.
Oxşayıb əyləməkdədir nöhə,
Gülər, ağlar kibi edər şəkvə.
Bu ləqabınca Sabirə yakışır,
O böyük, şanlı şairə yakışır.

Səni bir az da oxşayım, Sabir,
Noldun ey vah, möhtərəm şair?!
Sənsən ey, Sabir, zəhmətin mələgi!
Sənsən, ey şeiriyyatın çiçəgi!
Ədəbiyyata bir cığır açdın,

---

[1] Mərhum "Füyuzat" məcmuəsinin beşinci "söz" sərlövhəli "Ey söz" əsərinə işarədir

Yollarında bənövşələr saçdın.
Açmada şimdi pak yaşıl güllər,
Çəkdin amma bu yolda, ah, nələr?
Səni həp dərd, möhnət inlətdi,
Səni kor millətin vərəmlətdi!..
Dün degilmiydi şeirə başlar idin?
Ruhumu dadlı-datdı oxşar idin.
Susdun ey vah, nerdəsin şimdi?
Səni yoxluq uyutdumu əbədi?
Əxtəri-tabdar idin, söndün,
Sandım, ey çərx, sən də bəs döndün!
Məhvərindən qiyamət oldu əyan,
Ah, xülyaymış bu zənn, bu güman.
Ədəbiyyatda qopdu bir matəm,
Sən hələ cahilan kibi xürrəm!
Siz, siz, ey hüzlü-hüzlü insanlar!
Siz, siz, ey fitnə-şərr, nadandar!
Siz, siz, ey bişur olan cühəla!
Oldunuzmu fəraqət imdi daha?
Yox! O mərhumun ismin andıqca,
Ədəbiyyatda yer qazandıqca,
Sizi ta təlinlər yad eylər,
Sizə dair nəşidəsin söylər.

Sabirim, yox, sən ölməyib dirisən,
Sabit əncam kibi sönər kibisən.
Biz qaranlıqda söndü həp sanırız,
Hər şeyin zahirinə aldanırız...
Almış ağuşunla səni lahut,
Deyiriz biz o heç, o yoxluğa mut.
Halbuki yox deyim də sən, varsın,
O mələklər uçuşlu təyyarsın...

Qardaşım, bir də istərəm bilmək:
Şu cahanda bu «var», o «yox» nə demək?!
Bəncə yox cism üçün cahanda fəna,
Birdir aləmdə həp fəna və bəqa...
Birdir aləmdə həp məmat, həyat,
İdamə yetər şu bir isbat.
Məsələn, qətrə su düşərsə yerə,

Quruyur, yox olur da bilmərrə.
Noldu? Sorsaq əgər o qətrəyi-ab,
Yerə göydən enər mətin cavab:
«Burada şimdi eylədim mənzil,
Eyləriz biz səhabələr təşkil.
Şu təbiət bəni buxar etdi,
Uçurub zərrə-zərrə nar etdi.
Yenə mayeləşib, suya dönərəm,
Yenə qətrə olub, yerə enərəm».
Şimdi ol qətrə heç və yoxmu demək,
Halbuki, yox degil də var, bişək.

Bir də sözdür cahanda həp baqi,
Qaplamış nuru ilə afaqi.
Nola dersəm, a söz* sana müşkah,
Alıyor nuru səndən həp zərrat.
Buna kəndində eylədin iqrar,
Şimdi, ey şairi-mələkköftar.
Səni mütləq cahanda var sanıram,
Səni kəndimlə həp yaşar sanıram.
Oxuduqca şu dadlı sözlərini,

San eşitməkdəyim sənin səsini.
Görünürsən o halatinlə bana,
Gülər-ağlar qiyafətinlə bana,
Ah, gördükcə qəmli heyyətini,
Ağlaram, dinləyib şikayətini.

*1912*

## ALDANMA

Aldanma zahidə, sanma uludur,
Qəlbi hiylə, riya ilə doludur.
Həsəd ona sarılmış ərkən kimi,
Fitnə-fəsad onun tirmə çuludur.
Bu gedişlə yetişməzsən bir yana,

Zahid, bu yol, məncə, çox qorxuludur.
Həsəd, qürur hər bir insanda olsa,
Köpəkcə saymasan, məncə, yoludur.
O kəsdə ki, yoxdur belə sifətlər,
Şaiq onun satınalma quludur.

*1912*

## BƏXTSİZ RƏFİQƏMƏ

### I

Ey məni çulğalayan dərd, nədən
Bir zaman üz çevirirdin məndən?
Sizsiniz indi mənim sirdaşım,
Ən ağır gündə əziz yoldaşım.
Bəxtiyar günlərim uçdu-getdi,
Könlümə sizləri o, yar etdi.
Qəm olub təkcə təsəlli edənim,
Sanki qəmdən yoğurulmuş bədənim.
Zəhmət ilə yuva tikdim sevərək,
Tarümar eylədi cövr ilə fələk.
Söndü parlaq, gözəl ümmidlərim,
Aldı sevdiklərimi çərx mənim.
İndi çox sevdiyim aləmdə mənim
Ruhsuz bir quru qalıbdı tənim.
Bir qırıq saz kimi əfsürdə, həzin,
Gecə-gündüz edərəm nalə, ənin.
Ah, fəryadimə payan yoxdur,
Çünki istəkli o canan yoxdur.
Ah, itirdim elə bir təzə bahar
Ki, mənə bülbüli-gülzar ağlar.
Belədir bu qoca dövranın işi,
Acıdır ağlayışı, həm gülüşü...
Qol-qanadsız sürünürkən yerdə,
Ürəyim dağlı, özüm pəjmürdə,
Mənə zindan görünürkən aləm,
Bu nə hikmətdir, ilahi, bilməm?
İstərəm mən yenə artıq yaşamaq,
İstərəm dərd, cəfalar daşımaq.

### II

Bir dumanlı sabah idi, ürəyim,
Çarpıyordı, həzin və pürqəm idi.
Eşqlə çırpınan könül diyarı
Məni çəkmişdi bir məzarə sarı.
Ağlayırdım yanıqlı həsrət ilə,
Dərdləşirdim o nazlı afət ilə.

Qapanıb bir yeni məzar daşına,
O yaxında uçuq yuva başına,
Oturub bir quş etmədə fəryad,
Eyləyir qəmli nəğmələr icad.
Qanadın sallayıb həzin inlər,
Sanki söylər mənim kimi sözlər.
O da sanki mənim kimi nalan,
O da aludəyi-qəmi-hicran.
O da daim mənim kimi ağlar,
Sanki ruhumla aşinalığı var.
Gəl, quşum, gəl səninlə birləşəlim!
Oturub qəmli-qəmli dərdləşəlim!
Sən kimi mən də bağrı qan, yalnız,
İldırımlarla tarümar yuvamız.
Mən də sən dərdliyəm, qubar etmə,
Gəl məni bunca biqərar etmə.
Odlu şeirimlə mən sənə hər gün
Söyləyim dərdü macəramı bütün.
Sən də nəğmənlə dərdini söylə,
Yaşayaq böylə, daima böylə.

III

İki ənis — iki munis yaşardıq azadə,
Yox idi bir qəmimiz, dərdimiz bu dünyadə.
Ayırdı bir-birimizdən fələk sitəmlə bizi,
Bu Şaiqin sənə qan ağlasın müdam gözü.
Sən öldün, ah, vərəm qəlbimi mənim dağlar.
Unutmam, ölsəm əgər, torpağım da qan ağlar.

*1912*

## İŞIQ MƏNBƏYİ

Qaranlıqdır vətənin hər bucağı,
Sönmüş ata-babamızın ocağı.
Babalarımız çalışdı ad qazandı,
Hifnmətlə qoydular dağ üstə dağı.
Yaramaz bir övlad qalarsa yurdda,

Sönər babasının yanar çırağı.
Heç bir zaman bir növ ilə keçinməz,
Hər bir əsrin var bir tərəqqi çağı.
Tərəqqi etməyə lazımdır ancaq,
Tərbiyəli anaların qucağı.
Qadınla hər millət eylər tərəqqi,
Qadındır millətin şamı, çırağı.
Yıxar bir milləti, bütün məhv edər
Qadınların tərbiyəsiz qalmağı.
Yaşa, adın dünya durunca qalsın,
Millət vətən ilə birgə ucalsın!

*1912*

## ƏKİNÇİ VƏ XAN

Rəhm eylə, tərəhhüm çağıdır, xan, sənə qurban,
Qoyma bizi gəl bisərü saman, sənə qurban.

Gəldim boş əl ilə qapına, qovma, dəxiləm,
Yoxsul, üzü qara, əməyi puç və səfıləm,
Qəlbi qırığam, boynu bükük, xəstə, əliləm.

Gəl eylə mənim dərdimə dərman, sənə qurban,
Haqsız, quru muzdurca bu heyvan sənə qurban.

Əsdi qara yel, çəltiyi, bostanı sovurdu,
Bu fəqr və zillət neçə ildir bizi yordu,
Yağmadı yağış, yandı taxıl, cümlə kül oldu.

Bir dənə ələ gəlmədi heç, xan, sənə qurban,
Nə darı, nə çəltik, nə də bostan, sənə qurban.

Aldı dolu, billah, sərü samanımı əldən,
Salmış iki ildir bu çəyirtgə bizi dildən,
Ar eyləyirəm böylə keçinməkliyə eldən.

Getdi keçən il borcuma yorğan, sənə qurban,
Bu başı bəlalı canım hər an sənə qurban.

Bundan daha artıq heç olurmuydu çalışmaq?
Hər ildə qabıq qoydum ilan tək, hər il ancaq
Qaldım quru yerdə yenə möhtac, yenə çılpaq.

Gülmür bizə bu çərx, bu dövran, sənə qurban,
Səbrim tükənib, bağrım olub qan, sənə qurban.

Evdə mələşir, vallah, acından uşaq, övrət,
Qaçmış bəti-bənzi, hamısı bir quru surət,
Olmuş nə isə bunca müsibət bizə qismət.

Bir tövr elə, çək bizlərə saman, sənə qurban,
Rəhm eylə, tərəhhüm çağıdır, xan, sənə qurban.

Evdə yeyəcək nə darı qalmış, nə də buğda,
Bu il bizə gəl vergini rəhm eylə, bağışla,
Bəsdir bizi dırmaqladığı yırtıcı dünya.

Daxmamdakı beş ac-yalavac can sənə qurban,
Ət-yağ üzünə həsrətik hər an, sənə qurban.

*1913*

## BİRİ SƏNSƏN, MƏLƏKCİYİM, BİRİ MƏN

Qonşuda qarşı-qarşıya görünən
İri camlı, genişcə pəncərədən
İki baş daima çıxar dişarı,
Bir-birinə baxar, gülər şən-şən...
Bir patırtı pozar o nəşələrin.
Seyd, səyyad ürkərək birdən,
Sürət ilə çəkərsə başlarını,
O baxışlardakı təəssürdən
Çırpınır hey iki ürək, iki ruh,
Şad, məhzun iki vücud, iki tən.
O iki çırpınan, həzin düşünən
Biri sənsən, mələkciyim, biri mən.

Yamyaşıl gül-çiçəkli bir bağça,
Döşənib sanki yerlərə xalça.
Səhərin xoş nəsiminə qarşı
Açılırkən gülümsəyir qönçə.
Oxuyur şaxəsində bir bülbül,
Səsi məhzun, dəyərli, həm incə,
Dolanır qönçənin müdam başına.
Ona bülbül məhəbbət etdikcə,
Görünür qönçə məst, pürnəşə.
Bülbülün bağrını dəlirsə tikən,
O iki məst, müztərib görünən
Biri sənsən, mələkciyim, biri mən.

Bir ağaclıq... axar önündən ab,
Sakit axşamdı, nur saçar mahtab.
Çokə altında baş-başa oturab
İki sövdalı gənc əlində kitab,
Danışır saf, təmiz məhəbbətdən,
Bu görüş həm sevinc verir, həm əzab.
Nazənin qız kimi süzürdü ay,

Üstünə kölgə salmış idi səhab.
Hər şeyə hökm edir sükut, yalnız
Titrəyir ortalıqda busi-dəhən.
O iki bəxtiyar — gülən, sevişən
Biri sənsən, mələkciyim, biri mən.

*1913*

## NƏCƏF BƏY VƏZİROV HƏZRƏTLƏRİNƏ

Sən ey bu yomi-ali qəhrəmanı, ey işıq ulduz!
Təşəkkür etməyə səndən mənim qəlbim, dilim aciz.
Vətənciymin sən ey fəxri, sevimli, şanlı övladı,
Çalışqan qəhrəmansan sən, deyilsən bir nəfər adi.
Tamam qırx il çalışmaq, cəhlilə həmvarə dartışmaq,
Qaranlıqlarla, nifrədərlə, bayquşlarla çarpışmaq
Asan bir şeymi? İnsan qüvvətindən pak uzaq qüvvət,
Olurmu hər kəsə bu bəxtiyarlıq hər zaman qismət?
Nəcib bir millətin ruhinə min zəhmətlə yol buldun,
Bu qövmün qəmli, xürrəm günlərində həp şərik oldun,
Sən onlarla bərabər bir pədərtək ağladın, güldün,
Yetimlər gözlərindən fışqıran göz yaşların sildin.
Qaranlıq bir məişət çöllərində zar, sərkərdan
Qalarkən, sən yetişdin dadə, ey parlaq məhi-taban.
Bu millətçin geniş, parlaq, müzəyyən bir cığır açdın,
O yollarda işıqlardan çiçəklər, toxmlər saçdın.
Bu gün bir qalib orduya müzəffər bir komandansan
Və hər türk oğlu bir türkə mədari-fəxrsən, şansan.
Yaşa, ey yomi-ali qəhrəmanı, fəxrü izzətlə!
Yaşa bu sağlam ünsürlə, yaşa bu şanlı millətlə!

*1913*

## FİDAN

Kötüklərin arasında ulu, sağlam bir kötük,
Ağır, kəskin baltalarla qol-qanadı qırılmış,
Tufanlarla çarpışaraq qalib gəlmiş, yorulmuş,
Uca, sağlam və kölgəli dalları qalmış tək-tük.

O dalların damarında, suyundakı əsalət,
Şanlı keçmiş tarixini anladıyor; hər yarpaq
Bayraq kibi kölgəsində bəsləmişdir bir oymaq,
Şimdi artıq qocalmış, qalmamış əski qüvvət.

Qoca kötük keçmişilə əsla məğrur deyildir,
Rişəsindən sormuş olan bir çox sağlam pöhrənə*,
Məğrur baxışlarla baxar, fəxr edər artıq, yenə
Gələcəyə şanlı ümid, şanlı tarix doğurur.

Bu pöhrənlər həpsi sağlam bir kötükdən cücərmiş,
Bir damardan ayrılmış, həp bir torpağın fıdanı,
Bir döldən, bir yataqdandır, həpsinin birdir qanı,
Bir çeşmədən su içmişlər, bir bağdan becərmiş.

## İRƏLİ

Keçmişləri unut, quzum, artıq ona əl vurma!
O dumanlı pərdələri üzərindən qaldırma!
Ora min bir nərdivanlı quyu olmuş hər zaman,
Hər nərdivanda yuxlayır bir əjdaha,bir ilan.
Sakın, açma, açma, quzum, o quyunun ağzını,
Çalma artıq keçmişlərin ruh inlədən sazını.
Burax, onlar o qaranlıq məzarlığa atılsın,
Razı olma gənc ömrünə, gülüm, zəhər qatılsın.
İrəliyə doğru yürü, yersiz arxana baxma!
Gələcəyi düşün daim, onu gözdən buraxma!
Unutma ki, o alnının altında nurlu gözlər
İrəlini görmək üçün verilmişdir, yol izlər.
Sən o parlaq yol izləyən gözlərini daima
İrəliyə dik hər zaman, yürü, yürü və durma.
O dumanlı, fırtınalı keçmişlərdən uzaqlaş!
Odlu, mətin addımlarla yürü, yürü, durma, arş!
İrəlidə, inan ki, bir cənnət kimi cahan var,
Sabah günəş orda doğar, səadət orda parlar.

*1914*

## MÖHTƏRƏM NƏRİMAN BƏY NƏRİMANOV CƏNABLARINA

Nişan qoymusan, eşitdim, xeyir olsun,
«Dan ulduzu» kimi bəxtin durulsun.
Yaşa, yeni yoldaşınla çox yaşa,
Bu dünyanı rahətliklə vur başa.
Fırtına, tufanlardan sonra, əlbət,
Gözəl olur sakitlik, istirahət.
Yox, sən rahətlik sevməyən atəşsən,
Əriyəcək qəhrinlə müdhiş düşmən.

*1914*

# CÜMHURİYYƏT DÖVRÜ

## İKİ MÜCAHİD

Sən, ey atəş vücudlu, oynaq atım!
Ey ildırım baxışlı qol-qanadım!
Biz türklərə saldırıcı babamız
İki ağır miras buraxmış yalnız.
Biri dəmir silah, birisi atdır,
Biz türklərə bunlar iki qanatdır.
Bunlar ilə yüksəklərə uçarız,
Üç dünyanın tilsimlərin açarız.
Qovunca biz yeriyinin üstünə,
Qeysərlərin, кəsrilərin təxtinə
Sahib olan fateh dövri alarız,
Arslandan, qartaldan tük saldırarız.
Kədərli, şən nümayişli günümüzdə
Ayrılmaz arкadaşımız həp siz də.
Bulunduğumuz qovğalarda nə кadar
Nəqş etdin qəlbimə xoş xatirələr.
Uzaqlardan görüncə həp düşməni
Çeyniyordu cəlavənin кəmini.
Qulağını qırpar, yeri eşərdin,
İldırımlı bulut кibi кişnərdin.
Üzənginə ayağımı basınca
Cilan кibi sıçrardın, göz açınca.
Şahin кibi həm qol-qanad açardın,
Dörd ayaqla hava ilə uçardın.
Bən düşməni qılıncımla, qurşunla,
Sən çeynərdin dırnağınla, dişinlə.
Duyulunca sonra hər yanda zəfər,
Ona qatardın düşməni sərasər.
Şən və müzəffər bir sima alardın,
Cəbhələrdə кişnər, meydan sulardın.
Fəqət şimdi nədən oynaq diк başın
Dalğın durur ildırımlı baxışın?
Şimdi nədən aşağıya dikilmiş?
Qara yallı təmiz boynun büкülmüş?

O narıncı, parlaq atlas tüklərin,
Tikan kibi qabarmış kipriklərin.
Bir top sivri iynə kibi düzülmüş,
İldırımlı, qara gözlər süzülmüş.
Yara almış qartal kibi bakarsın,
Gözlərinlə sönük şimşək çakarsın.
Atlıları anan cilan gözlərin,
Süslü ayaqların, incə dizlərin
Yorğun-arğın, ölgün kibi durıyor,
Bu halların ümidlərmi qırıyor.
Bilməm ki, kaç tarixi xatirələr
Hiddətli son baxışlarında titrər.
İnanmazdım ki, bir çəlik, bir qurşun
O atəşli vücudunu soldursun.
Son nəfəsdə qoy başını dizimə,
Oxşayayım, sürtəyim üz-gözümə.
Bən mərsiyə qoşub sənə ağlamam!
Deyəcəyim son sözümdür, vəssəlam!
Vəzifəni pak namusla bitirdin,
Bir bəxtiyar şəhid kibi can verdin.
Lakin görələr hala hücum topları,
Bizimkilər dırmanır dağ yuxarı.
Vicdan səsi kibi bu səs də titrər,
Bəni də şübhəsiz hücuma səslər.
Halal elə, arkadaşım, bağışla!
Getməliyəm, yoldaşını alqışla!
Vəzifəmdir bu yoldan yoxdur dönüm,
Şanlı zəfər... ya şərəfli bir ölüm!..

*1918*

## TURK ƏDƏMİ-MƏRKƏZİYYƏT FİRQƏSİ «MÜSAVAT»A İTHAF

### MARŞ

Birləşəlim, türk oğlu, bu yol millət yoludur,
Ünlə, zəfərlə, şanla tariximiz doludur.
Yürüyəlim irəli, haydı millət əsgəri,
Keçmişimiz şan, zəfər, durmayalım biz geri.

Yıldırımlı gözünüz qan ağladır düşmənə.
Qorxaq, alçaq, xainin bu meydanda işi nə?!
Dəniz кibi coşalım, dalğa кibi qoşalım,
Altun ordu, irəli! Dağlar-daşlar aşalım!
Türк qafasında qorxu yuvalamaz, düşmənim!
Həp dəmirdən yapılmış ruhum, qəlbim, bədənim.
Süngümüzün ucundan damar qətrə-qətrə qan,
Hürriyyətdən, vətəndən ölüncə кeçməm, düşman.
Dalğalanır üstümdə şanlı Turan bayrağı,
Alovlanır qəlbimdə «Ərкənəqon»[1] ocağı.
Haydı, yola çıxalım, haqsızlığı yıxalım,
Turanda gün doğunca zülmətlə çarpışalım!
Arş irəli, irəlidə cənnət кibi cahan var,
Günəş orda həp doğar, səadət orda parlar!
Türк fırqəsi «Müsavat»,
Açalım quş təк qanad.
Sarılıb hürriyyətə,
Bulalım şanlı həyat.

*1918*

## NEÇİN BÖYLƏ GECİKDİN?

*(İntizar qarşısında)*

Sənsiz qəlbim qırıq, sönüк, çeynənmiş, xırpalanmış,
Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.
Qırıq bir saz кimi sızlar qanlı, yorğun telləri,
Yaкılar da, yaкar bütün qayğı vurmuş elləri.
Şu vətənin öкsüzləri, gəlinləri, dulları,
Göz yaşıyla sulanmış həp кeçdiyiniz yolları.
Yolunuzu bəкləməкdən bənizləri saralmış,
Heç gəlmədin. O şən, gülərürəкləri qəm almış.
Sən gəlməsən, dolunsanmış ürəкlər heç şad olmaz,
Sən gəlməsən, xərabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz,
Dodaqlarım gülməz, sönüк baxtıma nur saçılmaz.
Başqasını istəməm də, ey türк, çabuк sən gəl, sən,
Bəкləməкdən yoruldum, eh, iştə gec qaldın, nədən?

---

[1] "Ərкənəqon" – türкlərin azadlığına, qurtuluşuna həsr olunmuş əfsanəvi xalq dastanı.

Yollarına daşmı qalanmış? Ya azğın quldurlar
Burakmıyor?
Daş dəmir, ya polad olsa da onlar,
Ürəyində şölənənən mətin, qızğın atəşlə
Yak onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala!
Xain, alçaq düşmənlərə qol gücünü həp göstər,
Aç yolları, çabuk gəl ki, qəlbim səni pək istər.

*1918*

## VƏTƏNİN YANIQ SƏSİ

Uca, qarlı dağlarımın başından
Altaylara bakar, bakar, durardım.
Çəmənindən, çölündən, dağ-daşından
Qızğın ürəklə sizləri sorardım.

Qısqanırdım sizi hər bir torpağa,
Zira sizdə vətən eşqi var idi.
Bakdıqca o doqquz tuğlu bayrağa
Könlüm sevgi, təsəlliylə dolardı.

O gün tufan kibi Elxan ordusu
Ki, «Güc» deyə qımıldandı yerindən.
O tufanı salamamaq duyğusu,
Əksilmiyor, azalmıyordu bəndən.

Yürüyürdü sarsılmaz altun ordu,
Yürüyürdü ləkəsiz bayrağıyla.
Yürüyürdü günəşə, Şərqə doğru,
Altun oxu, qarğısı, mızrağıyla.

Yürüyürdü, çırpınan bir ürəklə,
Ün, şan, zəfər arxasına düşərək.
Yürüyürdü o, bükülməz biləklə,
«Altun ordu» türküsü söyləyərək.

Əyilirdi qarşısında sərt dağlar,
Bir düzən yer onlar üçün dağ, dərə.
Qıvrılırdı dəniz, nəhr, irmaqlar,
Əzilirdi, ayaq bassa, hər yerə.

Altun ordu ilərlədi bu qərar,
Şərqə, Qərbə, Cənuba yol açıldı.
Büküldü həp zalım və məğrur başlar,
Hər ölkəyə feyz, rəhmət saçıldı.

Alp, Himalay və Karpat həp şanlandi,
Çobanları dadlı türkü çağırdı.
İrmaqları coşdu, dağlar güləndi,
Bülbülləri «sevgi» — deyə bağırdı.

Bən uzaqdan seyr edincə həsrətlə
Taleyimə küsdüm, saraldım, soldum.
Ana qəlbində çırpınan şəfqətlə
Altun ordu fərağında saç yoldum.

Bağırdım ki, ey dəliqanlı ərlər!
Sizlər üçün qollarımı açmışam.
Oralardan əksikmi ya bu yerlər?
Yolunuzda mənəkşələr saçmışam.

Ən sonunda çiçəkləndi diləyim,
Xatirimdən heç silinməz o günlər.
Ey yaradan, puç olmasın əməyim,
Yasa batsın şimdi bana gülənlər.

Xatırlarım, yaz idi, həp dağ-daşım
Tazə gəlin kibi pək süslənmişdi.
Sevincimdən göyə dəyirdi başım,
Üzərimdə diləк qanatlanmışdı.

Əldə kəskin saldırıcı qılcınla
Üç dünyanı tiril-tiril titrədən,
Qəlbdə iman, ümid, sevgi, sevinclə
Düşmənləri intiqamla inlədən.

Üzü dönməz, qorxu duymaz ərlərin
Səsləri ildırım kibi gurladı.
Haqq üçün çırpınan bahadırların
Gözləri həp şimşək kibi parladı.

Dırmanırdı onlar həp dağ-daşıma,
O qüvvətlə dolmuşdu hər bir yerim.
Altundan tac takınmışdı başıma,
Uçmuşdu həp tasələrim, kədərim.

Başlarına gül səpərdi dağlarım,
Ağaclarım salam üçün durmuşdu.
Şən-şən axardı coşqun irmaqlarım,
Bülbülərim keyf məclisi qurmuşdu.

Qırlarımda bitən pənbə çiçəklər
Əllərini öpmək üçün açardı.
Altun qanat bəzəkli kələbəklər
Onlar üçün daldan-dala uçardı.

O acıqlı türkülərin dinlərkən,
Qırlanğıclar yeni dillər söylərdi.
Quzuları yamacımda mələrkən,
Otlaqlarım yaşarardı, gülərdi.

Ulu, əski, ruhsuz, hissiz yazıq bən
Artıq yeni ruh ilə canlanırdım.
Alqış sizə diyordum yüz bin bəndən,
Güvənərdim, qürurla şadlanardım.

Şəfasınız, deyərdim, hər ağrıma
Ürəyimdə alov saçan atəşlə.
Övlad, deyə, basdım həpsin bağrıma,
Sevincimdən gözlərim dolu yaşla.

Torpağımın qartallı dağ-daşına
«Uğurlar olsun!» — dedilər, qondular.
Ağ alınla yeni yurdun eşqinə
Köpüklü və dadlı qımız sondular.

O dualı qılcınları öpərək,
Etdilər də dayanıqlı bir yəmin.
Vətən, deyə, həpsi dizə çökərək,
Dedilər ki: Annəciymiz, ol əmin!

Aramızda yoxdur alçaq və qorxaq.
Bundan sonra götürməsin nəslimiz.
İştə şəhid başda gəzən şu bayraq.
Şan, zəfərdir tariximiz, əslimiz.

Haram olsun qanımızı daşıyan
O övlada ki, xor baxa vətənə.
Heç uğurlar bulmasın da, qussun qan,
Yurdumuzu tərk edərsə düşmənə.

Şimdi, siz ey Altayları andıran
Dəmir ürəkli bir nəslin övladı.
Ey qəlbində iman, zəfər daşıyan
Oğuzların, Elxanların əhfadı!

Ananız, bak, sürüklənir yerlərdə,
Hər yanına xəncər, nəştər, saplanmış.
Düşmüş də pək təhlükəli bir dərdə,
Sızlar, ağlar, bağrı qan, xırpalanmış.

Babanızdan üzülüncə əllərim
Gözlərimi sizə dikmişdim yalnız.
«Bu qan da o qandan süzülmüş» – derdim,
«Yaman günümdə imdadım olursunuz».

Nədən şimdi fəryadıma qayğısız,
Dəyişdimi damarınızda əski qan?
Nədən oldu dərdlərimə duyğusuz,
Qəlbinizdə söndümü sevgi, iman?

Babalarınız etdiyi bir yəminə,
Yoxmudur ya sizdə hörmət, riayət?
Onlardakı şanə, imana, dinə,
Çarpmıyormu qəlbinizdə məhəbbət?

Rəvamidir o bəxtiyar günlərim,
O dəbdəbəm, o şövkətim alınsın?!
Al duvaqlı, şən, parlaq düyünlərim
Yasa batsın, başına qara bağlasın?

O qəhrəman ata-baba yurduna da
Yazıq, qalsa sizin kibi övlada
Daşısın bin fəlakəti, ardında
Başlamasın çırpınmağa, fəryada.

Didinməsin, zülmləri boğmasın,
O arslanlar yurdu olan torpağım.
Böylə namussuz övladı doğmasın,
Qararmasın başda gəzən bayrağım.

O şən, o bəxtiyar könlüm dolu qan,
Böylə səfaləti artıq çəkəməm!
Sönməz bəndə əski sevgi və iman,
Uca başımı alçaqlara əyəməm!
İldırımlar gurlasın!
Bulutlarım hazırlansın tufana!
Dağım-daşım boyansın həp al qana,
Şimşəklərim parlasın!

Anacığım, qanımız həp əski qan,
Elxan nəsli hər bir zaman xələfdir.
Ürəymizdə həp o duyğu, o iman,
Taleyimiz ün, zəfərdir, şərəfdir.

Şu vətənin dağlarında-daşında
Qurtarıcı qəhrəmanlar az deyil!
Hər obanın, hər ocığın başında
Bin qəhrəman fürsət bəklər, əmin ol!

Beş dünyanın vəhşiləri toplansa,
«Ölüm» deyə, «Vətən» deyə qoşarız.
Bu torpaqlar qanımızla boyansa,
Nəfəsimiz qalınca öc alarız.

O əllər ki, bu gün səni qurtarmaz,
O dillər ki, səni bu gündə anmaz,
O ürək ki, sənin üçün çarpamaz,
O ayaq ki, «Vətən» deyərək qoşmaz,

Al qana boyansın!
Sevdiyi başı ucunda yas qursun!
Anaları ağı desin, saç yolsun!
Sənin kimi ağlasın

*1918*

## ARAZDAN TURANA

Bin göl ətəklərindən coşğun Araz axaraq,
Yıldırımlı, qartallı qayalara çarparaq,
Qaplan kibi kükrəyib, dəniz kibi qabardı,
Məmləkətlər aşaraq, dalğa kibi yol aldı,
Turan-İran dolaşdı, döndü Qafqaz elinə.
Yaklaşınca o daşğın, acıqlı Kür nəhrinə
Hayqırdı: «Ox, qardaşım, dinlə bəni bir zaman!
İztirablar içində çarpınır şimdi Turan.
Girmiş sehirli divlər qızıl alma bağına,
Qara quzğun uşuşmuş soluna və sağına.
Derlər, dünya gözəlinin dizində yad başlar var,
Süzgün, bayğın gözündə qan köpürən yaşlar var.
Bərələnmiş gül kibi gündən-günə soluyor,
Qara, gur saçlarını əlləriylə yoluyor.
Gülümsərkən ağzından güllər saçan o gözəl
Şimdi ağlar, gözündən inci damlar. Xain əl
Girmiş məsum qoynuna, yaralayır köksünü,
İnlər: Yoxmu Turanda qurtaracaq ər bəni?
Nərdə o türk nişanlım, o qoç igit, qəhrəman?
Yolunu pək özlədim, yol ver ona, yaradan!
Yel atına binsin də, gəlsin səni qurtarsın!
Yağı olan bu xain başları həp qoparsın,
Şu sehirli tilsimi qırsın namus eşqinə.
Quruntulu bir kədər çökmüş Turan yurduna.
«Qızıl irmaq», «Süd gölü» bu anda qan köpürür,
Qoç igitlər Turanda bığ çeynəyib də durur.
Bəni daim inlətən, bax, şu acı duyğudur,
Çağlayanlar dağımda köpüklü qan qusdurur».
Coşğun Araz sözünü hıçqırıqla bitirdi,
Kür nəhrini bu xəbər xələcana gətirdi.
Əvət, qara bulutlar almış yurdu, qardaşım,
Nə yaşarız, nə gülər çəmənlərim, dağ-daşım.
Böyük türkün sevdiyi yekta dünya gözəli
Qan ağlasın, qoynuna girsin yabançı əli.
Turanda yüz milyonluq türklük buna qızmazmı?
Qızmazsa, bu xain əl yasamızı pozmazmı?
Gəl, qardaşım, boynuna keçirəyim qolumu,

Annəmiz «Quzğun dəniz» bəklər bənim yolumu.
Gedəlim, dərdimi annəmizə açalım,
Əski yurduna ildırımlar saçalım.

* * *

Kür və Araz coşaraq bir-birinə qarışdı,
Sahilləri çeynəyib, iki aşiq qovuşdu.
Axın-axın axaraq, fırtınalı dənizə
Töküldüncə anlatdı hər ikisi diz-dizə:
— Annə, Turan elindən quruntulu bir xəbər
Gətirmişiz şu tasa, ürəyimizi həp dələr.
Girmiş sehirli divlər qızıl alma bağına,
Qara quzğun uşuşmuş soluna və sağına.
Derlər, dünya gözəlnin dizində yad başlar var,
Süzgün, baygın gözündə qan köpürən yaşlar var.
Bərələnmiş gül kibi gündən-günə soluyor,
Qara, gur saçlarını əlləriylə yoluyor.
Gülümsərkən ağzından güllər saçan o gözəl
Şimdi ağlar, gözündən inci damlar. Xain əl
Girmiş məsum qoynuna, yaralayır köksünü.
İnlər: Yoxmu Turanda qurtaracaq ər bəni?
Nerdə o türk nişanlım, o qoç iyit? Yol alsın!
Şu sehirli tilsimi qırsın, bəni qurtarsın!

* * *

«Quzğun dəniz» bu qara xəbərləri dinlədi,
Yara almış dişi bir arslan kibi inlədi.
Basdı Kürü, Arazı dalğaların selinə,
Birdən-birə köpürdü, daşdı Turan elinə.
O dağ kibi yüksələn dalğaları yürüdü,
Yüz milyonluq Turanı başdan-başa bürüdü.
Hər kiçicik dalğasında bir ildırım patladı,
Almas kipriklərində birər şimşək oynadı.
Hər bir öksüz bucaqda qopdu yeni bir tufan,
Coşqun sellər qaldırdı əngəlləri aradan.
Artıq sehirli divlər yediyini həp qusdu,
Sonra Turan da susdu, dəniz də, göy də susdu.

* * *

Yenə dalğacıqlarla oynar «Quzğun dənizi»,
Güzgü kibi parıldar ay-yıldızlı bənizi.
Göbəyində görünür yaşıl zümrüd bir ada,
Altın kərpicli bir köşk adanın ortasında.
Köşkün qarşı tərəfi qızıl alma bağıdır,
Ayaq bassa, daş olur, hər kəs ona yağıdır.
Qızıl alma bağında gəzər dünya gözəli,
Gülər coşqun sevinclə türkün əlində əli.

*1919*

## ÜLKƏR

Sorucu gözündə sevda uçarkən,
Ey xoş kölgəsində səfalandığım.
O qönçə dodağın bir sirr açarkən,
Uçan nəğməsilə havalandığım.

Yolçu yol ararkən düşər izinə.
Qurtulur baş qoyan sıcaq dizinə.
Mən çoxdan vurğunam o şux gözünə.
Ey oynaq nurilə ziyalandığım.

Ruhumda çırpınan dəli üsyan var,
Qəlbimdə qaynayan zəhərli qan var,
Beynimdə bir çılğın səsli vulkan var,
Yanaram, görünməz oda yandığım.

Sənədir ümidim, ey parlaq ülkər,
Mən də bir yolçuyam itkin, dərbədər.
Qurtuluş yolunu mənə də göstər,
Mələkdən, fələkdən uca sandığım!

*1919*

# 1921–1936

## ŞƏRQ GÖZƏLİNƏ

Şəfəqlər sökərkən öpüşlərindən
Yaranmış al, incə yanağın sənin!
Çiçəklər açarkən gülüşlərindən
Doğmuşdur o qönçə dodağın sənin!

Göylərdə ulduzlar oynar, uçarkən,
Yamacda ceyranlar ürküb qaçarkən,
Qaranlıq gecələr sövda saçarkən,
Doğmuş zülfün, gözün, buxağın sənin!

Hər səhər saçını nəsimlər darar,
Üzünü, gözünü şəfəqlər yuyar,
Alnını aydınlıq öpərək oxşar,
Gözəllik suyudur bulağın sənin.

Pərilərdən sordum — çiçək, dedilər,
Çiçəklərdən sordum — mələk, dedilər,
Ay, ulduz, ülkərdir gərək — dedilər,
Nəsən, heç verən yox sorağın sənin!

Cocuqkən eşitdim, qoca nənələr,
Aşıqlar, igidlər, yaşlı dədələr,
Odlu dillər töküb nəql edər, söylər:
Divlərin dizləri otrağın sənin!

Bir zaman olmuşdun Şərqin əsiri,
Şimdi çeynər səni Qərbin zənciri,
Ey adaxlısına həsrətli pəri,
Qalx, gətir, nerdə al duvağın sənin!

Həsrətli qəlbində kinlər bəslənir,
Köksündə intiqam odu səslənir
Qiyam et, hazırlan, nişanlın gəlir,
Al duvağın – şanlı bayrağın sənin!

Qalx, qiyam eylə, ey Şərqin gözəli,
Qır səni inlədən o kirli əli.
Çoxdandır səni mən şən görmiyəli,
Parlasın o qızğın ocağın sənin!

## GƏNCLİK MARŞI

*(Ali Pedaqoji İnstitutun tələbələrinə)*

Bizik bilik, şan ordusu, Azərbaycan ordusu,
Qaranlıqlarla çarpışan elm, ürfan ordusu.

Köhnə, çürük qüvvələri parçalayıb yıxan biz,
Şimşək kimi parıldayan, ildırım tək çaxan biz,
Daşqın, coşqun sellər kimi hər tərəfə axan biz,
Bizik nurlu aləm quran azad insan ordusu.

Sevgi, ataş ocağıdır Azərbaycan ölkəmiz,
Şərqə, Qərbə işıq saçan, ataş yakan bizik, biz.
İgidlikdə, hər sənətdə ad çıxarmış nəslimiz,
Bizik bilik arxasınca gedən ön, şan ordusu.

Üstümüzdə dalğalanır nur saçaqlı bayrağımız,
Elmsizlik, istibdaddır bizim böyük yağımız.
Yorulmadan çarpışaq ki, parlasın ocağımız,
Bizik qaranlığı qovan, nur saçan dan ordusu.

*1921*

## QIZIM ALTUNSAÇA

Zalım əcəl, bağçamdan qopardı şən gülümü,
Bahar ikən susdurdu o körpə bülbülümü.
Qaraldı gözlərimdə artıq bütün kainat,
Nə günəş var mənimçin, nə də dadlı bir həyat.
Hər şey gözümdə bir heç, hər yer mənə bir matəm,
Sanki dönər başıma laqeyd olan bir aləm.
Ey ruhumun çırağı, sürünürəm yanıncan,
Ya al məni yanına, ya baş qaldır məzardan.
Şən ömrümün günəşi gömüldü şüm torpağa,
Baharımın çiçəyi döndü quru yarpağa.

*1922*

## BİZİMDİR

Bu gördüyün şən-şən ellər bizimdir!
Qarlı dağlar, coşqun sellər bizimdir!
Bizimdir bu əngin, atlas ovalar,
Qoynunda qartal bəsləyən qayalar,

Şux səslərlə dolu isti yuvalar,
Daşqın çaylar, durğun göllər bizimdir!

Uçurumlu göy dərələr, ormanlar,
Yamacında tütək çalan çobanlar,
Ətəyində dalğalanan heyvanlar,
İldırımlı dağlar, çöllər bizimdir!

Ruzgar oynar dərəsində, dağında,
Quşlar ötər çəmənində, bağında,
Qönçə güllər açar hər budağında,
Şən bülbüllər, dadlı dillər bizimdir!

Lalə üzlü qızlar, canlı çiçəklər,
Şux gəlinlər, sevgi doğan gərdəklər,
Şən balalar, dağ gövdəli erkəklər,
Sadə, təmiz, saf könüllər bizimdir!

*1922*

## HƏR ŞEY VAR

Bu ölkədə nələr yoxdur görənə?
Hər yan, hər şey bir-birindən gözəldir.
O qartallı dağlara sor, nə deyir:
Yüz min bahar gördüm, gancəm, bax, yenə.

Baxsanız o beli çökmüş yamaca,
Sinəsində şən quzular bəslənir.
Çoban oxur, çalır, dağlar səslənir,
Nə anladır o kəkliklər turaca?

Göy yamacın ətəyində kəndciyəz,
Dörd yanında dalğalanır tarlalar.
Ətir saçan çöl-çəmənlər, ovalar,
Yaşıl bir atlasdır — ucu görünməz .

## BİR AZ DA ATƏŞ QAT

*(Gənc xanəndəmiz Bülbülə)*

Nədir, nədir o gözəl səsdə titrəyən fəryad
Ki, hər təranəsi ruhumda min fəğan oyadır?
O inləyişlər, aman, kimdən istəyir imdad
Ki, qəlbimin içini hey zaman-zaman qanadır?

Neçin, neçin dodağından uçan fəğanlardan
İçimdə dalğalanır ən acıqlı duyğu, kədər?

Neçin, neçin o səni inlədən «amanlar»dan
Gözümdə kölgələnir bir yığın səfil üzlər!

Neçin, neçin o fəğanlar, «amanlar», gəl, anlat,
Bəlalı Şərqin o keçmiş kədər və matəmimi?
O inlədən səni də qəlbə od vuran qəmimi?
Unut o keçmişi, hayqırma, bitsin əfğanlar,
Bir az da gurlasın artıq səsində üsyanlar,
Bir az da nəğmənə qüvvət, bir az da atəş qat!

*1924*

* * *

Gərdəni ağ qu kimi,
İncə beli mu kimi,
Dəhri araşdırmışam,
Yox o səmənbu kimi.

Munis ona hər dəni,
Sevmədə hər rəhzəni,
Gördümü ancaq məni,
Ürküyor ahu kimi.

Keçdi bahar günlərim,
Gəldi xəzan inlərim,
Bu gedişi dinlərim,
Ömr axıyor su kimi.

Hər şeyim olmuş talan,
Qəlbimi yoxdur alan,
Xatirələrdir qalan
Həp mənə uyğu kimi.

*1925*

## BÖYÜK HİCRAN

*Böyük qardaşım Məmməd Səid Ordubadiyə ithaf*

Yadımdadır, o gün ki, sən sərilmişdin yatağa,
Qara ölüm dilsizliyi çökmüşdü dil-dodağa.
Gözlərinin şimşəkləri yavaş-yavaş sönürdü,
Üzün xəzan vurmuş quru yarpaqlara dönürdü.
Yastığına söykənmişdim, mən də əlin əlimdə,
Yetim kimi min bir həsrət inləyirdi könlümdə.

Göz önündə canlanırdı həsrətli xatirələr,
Düşündükcə ürəyimdən nələr keçirdi, nələr!
Mən analar tanıyıram — əxlaq, namus heykəli,
Bir ailə həyatının canlı, sönməz məşəli.
Bacarıqlı əllərilə tikən, quran, yaradan,
Gecə-gündüz övladının qayğısilə çırpınan.
Böyük, sağlam gələcəyi qurar belə analar,
Bunlar ilə hər ailə, övlad olur bəxtiyar.
O həqiqi analardan birisi də sən idin!
Səndə vardı analara məxsus vüqar və təmkin.
Geniş, böyük ürəyini tutardın hər zaman şən,
Övladından alan zövqü almadın heç bir şeydən.
Ancaq övlad oldu sənin hər ziynətin, bəzəyin,
Övlad üçün çırpınırdı böyük ana ürəyin.
Uca ana adını sən təmiz tutdun südün tək,
Mən bunları düşünürkən, o gün anam dönərək
Ev əhlini süzdü bir-bir oynadaraq əlini,
Yoldaşımı çağırdı o, yaxınlaşdı gəlini.
Boğuq səslə qulağına nə isə bir şey dedi,
Gəlin ondan ayrılınca bir ney kimi inlədi.
Mən sorucu gözlərimi gözlərinə dikərkən
Bulud kimi yaş töküldü matəmli gözlərindən.
Çılğın kimi mənə baxdı, o ağlaya-ağlaya,
Dedi: «Od saldı qəlbimə, yoxa çıxsın bu dünya!
Can gəlinim, halal eylə,— deyir, — verdim çox zəhmət.
Abdullahım, nəvələrim məndən sənə əmanət».
Fəlakətli ürəyimdə alovlandı bir şölə,
Övladını düşünürdü son nəfəsində belə.
Oxşayaraq mən boynuna keçirdim öz qolumu,
O da yalnız sağ əlilə qucaqladı boynumu.
Geniş köksü qalxır-düşür, ağırlaşmış nəfəsi,
Qulağımda inləyirdi matəmli hicran səsi.
Ah, birlikdə keçirdik o həsrətli son gecəni,
Bir az sonra evdə birdən qopdu matəm şivəni.
Zalım əcəl qanadını üzərinə gərmişdi,
O mübarək vücudunu vurub yerə sərmişdi.
Gecə keçmiş, yavaş-yavaş ağarırdı dan yeri,
Gözümüzlə açdıq artıq o matəmli səhəri.
Doğan günəş şəfəqini pəncərədən yayırdı,
Uf, nə deyim bu ölümə, canı candan ayırdı.
Səndən ayrı bir günüm bir il keçirdi, ah, ana!
İndi necə dözəcəyəm mən bu böyük hicrana?

*1932*

# STALİNİZMİN İFŞASI

## BAŞLANĞIC

Siz ey keçən aylar-illər, uzaqlaşan zamanlar,
Gənc ömrümün istəyilə qucaqlaşan zamanlar,
Nərdəsiniz, ah, noldunuz, hankı ünsürdənsiniz?
Anlatınız, varlıqmıdır yoxluqmu məskəniniz?
Vücudunuz zehnlərdə yaşayan bir xəyalmı?
Ya günəşlər arxasınca sürünən bir zülalmı?
Ya dumanlı keçmişləri sayıqlayan röyadır?
Yoxsa sular kibi axan zamanda bir dünyadır?
Əvət, ağlım, duyğum səni bu gün bir varlıq sanır,
Yaşatdığın mühit kibi səni hörmətlə anır.
Sən nə xəyal, nə röyasan, nə də yoxluq kölgəsi,
Sənsən tarixi əks edən varlıqların gur səsi!
Yaşadığım bu mühitdə belə dərin izin var,
Hər yenilik, hər başqalıq həp əskilikdən doğar.
Həp sənindir bu yenilik, sənindir bu tərpəniş,
Təkamül və inqilabla öz şəklini dəyişmiş.
Doğurmaqdır, dəyişməkdir təbiətin qanunu,
Zamanlar da bu qanuna əymişdir öz boynunu.
Demək, sənsən bu tarixi, gələcəyi yaradan,
Yaşadığım bu mühitə təsirin var, ey zaman!
Odur ki, mən gözlərimdən qaçırmadım yarını,
Sənə saçdım baharımın oynaq yıldızlarını.
Bütün əsrarımı açdım gecə və gündüzlərə,
Sənin səyyar qucağına gömdüm bir çox xatirə.
Bəziləri unudulmuş, xəyal olmuş bir çoxu,
Bir qismi də gözlərində mürgüləyən bir yuxu.

*1937*

## XALQ DÜŞMƏNİNƏ

Dayan, dayan, cahil memar, bina, otaq əyridir,
Çünki o əl, o göz, qulaq, o baş, ayaq əyridir.
Bacarıqsız bir memarsan yeni bina qurmaqda,
Ancaq məharətin vardır dağıtmaqda, qurmaqda.

Rəyasətə imtahan var, budur səni qudurdan,
Bu rütbəyə bir təsadüf atdı səni çuxurdan.
Yoxsa səndə nə bilik var, nə şüur, nə bacarıq,
Niyə, rütbəpərəstliyin verdi sənə koxalıq.
Sən də bunu duyduğunçun tutdun yanlış bu yolu,
Dost adına qırdın, yıxdın, taladın sağı-solu.
Rəyasətdə qalmaq üçün yürütdüyün siyasət
Hər addımda, hər sınaqda verdi min bir fəlakət.
Tarix bunu göstərəcək, nələr, nələr yapdın sən!..
Ölkəmizdə qulaq batdı acı matəm səsindən.
Cahil, məğrur insanlarda nə ürək, nə vicdan var,
Təbii, boş təbillərin səsi şiddətlə gurlar.
Yaxın-uzaq hər bir dövrü axtardım tarix boyu,
Hər qanlı tac, hər sancağı, hər bir soyu, hər sopu.
Belə vəhşi bir qatilə təsadüf etmədim mən,
Xalqın bilikli oğlunu məhv edirsən kökündən...
Dayan, yetər, cahil sərxoş, zülmün də ölçüsü var,
Uçurumdan sıçramazlar, onun da körpüsü var.
Xaqanlarda görünməmiş bu mənəmlik, bu mənlik,
Xalqın qanlı göz yaşları sənə oldu toy, şənlik.
Cəhalətdən, dayazlıqdan doğar qürur və inad,
Boz dalğalar sahillərdə açar ancaq qol-qanad.
Şahin yerin tutmaq üçün çırpındın, ey yapalaq,
İstəyirdin boş baş ilə tarixdə ad qazanmaq.
Bunu sənin hər addımın, hərəkətin göstərdi,
Tarlasında tikan əkən nə zaman sünbül dərdi?
Göz yaşıyla suvarıldı bu göy tarla, bu xırman,
Yetimlərin alı ilə işlədi hər dəyirman.
Ziyafətsiz, mey-məzəsiz bir günün varmaz başa,
Sür şüursuz eşşəyini hər enişə-yoxuşa.
Qəhqəhəylə gülər sənə qədəhlərə axan mey,
Dövlət nədir, millət nədir sənin kimi sərxoşa.

*1937*

* * *

Bu qürurlu boyun burulmazmı?
Bu bulanlıq sular durulmazmı?
Söylə, ey kinli, qan içən xain,
Zülmə, səbrə nəhayət olmazmı?
Şam ki, pərvanəni yaxar, özü də
Öz odunda yanıb kül olmazmı?
Ey arı, səndə yox laçın qanadı,
Bu fəzalarda o yorulmazmı?
Üzgüçü olmayan dərin dənizə

Girsə, ey «qəhrəman», boğulmazmı?
Kin ilə çapdığın zülüm atına
Bir çidarlı yüyən vurulmazmı?
Gecə-gündüz axan bu al qanlar
Dəniz olsa, yenə sorulmazmı?
Bir zaman haqq-hesab çəkərkən el
Bu cinayətlərin sorulmazmı?
Verdiyin bu cəzalara qarşı
Sənə də məhkəmə qurulmazmı?
Bu qoyun cildinə girən qurdun
Fitnəsi, hiyləsi duyulmazmı?
Bu qədər leş yeyən dərə, uçurum
İntiqam nərəsiylə dolmazmı?
Kim itirmiş mənim itirdiyimi?
Bu xəzan yoldu hər bitirdiyimi.

*1937*

## GƏMİRİK[1]

Hakimdi yerə-göyə qaranlıq!
Qurmuşdu boran-qasırğa xanlıq!..
İnlərdi həyat ilə təbiət,
Oynardı ölüm, zülüm, fəlakət.
Hər yan uçurum — soyuq, ayaz, don,
Vermişdi həyata sanki bir son.
Yollar qapalı, gələn-gedən yox,
Bu dəhşətə qarşı əmr edən yox.
Canlar da sönük nəfəsdi ancaq,
Ruhlar da quru qəfəsdi ancaq.
Zülmət dənizi coşub-daşırkən,
Kin ilə fəlakət oynaşırkən,
Hər yerdə və hər keçid başında,
Uçqun dərələrdə, dağ-daşında,
Yalnız acı rüzigar uğuldar,
Quldurluq edər acıqlı qurdlar...

[1] Gəmirilmiş kəllə

* * *

Sərxoş sürücü əlində qamlar
Ac atlara yağdırır sitəmlər.
Qırmaclar o hər eniş-yoxuşda,
Dağlıqda, düzəndə, bərkdə-boşda.
Köhnə araba içində yüklə,
Yağma malı, qul, kaniz, beşiklə
Dağlıqlara çarpar şiraq-şiraq,
Sınmış təkəri sürüklər ancaq.
Salmış çölə, dağ-daşa gurultu,
Hər bir ürəyə, başa gurultu.
Dur, ey sürücü! Yükün ağırdır,
Heyvanlarının beli yağırdır.
Yollar uçurum, soyuq, boran, qar,
Çəkməz yükünü bu yorğun atlar.
Sürmə, düşün, ey qoca, tələsmə,
Sərsər kimi toz qoparma, əsmə!
Köhnə araba, təkər qızışmış,
Yağ sürtmədən işləyir o yaz-qış.
Atlar gecə-gündüz işləyir ac,
Yorğun ata vurma qamçı, qırmac!
Sürmə, qoca, mənzilin uzaqdır,
Hər bir keçidin başı duzaqdır.
Azdın yolu! Hər tərəf borandır,
Məhv oldu miniklərin, amandır!
Simanı təbiətin qəmirmiş,
Nə göz görünür, nə üz, burun, diş.
Dur, ey qəmirik, çəkil bu yoldan,
Rəhbərlik edərmi gözsüz insan?
Sapdın yolu, getdiyin cığırdır,
Qırmaclama, atların yağırdır.
Qış gəldi, sovuşdu gördüyün yaz,
Bu yol tələsik başa çıxılmaz.
Dağdır, dərədir, eniş-yoxuşdur,
Sürmə, əməyin bu yolda boşdur.
Al qanla bişərmi xam diləklər?
Eşq ilə gülərmi boş ürəklər?
Söz yox, bu dilək böyük diləkdir,
Ancaq ona başqa baş gərəkdir.
Azdırmı sənin inad, qürurun,
Çatmaz o yerə sənin şüurun.
Əldə edəməz onu çürük baş,
Saf sevgiyə heç qovuşmaz oynaş.
Əfsanəyə döndü o həqiqət.

Bir gün başına açar fəlakət.
Yüksək ideal onunla söndü,
Gözlərdən uzaq xəyala döndü...

*1937*

Hey xəyanətlə oynayan kölgə
Dolaşır şübhəli qiyafətlə.
Sürünür izlərində qanlı ləkə,
Oynayır ən sevimli afətlə.
Dağıdır hər yana ölüm rəngi,
Göy də təqlid edir bu ahəngi.

* * *

Yenə dəhşətlə sarsılır afaq,
Məhvərindənmi oynamış bu cahan?!
Yenə qan fışqırır dəniz, torpaq,
Bağlıdır dil, fikir, qələm, vicdan,
Damğalanmış ağıl, düşüncə, ürək,
Sehr, tilsimlə oynayır bu fələk.

* * *

Yenə hər yanda qorxu, kin, həyəcan.
Yenə təhkimçilik, yenə zəncir.
Yenə qırğın, talan, soyuq zindan,
Söylə bu macəra, bu fitnə nədir?
Həm də bu xislətinlə sən kimsən
Ki, bu azadə yurda hakimsən?!

* * *

Saçma kin toxmunu bu torpaqda,
Ey inadla qürur satan sərxoş.
Nə hünər var yıxıb dağıtmaqda?
Səndə insan təbiəti yoxmuş.
Vətənim inləyir o pəncəndə,
Yırtıcı iştahası var səndə.

*1937*

# 1938–1959

## GƏLSİN

*İstəкli tələbəm Ruhulla Axundova*

O gün olsun bağıma sevgili yarım gəlsin!
O кönüllər diləyi, qönçə üzarım gəlsin!

Çən, dumandan o gün olsun кi, silinsin vətənim,
Dan şəfəqli səhərim, güllü baharım gəlsin!

Ərisin, qalmasın artıq bu кönüllərdə кədər,
O gün olsun diləyim, bilgi, şüarım gəlsin!

Sönməsin ölкəmizin canlı o şənliк çırağı,
Hörmətim, şan-şərəfım, bilgi, vüqarım gəlsin!

O gün olsun кi, axışsın bütün el təbriкə,
Köməyim, qol-qanadım, əldə tutarım gəlsin!

O gün olsun кi, yenə qaynasın el, coşsun el,
Bizə şadlıq gətirən güllü qatarım gəlsin!

O gün olsun qoca Şaiq nəfəs alsın şən-şən,
O кönüllər diləyi, sevgili yarım gəlsin!

*1940*

## ŞƏKLİNDƏ

*Sevimli tələbəm Tağı Şahbaziyə*

Sevimli bir diləyim var, xəyal şəкlində,
Yeni bəhər verəcəк bir nihal şəкlində.

Məni üzər gecə-gündüz o müdhiş ayrılığı,
Yeyər bu qəlbimi dərdü məlal şəкlində.

Fərağə dözməyirəm, hardasan, görün! — derkən,
Önümdə cilvələnir bir sual şəklində.

Zaman-zaman dəyişir rəngini, lətafətini,
Qüruba qarşı o gülgün şimal şəklində.

Şəfqət kimi yanaşır, əl uzatmaq istərkən
Uzaqlaşır o, vüsalı məhal şəklində.

Gözümdən indi yenə kim onu qovur buradan?
Süründüm izləyərək bir zilal şəklində.

Odur, göründü yenə sevgili gözəllərtək,
Bəzər xəyalımı coşqun məal şəklində.

Gülümsəyir üzümə, bax, vüsal üçün yanaşır,
Açıb iki qolunu bir hilal şəklində.

*1940*

## VƏTƏN NƏĞMƏSI

Ey dünyaya aydınlıq saçan Odlar Diyarı!
Sən ey sönməz günəşin xəzangörməz baharı!
Ey şərəfli tarixim, ey xalqımın vüqarı!
Ata-baba irsidir qəlbimizdə axan qan!
Əsirgəməz övladın səndən can, Azərbaycan!

Düşmənlərin gözü var torpağında, daşında,
İldırımlar partlamış əyilməyən başında,
Süngü, qılınc oynatmış babaların qarşında.
Qoymamışdır qoynuna girsin amansız düşman,
Əsirgəməz övladın səndən can, Azərbaycan!

Həqiqi bir cənnətdir hər bir gözəl bucağın,
Ən sevimli beşikdir bizə ana qucağın,
Sönməyən bir məşəldir şeir, sənət ocağın.
Səndən alır ilhamı hər bir quran, yaradan,
Əsirgəməz övladın səndən can, Azərbaycan!
Şəfəq təki çağlayan səhərlərin var sənin,

Koroğlu, Babək, Nəbi, Həcərlərin var sənin,
Tarix yazmış alnına zəfərlərin var sənin.
Qəhrəmanlıq yadigar qalmış ata-babadan,
Əsirgəməz övladın səndən can, Azərbaycan!

And olsun keçmişlərə, gələcəyə, bu günə!
And olsun əmdiyimiz təmiz ana südünə!
And olsun sevgilimin o mübarək köksünə!
Ayaq bassa amansız düşmənlərin hər zaman,
Əsirgəməz övladın səndən can, Azərbaycan!

*1943*

## ANA

Ana, ana — bu kəlməcik hər körpənin ən ilkin
Öyrəndiyi bir kəlmədir, əmdiyi süddən şirin.
Ana, ana — bu kəlmədə saf, doğma bir duyğu var,
O duyğudan qüvvət alıb canlanır bu insanlar.
O duyğunun eşqidir bu ürəklərdə qaynayan,
O duyğudan dolar qəlbə sevgi, ümid və inam.
Ana qəlbi saf göylərdə şəfqət saçan səhərdir,
Könül çalan gözlərindən ana daha dilbərdir.
Analarla işıqlanır vətənin hər bucağı,
Ən sevimli bir beşikdir anaların qucağı.
Ata ağıl, şüur isə, ana — coşqun ürəkdir,
Sevgilərin qaynağıdır, ən böyük bir diləkdir.
Analardır hər bir xalqın bilik, əxlaq ölçüsü!
Heç sönməyən bir məşəldir anaların sevgisi!

*1945*

## ATA ÖYÜDÜ

Ey oğul, böyüdün, kamala çatdın,
Çalışdın, səyinlə bu hala çatdın.
Atıldın həyatın gen səhnəsinə,
Qulağın uymasın hər nəğməsinə.
Sənə bu həyatdır ən böyük məktəb,
O həm çox sadədir, həm də mürəkkəb.

Aldanma, ağlınla hər şeyi ölç-biç!
Yaxşını mənimsə, yamandan vaz keç!
Düşünən ağlın var, duyan ürəyin,
Bunlarla gülümsər hər bir diləyin.
Ağlın bir gözü var, ürəyin min bir,
Çalış ki, işdə olsunlar əlbir.
Bu ona rəhbərlik etsin, o buna,
Aydınlıq saçsınlar həyat yoluna.
Əyriyə baş əymə, cəsur ol, cəsur!
Haqqa möhkəm yapış, fikrində bərk dur!
Hər hissə qapılma, qəlbini bərkit!
Doğrunu doğrular ağzından eşit.
Düşüncə, anlaqdır ağlın köməyi,
Duyğu və xəyaldır könül bəbəyi.
Ən böyük həqiqət xəyaldan doğar,
Dolğun Ay incə hilaldan doğar.
Bunlarla şənlənir, canlanır həyat,
Şahin tək hər yerdə açar qol-qanad.
Yarımçıq sürünmə, dolmağa çalış,
Biliklə qüvvətli olmağa çalış!..
Yüksəl gündən-günə, bir boyda qalma,
İşığı Ay kimi Günəşdən alma!
Öz zəhmətin ilə yarat hər zaman,
Olma hər tarladan kəsmik toplayan.
Bir hünər göstərsən nə gərək qürur,
Qürura qapılmaz sağlam bir şüur.
Yağmurlu bulud ol, nur saçan Günəş,
Yanmağa layiqdir hər quru küləş.
Özünü kamaldan kamala yetir,
Torpaq ol, al-əlvan çiçəklər bitir.
Əkdilər, sən biçdin, indi də sən ək,
Mərd olan borcunu ödəsin gərək.
Sənə yüz vermişsə bu ana torpaq,
Sən min ver, ölçünü, hesabı burax.
Yalnız bir çiçəklə açılmaz bahar,
Bu elin qədərsiz ehtiyacı var.
Tək sənin gücünlə yaşamaz vətən,
Özündən qüvvətli vətəndaş görsən,
Ürəkdən sev onu, hər an hörmət et,

Xeyir verməsinə sən də xidmət et.
Qulağından həsəd sırqası asma,
Əlindən tutanın başından basma.
O sənə, xalqına köməkdir, oğul,
Çay kimi bulanma, əngin dəniz ol!..
Doğanaqdan keçər hər uzun örkən,
El böyüklərinin qədrini bil sən.
Dənizə bir damcı bilik çox azdır,
Bu əsrin, tarixin gözü doymazdır.
Dahilər yaratmış bu şanlı torpaq,
Tərəqqi biliyə bağlıdır ancaq.
Yoluna nur saçan istiqbalın var,
Çox çəkməz, hər yerdə min günəş doğar.
Bir məşriq kəsilər hər yan, hər bucaq,
Şənliklər içində gülər hər ocaq.
Getdikcə daha da şənlənər ölkə,
Əriyər keçmişin qalığı ləkə.
Yer gülər, göy gülər, həyat gülümsər,
Üzünə yeni kainat gülümsər.
Ey düşgün çağımda qəlbim, köməyim,
Budur son istəyim, ən son diləyim:
Bütün qüvvətinlə silahlan, oğul,
O böyük bayrama sən də hazır ol!
O günə uca bir diləyin olsun,
Sənin də bir damcı əməyin olsun!..

*1945*

## BAHAR

Əs, ey ətirli dan yeli,
Könül açan bahar gəlir
Bənövşə, yan dara teli,
Bağa sevimli yar gəlir.

Bulud, gecikmə, düş yola,
Çəmənləri süpür, sula.
Səadət ilə qol-qola
Könül açan nigar gəlir.

Məhəbbətin çırağıdır,
Yeri könül bucağıdır.
Sıxıntı, dərdi dağıdır,
Elə-günə tutar gəlir.

Günəşlə vermiş əl-ələ,
Üzü şəfəq saçır gülə.
Görüncə hüsnünü elə,
Sevinc gəlir, vüqar gəlir.

Baxın qanadlanan göyə,
Qaranquşa, qaz, ördəyə.
Vətən, Vətən, Vətən, — deyə
Yenə qatar-qatar gəlir.

*1945*

* * *

Dan yeri sökülür, hər tərəf rəngin,
Şəfəqdən don geydi dağ, dərə əngin.
Saçıldı çöllərə min rəng, min boya,
Sonalar göllərdə baş vurdu suya.
Şehlərdə yuyundu hər ot, hər çiçək,
Qönçənin üzündən açıldı örpək.
Tel, birçək ayırdı nərgiz, bənövşə,
Təbiət özü də dondu bu işə.
Gül gülü çağırdı, bülbül bülbülü,
Saraltdı bu sövda, dərdi sünbülü.
Fəzanı həm günəş, həm bulud almış,
Yolları sulayır, günəşli yağış.
Uzaqda ildırım şığıyır tək-tək,
Göyün saf köksündə oynayır şimşək.
Meşələr bürünmüş əlvan qumaşa,
Saçaqlı fındıqlar vurmuş baş-başa.
Çinara dırmanmış vəhşi meynələr,
Qaralmış göyəmlər deyir: Məni dər.
Zoğallı dərələr bəzənmiş əlvan,
Boynuna taxmışdır yaqut və mərcan.
Bu bahar çağında gözəldir səhər,
Al-əlvan rənglərlə göyə gülümsər...
Səni çox sevirəm, ancaq, ey bahar,
Səndən də sevimli bir sevgilim var.
O da öz elimdir, bir də Vətənim,
Qəlbimin özəyi bunlardır mənim.

*1945*

## ÖLÜMƏ HƏCV

Ey ölüm, ey, nə yaman siman var:
Qaşqabaqlı, qara, çirkin, yassar.
Gözünün hər biri bir alma dərir.
Dişlərin it kimi cəmdək gəmirir.
Alnın dar, saçların ifritə kimi,
Gövdən isə qara yelkənli gəmi.
Qolların şil və çolaqdır ayağın,
Yer süpürməkdə o murdar dodağın.
Əyridir baş-qulağın, hər əzan,
O gözəl suratinə sən qurban.
Belə çirkin sifətinlə, de görüm,
Nə deyirsən mənə, ey xain ölüm?
Uzaqam mən ki, o çirkinlərdən,
Şairə, sənətə sənsən düşmən!
Durma qarşımda, bir azca uzaq ol!
Qorxmuram qanlı bıçaq, ya çanaq ol!
Öz başında sınacaqdır çanağın,
Sən uzaqdan nə deyirsən, azğın?
Qıcayıb dişlərini tez-tez sən,
İştaha ilə baxırsan gendən.
Dikilir gözlərimiz bir-birinə,
Bu şüurum ki, gəlir öz yerinə.
Toplayıb qırğı kimi tez özümü,
Mən bərəldincə uzaqdan gözümü,
Tez girirsən qaçaraq bir deşiyə,
Ey siçan, mən dönürəm bir pişiyə.
Necə iyrənc, nə qədər çirkinsən!
Həm də qorxaq, əməzik, miskinsən!
Qorxuduymaz ürəyim var, bunu bil!
Qorx sənə mən kəsilim Əzrail.
Qarşıma çıxma, birəlli yıxaram,
Gözünə, ağzına pambıq tıxaram.
Demə ki, o qocadır, mən gəncəm,
Şahlara «mat» oxuyan şətrəncəm.
Qoca olsam da, iradəm vardır,
Mənə qəlbimdəki iman yardır.
Məni dindirmə ki, vaxtım yoxdur,
Qələmə almağa fikrim çoxdur.
Üzünə baxmağa nifrət edirəm,
Get ki, ilham ilə söhbət edirəm.

*1946*

## VƏTƏNİM

Ey vətən, ey gözəllərin gözəli!
Qəlbimin ey sevimli şah əməli!
Sel kimi hey coşur-daşır könlüm,
Səni azad, bəxtiyar görəli.

Səndədir mizrabı könül sazımın,
Çala bilməz onu yabançı əli.
Hüsnünün şöhrəti yaman artır
Telinə al çiçəkləri düzəli.

Azərilər yolunda can qoymuş,
Basmısan bağrına sevimli eli.
Unudarmı səni bu mərd ellər,
Ey vətən, ey gözəllərin gözəli!

*1947*

## SƏNDƏN DƏ XOŞDUR

Bəzəkli gəlindir yenə hər ağac,
Dərələr, çəmənlər geymiş al-əlvan.
Yaşıla bürünmüş çöl, çayır, yamac,
Bir şənlik məclisi qurmuş hər orman.

Min rəngə boyanmış hər budaq, hər gül,
Həyata verməkdə yaraşıq, zinət.
Hər yana baxdıqca açılır könül,
Gözəldir baharın ılıq nəfəsi.

Gözəldir göllərin qazı, ördəyi.
Gözəldir bülbülün şaqraq nəğməsi.
Gözəldir dağların əlvan çiçəyi.
Ey bahar, bağından dərmişəm salxım,
Hər meyvən dadlıdır, şirin, meyxoşdur.
Ancaq bu şən ölkəm, bu azad xalqım,
Səndən də şirindir, səndən də xoşdur!

Elə bir gəlintək bəzənmiş hər yan,
Yaşıl don geyinmiş dağ, dərə, yamac.
Çəmənlər, dərələr bəzənmiş əlvan,
Bir tabag noğuldur çiçəkli ağac.

*1947*

## CANLI DƏRBƏND ÇİÇƏYİ

Dərbəndin gül bağından dərdim qönçə bir çiçək,
Rəngi, ətri, görkəmi biri-birindən göyçək.
Dedim: Hansı cinsdəndir bu sevimli qönçə gül
Ki, görüncə dərindən çırpındı miskin könül?
Qərənfıldir yoxsa bu? Tellərində var çətir,
Yox, yox, qərənfıllərdə hanı bu rəng, bu ətir.
Diqqətlə bir də baxdım, ağ zanbaqdır, dedim bu,
Yox, zanbaqda tapılmaz bu təravət, bu qoxu.
Qızıl gül olsun gərək, ala çalır yanağı,
O gülə çox bənzəyir bunun qönçə dodağı.
Ey vah, yenə yanıldım, qızıl güllər tez solur,
Mənim gülüm getdikcə təravətlə yoğrulur.
Gördüm artıq güllərin olmayacaq köməyi,
Qoydum onun adını «Canlı Dərbənd çiçəyi».
Bu sevimli çiçəyim payızı yaza qatdı,
Sevdi yeni yurdunu, dərindən rişə atdı.
Həyatının baharı verdi ona üç budaq,
Hər budaqda parladı ulduz kimi bir çıraq.
Ömrümün bağçasını şənləndirdi bu üç gül,
Onlardan ilham alır bu qoca şair könül.
Onlardır qol-budağım, onlardır şən diləyim,
Yetişdirdi bunları «Canlı Dərbənd çiçəyim».
Bu yaşımda vurğunam yenə o ağ telinə,
Qəlbimə şənlik saçan o füsunkar dilinə.
Bu gün tam üç həftədir ayrılmışam gülümdən,
Yerim cənnət olsa da, onsuz zindandayam mən.
Hər yadıma düşəndə qəlbimin başı titrər,
Kipriyimin ucunda gözümün yaşı titrər.

*1947*

## TƏBRİZ

Mən çoxdan həsrətəm vüsalə, Təbriz,
O ceyran baxışlı cəmalə, Təbriz.
Qəlbimin içində tellər sızlayır,
Arabir gəldikcə xəyalə Təbriz.
Bir zaman gülərdin, çiçəklənərdin,
Bənzərdin meyvəli nihalə, Təbriz.
Azadə yurdunun saf göylərində
Oxşardım bir yeni hilalə, Təbriz.

Öz dilin, biliyin, öz idrakınla,
Getdikcə dolurdun kəmalə, Təbriz.
Aşıqdım o azad, gülən səsinə,
Vurğundum o hüsnə, cəmalə, Təbriz.
Uzaqdan eşqinlə, daşqın sevinclə
Qaldırdıq nə qədər piyalə, Təbriz.
Deyirdim: Günəşli bahar həyatın
Xəzandan gəlməsin zəvalə, Təbriz.
Gec açdı, tez soldu al çiçəklərin,
Qurudu o coşğun şəlalə, Təbriz.
Biz yenə üzürük şənlik içində,
Sən neçin düşmüsən bu halə, Təbriz?
Xəzərə axarkən birləşmiş Araz,
O taydan gətirir ah-nalə, Təbriz.
Hər yanı bürümüş zülmün alovu,
Qəlbindir dağ görmüş bir lalə, Təbriz.
O şirin ömrünə kim qatdı zəhər?
Cavab ver bu haqlı suala, Təbriz.
Nifrətlər o Tehran cəlladlarına,
Qavama, Trumenə, Çörçilə, Təbriz.
Sənin gül bağçanı soldurənları
Et mənim şeirimə havalə, Təbriz.
Diləyin azadlıq və səadətdir,
Üzünü tut azad şimalə, Təbriz.

*1949*

## İSTƏKLİ NƏVƏM ÜLKƏRƏ

Bir gün səhər dalmışdım ulduzların seyrinə,
Gözləyirdim üzümə haçan gülər Ülkərim.
Mən ulduzlar içində ona çoxdan vurğunam,
Görününcə üzümə işıq səpər Ülkərim.
İyulun əvvəliydi, ağarırdı dan yeri,
Baxdım göyə, göründü, verdi xəbər Ülkərim:
– Gözün aydın, bir nəvən oldu mənə bərabər.
Bu xəbərlə qəlbimdən sildi kədər Ülkərim.
Baxdım qızın üzünə, Ülkər qoydum adını,
Yerdə, göydə doğmuşdu iki səhər Ülkərim.

*1958*

## QƏZƏLLƏR

Yandırdı məni yar bu hicran arasında.
Kül etdi məni büteyi-əfğan arasında.

Divanə dedi hər görən eşqində cigərxun,
Bədnam elədi fırqeyi-nadan arasında.

Saldı məni qəmdən qəmə, bir etmədi dərman,
Qoydu məni bu dərd ilə dərman arasında.

Bir tazə günəş doğdu iki dağ ətəyindən,
Zənn etdi görən sinəni püstan arasında.

Qeys oldu əgərçi qəmi-Leyli ilə Məcnun,
O qalmamış əsla belə niyran arasında.

Seyd etməyə bu Şaiqi-dilxəstəni ol yar,
Düzmüş üzə xal zülfi-pərişan arasında.

* * *

Nə gözəldir o camalın, a gülüm!
Canıma dərdü məlalın, a gülüm!

Basaram köksümə dərman yerinə,
Nə qədər olsa kəlalın, a gülüm!

Oldu pabənd görüncə könlüm,
Zülf arasında o xalın, a gülüm!

Qönçədir gülşəni-hüsnündə sənin
Açılıb arizi-alın, a gülüm!

Fal açıldın olasan yan mənə,
Necə gəldi, de, falın, a gülüm?

Xari-hicrindən edər ahu fəqan
Bu sənin bülbüli-lalın, a gülüm!

Qazıram sinəmi dırnağım ilə,
Yad edən dəmdə vüsalın, a gülüm?

Qılma gəl Şaiqə hicrani rəva,
Olmasın heç zəvalın a gülüm!

* * *

Saqi, ayağa dur, gətir badə ki, yaz vaxtıdır,
Mürği-könül, nəvayə gəl, suzü güdaz vaxtıdır.
Gülşəni-ol nigara get, ləlü ləbü üzarə bax,
Nərgisi-çeşminin, könül, gör necə saz vaxtıdır.

Zülfi-xəmində əyləşib şərh elə hali-zarimi,
Rəhm edə, bəlkə, dilbərim bəndənəvaz vaxtıdır.

Ağla, könül, fəraqidə, fürsəti fövtə verme sən,
Çünki bu gənc ömrümün durü diraz vaxtıdır.

Məndə bu əşki-zari gör, yardə əbri-rəhməti,
Cuşü xüruşə gəl, könül, razü niyaz vaxtıdır.

Qaşına qiblədir deyə, səf çəkib ol müjən yenə,
Söylə o qanlı gözlərə bu nə namaz vaxtıdır.

Nitqü bəyan açıb yenə tutiyi-təbi ənvərim,
Ərseyi-şeiridə çapır atını az vaxtıdır.

Hicri-qəmilə, ey gözəl, Şaiqi xəstə qılmısan,
Gəl, o gözün fədası mən, indi nə naz vaxtıdır.

* * *

Düzüb tərsa, o xalın həlqeyi-zülfi-çəlipayə,
Gətirdin aşiqi-dilxəstəni fəryadü qovğayə.

Vurub rüxsarə naz ilə sən, ey tərsa qızı, zivər,
Ucaltdın aşiqin əfğanını ərşi-müəllayə.

Uzaqdan qaş çatıb kin ilə baxma mən müsəlmanə,
Mənim də vardır artıq sidqilə mehrim Məsihayə.

Mənimlə qaşların bir dost kimi davransa, nəzr etdim,
Asım qəndil kimi bu canımı taqi-kəlisayə.

Geyirsən gündə min cürə fason ol nazik əndamə,
Xoşa ol pirəhən, camə, xoşa ol şalü dibayə.

Nə göyçəkdir o əndamın, o qəddü sərvi-bustanın
Fəda o nazik əndamə, nisar ol qəddü balayə.

Tamam ömründə İsayə də, etmiş zində bir mürdə,
Bu tərsa həm dirildir, öldürür, gəlsin tamaşayə.

Yığıbsan aşiqin can riştəsin yeksər sən, ey tərsa,
Edibsən zülfi-müşkinin ara pabənd qövsayə.

Gözün min can alır, yaqut dodağın can verir hər an,
Fəda bu canım ol şəkkər ləbə, ol çeşmi-şəhlayə.

Alıbsan Şaiqin səbrü qərarın Şeyx Sənan tək,
Apardın zülm ilə tərsa, bu dini, canı yağmayə.

*Qarakilis, 1904*

* * *

Qurbanın olum, aşiqinə eylə inayət,
Göstər bu diləfsürdənə bir azca himayət.

O zülflü rüxundan elə bir ləhzə kənarə,
Bu əlkəni qıl Kəbeyi-rüxsarə hidayət.

Oynat o qara qaş-gözü naz ilə, nigarım,
Göstər bu cahan əhlinə möcüzlə kəramət.

Aç nitqi-şəkərbarını tuti kimi, ey yar,
Saç ləlü ləbinlə dürü gövhər və həlavət.

Hey qibtə edir ruyinə gülşəndə çiçəklər,
Çünki hanı onlarda belə incə lətafət.

Çaylar, meşələr cümlə mürəkkəb, qələm olsa,
Bu hüsnünü haşa edə bilsin o hekayət.

Can nəqdini Şaiq sənə vermişdi əmanət,
Qurbanın olum, aşiqinə etmə xəyanət.

* * *

Bunca cəfanı qıldı mənə yar, utanmadı,
Zülmündən əl götürmədi, bir an dayanmadı.
Kuyində pislik ilə keçirdim həyatımı,
Bir busə ilə adımı axırda anmadı.

Yandım bu dərdi-eşqdə, bir çarə tapmadım,
Bilməm neçin bu bəxti-siyəh bir dolanmadı.

Naləmdən oldu gül bu cahan içrə kuhü dəşt,
Ey dil, neçin o türreyi-dildar yanmadı.

Naz ilə məst olub gecə-gündüz o mah ru,
Bir ləhzə xabi-qəmzədən axır oyanmadı.

Zahid nə qədər etdisə mənbərdə pəndü vəz,
Divari-eşqə zərrəcə rəxnə vurammadı.

Eşqin yolunu bunca ki, Şaiq edirdi teyy,
Qeys hər qədər yüyürdü, yoruldu, çatammadı.

* * *

Bu nəqşi ki, sən ol güli-rüxsarə çəkirsən,
Bütlan xətini səfheyi-gülzarə çəkirsən.

Ol məst gözün yadına ey sərvi-qiyamət,
Bu xəstə dili xaneyi-xummarə çəkirsən.

Zəncir kimi zülfünü boynuma salıbsan,
Divanə kimi kuçəyə, bazarə çəkirsən.

Bimarə ölüm müjdəsi vermə, hələ can var,
Çeşmim baxa-baxa üzünə qarə çəkirsən.

Yox mehrü vəfanın, a gülüm, səndə nişanı,
Ol dağ ki, bu Şaiqi-qəmxarə çəkirsən.

* * *

Görəsən ah bu gözəl, hansı könül xanəsidir?
Hansı bir bəxtəvərin sevgili cananəsidir?

Olmasın uzaq ləbimdən o şəkər ləl-ləbi,
Bəxtəvər başına hər kimsə ki, peymanəsidir.

Yandı pərvanə kimi şəmi-rüxündə bu könül,
Söyləyin hansı könül o üzün pərvanəsidir?

Mahi-taban kimi o nur saçan zöhrəcəbin,
Hansı şaiq könülün göhvəri-yekdanəsidir?

Hər tərəfdən ki, verirlər ona əfsun, görəsən,
Cəzb edən qəlbini, yarəb, kimin əfsanəsidir?

Söylədim: Şaiqi divanə-dil etdi hüsnün,
Dedi: get, sən kimi bir çoxları divanəsidir!

* * *

Bülbüldə yoxdur eşq, o eşq ki, məndə var!
Atəşdə yox o suz ki, bu qəlbü təndə var!

Mən tək gözəl yolunda edən canını fəda,
Nə Qeysdə, Kərəmdə, nə də Əhrimində var!

Səndən yetişsə hər nə bəla canə nuşdur,
Çünki gözüm sənin kimi simin-bədəndə var!

Şair o gül dodağını yaquta bənzədir,
Haşa, bu rəngü buy, nə ləl Yəməndə var!

Ətri-rüxünü bəzi də reyhana bənzədir,
Reyhan nədir, bu ətr nə müşki-Xütəndə var!

Qəddin yanında sərvi-səhilər də alçalır,
Bir sərv qamətin kimi, haşa, çəməndə var!

Şaiq, bu aləm içrə sənə göz dikib, gülüm,
Meyli nə əqrəbadə, nə şövqi-vətəndə var!

* * *

Günci-meyxanədə, ey кəs кi, məqamın vardır,
Ey xoşa, əldə mey ilə dolu camın vardır.

Ey edən zülfi-rüxi-yarla həmvarə güzar,
Fürsət olsun кi, belə sübh ilə şamın vardır.
Nə ola səndən əgər istəyə bir кam qərib,
Çün sənin xalq ara hər şəhrdə namın vardır.

Xalın, ey yar, əcəb mayeyi-işrətdi sənin,
Heyf, yanında cigərsuzlu damın vardır.

Sən gərəк möhnət əlindən gül olaydın, ey dil,
Leyк, çox şüкr, sənin dərdə dəvamın vardır.

İntizar üstə oturmaqdan olub кor gözüm,
Gəl yetir yardan, ey bad, pəyamın vardır.

Şaiqin sübh duası sənə bəsdir, cana,
Səri-кuyində onun təк çü qulamın vardır.

* * *

Dilbər məni bir busə ilə yadə salıbdır,
Öz aşiqini xatiri-şəhzadə salıbdır.

Çox lütfü кərəm eyləyib arami-rəvanım,
Çün gönlünə ol sərvi-qəd üftadə salıbdır.

Aya nə bilibdir кi, кönül hər qədəmində,
Can riştəsini şövqilə səccadə salıbdır.

Dünyada belə yari-dilara heç olurmu,
Hansı qədi mina dilə dildadə salıbdır.

Viranə dili eyləyib abad o səhi qəd,
Abad ola ol hüsni кi, abadə salıbdır.

Şaiq, səri-кuyində gəl et canıvi qurban,
Gər sorsa bu halə, de məni badə salıbdır.

* * *

Yetir, ey badi-səba, ərzimi canana mənim,
Söylə bu dərdimi ahəstə o loğmana mənim.

Hər nə dərdim ola, nuş eyləyərəm canımə, leyк
Yoxdu tabım dəxi bu möhnəti-hicranə mənim.

Suzi-hicranı görüb bəsкi кönül biperva,
Qorxuram döndü de ol yarə dilim qanə mənim.

Qorxuram yetməyəm, ey sərvi-səhi vəslüvə mən,
Qorxuram canım əgər atəş olub yanə mənim.

Ey təbib, etmə əbəs ranc, başımdan ayıl,
Hacətim yoxdu çü bu barədə dərmanə mənim.

Saqi, ol badə sənin, mey sənin, ol şişə sənin,
Bu gözüm əşкi mənim, bu iкi peymanə mənim

Bəndi-zülfündən açıb кönlümü yar ilə xilas,
Ol qara zülf sənin, bu dili-divanə mənim.

Bəsdi, zalim, bu qədər Şaiqə qıldın bu sitəm,
Axırı hicrdə gəldi bu dilim canə mənim.

* * *

Nola başım üstə bir dəm sevgili yarım gələ,
Ol üzü həmra, o çeşmi məstü xummarım gələ.

Ölmərəm bu dərddən billah, gələ başım üstə əgər,
Badeyi-naz ilə məst olmuş o dildarım gələ.

Can edim qurban yetirsə кimsə vəslin müjdəsin,
Nola bir dəmdə mənim bu bəxtim, ey tarım, gələ.

Sərsəri-badi-xəzan etmiş pərişan кönlümü,
Söylə, ey badi-səba, bir qönçə gülzarım gələ.

Verməyə bazari-əttarə şikəst, ol mahru,
Ol ləbi şirin, o zülfi müşki-tatarım gələ.

Hicr odu göz yaşımı xüşk etdi səngxaratək,
Ey gözüm, qıl gəl mədəd əşki-xunbanım gələ.

Bəsdir, ey mehpara, bu cövr ilə zülmün Şaiqə,
Ta nə vəqtədək sənə bu ah ilə zarım gələ.

* * *

Dilbəra, halimi ol badi-səbadən xəbər al,
Dili-viranəmi ol zülfı-bəladən xəbər al.

Eylə gəl bir dəm əya sərv kənarında qərar,
Nameyi-eşqimi bu qəlbi-məladən xəbər al.

Nə sürürsən bu qədər qəmzə yarın zülfündən,
Bir dəm, ey sərvi-səhi, mehrü vəfadan xəbər al.

İstəyirsən biləsən aşiqinin əhvalın,
Əllərimdə o olan qanlı hənadan xəbər al.

Qeysü Fərhaddan əqdəm mənə mirasdır eşq,
Bu sözün sidqini get qalu bəladan xəbər al.

O üzün hüsnünü, ey şəmi-şəbistani-çəmən,
Mahi-rəxşəndəvü xurşidi-səmadan xəbər al.

Nə baxırsan bu qədər ayinədə gül üzüvə,
Gül üzün şərhini təbi-hüdadan xəbər al.

Dəftəri-eşqi açıb müftini ol hüsnündən,
Aşiqi-zarə yetən cövri-cəfadan xəbər al.

Sən də ol nazi-xədəngin, sənəmə, xirməni-gül,
Mən də bu xəstəvü viranə binadan xəbər al.

Sən gedirsən bu könül nalə edir ardınca,
Bircə dön naləvü fəryadı qəfadən xəbər al.

Şaiqin rənginə bax, surətinə, qamətinə,
Rəhmə gəl, sən də bu suz ilə nəvadən xəbər al.

* * *

Neçə ildir edirəm seyr bu dünyanı tamam,
Görmədim bircə nəfər əhdlə peymanı tamam.

Yox vəfanın əsəri zərrə gül üzlülərin,
İmtahan eyləmişəm çün hamı cananı tamam.

Afəti-candı nigarın o sitəmkarə gözü,
Fitneyi-məhzdir ol zülfi–pərişanı tamam.

Vardı bir yari-giriftarım ol sərv qədim,
Az qalıbdır edə qəmdən məni-nalanı tamam.

Gəh dirildir, öldürür qəmzəvü naz ilə məni,
Eyləmir bir kərə asudə bu qurbanı tamam.

Demiş idim mənə bir busə verib can alasan,
Salma taxirə, gözəl, gəl elə ehsanı tamam.

Rəsmi-məşuqəliyi bilmədi bu yar hələ,
Tifldir, eyləməyibdir hələ Quranı tamam.

Baxmır Allah sözünə, öldürür aşiqlərini,
Olmayıbdır hələ çün din ilə imanı tamam.

Üzləri güldü, gülüstandı ləbi cuyi-rəvan,
Qoymayır eyləməyə seyri-gülüstanı tamam.

* * *

Nəqşi-təzvir yenə bu dili-şeydayə çəkir,
Tazədən yar məni bir tazə sevdayə çəkir.

Zülfünü boynuma möhkəm dolayıb mar kimi,
Məni Sənan kimi bu şux kəlisayə çəkir.

Mustafa dinini məndən alıb ol mah misal,
Tutuban damənimi məzhəbi-İsayə çəkir.

Əlinə şanə alıb zülflərin şanə qılır,
Rişteyi-canı şəbliq ilə qövsayə çəkir.

Heç bilirsən niyə qırmızıdı üzü bu yarın,
Aşiqin qanıdı кim, ol rüxi-gülnarə çəкir.

Mən müsəlmanam, gözəl, qovlama bu hüsn ilə,
Şəri-Əhməddə bu eşq axırı rüsvayə çəкir.

Var savabı deyiri baxmağı zibarıyə,
Mənə Qurandan o tərsa neçə min ayə çəкir.

Şaiq istər кi, çəкə başına yar sayəsini,
Bircə bu yara baxın zülfü üzə sayə çəкir.

* * *

Xuda əgərçi məni dərdə mübtəala yaradıb,
Həzar şüкr yenə ləblərin şəfa yaradıb.

Əgər zəmanədə min dərdə mübtəala olsan,
Yoxumdu baк, səni dərdim dəva yaradıb.

Birinə dərd verib ol birinə dərmanın,
Birinə hüsn verib, sərvi-xoşqəba yaradıb.

Birinə qəlb verib eşqlə edib pamal,
Birinə ruy verib «şəms vəzzəha» yaradıb.

Cəfanı cümlə verib aşiqı-diləfкarə,
Cahan gözəllərini cümlə bivəfa yaradıb.

Odur кi, od vurur aşiqlərə bu zalımlar,
Güruhi-aşiqi pürmisкinü binəva yaradıb.

Sən, ey кönül, elə birləhzə ol nigarə nigah,
O naz-qəmzəsini gör nə xoş əda yaradıb.

Tərəhhüm et, mənə bir bunca zülmü qılma rəva,
Məni də, ey gözəlim, sən кimi Xuda yaradıb.

Cahanda eyləmisən Şaiqin günün qara,
Deyim кi, taleyim «leylüd-düca» yaradıb.

* * *

Aldı qərarımı sənin ol qara gözlərin,
Kəsdi əlacımı iki xümmarə gözlərin.

Səbrim evinə verdi şikəst oldu, ey nigara,
Cadu tək etdi ruyimə nazzarə gözlərin.
Döndərdi qana könlümü, aldı qərarımı,
Etdi əsiri-möhnət o xunxarə gözlərin.

Cadu kimi baxanda salır damə aşiqi,
Eylər duçar min qəmə səhharə gözlərin.

Almış qərarımı yenə yox rəhmi gönlümə,
Bilməm nədir xəyalı o məkkarə gözlərin.

Bu Şaiqi bəla oxuna tuş qılmasın,
Verdim qəsəm o Heydəri-Kərrarə gözlərin.

## Hörmətli şairimiz Süleyman Rüstəmə

### I

Gəldikcə o qəmzən quşu cövlanə, gülümsər,
Göylərdə süzən qartala, tərlanə gülümsər.

Ürkək baxışın, işvəli ceyranə verər dərs,
Qönçə dodağın hər güli-xandanə gülümsər.

Sən öylə ziya qaynağısan, ey gözəl afət,
Yandıqca o hüsnün şamı pərvanə gülümsər.

Eşqinlə könüllərdə doğan fırtına hər bir
Coşqun dənizə, dalğaya, tufanə gülümsər.

Aydan da, çiçəkdən də, xəyaldan da lətifsən,
Röya görünən hüsnünə əfsanə gülümsər.

Ziynət nə gərək, hər bəzəyin ziynəti sənsən,
Öpdükcə qara tellərini şanə, gülümsər.

Qəmzən yükünü çəkməyi gəl Şaiqə tapşır,
Gənc olsa da, aldanma Süleymanə gülümsər!

## II

Könül-könül ki deyirlər, üfüqsüz ümmandır,
Hər odlu dalğası bir fırtına və tufandır.

İçində bir sarayım var alovlu yaqutdan,
O qəsr içində həyatımla eşq sultandır.
Oxu, səhər quşu, yazdır; bu şehli bağça, çəmən
Köpüklü mey kimi hey müztərib və xəndandır.

Qanımla bəslədiyim son dilək çiçəkləndi.
Önündə cilvələnən, ey könül, o canandır.

Təhəyyürün qucağında bu seyrə göz qırpmaq
Məhəbbət əhlinə uymaz, çəkin, bu nöqsandır.

Səhər nəsimi məhəbbət çölündə əsdikcə,
Bu sirli dairədə kölgələr də heyrandır.

Əyilsə qaş, saqın, ancaq o göz, o kirpikdən,
Şikarə pusquda durmuş bir ovçu tərlandır.

Qəzəllə oynama, Şaiq, sənə əsa yaraşır,
Bu ordunun yeni sərkərdəsi Süleymandır!

*1906*

# POEMALAR

## ƏDHƏM

Dağın döşündə qaralmaqda bir aul; o gözəl
Və şən mühiti bəzər yamyaşıl uca meşəl.
Üzük qaşı kimi qucmuş onu sərin bağlar,
Geniş dərə, qara orman, uca sıra dağlar.
Çiçəklər ilə döşənmiş çayır, bayır, gülşən,
Budaqda quşlar ötür hey şirin-şirin, şən-şən.
Uçur buludlar üfüqlərdə, toplanır əlvan,
Üzür yaşıllıq içində dərə, təpə, orman.
Uzaqda qarlar içində şəfəq vurar Kazbek,
İlan kimi ətəyindən axar köpüklü Terek.
Yosunlu daşlara hiddətlə çarparaq çağlar,
Səda verər iki yandan qucaqlaşan dağlar.
Qanadların qayaya çırparaq uçar qartal,
Yerə dikər gözünü, ov üçün baxar, dərhal
Keçər hücuma, qanadlı bir ox kimi şığıyar,
Havalanar, azacıq sonra caynağında şikar.
Qovar yamacda bir ahunu ov üçün səyyad,
Mələr balaları ardınca hey edər fəryad.
Dönər sürü, naxır, ilxı yaşıl yamaclardan,
Mələşmədən verər əksi-səda bu dəm hər yan.
Enər yaxın dərəyə qızlar əllərində səhəng,
Dodaqlarında gözəl nağmə, incə bir ahəng.
Çinar dibində mələklər kibi tutub ülfət
Beş-altı çərkəz edərdi gözəl-gözəl söhbət.
Biri tüfəngini vəsf eyliyor, biri qamasın,
Biri nəcib atını, digəri şəhid babasın.
Vüqar ilə oturub işte ixtiyar Ədhəm
Keçən zamanlara aid nələr diyor, bilməm.
Həzin-həzin qonuşur gördüyü zamanlardan,
Vurur yerə qamasın həpsi onda hiddətlə.
Çatıb da qaşların qeyz ilə, məhabətlə,
Ağızlarında dəmadəm təranəyi-qovğa,
Ürəklərində coşan intiqam, qeyzi-əfza,
Qoşub bu dəmdə kəmal təlaş ilə Aslan
Əli, ayaqları titrər kibi gözü giryan:
«Aman! Amul bəyi qətl etdilər!» — verincə xəbər,
O anda ortalığı aldı bir sükut, kədər.
Zavallı Ədhəm o dəm iztirab ilə durdu:

«Kim idi qatili?» — deyə sordu.
— Ədil adında bir alçaq hərif, kəmfürsət!
Üzündə ixtiyarın oynadı qəzəb, hiddət:
«Şu zalim, ah, bənim yakdı könlümü heyhat!
Gəmiklərim qırılıb, zəhərləndi iştə həyat».
Bir arslan kibi hayqırdı, durdu hiddətlə,
Zavallı xanəsinə qoşdu-getdi suratlə.
Soran olub atını, qəlbi kin ilə doldu,
Misal bərq nəzərdən o an nədən oldu.
Dağı-daşı çaparaq ildırım kibi dolaşır,
Yanar durur ürəyi intiqam üçün alışır.
Uzaqda iştə qaraltı görür, sanır düşmən,
Yaxınlaşır: «O deyilmiş» — deyə edir şivən.
Köpüklənib tər içində zavallı at qaçıyor,
Burun dəlikləri şişmiş köpük, duman saçıyor.
Dəli kibi dolaşır, bir şey olmayır hasil,
Nə etsin, ah! Nə çarə, bulunmıyor qatil.
Yanar bütün bədəni çeyniyor dodaqlarını,
Damarlarında alov, yandırır yanaqlarını.
Baxınca arxasına, Ədhəmi görüb dərhal
Vurur atı, çaparaq yel kimi gedir qatil,
Görünməyir, qayalar ortada olur hail.
Uçur dalınca onun intiqam üçün Ədhəm,
Gözündə dalğalanır qəm, göyü tutub matəm.
O, yorğa madyanı məhmizləyib deyir: «Ey atım!
Yetir ona özünü, yoxsa ki, sönər həyatım».
Gecəydi... at yıxılınca enişdə başaşağı,
Qırıldı qatil Ədilin qolu və sağ ayağı.
Süründü bir qaya altında oldu tez pünhan,
Sızıldayır ayağı, səs çıxarmayır; bu zaman
Yetişdi Ədhəm, onu görməyib qopardı fəğan,
Kədərli qəlbinə çökdü isitməli həyəcan.
Piyada çox aradı, çox dolaşdı hər tərəfi,
Şaşırtmış idi onu ixtiyarlığın kələfi.
Uzaq-yaxın qaralan hər çalı və sarp qayalar
Ona Ədil görünürdü; gözündə od parlar.
Həzin-həzin dolaşır, titrəyir əli-ayağı,
Qaralmış idi acıqdan üzü, gözü, dodağı.
Gedir, yenə dayanır, hey dərin-dərin inlər,
Çox axtarır onu, ancaq tapılmayır bir əsər.

Təkan verib qayaya gözlərində kin və ələm,
Həzin-həzin düşünürdü yenə qoca Ədhəm.
Başında qanlı xəyalat, atəşin xülya.
Önündə al qan içində Amul durur guya.
Baxıb ona deyir: «Aldınmı intiqamımı, ah!»
Dumanlara bürünüb qeyb olur yenə nagah.
Atıb tüfəngini Ədhəm uşaq kimi ağlar,
Həzin iniltisi, fəryadı dağ-daşı dağlar.
Keçirdi o gecəni dərd içində bu minval,
Ona verirdi təsəlli ümidi-istiqbal.
Dumanlı gözləri bir qanlı məşələ dönmüş,
Baxır o yan-bu yana odlu gözləri sönmüş.
Şəfəq söküldü, üfüqlər qızardı qat-qatışıq,
O al dodaqlı gəlin saçdı kainata işıq.
Ayıldı dağ, dərə, orman, çayır, bayır, gülşən,
Sevimli quşlar ötüşdü şirin-şirin, şən-şən.
Qanadlarını qayaya çırparaq, cəsur şahin
Ov axtarır od içində, baxışları kəskin.
O ovçu gözlərini bir zaman dikib dərəyə,
Yığır qanadlarını ox kimi enincə yerə.
Civildəşir, sığınır yarpaq altına quşlar,
Sükut içində bulaqlar həzin-həzin çağlar.
Tüfəng əlində o, ətrafı diqqət ilə gəzər,
Nə eyləsin ki, Ədildən görünməyir bir əsər.
O çeynəyir bığını, titrəyir əli-yağı,
Qısa cığırla enir bir kiçik dağı aşağı.
«Nicat tapdımı xain?» — deyə qıyır gözünü,
Qədəm-qədəm dolaşır, axtarır yenə izini.
«Görünməyir, bir əsər yox, sevinmədi muradım,
Bu ixtiyar zamanımda qırıldı qol-qanadım»,
—Deyə oturdu, bir az baxdı hey sola və sağa,
Tüfəngə söykənərək dikdi gözlərin uzağa.
Üzünə qəm tozu çökmüş niqab şəklində,
Gözündə göz yaşı titrər sərab şəklində.
Önündə durmuş atı bir qaya kimi ölgün,
Həzin-həzin o qoca dağlıya baxır küskün.
Hava, fəza o qədər saf ki, zərrələr titrər,
Yaşıl bir atlas içində sevimli mənzərələr.
Terek qayalara çarpar, köpüklənir, çağlar,
Beşikdə sanki ağır xəstə bir uşaq ağlar.

Nədir düşündüyü, bilməm, onu qəm almışmı?
Təbiətə, bu gözəlliklərə bayılmışmı?
Dumanlı fıkrinə şəfqətli bir xəyalmı gəlir?
Ya intiqam — deyə, gizlin tökür acı tədbir?
Baxışlarında qəzəb, kin və intiqam odu var,
Gözündə ancaq onun bir böyük ümid parlar.
Üfüqdə pənbə şəfəqlər yavaş-yavaş saralır,
Duman enir dərəyə, parlayan sular qaralır.
Dəyərli bir ovunu qeyb edən bir ovçu kimi,
Kədər ilə qayıdır o evə, tamam əsəbi...
Dünən Amul bəyi gömmüşdülər soyuq məzara,
Qapı ucunda oturmuşdu hüznlə Zəhra.
«Oğul, Amul!» — deyə çarpazlamışdı cüt qolunu,
Maraqla gözləyirdi ancaq Ədhəmin yolunu.
«Neçin bu dərdli qoca gəlmədi?» — deyə hərdən,
Soluq yanaqlara yaşlar tökürdü gözlərdən.
Uzaqdan Ədhəmi Zəhra görüncə çırpınaraq,
Qaçıb atın cilovundan tutub, dedi: — Mənə bax!
Nə oldu, uf, yaşayırmı hələ bizim düşmən?
Bəs oğlumun qanını almadınmı, ey qoca sən?
Suala qarşı donub qaldı o qoca məbhut,
Baxışdı göz-gözə onlar, uzandı xeyli sükut.
Atından endi, nəhayət, soruşdu: — Harda Amul?
— O dəfn edildi dünən, bir qərib kimi yoxsul.
Atanla yan-yanadır, get, görüş, gecikmə, aman!
Qonaq var evdə, yubanma ki, dərd edir tuğyan.
Kədərli çöhrəsini sardı kinli bir matəm,
Dedi: — Onun qanını almamış hələ getməm.
Atı verib qarıya o köhnə adət ilə,
Qonaq olan otağa girdi çox nəzakət ilə.
Yatırdı xəstə yataqda, görüncə Ədhəm onu
Dərindən inlədi: «Ey vah, bu nə qəza oyunu!»
Amul məzarda yatır, intiqam üçün özənir,
Evində qanlısı bir dost kimi müsafirdir.
Yorulmuş idi, yatırdı yataqda xəstə yağı,
Qoca o çal başını dikdi bir qədər aşağı.
Başında qanlı fıkirlər duman kimi coşdu,
Dəniz kimi ürəyi çalxanıb, haman daşdı.
Düşüncəli sifətində bulud kimi dərd-qəm,
Dayandı düşmən önündə sükut ilə Ədhəm.

Nədir görən ürəyindən keçən, ədavətmi?
Bu qatilin ona göstərdiyi xəyanətmi?
Yanırmı şöləlenib intiqam üçün ürəyi?
Nə gözləyir, nəyə durmuş, nədir daha diləyi?
Məramı olmasa aydın, baxışlarında fəqət
Var idi bu qonağa qarşı mərhəmət, şəfqət.
Davam gətirmədi qəlbi, nə çarə, naləsinə,
Oyandı düşməni sərsəm kimi onun səsinə.
Görüncə Ədhəmi qalxdı, oturdu qanlı yağı,
Siması andırır idi dumanlı, çənli dağı.
Qoca bir azca mətanətlə topladı özünü,
Əlilə sildi yaşarmış zəif, sönük gözünü:
— Amandasan, — dedi, — qorxma, yat, ol bir az rahət,
Üzündə cilvələnirdi onun ziya, şəfqət.
Bu incə hörmətə qarşı Ədil əyib başını,
Kədərlə çatdı, odur enli və çatıq qaşını.
Qoca verirdi təsəlli: — Qonaq, düşünmə bir an,
Kiçik bu daxmama bir quş kimi sığınmışsan.
Bunu özün də bilirsən ki, yox zaval qonağa,
Tutar bu adəti girsən bu kənddə hər ocağa.
Unutdum oğlumu, keçdim qanından, etmə kədər,
Bu bir qəza işidir, hər başa gələr və keçər...
Uzan, uzan yatağında, bir azca ol rahət,
Sınıqçılıqda qazandım bu ölkədə şöhrət, —
Deyə ayaqlarını açdı o qoca Ədhəm,
Təmiz yuyub yaraya qoydu faydalı məlhəm.
Beş-altı gün ona göstərdi çox böyük hörmət,
Ədil bəyin ayağı tapdı bir qədər səhhət.
Görüşdü evdə böyüklə, kiçiklə xəstə qonaq,
Gedirdi evlərinə. O qoca da tez qaçaraq,
Minib atı yola salmaq üçün o mehmanı,
Bu mərhəmətlərə qarşı Ədilin vicdanı
Çox ağrıdırdı onu, qəlbi hey sızıldardı,
Canında sanki tutuşmuş böyük alov vardı.
Yola çıxınca dedi xəstə: — Ey böyük insan,
Bir azca dinlə məni, bax, odur məzarıstan.
Amul bəy ilə görüşmək mənim bu son diləyim,
Onu ziyarət üçün çırpınır, inan, ürəyim.
Bu arzumu qəbul et, mənim ilə birlikdə,
Onunla mən görüşüm; dostum idi dirlikdə.

Səma da lənət edir tutduğum bu xain işə,
Ricam budur, ata can, mane olma bu görüşə.
Sükut içində atı sürdülər. Məzarıstan
Töкürdü qəlbinə hər atlının zəhər кimi qan.
— Amul bəyin məzarı hardadır? — deyə sordu,
Qoca işarə ilə göstərib yenə durdu.
Atından endi Ədil, qarşısında diz çöкdü,
Götürdü torpağını öpdü, öpdü, yaş töкdü.
Uzatdı xəncəri: — Al intiqamını, bəlкə,
Başından uçsun içimdə sızıldayan bu ləкə!
Qocada sönmüş idi artıq intiqam və кin,
Atından endi yerə, verdi qatilə təsкin.
Ədil coşurdu, ona etməyirdi heç təsir,
İçində qəlbini sanкi qara ilan gəmirir:
— Sağ ol, — dedi, — atacan, yandırır məni vicdan,
Bu hal ilə yaşaya bilmərəm; bu haqsız qan,
Bu mərhəmət mənə onsuz da bir məzar olacaq.
Ağır gəlir üzərimdə günah və qan daşımaq.
Neçin bu əllərim onda qırılmadı, heyhat!
Şərəf sönərsə, ölümdən ucuz deyilmi həyat?
Mən istərəm, ata, atəş içində çırpınaraq,
Məni yaкan suçu başqa günah ilə almaq.
Fəqət Amuldan ayırma məzarımı, bu qana
Bulaşmasın əlimiz, ibrət olsun anlayana!
Bağışla, el nəzərində, ata, mən indi nəyəm?
Amulla yan-yana yatmaq! Bunu, bunu diləгəm.
Deyib o, xəncərini soxdu qəlbinin başına,
Uzandı al qan içində böyüк məzar daşına.

*1908*

## İKİ FAMİLİYANIN MƏHVİ

*Firidun bəy Koçərliyə*

1

İki qardaş: Səfər, Əmir Aslan
Borçalı torpağında çox ad-san
Qazanan bəylər olmuş. Hər birinin
Var idi çox dəyərli və zəngin
Uc-bucaqsız, gözişləməz əkini,
Qoruğu, tarlası, ağır biçini,
Sürüsü, ilxısı, pəyə, yatağı,
Yamyaşıl otlağı və meyvə bağı.
Uca, ali sarayları məşhur,
Sərvət etmişdi onları məğrur.

2

Səfərin Telli adlı bir dilbər
Nazikəndam, gözəl, pəripeykər,
Alagöz, şux baxışlı, laləüzar,
İşvəli, qəmzəli gözəl qızı var.
O gözəl rəngi, göz-qaşı mütləq,
Ona məxsus təbiət etmiş xəlq.
Niyə daldın, şaşırdın, ey rəssam?
Çəkdiyin varmı boylə şux əndam?
Boylə süzgün baxışlı dağ pərisi,
Boylə hüsnü məlahət abidəsi?
Belə qaş-göz, bu incəlikdə dəhən?
Bu pəri qız hələ beşikdə ikən
Əmir Aslan bəyin böyük vələdi
Daşdəmirlə nişanlanıb, indi.
İki gündür ki, başlanıb toylar,
Kənd şənlik içində hey qaynar.
Bürümüş kəndi səs-səmir və tələş,
Dost, tanış, yad, bütün qohum-qardaş
Düzülüb şən, qatar-qatar, səf-səf,
Çalınır bir tərəfdə tambura, dəf.
Bir tərəfdə aşıq çalır, oxuyur.

Gül-çiçəkdən hava ətir qoxuyur.
Çalğını dinləyir hamı məftun,
Telli ancaq düşüncəli, məhzun,
Saf, təmiz çöhrəsində dalğınlıq,
Ala, şux gözlərində bayğınlıq.
Qara geymiş sevimli kipriklər,
Onu dırmaqlayır düşüncə, kədər.
Quş kibi qəlbi çırpınır, lakin
Gizlədir köksünü əzən kədərin.
Ona bu toy, bu təntənə, bu büsat,
Qanlı matəm kimi gəlir, heyhat!

### 3

Payızın bir soyuq və dəhşətli
Gecəsiydi. Ağır və qisvətli
Sis-duman qoynuna girib hər yan,
Uyuyur kənd, dərə, təpə, orman.
Göydə ulduzlar inci tək düzülür,
Arxasından buludların süzülür.
O qaranlıqda bir sönük ulduz
Kimi dalğın, düşüncəli bir qız
Əlinə sövkəyib gözəl başını,
Axıdır damcı-damcı göz yaşını.
Dolu vurmuş qanadları düşgün,
Yaralı quş kimi həzin, küskün,
Ağac altında müztərib, yalnız
Ağlayır: — Ey Oğuz, — deyə halsız, —
Səndədir, səndə qəlbim, ey sultan,
Ruh ilə, qəlb ilə yaşar insan.
Mənə sənsən verən sevinc, həyat,
Bunu gəl indi onlara anlat!
Könül azadə bir quşa bənzər,
Sevdiyi şaxəyə qonar və ötər.
Yad olar qəlbi möhnət ilə qəmə,
Ona kim əmr edər ki, sus, ötmə!
Quş qədər olmadımmı? Ah, nədən,
Dil-ağızsız hələ beşikdə ikən
Bir soyuqqanlıya nişanladılar.

Bundan, ya rəbb, nə ləzzət anladılar?
Bağlayıb ol zamandan əl-qolumu,
Kəsdilər hər tərəfdən, ah, yolumu.
Qoymadılar baxam işıq cahana,
İndi bir qız necə düşər dumana?
Qalmışam ortalıqda sərgərdan,
Yox işıq, hər tərəf mənə zindan.
Başıma oldu dar geniş dünya,
Dil-ağızsız qara malam guya.
Qarşıma ot-samandan atsınlar,
Öz bəyəndiklərinə satsınlar.
İnsanam, yoxmudur mənim ürəyim?
Daşmıyam, yoxmudur mənim diləyim?..
İnlədikcə solur bahar yanağı,
Qovrulur qönçə gül kimi dodağı.
Boynunu iztirab, kədər bükmüş,
Düşünür gözlərin yerə dikmiş.
Keçən azadə, bəxtiyar günlər
Canlanırkən önündə hey inlər.
Ağarır Ay kimi bəti-bənizi,
Titrəyir gözlərində qorxu izi.
Qəlbini sızladır o qorlu yara,
Düşünür qəmli, yad edir sonra
Oğuz ilə o gün görüşdüyünü,
Min fərəhlə xatırlayır o günü.
Yad edir sonra ki, üç ay əqdəm,
Hələ yaylaqda idi şən, xürrəm.
Çaharşənbə günü yaşıl təpədə
Yığılıb qızlar ilə bir yerdə
«Can gülüm» oynayanda öz üzüyün
Kasaya saldı, eylədi diləyin.
Diləyinə bu çıxmış idi o gün:
«Mən aşıq sizə gəlləm,
Can gülüm, can-can!
Sürmə çək, gözə gəlləm,
Can gülüm, can-can!
Yüz il qazamat çəksəm,
Canı gülüm can-can!
Çıxcağın sizə gəlləm,

Can gülüm, can-can!»
Onu titrətdi faldakı «qazamat»:
Mənə zindan olar, — dedi, — bu həyat.
Görünür ki, yaram bitişməyəcək,
Oğuza, ah, əlim yetişməyəcək.
O gecə yatmamışdı bir zərrə,
Ağlayıb qarğamışdı Daşdəmirə.
Yanağın indi də yaş islatdı,
Tellini bu düşüncə ağlatdı.
Qəlbini sıxdı bu üzüntü, kədər,
Daldı birdən-birə o gülpeykər.
Bir həzin tövr ilə gözün yumdu,
Qara, qorxunc xəyallara cumdu.

4

Tərk edək kəndi halına şu qızı,
Şimdi tərifə başlayaq Oğuzu.
Bu daha adlı-sanlı bəyzadə,
Əqrəbalı, qəni və pək sadə.
Şux sima, güləş, açıq üzlü,
Dəlisov, datlı, həm şirin sözlü.
Xoşqılıq gənc idi sevimli, cəsur.
Orta boylu yanaqları musmur.
Yerli-yerli xülasə hər yakışı,
Toxunur qəlbə söhbəti, baxışı.
Telli çoxdan Oğuz bəyə məftun,
Həm Oğuz Telliyə olub vurğun.
Cocuq ikən Oğuzla dağ pərisi,
Bir-birin sevmiş idi hər ikisi.
Yığışıb kənd uşaqları xəlvət,
Oynayırkən «gəlin-gəlin» hər vəxt,
Hər cocuq bəy olurdu başqa qıza,
Telli mütləq gəlin olur Oğuza.
Onu sevmiş, deyər, gülər, sevilər,
Ona qarşı məhəbbət hiss eylər.
Şimdi də qəlbi o Oğuz bəydə,
Ona qəlbən sitayiş etməkdə.

5

Daşdəmir bəy isə uca boylu,
Tiz baxışlı, soyuq, ağır xoylu,
Pək səbatlı, igid, ürəkli, cəsur
İzzəti-nəfsini tutar məğrur,
Gurlayan səsli, pək də heybətli,
Qaşı çatıq, həm acıqlı, hiddətli
Gənc idi, az deyib, gülüb-danışan.
Daşdəmirlə görüşdüyü bir an
Titrədərdi qızı acı qüvvət,
Bir iblandan edər kibi nifrət.
Görüşürkən Oğuzla lakin ən
Bəxtiyar bir cocuq kimi şən-şən
Açılar gül kibi, deyər və gülər,
Danışar datlı-datlı, həm söylər.
Ona ruhilə bağlamış ülfət,
Daşdəmir bəydən eyləyir nifrət.
Bunu andıqca dəhşət əndamın
Alaraq hey kəsirdi aramın.
Çünki müşkül maqamda idi işi,
Düşünürdü: «Oğuz bəyi sevişi
Pək fənalı nəticəyə sürəcək,
Qanlı dəhşətli bir səmər verəcək.
İki adlı familiya birdən
Olacaq bir-birilə həp düşmən».
Bu düşüncə damarların yığdı,
Üstünə ildırım kibi şığıdı.
Qəlbini atəşin ələm aldı,
Pək qaranlıq fikirlərə daldı.

6

Telli yad etdi sonra həp daha dün
Oğuz ilə görüşmüşdi o gün.
Gözləri yaşlı idi, rəngi soluq,
Həp yetimlər kibi idi, boynu buruq.
Söyliyor idi: «Ağlama, Telli,
Qəlbimi, ah, dağlama, Telli,
Sən bənimsən, bənim, a quzu,

Sənə yaltaqlıq eyləyən Oğuzu
Bacarıqsız sanırsan, ah, yoxsa
O fələк də dizin yerə qoysa,
Səni pəncəmdən heç ala bilməz,
Sar qızıl quşdan ov sala bilməz.
Ağlama, üzmə boş yerə özünü,
Ağlayarlar, amandı, sil gözünü.
Bir dayan, gör кi, nə oyun açaram,
Toy içində səni alıb qaçaram».
Bu ümid qəlbinə verir təsкin,
Yenə də qəlbi çarpıyor, laкin
Yas, ümid yəqin o şübhə qızı
Titrədir, bivəfa sanır Oğuzu,
Üzün bir qaranlıq duman bürüdü,
Ağlayır, qəmli mahnılar oxuyur:
Əzizim, neylim sənə,
Qonubdur meylim sənə.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neylim sənə!
Əzizinəm, ya sabah,
Bülbül oxur: «Ya sabah».
Bir yanda toyum tutulur,
Bir yanımda yasa bax!
Saraıyor qəm bulud кibi üzünü,
Diкərəк göylərə ala gözünü,
Buluda, yıldıza o şux dilbər
Gizli-gizli məlalını söylər.
O tüкənməz fəza, o Ay, o bulud,
Həp baxar, dinmiyor məbhut.

7

Ey qaranlıq, həzin qalın gecələr,
Ey dumanlı çatıqalın gecələr,
Ey məzar sərair sevda,
İştə ey qəmərsiz dumanlı fəza,
Ey müşəmməş səhayib mümyar,
Ey ağır başlı, qanlı, canlı məzar,
Ey qaranlıq sevən qara ləкələr,

Uçuşan parça-parça şəbpərələr,
Siz, siz ey kövkəbi-ziyayi-əfşan,
Siz, siz ey əncəmi-məlali-nişan,
Siz, siz, ey hizli-hizli əxtərlər,
Dürlü-dürlü doluşdunuz kərələr
Nə qədər gənc, ixtiyar o həzin
Gözü yaşlı becərdiyi sirrin
Sizlərə ağlayıb demiş fəryad!
Sizdən ah eyləmişdir istimdad.
Arayırkən ümid, rahi-nicat,
Birinə tutdunuzmu əl? Heyhat!

* * *

Açılıb dan yeri, günəş doğmuş,
Onu lakin duman, bulud boğmuş.
Arxasınca bulutların qaçıyor
Ölgün-ölgün sönük işıq saçıyor.
Dərələrdən yavaş-yavaş lərzan
Qalxaraq parça-parça pənbə duman
Bürüyür qarlı dağların başını,
O dumanlar içində yoldaşını
Qayib etmiş yaralı bir durna
Şərqə doğru uçuyor tək-tənha.
Portəhsər yetimaye hicran,
Duruyor çöl, çəmən, çayır, orman.
Bu sönüklük içində bir şuriş,
Qarışıq bir gurultu, bir cünbiş.
Çalınır asimani xoş mina,
Üzərində ağır-ağır uçuşan
Qarğalar, həp qanadları lərzan.
Durmyor: gözlərin yerə dikərək,
Dinliyor ol gurultunu gumazək.
Bir bağırtıyla sonra dalğalanır
İştə şiddətlə kənddə toy çalınır.
Qarğalar göy üzündə qat-qarışıq
Uçuşurlar, qoparmada çıqlıq.

8

Əmir Aslan bəyin gözəl, yüksək
Köşkü şənlik içində, pək yügürək.
Dırmanır kənd uşaqları ağaca,
Əks edir səs, gurultu dağ, yamaca.
Axışır kəndlilər bir azca uzaq,
Uca yerdə bütün alay vuraraq
Baxıyorlar, o zuyçulər çalıyor,
Qız-qadınlarla dam-baca doluyor.
Borçalı bəyləri o nər və bəşər
Hər biri bir igid, cəsur, dilbər,
Qızıla qərq olub, göyə axıyor,
Gözləri ildırım kibi çakıyor.
Azacıq keçməmişdi qopdu səda,
İştə gəliyor şanlı Səftər ağa.
Çıxdı bəylər o dəm boylə cəlal,
Səftəri bəylər etdi istiqbal.
İştə atından düşüncə Səftər ağa
Önünə çəkdilər bir adlı buğa[1].
Olmadı üzr istədi Aslan nə qədər,
Qəməsin çəkdi qeyzlə Səftər.
Gözucu izdihamı bir süzdü,
Buğanın boynunu vurub üzdü.
Qopdu bir şən bağırtı hər yerdən:
«Afərin, afərin, bəyim, əhsən!
Uzun olsun o bəxtiyar ömrün!»
Bu böyük hörmət idi Səftər üçün.
Adlı bəylərlə doldu sol və sağı,
Aldılar köşkə möhtərəm qonağı.
Həpsi şən-şən deyir, gülür, yalnız
O düğündə görünməyirdi Oğuz.
Atlılarla çölün düzü dolmuş,
Sanki məhşər günü qiyam olmuş.

---

[1] Borçalı türklərində belə əski bir adət var ki, bayramlarda və ya toy kimi əziz günlərdə ehtiram üçün ən möhtərəm və igid qonağın qarşısına buğa çəkərlər.Həmin adam bir dəfədə qəmə ilə gərək buğanın boynunu vurub yerə salsın.

Daşdəmir bəy hazırlanıb cıdıra,[1]
Bir комandan кibi iкi tabura
Atlıyı bulmuş həpsi çaparaq,
Bir-birindən cıdırları qaparaq,
İldırım süratilə кəndilərin
Soxuyor qarnı altına atının
Cəngi məğlubə oldu, pəк sonra
Aldı bir кaç igid cıdırda yara.
Əydilər baş cıdır bitincə bəyə,
Sonra həpsi düzüldülər sıraya.
Birbaşa quş кibi uçub qoşaraq
Кənd içinə yetişdilər çaparaq.
Кəndi almış idi həzin bir səs
Söyliyordu yavaş-yavaş hər кəs:
«Gizlicə Telliyi qaçırmış Oğuz».

* * *

Bir işıq yox, bütün çıraq sönmüş,
Кənd qaranlıq məzarlığa dönmüş.
Qalmış həm fırtına, boran və soyuq,
Göy üzündə işıq nişanəsi yox.
Hər tərəf dəhşət içrə mürgüləyir,
Bir mələк sanкi кəndə qəm ələyir.
Uca bir кöşкdə fəqət bir işıq
Görünür кölgələrlə qat-qarışıq.
Orada gizli bir hazırlıq var,
Bağlıyorlar qəsəm ilə ilqar:
«Ya ölüm, ya кi intiqam!» — deyərəк,
And içir həpsi Qurana təк-təк...

* * *

Yenicə dan yeri açılmışdı,
Tar işıq aləmə saçılmışdı.
Daşdəmir bir arslana dönüb,
"Qara tüкlü yapıncıya bürünüb,
Aynalı bir tüfəng dəstində,
Duruyor quş кibi at üstündə.
At nə at — dağ кibi baxışlı gözəl,
Tüкləri sanкi bir san məxmər.
Cilovun çeyniyor, yeri eşiyor,

[1] Borçalı türкləri, qədim adətlərinə görə, əziz bayramlarında və toylarda cıdır oynalar. Кəndin cavanları, igidləri, otları bir yerə toplanır və oralarında "bəy" (комandan) intixab edirlər. Toyda комandanlıq edən mütləq "bəy"

Kişniyor, gah atlanır və düşüyor,
Çox sürükdə birincilik şərəfin
Qazanıb. O mahalın hər tərəfin.
Səsi basmış. Fəqir, qəni, əyan
Dillərində bu at olub dastan.
Bu alov parçası, baxışları tiz,
Göstərirkən ona bir az məhmiz,
Açılır şiddət ilə göz qapağı,
Qaçıyor, sanki yerlərə ayağı
Dəyməyir, quş kibi qanadlanaraq,
Uçuyor boş fəzaları yararaq.
Onun üstündə Daşdəmir dargın,
Çeyniyor şiddət ilə dil-dodağın,
Arxasında on-on beş atlı qaçaq,
Qoşiyordu köyə tərəf çaparaq.

9

İştə dəhşətli bir səda, şivən
Qapamışdı o köyü hər yerdən.
Köyə qurşun dolu kibi tökülür,
Daxmalar, qazmalar uçur, bükülür.
Bir tərəfdən köyü şu qurşun əzir,
Bir tərəfdən ateş içində üzür.
Tayalar od tutub alovlanmış,
Tüstüdən hər tərəf dumanlanmış.
Şölələr hər yana alov saçıyor,
Qanlı, dəhşətli lövhələr açıyor.
Ağlıyor həp qadın, cocuq mələşir,
Bir çoxu kəndi qanına büləşir.
Qarışıb bir-birinə mal, heyvan,
Sürü, ilxı, naxır, köpək yeksan.
Quyruğun diкləmiş ora-buraya,
Qoşiyor ormana, çölə, talaya.
Sanki qopmuş qiyamət. Bu arada
Oğuz qardaşı Süleyman ağa
Düşməni çox darıxdırıb sıxdı,
Qurşun ilə üçün yerə yıxdı.
Daşdəmir bəy qolundan aldı yara,
Səs-səmir yatdı, sakit oldu ara.
Telli də yan-yana Oğuzla o gün
Atmış idi ovuc-ovuc qurşun.

## 10

Bir qaranlıq gecəydi. Telli, Oğuz
Bağça ağzında əyləşib yalqız,
Cüt qəməri kibi tutub ülfət,
Dadlı-dadlı edirdilər söhbət.
Bağda birdən qaraltı hiss etdi,
Oğuzu bu qaraltı titrətdi.
Götürüb tez tüfəngini durdu,
Kölgəni tez nişanlayıb vurdu.
Bir həzin səs dedi: «Mənəm, namərd!»
— Vay! Süleyman, sənmisən?— deyə, cəld
Yetişib gördü qardaşı cansız.
Yıxılıb al qan içində iştə Oğuz.
Şaşırıb kəndini, vurar başına,
Dizi üstə çöküb də qardaşına,
Sarılıb səslənirdi — bir xələcan,
Hıçqırıqlarla ağlayırdı: — Aman,
Qardaşım, bənmi vurdum, ah, səni?
Kədərindən əsir bütün bədəni.
Bət-bənizi bütün-bütün sönmüş,
Gözləri qanlı məşələ dönmüş.
Qəmli dəhşətlə fıkrə dalmışdı,
Ələmə, matəmə sarılmışdı.
Onu titrətdi bir xəyal birdən,
Götürüb cəld tüfəngini yerdən
Dayadı qəlbinə, o dəm Telli,
Qoşaraq: — Vay! — deyə ikiəlli
Tutdu: — Ah, gəl, tərəhhüm eylə bənə,
Qurban olsun, Oğuz, bu Telli sənə.
Böylə namərdliyi, saqın, yetmə!
Bəni namərdlərə qoyub getmə!
Oğuz: — Ah, uf! — deyə vurub başına,
Şiddət ilə sarıldı qardaşına

* * *

Qanlı bu işlərin sonu noldu?
Borçalı ah-fəğan ilə doldu.
Get-gedə bəz və kin alovlandı,

Şöleyi-intiqam başlandı.
İki adlı olub bitib getdi,
Bir-birin əzdi, yıxdı, məhv etdi.
Oldu bir çox igid bu yolda fəda,
Artıq ərşə dayandı zülm, cəfa.
O iki dudman yatıb, söndü,
Varları-yoxları külə döndü.
Nerdə şimdi o qəhrəman bəylər?
Adlı-şanlı o alışan bəylər?
Həpsini zülm əzdi xırpaladı,
Həpsini intiqam tapdaladı.
Bir çoxu qurşuna nəar oldu,
Məskəni guşeyi-məzar oldu.
Susdu artıq o gurlayan səslər,
Çoxunu həp çürütdü məhbəslər.
O böyük nəsildən nişan alaraq,
Bir uçuq köşküdür qalan ancaq.
O da məxrubə qəlb virani tək,
O da virani-dil yetimani tək.
Öylə bir qanlı dudman ocağı
Şimdi ölmüş qoyun-quzu yatağı.
Bir zaman gurlayan o qəhqəhələr,
Köşkü şanlandıran o şəhşəhələr
Birinə şimdi qəm məkan etmiş,
Çünki bayquşlar aşiyan etmiş.
Həp yığılmış uçuq-sökük duruyor,
Qanlı bir macərayi anladıyor.

*1909*

# PYESLƏR

# ŞAİR VƏ QADIN

*(dramatik poema)*

Ş ə x s l ə r

Ş a i r — 25 yaşında xəyalpərvər, sövdamizac bir gənc

Q a d ı n — 22 yaşında ruhnəvaz, həssas, dilbər bir qadın Pərişan saçlı, əsmər cöhrəli gənc bir qadın kölgəsi Şairin vəfat etmiş sevgilisi.

*Aydın gecə... İki tərəfi ağaclıq, qayalıq, qocaman daşlar, yaşıl otlar, sarmaşıqlar və yabanı çiçəklərlə təzyin edilmiş coşğun bir dərə... Seyrək ağaclı bir qaya üzərindən ensiz bir cığırla Qadın və Şair dərəyə enərkən:*

Ş a i r

Sallanaraq, canım, boylə nerəyə?

Q a d ı n

Bax, bu cığır enir bir şux dərəyə.
Tut izimi, arxamca gəl, tez gedək,
O sevdiyim yerləri bir seyr edək.
Çoxdandır həsrətəm o mənzərəyə,
Ay doğmuşkən gəl enək bu dərəyə.

Ş a i r

Tələsməyin nə mənası? Bir dayan...

Q a d ı n

Gəl ki, qiymətlidir bu an, bu zaman.
Bu sərinlik, bu aydınlıq, bu hava
Qənimətdir, ələ düşməz bir daha.
Əmdiyimiz aydınlığı saçan Ay
Bir bulud altına girərsə, hay-hay,
Görənmərik sövda üzlü o yeri.

**Ş a i r**
*(tərəfə)*

I

Qadın deyil, göydən enmiş bir pəri,
Bu ruh, bu zövqdə bəşər tapılmaz.

**Q a d ı n**

Tut izimi, ehtiyatlı ol bir az.
Ağaclıqdır, qaranlıqdır, bax, sakın!
Qayalardan büdrəməsin ayağın.

**Ş a i r**

Ay, günəş ki, aydınladır fəzanı,
Səndən alır bu tükənməz ziyanı.
Sənin nurun mənim üçün çıraqdır,
Ay, ulduzdan, günəşdən də parlaqdır.
Bir quş olub uçsan da dağ, yamaca,
Ətək kimi sürünərəm arxanca.
Göy yarılsa, qiyamət etsə qiyam,
Kölgən kimi səndən mən ayrılmaram.

**Q a d ı n**

Dostum, şairliyin gəlmiş sırası,
Bu sövdalı yerin incə xülyası
Daş ürəkli insanları yumşaldır,
Diz çökdürür, bulud kimi ağladır.
Yaşıl aydınlığı əmən bu axşam
Bir şairə çoxmu verərsə ilham?
Hər şeydə bir həzin sövda bildirir.

**Ş a i r**

Hər şey sənin kimi incə bir şeir.

*(Qadın dərəyə atıldıqdan sonra ətrafı həsrətlə süzərək həyəcanlı)*



**Q a d ı n**

Gəl dostum, gəl, artıq endik dərəyə,
Ah, məftunam bu dilbər mənzərəyə.
Baxsanız, o nur parlayan yarpaqlar,
Bu çağlayan dərə, coşqun irmaqlar
Sanki bir çox dadlı sirlər anladır,
Donuq, sönük ürəkləri oynadır.
Bu yosunlu daş üstündə, gəl, əylən

**Ş a i r**

Bu yerlər bir nümunədir cənnətdən.
Yarpaq kimi baxdıqca ruhum titrər,
Ətrafımda uçan bu şux nəğmələr

**Q a d ı n**

Hər bir şeyi unutdurur insana.

**Ş a i r**

İşıq saçan ruha, qəlbə, vicdana
Gözəllikdir, sudur, yaşıllıq bir də,
Hər üçü toplanmış bu məsud yerdə.

**Q a d ı n**

Hər qəlbi bu yerlər etməz bəxtiyar,
Atılmış yoxluğa incə bir şey var.

**Ş a i r**

Nədir?

**Q a d ı n**

Nədir? O bir şeydir ki, mümtaz –
Hər adama hər zaman qismət olmaz.
Bu pərişan gözəlliklər, nəğmələr,
Xəyal kimi tutulmayan kölgələr,
Qarşımızda bu canlanmış təbiət,

Yalnız mənə bunlar verir təsliyət.
Bu gözəllik bir qüvvətin əlilə
Silinirsə...

Ş a i r

Sən bir şair dililə,
Şair hissilə söz söylərsən, aman.
Sənin bu şairanə hallarından
Bütün-bütün, canım, heyrətdəyəm mən,
Sən ən həssas, gözəl qəlbə maliksən.
Bir ürək ki, şairlərin şeirinin
Həm ruhudur, həm qəlbi, ey nazənin,
Bir ürək ki, qızğın sevgi bağlamış,
Bir ürək ki, sevmiş, gülmüş, ağlamış,
Bir ürək ki, böylə aydın gecədə
Həyəcanlar keçirmişdir yenə də
O ürəkdə qızğın sevgi, atəş var.
Bir ürək ki, sevmiş, olmuş bəxtiyar.

Q a d ı n

Bax yenə də qızğındır, sönməmişdir,
Dönük çərxi-fələk tək dönməmişdir.
Sus, toxunma b yaralı könlümə,
Keçmişləri gətirmə göz önümə,
Bir səfili üzmə, mərhəmət eylə!

Ş a i r

Söylə, dediklərim yalanmı, söylə?!
Bir ürək ki, mahtablara bürünmüş,
Sevdiyinin arxasınca sürünmüş.
Bir ürək ki, dadmış nəşə, həm kədər,
Bir ürək ki, çırpınmış sübhə qədər,
Çox bəxtiyar yaşamış.

Q a d ı n

Çox bəxtiyar!
Səndə əsrar duyan haqqın dili var,
Şairlərə doğrumu ilham olur?

Ş a i r

Bir çox zaman ilham olur, doğrudur,
Bu tarixi gözlərindən oxudum.

Q a d ı n

Tarixmi? Yox, o qorxunc bir uçurum.

*(bir az süкutdan sonra həyəcanla)*

Çox xoş günlər gördüm, çox da səfalət,
Nə dadlıdır ilк sevgi, ilк məhəbbət!
Mən bir gəncə qızğın sevgi bağladım.
İl uzunu sevdim, güldüm, ağladım.
Durğun göldə oynaşan saf mahtabdan
Şən, bəxtiyar кeçindiк biz bir zaman.
Ona bütün ürəyimi vermişdim,
Ən nəşəli səadətə irmişdim.
Mahtabların кölgəsində hər gecə
Əhd-peyman bağlamışdıq gizlicə.
Bu yumuşaq saf ürəкli torpaqlar,
Bu ağaclar, pıçıldaşan yarpaqlar,
Ətəк-ətəк nur səpən ay və ulduz
"Şahiddir кi, paк niyyətli eşqimiz
Məsum cocuq sevgisindən parlaqdı.
Hava buludlandı, boz şimşəк çaxdı,
Üz çevirdi məndən o etibarsız,
Getdi uzaq ölкələrə o, yalnız.
Nə məкtub var ondan, nə də bir xəbər,
Eşqi olur ürəyimdə şölələr.
İndi böylə xatırladıqca hər an
Əfı udmuş кimi bağrım olur qan.
Ah, ilк sevgi, ilк müqəddəs xatirə...

Ş a i r

İndi xəyal кimi gəlir nəzərə.

### Q a d ı n

Keçmişlərim yalnız mənə təsəlli,
Aramıza xain hicran girəli,
Yuxu belə gözlərimə düşməndır,
Yediyim qəm, kədər, içdiyim qandır.
Gecə-gündüz yetim kimi inlərəm,
Fəryadımı yalnız özüm dinlərəm.
O baharı mən xəzansız sanırdım,
Çocuq kimi yatırdım, oyanırdım.
Mənə dövran da bəndəlik edərdi,
Silmişdi qəlbimdən kədəri, dərdi.
Zənn edərdim, daşqın, coşqun bu həyat
Əbədidir, indi solmuş kainat.
Sanki yer, göy dönmüş bütün tərsinə,
Hər şey saxta, müzlim görünür mənə.
Həyat yalnız mənimçin bisəmərdir,
Udduqlarım hava deyil, zəhərdir.
Ah, ilk sevgi, ilk səmimi məhəbbət!
O uğursuz sevgini mən nəhayət
Gömdüm həsrətli könlümün içinə,
Soldum, söndüm, tükəndim gündən-günə.
O günləri andıqca mən hər zaman,
Bahar ömrüm olur boranlı xəzan.
Titrəyirəm solğun bir yarpaq kimi,
Sızlayıram dalğın, çılğın, əsəbi.
Yox səbr, taqətim daha bu dərdə,
Nə xoş günlər keçirmişik bu yerdə.

*(Qadın əlilə o yeri göstərib, hıçqırıqlarla bir daş üzərinə düşür)*

### Ş a i r

Bir zamanlar mən də çox bəxtiyardım,
Sevgilimin gözlərində yaşardım.
Qarşılıqlı, qızğın, daşqın bir sövda
Bizi sərməst etmişdi. Bu arada
Hicran girdi aramıza, o şən gün
Matəm oldu, qara geydi büsbütün.
Yerdən, göydən əli üzülmüş kimi,
Sızlayırdım şaşqın, çılğın, əsəbi.

Hissiz əllər gömdü onu məzara,
Ürəyimdə daim sızlar o yara.
Ah, o hicran etdi məni bir sərsəm,
Hər tərəfə həsrətlə üz çevirsəm,
Tavus kimi cilvələnir o canan,
Göz önündə dərhal olur nümayan.
Heç şən deyil, həzin bir sima daşır,
Pəri kimi yavaş-yavaş yanaşır.
Biləyinə toxunurkən bir kərə,
Xəyal kimi qeyb olur birdən-birə.
Yumruğumu sıxıb dalğın inlərəm,
Təsəlliyçin ay, ulduzu dinlərəm.

*(Qadın Şairə bir məktub uzadaraq)*

**Q a d ı n**

Onun mənə, bax, ilk eləni-eşqi,
İlk məktubu, ilk verdiyi sərməşqi.

*(Şair məktubu oxuyur)*

«Söylə, quzum, sevgi nədir daddınmı?
Qızdırmalı röyalarla yatdınmı?
Mürgülərkən şux təbiət, hər gecə
Ulduzlarla qonuşdunmu gizlicə?
Yarpaqlarda inci kimi müntəzəm
Göz yaşlarından heç durmuşmu şəbnəm?
Bu zövqü dadmış olsan, bəxtiyarsan,
Yoxsa, yazıq sənə, necə yaşarsan?»

**Ş a i r**

*(mütəəssir)*

Çox aşiqanə, şairanə sözlər,
Məhəbbətə qapılmış gəncə bənzər.
Saf ürəkdən doğan ülvi bir xitab,
Siz ona heç vermədinizmi cavab?

Q a d ı n

Bu məktubu aldıqdan sonra bütün
Tərəddüdlə keçindim beş-altı gün.
Ancaq mən də ona məftun olmuşdum,
Az zamanda çiçək kimi solmuşdum.
Qalmamışdı taqətim, ən nəhayət,
Cavab verdim. Ah, yakıcı məhəbbət!..

*(Şairə başqa məktub uzadır, Şair alıb oxuyur)*

«Mən də bir insanam, camad deyiləm,
Açılmamış ismətli bir qönçəyəm.
Kipriklərimdən şəbnəmlər damlayır,
Yanağımdan inci kimi parlayır.
Aydınlığı sevsəm də, yaxlaşmaram,
Əsrarımı göylərə də açmaram.
Qəlbim coşğun məhəbbət ilə çarpar,
Qəndil kimi ümid çırağım parlar.
O öylə bir sağlam, mətin qəladir,
Şairləri, sultanları titrədir».

Ş a i r

Çox iffətli, mənalı bir cavabdır,
Qızıl güldən çəkilmiş saf gülabdır.

Q a d ı n

Bunlardı eşqimin ilk çiçəkləri,
İndi gözümdə bir hicran dəftəri.
Lənət olsun sənə, ah, ey vicdansız!
Səninlə mən nəfəs alırdım yalnız.
Noldu söylə, o yeminlər, peymanlar?
Ah, nə qədər riyakarmış insanlar!

Ş a i r

Səmimiydi mənim sevgim, peymanım,
Buna şahid o pəriyi-vicdanım.

*(Ağaclar arasında pərişan saçlı, əsmər cöhrəli bir qadın kölgəsi zahir olur. Əsəbi gülüşlərlə Şairə doğru irəliləyir. Şair ona xitabən)*

Ey nazənin, sevimli, dilbər kölgə,
Dediklərim yalanmıdır, sən söylə?
Təbəssümlə məni salamlayır, ya
Ay, o gülüş, bax, o baxış, o sima
Çəkildimi adı, qarşımda hazır,
Mənim kimi o da məni arayır.
Yanaşınca birdən-birə küsərək,
Uçar-gedər o zərrinpər kəpənək.
Həyatdanmı qorxar, nədir bu əsrar?
Yoxsa onlar bizdən məsud yaşarlar?
Bu görüşlər məni dəvət üçünmü?
Nədir bu, ya bir üqubət üçünmü?
Həyat, məmat dönmüş günəşə, aya –
Neçin girməz ikisi bir araya?

*(Dərin sükutdan sonra mütəfəkkiranə)*

Həyat, məmat – hər ikisi bir xülya!

**Q a d ı n**

Hər ikisi qorxunc, müdhiş bir röya!

*Sevgilisinin kölgəsi Şairi işarətlə çağırır kimi görünür.*

**Ş a i r**

Bax, nə qədər həzin, dalğın sürünür,
Məni dəvət edər kimi görünür.
Çoxdan məni məhv etmiş idi hicran.
Yalnız bu kölgədir məni yaşadan.
Ox, nə qədər canlandı şux kölgəsi,
Sanki qulağımı oxşar şən səsi.

*(Kölgə onu dəvət edər kimi görünür, Şair qaçaraq onu təqib edir)*

Həyatımdan mənə xəbər verəcək,
Gəldim, gəldim, məndən ayrılmaz mələk.

*Şair kölgəni təqib edir, hər ikisiağaclararasmda qayib olur. Qadın onları əsəbi və şairanə baxışlarla süzdükdən sonra*

## Qadın

Ah, bəxtiyar, get arxasınca, izlə!
Böyük təskin, təsəllidir bu, məncə.
Maraq sevmək, sevilməkdir həyatda,
Bu olmazsa, yox nəşə kainatda.
Bu olmazsa, yoxluq varlıqdan əfzəl,
Böylə varlıq vücud üçün bir əngəl.

*(həyəcanlı)*

Dünyanın bəxtiyarlığından yalnız
Göz yaşlarım qalmış, o da səbatsız.
Durma, durma qəlbimin ta içindən
Boşan, sən də ülfətini kəs məndən.
Bir zamanlar qəhqəhə, nəşəmizdən
Zövq alan bu dərə, mehtab, dağ, çəmən,
Hər an bizə qibtə edər kimiydi.
Ancaq ətrafımı alanlar indi
Sanki mənə eyləyirlər istehza,
Hər an mənimlə əylənirlər guya.
Kəskin, acı, təhqiramiz nəzərlər
Neştər kimi qəlbimə təsir edər.
Yox, bu səfalətə boyun əymərəm,
Gecə-gündüz göz yaşımı tökərəm.
Yaşamaram mən duyğusuz, vicdansız,
Yaşamaram sevgi, ümid, imansız.

*(Dərəyə xitabən)*

Sən ey coşqun, daşqın dərə, bir zaman
Bu səfilə qucağında ver məkan.
Dalğaların köpüklənsin, yüksəlsin,
Yorğun cismim qucağında dincəlsin.
Əlvida, ey səfil həyat, əlvida!
Ram olamaram sənə, heyhat, əlvida!
Əlvida, ey təhqir edən nəzərlər,
Siz baxdıqca həyatım, ruhum inlər.
Əlvida, ey qatı, yumşaq ürəklər!
Əlvida, ey iblislər, ey mələklər!

Əlvida, ey səhərlər, ey axşamlar!
Sizə gömdüm həsrətli bir yadigar.
Əlvida, ey yerlər, göylər, əlvida!..

*(Bu sözləri deyib Qadın dərəyə atılır. Şair uzaqda sevgilisinin gəlməsini təqib edər kimi görünür).*

*1911*

## İDEAL VƏ İNSANLIQ

**İştirak edənlər:**

**İ n s a n l ı q** — İnsanlığın heykəlini təsvir edən orta yaşlı, alicənab bir qadın.

**İ d e a l** — İnsanlığın idealını təsvir edən on iki yaşında nurani bir uşaq.

**V i c d a n.**

**Ə d a l ə t** – ağ qanadlı, təmiz geyinmiş nurani gənclər.

**S ə a d ə t.**

**M ə r h ə m ə t .**

**F ə l a k ə t.**

**Z ü l m** – qara qanadlı, çirkin və qorxunc simalı adamlar.

**Ş e y t a n**

Səhnə alçaq və fəqiranə döşənmiş bir otağı təsvir edir. Otağın sağa, sola və arxaya açılan üç qapısı var. Pərdə açıldıqda İdeal xəstə bir halda yatağına uzanmış, İnsanlıq İdealın başı ucunda durmuş və həzin bir vəziyyət almışdır. Fəlakət qara, iri qanadlarını qürur ilə onların üstünə gərmiş.

**İ d e a l**
*(həyəcanla)*

Nədir üstümdə bu ağır pərdələr?
Ətrafımda qaranlıqlar raqs edər.

*(Əllərini havada oynadaraq)*

Qaldır, anam, yırt onları parçala!

**İ n s a n l ı q**
*(müztərib)*

Anlamam ki?.. Sayıqlıyor... ey movla,
Sən şəfa ver!

**İ d e a l**

Ox! Həyatım çəkilir,
Bir güc altında varlığım əzilir.
Uf, Allahım, söndüm, bitdim, tükəndim!

*(Taqətsiz halda İnsanlığa sarılır. İnsanlıq İdealın başını qolları arasında oxşaya-oxşaya)*

**İ n s a n l ı q**

Müztərib olma heç, əməl çiçəyim!
İnləmə pək, sən inlədikcə hər an
Qəlbimdə bayquşlar edər aşiyan.
Diləyimin ətir saçan gülüşən,
Açılmadan solmaq, yavrum, həp nədən?
Sən bənim yolgöstərən yıldızımsan,
Bütün səadətim asılmış səndən.
Sən sönsən, bən də solar, sönərəm,
Çıldırmış dişi arslana dönərəm.
Qaranlıqda saparam hər bir yola,
Sükansız bir gəmi kibi sağ-sola.

**İ d e a l**

Anam, sus, səndə artdıqca həyəcan,
Qopar qəlbimdə bir amansız tufan.

**İ n s a n l ı q**

Pəki, yavrum, bən susaram, kaş ki sən
Dincəl, şəfa bul!

**İ d e a l.**

Pək uzaq o bəndən

*(Zülm, Şeytan sol qapıdan daxil olur və amiranə bir vəziyyət alaraq, sıra ilə duruyorlar. Fəlakət qanatlarını çırparaq onlara təzim edir. İdeal onları görüncə xələcə ilə)*

**İ d e a l.**

Bu qorxunc simalar, anam, bax kimdir?
Həpsi bəni boğmaq, əzmək istiyor.
Dəmir barmaqları sərasər həp qan.

**İ n s a n l ı q**

Qorxma, oğlum! Onlar da adi insan.

**İ d e a l**

İnsan bumu?

**Ş e y t a n**
*(istehza ilə)*

Əvət! Səfil bir cocuq.

**İ d e a l**

Bunlarda mərhəmət, ədalət heç yox,
Simalarından həpsi zalım, cəllad.

**Z ü l m**
*(hiddətlə)*

Coşma, ey naxələf və azğın övlad.

*(Zülm və Fəlakət qanadları ilə İdealı vuruyor, İnsanlıq müdafiə ediyor, yalvarıyor)*

**İ n s a n l ı q**

Allah üçün veriniz, bu əllər
Sizdən bir mərhəmət, ədalət bəklər.

**Z ü l m**
*(amiranə)*

Məhşər kimi bütün yer, göy yığılsa,
Atəş alsa, həpsi yanıb kül olsa,
Bizdən bir mərhəmət? Məhal əmrdir.

**İ n s a n**
*(iczlə)*

Ey Haqq! Gözün bizi heçmi görmiyor?

**Ş e y t a n**

Görsə belə, yardımını istəməm,
Burak əzilsin, çeynənilsin adəm.

*(Şeytan İdealı vurmaq kibi bir vəziyyətdə bulunur)*

**İ n s a n l ı q**

Toxunmayın! Ah, insanlıq eşqinə!

**Z ü l m**

Sus! Ey xırçın, insanlıqdan bənə nə?
Bu sözlərin mənasını düşünməm.
Boylə səfil üzlər görmək istəməm!
Bənə şəxsi mənfəətimdən danış!
Beşikdəykən oldum onlarla tanış.
Bən həp onun ruhilə bəslənmişəm,
Yalqız kəndi xeyrimi güdmək peşəm.
Bən yaşayım, aləm məhv olsun, batsın,
Kaş istəyim bənim vəxtində çatsın.

**Ş e y t a n**

Əvət, bu söz ildırım tək qüvvətli,
Bir həqiqət ki, topdan da dəhşətli,
Afərin boylə düz-doğru sözlərə.

**Z ü l m**

Böylə səfil, uçuq, ölgün üzlərə
Baxdıqca ruhum, ürəyim şadlanır.

**İ n s a n l ı q**

Mərhəmətsiz! Ruhun, qəlbin aldanır.
Aldanır həp nəfsin kibi Şeytana.

**İ d e a l**

*(Çıldırmışcasına İnsanlığa sarılaraq sürətlə)*

Qanadlanıb, gəl uçalım bir yana!

**İ n s a n l ı q**
*(şəfqətlə)*

Pərəstiş etdiyim yavrum, nerəyə?

**İ d e a l**

Bu aləmdən pək uzaq bir kürəyə.

**Ş e y t a n**
*(istehza ilə)*

Uçamazsın! Qanatların əzilir.

**İ d e a l**

Bu aləmdə insan, insan gəmirir.
Yer-göy bütün qandır, anam, qandır, qan!

*(Çıldırmışcasına acı və sönük bir qəhqəhədən yatağına düşər)*

**İ n s a n l ı q**

Sən yardım et yavruma ey yaradan!
Yox olasan səni, ah, ey Fəlakət!

**F ə l a k ə t**
*(hiddətlə)*

Qadın, bən ki, daim bulduqca fürsət,
Sizinlə aşna olandan bəri,
Durmamışam bir an xidmətlə geri.
Durmadıq ya! Qəlbimizi gəmirdik!
Biz inləyib, əridikcə sümürdün,
Ey Ədalət! Ey Mərhəmət! Ey Vicdan!

**Z ü l m**

Biz varkən onlar olmaz hökmran.

*(Ədalət, Mərhəmət və Vicdan sağ qapıdan daxil olur)*

**V i c d a n**

Alicənab qadın! Nədir istəyin?

**İ n s a n l ı q**
*(heyrətlə)*

Siz kimsiniz?

**M ə r h ə m ə t**

Biz həp adın çəkdiyin Vicdan, Ədalət.

**İ n s a n l ı q**

Ey mələksimalar,
Xəzan vurmuş yapraq tək yavrum inlər.
Haq eşqinə yavrumu qurtarınız!
Öksüz, göməksizdir.

**Ə d a l ə t**

Əmin olunuz.

**V i c d a n**

*(İdealı diqqətlə süzdükdən sonra)*

Pək müdhişdir zavallının əhvalı,
İnsanlığın ölgün, solğun İdealı!
Koç bin yıllıq tarix alnında zahir,
Gələcək pək dumanlıdır, kim bilir?
Halın isə acınacaq bir haldır.

**Ş e y t a n**

Bu haldan qurtarmaq onu məhaldır.

**Ə d a l ə t**

Pək çabuk qurtulur Vicdan olursa.
**Z ü l m**

Bəncə, bütün dünya-aləm yığılsa,
Qurtarmaz!

**İ d e a l**

Bu söz bir saçma sözdür,
Ədalət, Mərhəmət, Vicdan qurtarır!

**Ş e y t an**

Hər birinin qarşısında bin güc var.

**V i c d a n**

O güclər pək çabuk olur tarmar.

**Ş e y t a n**

Fəlakətə qarşı nərdə bir qüvvət?

**M ə r h ə m ə t**

Parla, Səadət, məhv olur Fəlakət.

**Z ü l m**

Məhv olmayınca biz, o məhv olamaz!

**Ə d a l ə t**

*(əlini qılınca uzadaraq amiranə)*

Dəf olunuz, haydı, alçaq, yaramaz!

**İ n s a n l ı q**

Üstümüzdə qanad aç, ey Səadət!

**Ş e y t an**

Nə durmuşsun? Ey sütunlu Fəlakət!
Qüvvətini cəm et, vur, yıx, əz, gəmir!

**Ə d a l ə t**

*(qəzəbli, qılıncını çəkərək)*

Bax, bu qılınc haqsızları titrədir,
Bükülməyən boyunları bükdürür.

**Z ü l m**

*(qılıncı çəkir)*

Bax! Bu qılınc ondan daha kəskindir.

**Ə d a l ə t**

Sözlə deyil, işi əməl bildirir.

*(hücum edir)*

Al, yaramaz!

**Z ü l m**
*(yıxılır)*

Bitdim, tükəndim bən, ah!

**M ə r h ə m ə t**

Yıxıl! Məhv ol! Həqqə köməkdir Allah!

*(Vicdan, Ədalət və Mərhəmət şən və müzəffəranə bir vəziyyət alaraq, qadına və çocuğa yaxınlaşır)*

**M ə r h ə m ə t**

Sevin! Açıl, gül, ey qadın, ey ünsuz!
Artıq sizi qurtaracaq haldayız.

**İ n s a n l ı q**

Yaşayınız! Bin-bin təşəkkür sizə!
Pək yardım etdiniz səfil ünsüzə!

*(Bu aralıq Zülm yavaşca durar, kimsə görmədən sol qapıdan çıxar. Daha sonra Şeytan çıxar. Fəlakət sağ qapıdan qaçmaq istərkən Səadət daxil olur. O, Fəlakəti yaxlayaraq)*

**S ə a d ə t**

Getmə! Dur, mərhəmətsiz, alçaq, azğın!
Artıq yetər, yetər bidar etdiyin!
Al haqqını!..

**F ə l a k ə t**
*(yerə yıxılır)*

Of, məhv oldum, ey alçaq.

**M ə r h ə m ə t**

Alçalamaz haq, ucalır daima.

**V i c d a n**

Zalımlardan alır hər an intiqam.

*(Səadət nurani qanatlarını qadınla çocuğun üstünə açır, səhnə aydınlaşır)*

**M ə r h ə m ə t**

*(İdeala yanaşıb)*

Dur, yavrum, olur!

**İ d e a l**

Bən xastəyam, duramam!

**İ n s a n l ı q**

Yavrum! Dur ki, məhv oldu həp Fəlakət,
Üstümüzdə qanad açmış Səadət.
Daim qaranlığı görən gözlərin,
Qalx, imdi də işıq, səadət görsün.
Bak! Nasıl parlıyor Ədalət, Vicdan,
İçimizdə həq olmaqda hökmran,
Çiçək kibi açıl, günəş tək parla!

**S ə a d ə t**

Dur! Yavrum, dur, İnsanlığı alqışla!

**İ d e a l**

*(İnsanlığa)*

Hay-hay, anam, bu işığa aldanma!
Bir gül açılmaqla bahardır, sanma!
Barmağımın ucundan diqqətlə bax.

*(Səhnənin işığı çəkilir, arxa qapı açılır. Duman tüstü və alov içində bir biyaban görünür. İldırım hiddətlə çağırır. Mühib və qorxunc səslər eşidilir. İdeal əllə biyabanı göstərərək)*

Qan içində üzür sərasər afaq.
Yer, göy bütün atəş, dumandır, qandır,
Zulmün dəmir pəncəsi hökmrandır.
Vuran, ölən, boğan, əzən, əzilən,
Qovan, qaçan, düşən, kəsən, kəsilən,
Həpsi insan, həpsi sənin övladın,
Çəkməyiniz hələ səadət adın!

*(Arxa qapı qapanır, səhnə aydınlaşır, həpsi heyrət içində)*
Hər yerdə zülmün pəncəsi güclüdür.

**V i c d a n**

Gözəl cocuq, yoxmu bir tədbir?

**İ d e a l**

Var, əvət, var, bu dərdə yalqız dərman,
İslah etsin kəndini hər bir insan.
Kəndini öyrənib, kəndin tanısın,
Zatındakı həqiqəti anlasın.
Öyrənir, anlarsa, parlar iqbalın.

**İ n s a n l ı q**

Sən parlarsın, çiçəklənir iqbalım.

**İ d e a l**

Getməliyəm bən içinizdən hələ.

**İ n s a n l ı q**

Bəni kimə tərk eliyorsun böylə?

*(İdeal əlilə Vicdana, Ədalətə, Mərhəmətə işarə edərək)*

**İ d e a l**

Ədalətə, Mərhəmətə, Vicdana
Onlardan sən, anam, bir an ayrılma!
Hər əmrinə, hökmünə qıl itaət!
Bu itaət həqqə olur ibadət.

*(Üzünü Ədalətə, Mərhəmətə, Vicdana tutaraq)*

Siz ey insanlığın işıq məşəli!
Həqqin bükülməyən qüvvətli əli!
Anamı bən sizlərə ismarladım,
Sizləri də həqqə. Daha bən getdim.

*(Səhnənin işığı çəkilir, arxa qapı açılır. İdeal bir nur şəklində göyə uçur. Həpsi onu heyrətlə seyr edir)*

**V i c d a n**

Mələklərin qanadında yüksəlir,
Həqqi bulmuş, bax, onunla birləşir.

**Ə d a l ə t**

Bax, bax, yuxarıdan itdikcə nazar,
Göydən yerə ətək-ətək nur sərpər.

**M ə r h ə m ə t**

Ürəklərdə yuva edər, həp o nur
Ədalət, mərhəmət, vicdan doğurur.

**İ n s a n l ı q**
*(təsirlə)*

Of, mələyim, sevgili İdealım!
Sənsiz nasıl keçər həyatım, halım?

*(Dizi üstə çökərək əllərini yuxarı qaldırır)*

Ey yaradan! Ey ərvahlara yamin!
Sən qovuşdur bəni yavruma!

**H ə p s i**

Amin.

*1914*

# HEKAYƏLƏR

# MƏKTUB YETİŞMƏDİ

## I

Qışın dondurucu bir günü idi. Soyuq qılınc kimi kəsirdi. Göylər matəmlilər kimi, qara çarşaba bürünmüş, dağlar, çöllər ağ kəfənlə örtülmüşdü. Küçələrdə koma-koma duran qarlar üzərində qarğalar qorxaq baxışlarla gəzinirdi. Qalın palto, isti paltar geyinmiş adamlar bəzəkli və isti mənzillərdən çıxıb piyada, ya arabalar içində rahat-rahat küçələrdən keçirdilər. Bu dondurucu qış, bu sərt soyuq onlar üçün əyləncədən başqa bir şey deyildi.

Dünyada bütün səfalət və fəlakət yalnız insanlığın yoxsul qisminə nəsib imiş!

Qurban Şeytanbazar ucunda məktub yazan həmşəhərlisi Molla Fərzəlinin yanında oturmuş, soyuqdan əlləri, üzü bozarmış, bir əli ilə köhnə və yırtıq paltarının açıq yaxasını tutaraq, o biri əli ilə də ayaqlarına buz kimi yapışan yırtıq çustunun palçığını təmizləyə-təmizləyə:

— Molla, mənə bir məktub yaz! Bilirsən ki, hər il sənə nə qədər xeyir verirəm. Vətəndən gəldiyim bir il olmaz, ancaq bununla sənə beş məktub yazdırıram,—dedi.

Molla Fərzəli soyuqdan donmuş əllərini ovuşdurdu. Əsnəyə-əsnəyə bir kağız parçasını dizi üstünə alaraq:

— Həmşəri, nə yazılacaq? — dedi.

Qurban Molla Fərzəliyə bir az da yaxınlaşdı. Gizli bir söz söləyirmiş kimi fısıldayaraq:

— Molla, əvvəlcə məndən uşaqların anasına salam yaz,— dedi, — yaz ki, Anaxanımın, Məmişin gözlərindən mənim əvəzimdən öpsün, onlardan göz-qulaq olsun. Sonra yaz ki, mən də şükür Allaha, sağ və salamatam. Qulamrza ilə sizə on beş manat göndərdim. Bayramı qabağı yenə göndərəcəyəm, uşaqlar korluq çəkməsinlər, özüm də yazın axır ayında gələcəyəm.

Molla Fərzəli qələmi mürəkkəbə batırıb yazmaq istədi. Mürəkkəb qatı olduğundan yazmadı. Molla ağzının suyundan bir damla mürəkkəbə damızdırıb qarışdırdıqdan sonra yazmağa başladı.

Qurban döşü açıq arxalığının və köynəyinin arasından görünən, soyuğun təsirindən dik-dik durmuş qıllarını arxalığının yaxalığı ilə örtüb, sümüklərinə qədər nüfuz edən soyuqdan yumaq kimi büzüşərək dedi:

— Molla əmi, yaman adamın quyusunda işləyirəm, quyu indi otuz sajından aşağı enib, nə qədər yalvarırıq: «Ay ağa, haqqımızı bir az artır, aşağı getmək çox çətindir, neftin, qazın iyindən nəfəs tutu-

lur», zalım oğlu razı olmur. «Əvvəlki şərtimizlə qazacaqsınız, yoxsa haqqınızı verməyəcəyəm» deyir. Molla, burada pul qazanmaq çox çətindir. Sənin peşən yaxşıdır. Gündə beş-on kağız, dörd-beş dua yazsan, bəsindir. Allah bərəkət versin. Daha nə istəyirsən?

Molla Fərzəli qələmi qələmdana qoydu, divarın deşiyindən iki barmağı arasında bir qədər torpaq alıb, məktubun üstünə tökərək quruda-quruda cavab verdi:

— Həmşəri, uzaqdan döyüş adama asan gəlir. Mənim sənətim bildiyin qədər də yüngül deyil. Qış-yaz küçə başında müştəri yolu gözləməkdən adamın gözlərinə qaranlıq çökür. Elə gün olur ki, bir nəfər də müştəri gəlmir. Qarnını ovuşdura-ovuşdura qalırsan.

Molla əbasına bərk sarındıqdan sonra məktubu Qurbana oxudu. Qurban mollanın ağzından çıxan kəlmələri yeyəcəkmiş kimi ağzını açmış, diqqətlə onu dinləyirdi. Sonra üzündə, gözlərində sevinc qığılcımları uçuşaraq:

— Molla, Qulamhüseynə də salam yaz,— dedi, — yaz ki, mən gəlincə uşaqlardan göz-qulaq olsun, yazsın görüm bizim qızıl inək dururmu? Kor yabını satıb, ya yox? Bir də yaz ki, gələndə Anaxanıma güllü-güllü dəsmal, Məmişə də qırmızı köynək gətirəcəyəm.

Molla Fərzəli məktubu yazıb bitirdikdən sonra büküb zərfə qoydu və üzünü Qurbana tutub:

— Həmşəri, zərfin üzü kimin adına olacaq — deyə soruşdu. Qurban əli ilə boynunu ovuşdura-ovuşdura:

—Hə, molla yaz ki, Qurbanın uşaqlarının anasına yetişəcək.

Molla zərfin üzünü yazıb Qurbana uzatdı. Qurban məktubu alıb sevincək iki əli arasında diqqətlə baxdıqdan sonra qoynuna qoymaq istədi. Məktub əlindən yerə düşdü. Məktubu tez götürdü. O yan-bu yanını təmizləyib yenidən qoynuna qoydu. Kisəsini çıxarıb, iki şahı mollanın ovucuna sıxaraq: «Al, həmşəri! Bayram qabağı genə məktub yazdıracam, məndən sənə çox xeyir çatacaq», — deyib qalxdı.

Qurban əli ilə qoynundakı məktubu bərk tutaraq yeriyirdi. O indi həmşəhərlisi Qulamrzanın mənzilinə gedib, həm məktubu ona vermək, həm də dilcavabı bir-iki söz sifariş etmək istəyirdi. Yolda yeriyərkən düşünürdü: «Əcəb bəxtəvər adamdır, indi gedib balalarını görəcək, külfətinə, elinə, obasına qovuşacaqdır. Ox... bir-iki ay sonra oralar nə gözəl olacaq. Çöllər, dağlar yamyaşıl olacaq, çiçəklər açacaq, ağaclar yarpaqlanacaq, ilk baharın elçiləri olan qaranquş, sığırçın və leylək sürü-sürü dönüb, yuvalarını tikəcək, səhər və axşam şirin-şirin nağmələrlə ruhları, ürəkləri oxşayacaqlar. Hər yerdə əkin və bostan işləri başlanacaq, balıqçılar çaylardan və göllərdən balıq ovlayacaq. Ah məni bu gözəlliklərə, ev-eşiyimə, uşaqlarıma həsrət qoyan kasıblıq!». Bu kədərli düşüncə Qurbanın vücudunun hər sahəsinə süratlə yayılaraq, bütün bədənini titrətdi. Daxilində əzici bir sı-

zıltı duydu. Qəlbi sanki bir an dayandı. Artıq dizlərində taqət, vücudunda qüvvət qalmamışdı. O, ayaqları altında xışıldayan qarın üzərinə birdən-birə üzüqoylu düşdü; ölgün və üzgün halda başını qaldırdı. Qabağında izdihamı yarıb keçən arabaları, isti paltarları, şənsifətli insanları, o qaynar həyat səhnəsini qəzəbli nəzərlərlə süzdü, biixtiyar soyuq dodaqlarından bütün iztirab və kədərlərinə tərcüman olan «of» uçdu, özünü doğruldaraq düşdüyü yerdən, qalxdı. Tez əlini qoynuna soxdu və məktubu yanıq ürəyi üzərinə sıxaraq yeridi. Bir az sonra Qulamrzanın mənzilinə yetişdi. Qapı bağlı idi, mə'yus və dalğın halda geri döndü, qarışqa kimi qaynaşan işçilər içində sərsəri kimi dolaşarkən, həmşəhərlisi Səftəri gördü. Ona yaxınlaşaraq əhval soruşdu. Məlum oldu ki, Qulamrza şəhərə getmişdir. Qurban Səftərə yalvardı ki: «Qulamrza qayıdanda mənim gəldiyimi ona de, tapşır ki, məni görməmiş getməsin, amanatım da, dilcavabı sifarişim də var».

Bunu deyib Qurban mənzilinə qayıtdı.

## II

— Namərdlər, alçaqlar, nə qədər ki, quyu dərinləşməmişdi mən baş idim, onlar quyruq. Hər tərəfə dönsəm, onlar da o səmtə sürünürdülər. İndi ki, quyu dərinləşib, mənə baş olmaq istəyirlər. Hər gün mənə təzə bir «ultimatum» verirlər. «Quyu dərinləşib, ölüm ayağı var. Daha nə bilim nə... nə» — deyə hər gün təzə şərt qoyurlar. Tfu sizin kimi namərd adamlara! Sizə qırmanc lazımdır, qırmanc!

Tanrıverdi və Səfər çəkdikləri torpağı boşaldıb yenidən dolu quyuya buraxdıqdan sonra Tanrıverdi:

— Ay ağa, — dedi bilirsən ki, quyunun indi çətin vaxtıdır, əjdaha kimi ağzını açıb qurban istəyir. İnsaf da yaxşı şeydir. Axı...

Səfər Tanrıverdinin sözünü kəsdi, göz işlədikcə sıra ilə düzülən neft buruqlarına əli ilə işarə eləyərək əlavə etdi:

— Bax, bu yerlərin hər guşəsinə ayaq bassan, hər ovuc torpağına qazma vursan, işçi sümüyü görərsən, işçi fəryadı eşidərsən. Bu uca evlərdə, isti otaqlarda naz-nemət içində yaşayan...

Hacı Qulu Səfərin sözünü kəsib, ayaqlarını yerə çırparaq, bağıra-bağıra:

— Canınız çıxsın, — dedi — pul qazanmaq asandır? Siz canınızdan keçirsiniz, biz də ətək-ətək pulumuzdan.

— Səfər! Səfər! Qurban ipi tərpədir.

Səfər və Tanrıverdi tez quyunun ağzına yüyürdülər, başlarını aşağı dikərək baxırkən, quyu içində partlayan qazın gurultusundan diksinib çəkildilər. Hər ikisi həyəcanlı bir səslə:

— Allah özü bağışlasın. Qurban da belə getdi—deyə fəryad qopardılar.

Hacı Qulu bir şey eşitmirmiş kimi, qorxa-qorxa quyunun ağzına gəldi və ehtiyatla quyunun yanına uzanıb diqqətlə baxdı. Birdən-birə gözlərində, üzündə daşqın bir sevinc qığılcımları, dodaqlarında məmnuniyyəti andıran bir təbəssüm olduğu halda uca səslə:

— Çeşmənin başı açıldı, yavaş-yavaş neft qaynayır,— dedi.

Tanrıverdi soyuq və laqeyd bir tövrlə:

— Hacı, Qurbanın meyiti quyuda qalacaq?—deyə soruşdu.

Bu sözdən Hacı Qulu şirin yuxudan oyanmış kimi oldu. Göz qapaqları iri-iri açıldı. Kisəsindən iki iyirmi beşlik çıxarıb:

— Kim bu işi görsə, bu əlli manat onundur—dedi. Tanrıverdi quyuya yaxınlaşdı və neftin qaynayıb qalxdığını görüncə:

— Yazıq Qurban, sən — qəbrini öz əlinlə qazdın—dedi Hacı əlli manatı onlara verib dedi:

— Əlli manat sizin olsun, bölüşün, ancaq bu işi ağzınızdan qaçırmayın.

Səfər soruşdu:

— Ağa, bəs paltarı nə olacaq?

Hacı əlini onun çiyninə qoyaraq, yağlı bir dililə:

—Onu da buralarda bir yerdə qazıb basdırın,—dedi. Səfərlə Tanrıverdi Qurbanın paltarını yığışdırıb götürərkən, arasından yerə bir məktub düşdü. Məktubun üzərində: «Bu məktub Qurbanın uşaqlarının anasına yetişəcək» cümləsi yazılmışdı.

Səfərlə Tanrıverdi bir müddət məktubu acı nəzərlə süzərək: «Yazıq Qurban, məktub yetişmədi»—deyə inlədilər.

*1908*

## KÖÇ

Mayın gözəl bir səhəri idi. Dan yeri yenicə ağarmağa başlamışdı.

Yatağımda yatırdım. Birdən-birə anamın yavaşca: «Oğlum, qalx, yaylağa gedirik» deməsindən, gözlərimi açdım.. Anam başımı əlləri içinə alaraq bir də: «Qalx, oğlum! Səndən başqa hamı hazırdır, arabamız da gəlib»— dedi.

Dərhal dimdik qalxdım. Paltarımı geydim. Əl-üzümü yudum. Bir fincan çay içər-içməz pilləkənləri gup-gup başıaşağı endim. Öküz arabası qapımızın ağzında durur, arabaçı Salman kişi də şeyləri üsulluca arabaya yerləşdirirdi.

Artıq, hərəkət edəcəyik... Sevinirəm... Ailəmizin hamısı aşağıda idi. Hətta Mərmər adlı ağ pişiyimi, sarı, iri tüklü toyuğumu cücələri ilə bərabər, bir səbət içində götürmüşdük. Necə sevinməyim?! hamımız arabaya doluşduq. Salman kişi də arabanın boynuna oturdu: «Həm... Hof» edib əlindəki uzun qırmancını havada bir neçə kərə şaqqıldatdı. Araba hərəkət etməyə başladı.

Atam da ata minib, yanımızca gəlirdi. Şəhərin iri, geniş küçələri ilə gedirik. Hər zaman gözümüzün alışdığı geniş küçələr, böyük evlər, iri şüşəli mağazalar...

Araba şəhərdən çıxarkən günəş yenicə çırtır, şərqi bürüyən qırmızılıqdan üfüqlərdəki dağ silsiləsi kimi görünən buludlar əlvan rənglərə boyanırdı.

Şəhərin tozlu, gurultulu küçələrindən, isti Havasından get-gedə uzaqlaşırdıq.

Arabamız iki tərəfi ağac, əkin və bostanla bəzənmiş bir yolla gedirdi.

Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti vardır. Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, tarlalara, təpələrə, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər, dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü.

Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik, irəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır. İri, kələ-kötür, ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasından yuxarı qalxdıqca təbiət və hava bütün başqalaşır, insan ürəkdolusu nəfəs alır.

Yumşaq otların, əlvan çiçəklərin, dağ nanələrinin gözəl qoxusundan insan bihuş olurdu.

Dağların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış kimi durur. Qocaman bir dağın təpəsinə qalxdıq. Qarşımıza daha böyük bir dar çıxdı. Bu dağı da aşdıq, çiçəklər

səltənəti kimi bir açıqlığa çıxdıq. Bu yer qalın, sıx meşəlik, çılpaq qayalıq, uçurumlu dərələrlə qucaqlaşmışdı. Uzaqda bir təpə ətəyində beş-on alaçıqdan ibarət bir oba görünürdü. Artıq yetişmişdik. Sevincimdən atılıb-düşürdüm.

Yaxınlaşınca bizi ən əvvəl bir çoban köpəyi qarşıladı. İt qara ağzını açıb hürür və üstümüzə atılırdı.

# UŞAQLAR ÜÇÜN ƏSƏRLƏR

# ŞEİRLƏR

## XORUZ

Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz,
Sən nə tezdən durursan,
Qışqırıb banlayırsan
Qoymayırsan yatmağa,
Ay canımı məstan xoruz!

*1906*

## KEÇİ

Ala-bula, boz keçi,
Ay qoşa buynuz keçi,
Yalqız gəzib dolanma
Dağa-daşa dırmanma,
Bir qurd çıxsa qarşına,
Sən nə edərsən ona?
Çoban açınca gözün
Qalar iki buynuzun.

*1906*

## UŞAQ VƏ DOVŞAN

### U ş a q

— Dovşan, dovşan, a dovşan!
Qaçma, dayan, a dovşan!
Qaçma səni sevəndən,
Can kimi istəyəndən.

### D o v ş a n

— Dayanmaram, a qardaş!
Yanında var alabaş.
Xəbərdaram işindən,
Qurtarmaram dişindən.

*1906*

## YETİM CÜCƏ

Ay kiçicik soluq cücəm,
Boynu buruq, yoluq cücəm.
Açma o sarı dimdiyin,
Başlama qəmli cik-ciyin.
Tək gəzinib sıxılma çox,
Ağlayıb nalə qılma çox.
Qəm yemə, sus, bir az dayan,
Mən olaram sənin anan.
Səni o səslə səslərəm,
Dən, su verib də bəslərəm
Ağlama, ağlama, cücəm,
Qəlbimi dağlama, cücəm.

*1906*

## YENİ KÖMƏKÇİ

Tarlaya gəldi Nəbi,
Gördü səhərdən bəri
Atası tək işləyir,
Tarlasını xışlayır.
Nəbi dedi:—Ay ata,
Gəl məni öyrət, daha
Sən otur, mən işləyim,
Tarlamızı xışlayım.
— Çox gözəl, oğlum, görək,
Gəl öyrəş, eylə kömək...
Verdi xışı, oturdu,
Nəbi ürəklə durdu.
Xış sürməyə başladı,
Atası alqışladı.

*1906*

## SƏHƏR

Günəş doğdu, yayıldı,
Dağlar, daşlar ayıldı.
Sular, meşə, bayırlar,
Səhralar, həm çayırlar
Bir nur içində qaldı,
İşıq dünyanı aldı.
Üfüq alışdı, yandı,

Bütün quşlar oyandı.
Ötüşdü şad və xəndan*,
Səs ilə doldu orman.

*1906*

## TƏPƏL KƏLİM

Qalx ayağa, təpəl kəlim,
Sahibinə tut əl, kəlim.
Xışlayım, həm səpim dəni,
Qoyma bu yerdə gəl məni.
Qarşıda qış, ayaz, soyuq,
Bir yığın həm çoluq-çocuq.
Onların əppək ağacı,
Sənsən, a başımın tacı.
Qalx ayağa, aman, aman,
Sənsiz olar işim yaman.
Kim tutacaq bu yerdə əl?
Qoyma yarımçıq işi gəl.
Puç oldu, eyvah, əməyim,
Qırıldı, düşdü biləyim.
Sən idin yalnız köməyim,
Yıxıldı, sındı dirəyim.

*1906*

## LAYLA

Layla dedim, yat ciyərim parası,
Ağlama çox, ey gözümün qarası.
Olma yemək-içməyin avarası,
Layla, quzum, layla, gözüm, yatgilən,
Rahat olub bir azca, boy atgilən.

Böyü bir az yeddi yaşa yetgilən,
Səhər tezdən dur, məktəbə etgilən,
Dərs oxuyub yazmağa səy getgilən,
Layla, quzum, layla, gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən.

Təmiz geyib dolangilən gül kimi,
Hər gün oxu dərsini bülbül kimi,

Gəzmə küçələrdə gedib vel kimi,
Layla, quzum, layla, gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən.

Sən də çalış elm ilə şöhrət qazan,
Qalma cəhalətdə, olarsan yaman.
Elm ilə abad olubdur cahan,
Layla, quzum, layla, gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən.

*1906*

## PAYIZ

Payız olur, əsir soyuq küləklər,
Solur dağda, çöldə əlvan çiçəklər.
Gecələr uzanır, günlər qısalır,
Göy üzünü qara buludlar alır.
Yağış yağır, duman çökür çöllərə,
İnildəyir çayır, çəmən, dağ, dərə.
Ağaclarda nə meyvə var, nə yarpaq,
Bağ-bağçalar olmuş bütün çır-çılpaq.
Quşlar uçub dəstə-dəstə gedirlər,
İsti yerə köçüb qışlaq edirlər.

*1997*

## CÜTÇÜ

Cütçü, əkinçi baba,
Bahar gəlir, qalx daha!
At kürkünü bir yana,
Büzüşmə çox, gəl cana.
Yaşıllanır çöl, çəmən,
Rəhmət yağır göylərdən.
Dayanma, get tarlaya,
Şumla, ək, biç, vur taya.
Cütçü, əkinçi baba,
Bahar gəlir, qalx daha!

*1907*

## ASLAN, QURD VƏ TÜLKÜ

Bir zaman tülkü, qurd, həm aslan,
Hər üçü bağladı belə peyman:

Ki, bu gündən ələ nə düşsə şikar,
Üç yerə qismət eyləsin onlar.
Hamı «əhsən» dedi bu dadlı sözə.
Ov üçün çıxdılar bir otlu düzə.
Dərə ağzında tapdı üç ortaq
Bir qoyun, bir keçi, quzu, oğlaq.
Dedi aslan: — Gəlin ovu bölüşək,
Bu qoyun ki, mənə çatar bişək.
Quzu olsun gərək mənim payım,
Çünki sizlərdə yox mənim tayım.
Bu keçi də gərək mənə yetişə,
Olmasın bir kəsin sözü bu işə.
Oğlağa kim uzatsa əl, bunu bil,
Eylərəm mən onun əlini şil.

*1908*

## TÜLKÜ VƏ QURD

Oldu bir yolda tülkü qurda düçar,
— Hara?— sordu,— gedirsən, ey sərdar?*
Dedi qurd: — Ey iki gözüm, ciyərim,
Gedirəm hər yerə düşə güzərim.
Zülmdən qurtarıb olam rahət.
Yaxdı, yandırdı canımı zillət.
Hər zaman ki, məni görür insan,
Öldürür, rəhm etməyir bir an.
Dedi tülkü: — De bir mənə işini;
Aparırsanmı o tamah dişini?
—Harda olsam, — gərək olur bu dişim.
Söylə, dişsiz mənim aşırmı işim?
Dedi tülkü: — Əbəsdir bu söhbət,
Ey gözüm, çəkmə boş yerə zəhmət.
Nə qədər ki, səninlədir bu dişin,
Keçəcək hər məkanda böylə işin.

*1908*

## TOP OYUNU

Hop, hop, hop,
Oynayaq top-top.
Quş tək qanad aç,
Topu atdım, qaç!
Əlin belində,
Güllər əlində,
Sağdan sola arş!

Qaç, durma, yoldaş!
Dik tut başını,
Vur yoldaşını.
Topu tut göydə,
Qaçın birlikdə.
Ura, irəli!
Dönməyin geri.

*1928*

## DƏMİRÇİ

Yan ocağım, durma, yan!
Təndir kimi alovlan.
Qızart bu pak dəmiri,
Qalma günəşdən geri.
Qığılcım saç hər yana,
Cansızlar gəlsin cana.
Bağım, tarlam güllənsin.
Bülbüllərim dillənsin.
Şənlənsin tarla, çəmən,
Sevinsin ana Vətən.

*1925*

## TƏMİZLİK

Səhər durunca
Əlimdə fırça
Sildim dişimi,
Bildim işimi.
İnanmırsan bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz,
Bax beləyik biz.

*1928*

## QƏRƏNFİL

Qərənfiləm mən,
Gözəl güləm mən.
Yaşıl saplaqlı
Bir sünbüləm mən.

Mən, bağban qızı,
Bağın ulduzu,
Rəngim ağ, sarı,
Al və qırmızı.

Gəl saxla ayaq,
Durma gendən, bax.
Gəlsəm xoşuna
Dər, döşünə tax.

*1928*

## BƏNÖVŞƏ

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə.
Qızlar, oğlanlar məni
Dərib taxarlar döşə.

Bahar oldu açaram,
Qar-borandan qaçaram.
Başqa güllər açanda,
Mən quş olub uçaram.

Qurudar məni ayaz,
Yaşayıram bircə yaz.
Rəngim, ətrim gözəldir,
Əl vurmayın, ömrüm az.

*1928*

## QIZIL GÜL

Qızılgüləm, qızılgül,
Məni sevər hər könül.
Yaşıldır incə belim,
Qızıldandır hər telim.
Səhər erkən açaram,
Gözəl qoxu saçaram.
Ətrim tutar hər yanı,
Mənim kimi gül hanı?
Mən əllərdə gəzərəm,
Süfrələri bəzərəm.
Mənəm gözəl qızılgül,
Sən ey qönçəm, açıl, gül!

*1928*

## ZANBAQ

Zanbağam mən, zanbağam,
Ay, işığından ağam.
Açdığım hər ağ çətir
Ətrafa yayır ətir.
Ağ atlazdan donum var,
Gümüş kimi parıldar.
Mən də gözəl çiçəyəm,
Toxunma, ağ ipəyəm.

*1928*

## BÜLBÜL

Oxu, bülbülüm, oxu,
Yazdır, səhər çağıdır.
Oxu, sənin xoş səsin
Şənliklər qaynağıdır.

Oxu, oxu, xoş nəğmən
Nəşə versin ellərə.
Şən səsin, xoş nəfəsin
Yayılsın bu çöllərə.

Oxu, çöldə, çəməndə,
El əkəndə, biçəndə,
Başla yeni bir dastan,
Biz bənövşə dərəndə.

Bülbülüm, tik yuvanı,
Bəslə, böyüt balanı.
Qoy nəsliniz çoxalsın,
Biz böyüyən zamanı.

*1928*

## ARI

Arıyam, zəhmətkeşəm,
Bal, mum çəkməkdir peşəm.
Səhər güllər açınca,
Gözəl qoxu saçınca,
Uçaram göy yamaca,
Çiçək açmış ağaca.

Ya çəmənə, meşəyə,
Qonaram hər çiçəyə;
Şirəsini çəkərəm,
Pətəyimə tökərəm.
Çalışaram doqquz ay
Hamı məndən alar pay.
Balımdan qoy yesinlər,
Mənə «sağ ol» desinlər.

## KƏPƏNƏK

Mənəm qanadlı çiçək,
Adım isə kəpənək.
Al-əlvan xallarım var,
Qızıl kimi parıldar.
Qanadımı açaram,
Budaq-budaq uçaram.
Yuvam, otağım ancaq,
Olur yaşıl bir yarpaq.
Mənim dostumdur hər gül,
İncə telli göy sünbül.
Oynağımdır çöl, çəmən,
Məni tutmaq istəyən,
Ey mehriban uşaqlar,
Siz yaşayın bəxtiyar.
Mənim də bu dünyada
Bir başqa aləmim var.

*1928*

## KÜR ÇAYI

Ey Kür çayı, daşırsan,
Sahillər aşırsan.
Tarlalarda, bağlarda
Bizimlə oynaşırsan.

Ey Kür çayı, dalğan ağ,
Suyun gümüşdən parlaq.
Yol sal bizim bağçaya,
Sən çal, biz də oynayaq.

Ey Kür çayı, gəl barı,
Bizim dəhnəyə sarı,
Aç qoynunu, yuyunsun
Elin oğul, qızları.

*1932*

## ANA YURDUM

Çöllərindir şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana Vətən!

Bağdır, əkindir
Hər bir bucağın.
Qızıl təkindir
Sarı torpağın.

Böyütdün bizi,
Verdin qol-qanad.
Yoxdur qəm izi,
Şəndir bu həyat.

Qəlbim, canımsan,
Ey ana yurdum.
İsti qoynunda
Şən yuva qurdum.

Çöllərindir şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana Vətən!..

*1941*

## VƏTƏN NƏĞMƏSİ

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək
Kinlə kim ayaq

Basa ölkəmə,
Bu şanlı torpaq
Batırar qəmə.
Bizik ölkənin
Şanlı əsgəri,
Dağlardan mətin
Polad səfləri.

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək.

*1942*

# MƏNZUM HEKAYƏLƏR

## TIQ-TIQ XANIM

Gəlin, sizə uşaqlar,
söyləyim bir hekayət.
Dozanqurdu edirdi
yalqızlıqdan şikayət.
Soğan qabıqlarından
bir çadra tikdi, şıq-şıq.
Fındıq qabıqlarından
çarıq geyindi, tıq-tıq.
Ətir vurdu başına,
bəzək verdi özünə;
Qara yaxdı qaşına,
sürmə çəkdi gözünə.
Naz ilə yavaş-yavaş,
yola düzəldi birbaş.
Çöl-çəməni gəzirdi,
axtarırdı bir yoldaş...
Göy təpənin döşündə
oturmuşdu bir çoban.
Dedi: — A dozanqurdu,
hara gedirsən? Dayan!
Dozanqurdu çevirdi
qara, muncuq başını,
Acıqlanıb dayandı,
oynatdı göz-qaşını,
Dedi:—Ehey, ay çoban,
bir yaxşı aç gözünü,
Bax, gör kiməm, anla bir
söylədiyin sözünü!
Mənə eldə-obada
Tıq-tıq xanım deyirlər.
Bir az düşünüb danış,
kobud olma o qədər.
Çoban dedi: — Bağışla,
qurban o şirin dilə.
Tıq-tıq xanım, de görüm,
hara gedirsən belə?
Tıq-tıq xanım oynatdı
qara, muncuq başını,
Gözlərini süzərək,

çatdı qara qaşım,
Dedi:— Çoban, bağışla,
ömürlər çox gödəкdir,
Bu çöllərdə yalqızam,
mənə yoldaş gərəкdir.
Çoban yanaşdı ona,
söylədi: — Ay qaraqaş,
Bu ellərdə tapılmaz
mənim кimi bir yoldaş.
Gəl burda qal dost кimi,
səni tutaram əziz.
Ağzıma bir tiкə də
inan, qoymaram sənsiz.
Tıq-tıq xanım söylədi:
— Acıqlandırsam səni,
Doğru söylə, ay çoban,
nəylə döyərsən məni?
Çoban qapdı çomağı,
dedi:— Bununla, bir bax...

Dozanqurdu qorxudan
qaçdı tez ordan uzaq...
Getdi... getdi... Bu dəfə
tülкüyə oldu düçar.
Tülкü dedi: — Bir dayan,
dozanqurdu, sözüm var!
Gəlin кimi özünə
vurub yaraşıq, bəzəк,
Hara gedirsən belə?
Durma, söylə, a göyçəк!
Dozanqurdu çevirdi
qara, muncuq başını,
Acıqlı bir tövr ilə
oynatdı göz-qaşını,
Dedi: — Nə söyləyirsən?
Gözlərini yaxşı sil!
Diqqətlə bax, gör кiməm?
Danışdığın sözü bil!
El bilir, ölкə bilir,

Tıq-tıq xanımdır adım!..
Tülkü dedi: — Ay xanım,
bağışla, tanımadım.
Adını bilməyirdim,
xanım, bağışla məni,
Dilim-ağzım qurusun,
yaman incitdim səni.
Ay Tıq-tıq, şıq-şıq xanım,
hara gedirsən belə?
Gəl bu tülkü lələni
nigaran qoyma, söylə!
Tıq-tıq dedi: — Ay tülkü,
ömürlər çox gödəkdir,
Bu çöllərdə yalqızam,
mənə yoldaş gərəkdir.
Tülkü dadlı dil ilə
söylədi: — Ay qaraqaş,
Bu ellərdə tapılmaz
mənim kimi bir yoldaş.
— Çox gözəl, bir sözüm var,
durma, başa sal məni
Məni nəylə döyərsən
acıqlandırsam səni?
Tülkü dedi: — Salaram
səni iti dişimə,
Çeynəyərəm, didərəm,
gedərəm öz işimə...
Dozanqurdu bu sözdən
diksinərək, qorxaraq,
Çadrasını yelləyib
qaçdı tez ordan uzaq...
Tıq-tıq xanım gedirdi
arxasına baxmadan,
Birdən onun yolunu
kəsdi bığlı bir siçan.
Qarşısında şöngədi,
qulağını diklədi.
Şirin-şirin dil açdı,
ona belə söylədi:

— Saçı uzun Suray xanım,
Boynu uzun Buray xanım,
Sığal verib qara telə,
hara gedirsən belə?
Bu söz ona xoş gəldi,
açdı tez yaşmağını,
Çadrasını yellətdi,
oynatdı başmağını,
Dedi: — Yalqızlıq sıxır
məni, gözüm Siçanbəy!
Özümə layiq yoldaş
axtarıb tapam gərək!
Siçan dedi: — Mən kimi
yaxşı yoldaş tapılmaz,
Gəl bir yerdə yaşayaq,
damağı çağ, kefi saz.
Dedi: — Sənə sözüm yox,
ancaq başa sal məni,
Söylə, nəylə döyərsən
acıqlandırsam səni?
Siçan dedi: — Yavaşca
quyruğumu bükərəm,
O incə göz-qaşına
qara sürmə çəkərəm.
Tıq-tıq xanım çadranı
yellətdi çox sevincək,
Söylədi: — Bu şərtə mən
razıyam, di gəl gedək!
Tez verdilər əl-ələ,
yoldan iraq keçdilər,
Siçanın daxmasında
bir ay yeyib içdilər.
Bir gün Siçan bəy dedi:
—Ay Tıq-tıq, şıq-şıq xanım,
Mənim gözəl yoldaşım,
mənim ciyərim, canım!
Bu gün xanın evində
toy var, dadlı yemək var,
Şəkər, noğul, qatlama,

fətir, yağlı çörək var.
Sən yuvadan çıxma ha,
mən gələnədək, dayan...
Tıq-tıq razılıq verdi...
düzəldi yola siçan
Sevincək, xan evinə
gedirdi yorğa-yorğa.
Saraya yetişincə,
sıxıldı bir bucağa.
Qatlamanı, noğulu
xırt-xırt ilə yeyirdi.
Bığlarını silərək,
öz-özünə deyirdi:
«Tıq-tıq xanım yalvızdır,
onsuz haramdır yemək,
Bu noğuldan, şəkərdən
Ona aparım gərək!..»
Dozanqurdu yuvada
yalqız qalıb darıxdı.
Həm də bir az susuzdu,
durdu, yuvadan çıxdı.
Gəldi bir yol ağzına,
baxdı o yan-bu yana,
Bir çuxurda su görüb
Tıq-tıq yanaşdı ona.
Əyilib su içəndə,
birdən düşdü çuxura,
Gördü ki, lap boğulur,
əl atdı ora-bura.
Sudan çıxa bilmədi,
bağırdı: — Ay-vay, kömək!..
Ancaq onun səsini
eşitmədi Siçan bəy...
Gördü gəlir atlılar,
şirin söhbət edirlər,
Batıb qızıl-gümüşə,
xan evinə gedirlər.
Çuxurda, su içində
onun halı ağırdı,

Birdən uca səs ilə
atlıları çağırdı:
«—Tarap-turup atlılar,
Atları qanadlılar!
Xan evinə gedərsiz,
Siçan bəyə deyərsiz:
Saçı uzun Suray xanım,
Boynu uzun Buray xanım,
Düşübdü su çuxuruna,
Tez özünü yetir ona».
Atlılar hər tərəfə
durub diqqət etdilər,
Görmədilər bir nəfər,
yola düşüb getdilər.
Xan evinə çatınca,
hamı atından endi,
Doluşdular saraya
xan məclisi şənləndi.
Hörmət ilə oturdu,
hamı qızıl kürsüyə.
Qonaqlardan birisi:
— Heyrətli işdir, — deyə,
Söylədi: — Biz bir yolun
qırağından keçərkən,
Bu sözləri söyləyən
bir səs eşitdik birdən:
«Tarap-turup atlılar,
Atları qanadlılar!
Xan evinə gedərsiz,
Siçan bəyə deyərsiz,
Saçı uzun Suray xanım,
Boynu uzun Buray xanım
Düşübdü su çuxuruna,
Tez özünü yetir ona».
Baxdıq o yan-bu yana,
diqqət etdik nə qədər,
Çox heyrətli bir işdir,
görünmədi bir nəfər...
Eşidincə bu sözü,

Siçan qalxdı yerindən,
Dedi: «Tıq-tıq xanıma
kömək etməliyəm mən».
Atdı noğul, şəkəri,
tez çıxdı o, saraydan,
Tıq-tıq xanıma təraf
yorğalayırdı Siçan...
Yuvasına çatınca,
yaxından bir səs gəldi,
Bu səs onun bağrını
bir xəncər kimi dəldi.
Bildi Tıq-tıq xanımdır,
boğulurkən barırır,
Öz dostunu dar gündə
harayına çağırır.
Tez səsinə səs verdi,
o tərəfə yüyürdü,
Bir kiçik gölməçəyə
yetişincə, nə gördü:
Tıq-tıq xanım çuxurda
boğulur, əl-qol atır!
Gah çıxır su üzünə,
gah birdən-birə batır...
Bunu gördü, Siçanın
dərdi başından aşdı,
Yüyürdü, öz dostuna
belə şirin dil açdı:
— Əlini mənə, bəstərəcik!
— Yox, mən səndən küstərəcik...
— Əlini mənə, bəstərəcik!
— Yox, mən səndən küstərəcik...
— Əlini mənə, bəstərəcik!
— Yox, mən səndən küstərəcik...
— Küstərəcik ha, küstərəcik,
Bir daş üstündən əndərəcik!
Daşı vurdu başına,
bir az qəmləndi... yenə
Toy noğulu yeməkçin
qayıtdı xan evinə.

## TÜLKÜ HƏCCƏ GEDİR

Tülkü qocalmış idi,
Şikardan qalmış idi.
Ov keçmirdi əlinə,
Ət dəymirdi dilinə.
Həftələrlə qalıb ac,
Dolanırdı yalavac.
Ova batmırdı dişi,
Yaman keçirdi işi,
Günü olmuşdu qara,
Düşündü, tapdı çara:
Təsbeh aldı əlinə,
Şal bağladı belinə;
Ayaqlarında çarıq,
Başında tirmə sarıq,
Çiynində atlaz aba,
Əlində zorba əsa,
Ağlayırdı, gedirdi.
Çölləri seyr edirdi.
Olmuşdu mömin bəndə.
Çatdı böyük bir kəndə
Kənd ağzında bir xoruz
Eşələnirdi yalqız.
Gördü ki, tülkü lələ,
Girmiş başqa bir şəklə.
Gəlir təsbeh əlində,
Bir şal qurşaq belində,
Ayaqlarında çarıq,
Başında tirmə sarıq,
Çiynində atlaz aba,
Əlində zorba əsa.
Ağlayır, təsbeh çəkir,
Gözündən qan-yaş tökür...
Xoruz durub uzaqdan
Baxdı ona bir zaman.
Dedi: — A tülkü lələ,
Neçin girdin bu şəklə?
Yoxsa sənə, ey baba,
Üz veribdir bir bəla?

Tülkü başın salladı,
Hönkür-hönkür ağladı.
Dedi: — A məstan xoruz,
Gözləri mərcan xoruz!
Qocalmışam, düşmüşəm,
Sizi çox incitmişəm.
Məndən daha qaçmayın,
Dərdlərimi açmayın.
Daha üzüm qaradır,
Qəlbim dolu yaradır.
Halal-haram qanmadım,
Qocalığı anmadım.
Sizi tutdum hey yedim,
Allah kərimdir!—dedim.
Yamanlıq olmuş işim,
Qanlar tökmüş bu dişim.
Mənim günahım çoxdur,
Halıma yanan yoxdur.
İndi həccə gedirəm,
Daha tövbə edirəm.
Xoruz dedi: — Baba can,
Sənə bu canım qurban!
Daha bəsdir, ağlama,
Ürəyimi dağlama!
Haqq yolunu bulmusan,
İndi mömin olmusan
Qocalmısan, ay lələ,
Quyruğun var bir şələ.
Səni uzun yol yorar,
Məni özünlə apar.
Yolda qulluq edərəm,
Hər işinə gedərəm.
Tülkü baxdı həsrətlə,
Cavab verdi hörmətlə:
— Sağ ol, məstan xoruzum,
Sevimli, əmlik quzum.
Yollar uzun, burama,
Tez ol, gəl düş arxama.
Hər gün namaz zamanı

Sən verərsən azanı.
Xoruz oldu sevincək,
Qanad verdi yelkən tək.
Qanadını çırparaq,
Uçub gəldi qaçaraq,
Öpdü əl-ayağını,
Üzünü, qulağını.
Boynunu dimdiklədi,
Ona min dil söylədi.
Tülkü, ağzında virdi,
Təsbehini çevirdi.
Ona həsrətlə baxdı,
Gözləri şimşək çaxdı.
Bir az söhbət etdilər,
Yola düşüb getdilər.

II

Gəldilər kəndə yaxın.
Toyuqlar axın-axın
Küçədə dənlənirdi,
Yem tapıb şənlənirdi.
Gördülər tülkü lələ,
Giribdir başqa şəklə:
İri təsbeh əlində,
Bir şal qurşaq belində,
Ayaqlarında çarıq,
Başında tirmə sarıq,
Çiyində atlas əba,
Əlində zorba əsa,
Gedir yol ilə birbaş,
Xoruza olmuş yoldaş.
Birdən qaqqıldaşdılar,
Bu hiyləyə çaşdılar.
Toyuq-xoruzdan biri,
Gəldi bir az irəli,
Dedi: — A lovğa tülkü,
Quyruğu darğa tülkü!
Yoxdur səndə mərhəmət,

Bizə verirsən zillət
Gizli-gizli gecələr.
Kəndə girib bixəbər
Bizi çapır, çalırsan,
Hinə şivən salırsan.
Yoxmu bizim canımız?
Halalmıdır qanımız?
Etdik biz də bir tədbir
Vardır yaxında çox «pir»;
Onlara ip bağladıq,
Nəzir verdik, ağladıq;
Kəsdik minlərcə qurban,
Verdik fəqirə ehsan;
Qəbul olmuş duamız,
Səni tutmuş ahımız.
Tülkü alışdı-yandı,
Əsasına dayandı;
Sonra başın silladı,
Hönkür-hönkür ağladı.
Dedi: — Düzdü, can xoruz,
Gözləri mərcan xoruz!
İndi üzüm qaradır,
Qəlbim dolu yaradır...
Yamanlıq olmuş işim,
Daşa dəysin bu dişim.
Qocalmışam, düşmüşəm,
Sizi çox incitmişəm.
Daha tövbə edirəm,
İndi həccə gedirəm...
Bu işə mat qaldılar,
Tülküyə yan aldılar.
Çaşdılar bu sözlərə,
Qan-yaş doldu gözlərə,
Söylədilər,—Ay lələ!
Qurban bu şirin dil!
Xasiyyətin dəyişmiş,
Nə gözəl işdir bu iş!
Amandır, tülkü lələ,
Bizi apar özünlə.

Tülkü dedi: — Nə olar,
Gəlin, gəlin, balalar!
Uçub gəldi cümləsi;
Toyuq-xoruzun səsi
Çulğaladı hər yanı,
Kəndi, çölü, ormanı.
Bir xoruz oldu zirək.
Uçdu dama sevincək:
—Quqquluqu! — çəkdi car, —
Olduq bizlər bəxtiyar:
Aydın olsun gözünüz,
gəlin, görün özünüz
Tülkü olub peşiman,
Tökməyəcək bir də qan.
Mömin olmuş bu kişi,
Bizimlə yoxdur işi;
Ağlayır, tövbə edir,
Birbaşa həccə gedir...
Kənddə toyuq-cücələr,
Bundan tutunca xəbər,
Bir-birinə baxışdı,
Küyə düşdü, axışdı;
İşi doğru bildilər,
Uçub qaçıb gəldilər.
İnandılar tülküyə, —
Peşiman olmuş, deyə,
Biri öpür abasın,
Biri dəmir əsasın,
Biri təsbeh, sarığı,
Biri kirli çarığı;
Batmış hamı sevincə,
güldülər incə-incə.
Gətirdilər duz-çörək.
«Dərə xəlvət, tülkü bəy»
Dururdu kefi çox saz,
Baxırdı saymaz-saymaz.
Bir az söhbət etdilər,
Yola düşüb getdilər.
Çovuş oldu birisi,

Basdı kəndi cır səsi,
Keçdi dəstə başına,
Papaq endi qaşına.
Əlində uca bayraq,
Oxuyurdu, o şaqraq.
Dəstə şən, təmtəraqla,
Gedir çovuş bayraqla.
Tülkü düşmüş irəli,
Arabir dönüb geri
Gizli-gizli baxırdı,
Ağzından su axırdı.
Sanki ölçüb-biçirdi,
Köklərini seçirdi,
Kəsilmişdi taqəti,
Gözləyirdi fürsəti.
Getdilər bir az daha,
Çatdılar bir səhraya.
Tülkü dayandı, durdu,
Başladı hiylə qurdu.
Dedi:— Ay canım xoruz,
Gözəl məstanım xoruz!
Namaz vaxtıdır, dayan,
Çıx ağaca ver azan.
Alıb tez dəstəmazı,
Qılaq burda namazı.
Xoruz çıxdı, ucadan
Verdi gözəl bir azan
Tülkü dedi: — Tez durun,
Namaz üçün səf qurun!
Olsun xoruz pişnamaz,
Daha başlansın namaz!
Bağırdılar: — Yox, olmaz,
Bizim cinsə yaraşmaz.
Əslində pişnamazlıq,
Sənin şəninə layiq.
Tülkü dartdı özünü,
Turşutdu üz-gözünü,
Dedi: — Məndən çəkin əl!
Olmuşam çox bədəməl.

Öldürmək olmuş işim,
Qanlar tökmüş bu dişim,
Mənim kimi yaramaz
Olarmı heç pişnamaz?
Arıq xoruzun biri
Gəlib keçdi irəli.
Tülkü baba yanladı,
Səfləri sahmanladı.
Kökləri sondan düzüb,
Gözlərini bir süzüb,
Hiyləni saz eylədi,
Durdu belə söylədi:
— Mən keçmişəm lap sona
Ürəyim dönmüş qana.
Yalvarıram, yaradan
Keçsin günahlarımdan.
Peşimanam işimdən,
Bezaram keçmişimdən.
Artıq tövbə etmişəm,
Ağlamaq olmuş peşəm.
Siz namazı başlayın,
Məni bir ölü sayın.
Deyib oturdu yerə,
Ağladı birdən-birə,
Səflər coşub daşdılar,
Namaza qalxışdılar.
Dörd səf düzülmüş idi,
Gözlər süzülmüş idi.
Pişnamaz dedi: — Quqqu!
Azançı: — Quqquriqu!
Oxundu qısa dua,
Əyildilər torpağa.
Tülkü qaldırdı başın,
Atdı mömünlik daşın.
Baxdı Ora-buraya,
Göz gəzdirdi sıraya
Od parladı gözündən,
Artıq çıxdı özündən.
Səhmanladı işini,

İtilədi dişini,
Atdı təsbeh, əbanı,
Sarığı, həm əsanı,
Baxdı o yan-bu yana,
Düz atıldı meydana.
Yırğalandı quyruğu,
Boğdu on beş toyuğu...
Durub o yerdə qalan,
Qurtardı tülküdən can.
Uçdu hərə bir yana,
Düzə, çölə, ormana.
Çölü basdı qışqırıq,
Qopdu böyük fısqırıq.
Tülkü işin bitirdi,
Ovlarını gətirdi,
Çıxdı bir göy yamaca,
On gün yedi doyunca.

## YAXŞI ARXA

Günlərin bir günündə,
Qalın meşə içində
Bir ac tülkü olurdu,
Acından qovrulurdu.
Qalmayırdı dağ, dərə,
Baş çəkirdi hər yerə.
Bir yerdə ov bilsəydi,
Ya uzaqdan görsəydi,
Quyruğunu diklərdi,
Güllə kimi gedərdi.
Görsə ağacda bir quş,
Başından oynardı huş.
İstəyərdi yavaşca
Dırmaşsın o ağaca.
Ancaq dişi batmazdı,
Əli quşa çatmazdı.
Altdan yuxarı yan-yan
Baxırdı heyran-heyran,
Qımıldasaydı yarpaq,

Başın kola soxaraq,
Yavaşca şöngüyərdi,
O səsi dinləyərdi.
Hərdən bir şey umardı,
Gözlərini yumardı
Görərdi: kök cücələr,
Fərə, xoruzbeçələr
Qarşısında dənlənir,
Cikkildəşir, səslənir.
Açarkən tez gözünü,
Görərdi tək özünü.
Durub mırıldanardı,
Alışardı-yanardı.
Gəzərdi boş-boşuna,
Çıxardı dağ başına.
Dolaşardı o dağı,
Seyr edərdi uzağı.
Dəyməzdi ov gözünə,
Çıxırdı çöl düzünə.
Həm ac, həm yorğun-arğın,
Nəşəsiz, həm də darğın
Axşamadək gəzərdi,
Yorulardı, bezərdi.
Hər kol-kosa çatardı,
Qıvrılardı, yatardı.
Bir gün o çox düşündü,
Qoca qəlbi döyündü.
Dərin bir fikrə getdi,
Bir baxınız nə etdi?
Ağlına gəldi birdən
Dedi ki: «Axmağam mən,
Hazır bu qonşuluqda,
Çinarda, bu yavuqda,
Bala çıxarmış leylək.
Bir hiylə qurmaq gərək.
Alıb bir-bir balasın
Yeyim, qoy tutsun yasın».
Getdi, tapdı bir mişar,
Dedi: «Axtaran tapar...»

Əlin qoydu belinə,
Gəldi çinar dibinə
Dedi: — A leylək baba,
Köç bu ağacdan daha!
Bu çöl, yamac, bu orman
Mənə qalmış atamdan.
Bu gün üç gündür acam,
Bir loğmaya möhtacam.
Gəldim, kəsim çinarı,
Aparım, satım barı...
Əl apardı mişara,
Çəkdi odu çinara.
Ağac başında leylək
Bu sözləri eşitcək
Başladı yalvarmağa.
Dedi:—A tülkü ağa,
Rəhm elə gəl, ay aman!
Kəsmə çinarı, dayan!
Gəl yuvamı dağıtma,
Göz yaşımı axıtma.
Balalarım lüməkdir.
Qanadlarıködəkdir.
Ağac başından yerə
Düşsələr birdən-birə
Tələf olarlar, gözüm.
Mən buna necə dözüm?
Tülkü dedi: — Yox, olmaz,
Bir dəqiqə yaramaz.
Əl apardı mişara,
Çəkdi onu çinara...
Leylək birdən bağırdı,
Gözündən yaş yağdırdı.
Dedi: — Aman, tələsmə,
Dayan, çinarı kəsmə!
Üç balamdan birisin,
Ən böyüyün, irisin
Verrəm sənə, götür əl
Tülkü baba, rəhmə gəl.
Tülkü ağa şöngədi,

Qulağını dikələdi,
Dedi:—Daha neyləyək,
At aşağı a leylək!
Leylək dayandı bir az,
(Ana balaya qıymaz),
Qıymadı balasına,
Ağladı yana-yana.
Varmadı onun əli,
Baxdı ona kədərli.
Gördü tülkü gözləyir,
Onu yerdən səsləyir.
Leylək dedi: — Ay aman!
İşim oldu nə yaman!
O yazıq dərdli ana,
Ürəyi yana-yana
Dimdiyini uzatdı,
Bir balasını atdı.
Tülkü qapdı havada,
Parçaladı orada,
Çəkdi balta dişinə,
Yedi getdi işinə.
Keçdi bir üç gün daha,
Qudurdu tülkü ağa.
Birbaşa, durdu, yenə
Gəldi çinar dibinə.
Dedi: — A leylək baba,
Köç bu ağacdan daha!
Yenə üç gündür acam,
Bir loğmaya möhtacam.
Həyatım olmuş acı,
Kəsməliyəm ağacı.
Əl apardı mişara,
Çəkdi onu çinara.
Leylək bağırdı: — Aman!
Kəsmə ağacı dayan!
Gözümün ağ-qarası,
Ürəyimin parası,
İki balam qaldı, bax,
Olsun başıma torpaq...

Daşmı mənim ürəyim,
Anayam, var diləyim.
Qıymaram onlara mən
Bəsdir, insaf elə sən,
Qoy bir böyüsün onlar,
Bir qol-qanad açsınlar,
O zaman al mişarı,
Kəs dibindən çinarı.
Tülkü dedi: — Yox, olmaz!
Bir dəqiqə yaramaz!
Kəsmək üçün çinarı
Götürdü tez mişarı.
Leylək dedi: — Tələsmə,
Dayan, çinarı kəsmə!
Od tutdu yana-yana,
Ürəyi döndü qana;
Bir balasını yenə
Alaraq dimdiyinə,
Öpdü iki gözündən,
Dimdiyindən, üzündən,
Atdı tülküyə sarı,
Dedi: —Al, rədd ol barı!
Tülkü qapdı havada,
Parçaladı orada.
Çəkdi balta dişinə,
Yedi, getdi işinə.
Qonşu ağacda qarğa
Qonmuşdu bir budağa,
Bu hiyləni o qandı,
Leyləyə qəlbi yandı,
Dedi: — A leylək sənin,
Qara daşdır ürəyin.
Bax gör, bir neyləyirsən?
Öz balanı verirsən
Acgöz, murdar tülküyə,
Dəb salırsan ölkəyə.
Bu sözləri eşitcək,
Hönkürtü vurdu leylək,
Dedi: — Neyləyim, qardaş?
Düşsün başıma bir daş!

De görüm, hansı ana
Qıyar öz balasına?
İşim düşmüşdü dara,
Tapmadım başqa çara.
Əlindəki mişarı
Görmədinmi?
Çinarı
O insafsız kəsirdi,
Canım zağ-zağ əsirdi...
Qarğa dedi: — Ay axmaq,
Sadədilliyi burax!
Pis olar yoxsa halın,
Yox şüurun, kamalın.
Uzunboy, uzunboğaz,
Xeyrə, şərə yaramaz.
Ayaqların bir arşın,
Ondan uzundur başın.
Ağlın ancaq gödəkdir,
Adın hacıleyləkdir.
Yox o boyun faydası,
Hər işin var qaydası
Hiylə gəlir o sənə,
İnanırsan düşmənə.
Olsa min bir mişarı,
Kəsə bilməz çinarı.
Sənə gəlir o, kələk,
Burax, qoy kəssin görək...
Leylək dedi: —Ay oğul,
Bunu bilmirdim, sağ ol!
Saldın məni sən başa,
Sağ ol, qarğa çox yaşa!..

* * *

Keçdi bir üç gün, yenə
Haman çinar dibinə
Tülkü buyurdu gəldi,
Lovğa-lovğa çöməldi,
Dedi: — A leylək baba,
Köç bu ağacdan daha!
Leylək cavab vermədi,

Ona baş endirmədi.
Kəsmək üçün çinarı
Tülkü aldı mişarı.
— Köç bu ağacdan, — dedi. —
Məni bu aclıq yedi
Gərək kəsilsin çinar,
Buna bir sözünmü var?
Tülkü dartdı özünü,
Bitirməmiş sözünü,
Leylək boynun uzatdı,
Tüklərini qabartdı,
Dedi: — Rədd ol, hiyləgər!
Lovğalanma bu qədər.
Bəsdir, bu hiyləyə sən
Sinəmə dağ çəkmisən...
Anlamışam işini.
Nə qıcıyıb dişini
Kəc baxırsan üzümə?
Get, görünmə gözümə!
Tülkünü heyrət aldı,
Yerində donub qaldı
Dərdə, qəmə büründü,
Dərin-dərin düşündü.
Sonra dedi: — A yassar,
Səni bir öyrədən var.
Turşutdu o, üzünü,
Dolandırdı gözünü,
Ürəyi yana-yana,
Baxdı o yan-bu yana.
Birdən gördü qarğanı,
Qaynadı, coşdu qanı.
Dedi: «Aha, bu qarğa,
Olmuş leyləyə darğa,
Yoxsa bir şey qanmazdı,
Hiyləni anlamazdı».
Sonra yenə şöngədi,
Qulağını diklədi,
Dedi: —A yassar qarğa,
Paxıl, gözüdar qarğa,

Bu nə cüratdir etdin,
Bu leyləyi öyrətdin?
Nə qalmış idi sənə?
Yamanlıq etdin mənə.
Olsun iki gözün kor,
İndi bircə dayan dur,
Bir gün üzüb başını,
Bişirərəm aşını.
Qalxdı suyu süzülmüş,
Ağzı, gözü büzülmüş,
Meşə ilə gedirdi,
Mırıldanıb deyirdi:
«Ay paxıl, şeytan qarğa,
Səbr et, bir dayan, qarğa,
Sənə qurum bir kələk,
Aləmə olsun örnək».

* * *

Günəş üfüqdə söndü,
Yavaş-yavaş büründü
Çən, dumana çöl, çayır,
Yamac-dərə, dağ, bayır.
Yuxu zamanı gəldi,
Qurdlar, quşlar çəkildi.
Bulud altından yalnız
Göz qırpırdı ay, ulduz,
Yox səs-səmir bir yerdə,
Ancaq boş dərələrdə
Sular çağlar, gülümsər,
Sıra dağlar səs verər...
Bir hiylə qursun, deyə
Tülkü girdi meşəyə.
Uzandı ac və yorğun,
Əhvalı xeyli pozğun.
Qarnı quruldayırdı,
Durub mırıldayırdı.
Yuxu girməz gözünə,
Deyinir öz-özünə:

«Fələк, bu qanlı səhər,
Açılmayacaq məgər?»
Gözləyirdi bir fürsət,
Hər daqiqə, bir saət
Bir il кeçirdi ona,
Qalmışdı yana-yana.
Uzun gecəni oyaq
Başa vurdu, bir sayaq
Dan yeri ağarcağın
Tülкü ağa ac, yorğun
Silкələdi özünü,
Açdı iкi gözünü.
Bir əsnədi, gərnəşdi,
Ürəyini qəm deşdi.
Durdu, çıxdı o, кoldan,
Qalmamışdı onda can.
Dərs verməyçin qarğaya
Gəldi birbaş tarlaya.
Bir az baxdı, dayandı,
Birdən yerə uzandı.
Ölülüyə özünü
Qoyub, yumdu gözünü...
Göyün üzündə yalnız
Var idi bircə ulduz...

* * *

Doğdu günəş, yayıldı,
Dağlar, daşlar ayıldı,
Sular, dağlar, bayırlar,
Səhralar, həm çayırlar,
Hər yan rəngə boyandı,
Şux təbiət oyandı.
Açır əlvan çiçəкlər,
Uçuşur кəpənəкlər.
Quşlar atılır, düşür,
Cəh-cəh vurur, ötüşür.
Səfa içində hər yan...
Yalnız tülкü, bağrı qan,
Qarğacığı tutmağa

Çalışır tülkü ağa..
Uca palıd başında,
Qarıldayırkən qarğa,
Gördü uzanıb tülkü,
Əsla tərpənmir tükü.
Üzü, gözü büzüşmüş,
Yerə ölü tək düşmüş...
«Bax, bu hiylədir!»—deyə
Qarğa. güldü tülküyə,
Dedi: — Ay uzunqulaq,
Məni sanırsan axmaq?
Şeytan kimi yatırsan,
Mənə yalan satırsan?
Elə bildin duymaram,
Yox, hiylənə uymaram.
Tülkü çıxarmadı səs,
Almayırdı heç nəfəs.
Qarğa baxdı bir müddət,
Qəlbində yandı həsrət.
Dedi ki: «Bu hiyləgər
Ölmüş olsaydı əgər,
Səhər, günorta, axşam
Mən də edərdim bayram..
Deşib beynin yeyərdim,
Dimdiyimi silərdim.
Atılardım ağaca,
Səs salardım yamaca».
Səbr et, dayan, a qarğa,
Danışma lovğa-lovğa.
«Yerdə yatan yumurta
Göydə uçan quş olur».
Qarğa baxdı bir zaman,
Gördü yox tülküdə can.
Dedi: «Canı çıxıbdır,
Aclıq onu yıxıbdır.
Aldanmaq olmaz, ancaq
Gərəkdir ayıq olmaq».
Uçdu gəldi o birbaş,
Götürdü bir kiçik daş,

Qoydu onun buduna.
Diqqətlə baxdı ona
Dedi: «Yoxsa bu ac bəy
Mənə gəlir bir kələk?
Səhər yenə gələrəm,
İşi yəqin bilərəm:
Ölməmiş olsa əgər,
Bu daş üstündən düşər.
Onda, billəm diridir,
Hiyləgərin biridir...»
Gördü ki yoxdur qarğa.
Uçdu, getdi uzağa.
Tülkü duydu bu işi,
Gördü, batmadı dişi.
Söylədi: «Ay hiyləgər,
Qoy bir açılsın səhər.
Bu günü də vur başa,
Bir gün də artıq yaşa.
Sabah yəqin tutaram,
Bir nəfəsə udaram».
Tülkü doymuşdu cana,
Göz gəzdirdi hər yana.
Baxdı o hər budağa,
Gördü ki yoxdur qarğa.
Qalxdı, üstünü sildi,
Meşəliyə çəkildi.
Susuz, ac, arğın, yorğun,
Əhvalı xeyli pozğun
Gözü ovda və quşda,
Dərələrdə, yoxuşda.
Nə kəklik var, nə turac,
Bomboşdur dərə, yamac.
Hər şey çıxmışdı yoxa...
Göz yaşı axa-axa,
Çox axtardı, dolaşdı,
Qan-tər başından aşdı
Qurtardı lap qüvvəti,
Qalmadı heç taqəti.
Leyləyi etdi tez yad,

Qarğadan çəkdi min dad.
Oxu toxundu daşa,
O günü vurdu başa...
Axşam sular qaraldı,
Ətrafı zülmət aldı.
Daşdı, dərdi çox oldu,
Bir kolluğa soxuldu.
Atdı yerə başını,
Tökdü o, göz yaşını.
Boşa çıxmışdı oxu,
Girməz gözünə yuxu.
Bir il keçdi o gecə...
Qızıl şəfəq sökünçə,
Silkələdi özünü,
Açdı iki gözünü.
Tülkü qalxdı yerindən,
Bir ah çəkdi dərindən,
Aşdı kiçik bir dərə,
Gəldi dünənki yerə.
Həmin daşı üstünə
Qoydu, uzandı yenə...

* * *

Doğmuşdu dan ulduzu,
Açılırdı göy üzü
Ağac başında qarğa
Qarıldayırkən «qa-qa»,
Gördü tülkünü birdən
Uçub gəldi yerindən.
Daşı yerində görcək
Dedi: — «Aha, ay tülək,
Bulandırıb saf suyu,
Qazıdın dərin quyu.
Özün düşdün quyuya,
Dərin bulanıq suya.
Aclıq səni sıxmışdır,
Artıq canın çıxmışdır.
Qəbul olmuşdur duam,
Bu gün edərəm bayram».

Diqqətlə baxdı ona,
Uçdu qondu yanına.
Dimdiklədi bir-iki,
Səs çıxartmadı tülkü.
Qondu onun başına,
Gözlərinə, qaşına
Dimdik vurarkən, birdən
Tülkü sıçradı yerdən,
Elə tutdu qarğanı,
Az qaldı çıxsın canı.
Dedi: — A fitnə, şeytan,
Qurtarmazsan daha can.
Sən leyləyi öyrətdin,
Məni ruzumdan etdin.
Bilmədin, ay yaramaz,
Mənə dolaşmaq olmaz?
Alıb səndən intiqam,
Bu gün elərəm bayram.
Qarğa dedi: — Ay gözüm,
Yox deyəcək bir sözüm,
Ye, ancaq, ey bəxtiyar,
Bircə vəsiyyətim var.
Əvvəl onu deyərsən,
Sonra məni yeyərsən.
Yaxınlaşıbdır əcəl,
Vəsiyyətə et əməl!
Tülkü dedi: — Dayanma,
Tez ol, söylə yubanma!
Qarğa dedi: — Tülkü bəy,
Əcəl çatdı, nə etmək!
Halal olsun ətim, ye!
Ancaq bu sözləri de:
«— Gorsuz, kəfənsiz qarğa,
Yurdsuz, vətənsiz qarğa,
Həsrətlə keçdi ömrün,
Yazıq sənə, qa-qa-qa!»
Tülkü durdu deməyə,
Hazırlandı yeməyə.
Quyruğunu tutdu şək.

Deyirdi çox sevincək:
«Gorsuz, kəfənsiz qarğa,
Yurdsuz, vətənsiz qarğa,
Həsrətlə keçdi ömrün,
Yazıq sənə, qa-qa-qa!»
Deyəndə tülkü bəy «qa»,
Ağzından çıxdı qarğa.
Getdikcə qanad aldı,
Bir ox kimi ucaldı.
Uçdu göylərə qarğa,
Sonra bir dik budağa
Qonub, güldü tülküyə,
—Hünərin var, tut! — deyə
Tülkü alışdı, yandı,
Öz işindən utandı.

*1910*

## OVÇU MƏSTAN

Deyirlər bir Məstan varmış,
Aslan da ondan qorxarmış.
Bir toppuzmuş hər pəncəsi,
Poladdanmış qoç gövdəsi.
Gözləri odlu şimşəkdi,
Qəlbi qara daşdan bərkdi,
Dişləri neştərdən iti,
Baltadan, xəncərdən iti.
Bilirdi ki, var qüvvəti,
İstədi artsın şöhrəti,
Pişiklərə ovçu Məstan
Özünü elan etdi xan.
Məstan xan acmışdı yenə,
Düşdü bir gün ov fikrinə.
Bığlarını bura-bura,
Toz-torpağı yara-yara
Düşdü çaxır anbarına;
Diqqətlə baxdı hər yana.
Bir küp yanında tələsik
Tez gizlənib çəkdi keşik.
Çox çəkmədi, yuvasından

Atıldı bir zorba siçan.
Doyunca içdi çaxırı,
Açıldı birdən paxırı,
Dedi:—Kimdir ovçu Məstan?
Mənim qorxum yoxdur ondan,
İndi düşsəydi əlimə,
Keçirərdim çəngəlimə.
Əzib suyun çıxardardım,
Cəmdəyini parçalardım.
Düşmən görərdi gücümü,
Ondan alardım öcümü!..
Məstan pəncəsini atdı,
Dişlərini qıcırdatdı,
Dərhal tutdu o siçanı,
Az qaldı кi, çıxsın canı,
Siçan durdu yalvarmağa;
— Rəhm et mənə, Məstan ağa,
Bir az şərab içdim düzü,
Ağla sığmaz sərxoş sözü.
Hər nə dedim, tamam yalan,
Bağışla, кeç günahımdan,
Myoldayıb dedi Məstan:
—Kim əl çəкər belə ovdan?
Sonra caynağında tutdu,

Dişiylə çeynəyib uddu.
Myo-myo edə-edə
Ox təк atıldı həyətə.
Onu görüncə boz кöpəк,
Gözlərində çaxdı şimşəк.
Hürə-hürə saldı şivən,
Atıldı üstünə birdən.
Əldən verməyib fürsəti
Məstan cırmaqladı iti.
Sonra da cəld qaça-qaça
Tez dırmaşdı bir ağaca,
İt şöngədi quru yerdə,
Acığından düşdü dərdə.
Gözünü diкdi Məstana,
Bərкdən hürdü yana-yana.

Üst budaqda Məstan isə
Güldü bu yanıqlı səsə.
Birdən gördü ovçu Məstan,
Göydə qanad çalır tərlan;
Hazırlaşır cumsun ona,
Keçirsin öz caynağına.
Qorxu çökdü ürəyinə,
Elə bil ki, bir top iynə
Birdən gözlərinə batdı.
Cəld özünü yerə atdı.
Elə ki, o qalxdı yerdən,
İt üstünü aldı birdən.
Dişlərini qıcırdatdı,
Məstana bir pəncə atdı.
Düşmədi Məstan xan dara.
Ox tək atıldı anbara.
Düşdü yenə ov izinə.
Ancaq şimşəkli gözünə
Daha dəymədi bir siçan.
Acıqlandı ovçu Məstan.
Dedi:—Nə qədər ki, sağam
Siçanları qıracağam...—
Söylərkən bu sözü Məstan,
Yuvada bir qoca siçan
(Qocalmışdı, bir az kardı,
Pişikdən də çox qorxardı.)
Tərsinə anladı sözü,
Şadlıqdan parladı gözü.
Toz-torpağı yara-yara.
Xəbər verdi siçanlara:
— Müjdə gətirmişəm, Məstan
Tökməyəcək bir daha qan.
Dedi: «Nə qədər ki, sağam,
Siçanları qırmayacam».
Öz işindən peşimandır,
İndi dostumuz Məstandır...
Siçanlar çox sevindilər,
Gözlərindən uçdu kədər.
Quruldu şadlıq məclisi,

Gurladı musiqi səsi.
Səsləndi dəf, кamança, tar,
Əl qaldırıb oynadılar,
Dəf götürüb oxuyan кim,
Tar çalan кim, oynayan кim,
Bağırdı bir siçan:—Gərəк
Bu dostluğu möhкəmlədəк!
Ürəкdən dost olduq deyə,
Xonça tutaq Məstan bəyə.
Hamı razı oldu buna,
Xonça düzüldü yan-yana..
Bişirdilər plov, dolma,
Bozbaş, xangəl və qovurma.
Alma, armud, şaftəli, nar,
Çini qablara qoydular..
Qalxdı yerdən yeddi siçan,—
Yeddi igid zor pəhləvan,
Hər birisi bir xonçanı
Qaldırıb qoydu başına.
Bu ləzzətli xonçalarla
Yeddi siçan düşdü yola.
Az getdilər, düz getdilər
Dərə-təpə, düz getdilər.
Yetişdilər:—Salam!—deyə,
Baş əydilər Məstan bəyə.
Məstan bəyi heyrət aldı,
Bu işlərə o, mat qaldı.
Dedi;—Neçə gündür acdım,
Bir parça, ətə möhtacdım.
Ovum ayağıyla gəlmiş,
Hardandır bu xeyirli iş?!
Məstan atdı pəncəsini,
İri, zorba gövdəsini,
Beş siçanı tutdu birdən,
Ötürdü tez, oldu çox şən.
Qaçdı ancaq iкi siçan
Gözü yaşlı, ürəyi qan...
Əhvalatı o elçilər,
Siçanlara verdi xəbər,

Hamı batdı qəmli yasa,
Qan uddular kasa-kasa.
Ağlaşdılar üç gün tamam,
Yas tutdular səhər, axşam.
Ürəkləri yana-yana
Gəldilər xan sarayına.
Öz taxtında Kəsəyən xan,
Ətrafında bütün əyan,
Əyləşib söhbət edərkən
Bir dəstə siçan, kəsəyən
Gəlib ona baş endirdi,
Ağlaya-ağlaya dedi:
— Sənə qurban, Kəsəyən xan,
Bizi qırır ovçu Məstan.
Bu xəbəri eşitcək xan,
Kəlləsinə sıçradı qan;
Əmr elədi:—Hər ölkədən
Gəlsin siçan və kəsəyən.
Tülkü və qurd padşahından
Aldı qılınc, süngü, qalxan,
Toplandı bir böyük ordu,
Xan çölündə alay vurdu.
Əmr verdi tez yürüşə,
Məstan xan ilə döyüşə.
Məstan xana çatdı xəbər,
Tez topladı üç yüz əsgər.
Hər əsgərə yaraq verdi,
İti yeldən ayaq verdi.
Göyə qalxdı tozlu torpaq,
Dumanlandı yaxın-uzaq.
Kəsəyən xan durbin taxdı,
O, tozlu yollara baxdı.
Gördü hücum edir Məstan,
Nərə çəkir acığından.
Bildi işdən tutmuş xəbər,
Toplamışdı çoxlu əsgər.
Gəlir onunla döyüşə,
Kəsəyən düşdü təşvişə.
Xəndək qazdırdı hər yerdə,

Üstünə çəkdirdi pərdə,
Qoşun ilə tutdu yolu
Möhkəmlətdi sağı, solu.
Gəmini çəkdi körfəzə,
Özü çəkildi mərkəzə.
Təyyarələr göy üzündə
Uçur, geniş çöl düzündə
Piyada girdi səngərə,
Əmr etdi atlı əsgərə—
Düzülsünlər iki yandan.
Yanında bir çox pəhləvan,
Ortalıqda özü durdu,
İgidlərlə meydan qurdu.
Ordusuyla çatdı Məstan.
Təbil çalındı hər yandan.
Əmr verildi əsgərə,
Atəş açsın birdən-birə
Guruldadı ağır toplar,
Səs-küy saldı pulemyotlar,
Hər yandan yaylım atəşi,
Tüstü qaraltdı günəşi.
Gəmilər ağzını açır,
Dənizdən od-alov saçır.
Ordular gəldi üz-üzə,
Tökülən qan çıxdı dizə.
Tutulurdu səsdən qulaq,
İnləyirdi yaxın-uzaq.
Uzun sürdü qanlı savaş,
Dilə gəldi dağ, dərə, daş,
Günəş batdı, axşam oldu,
Vuruşanlar lap yoruldu.
Tələfatı bilmək üçün,
Bir az da dincəlmək üçün
Hər iki düşmən əsgəri
Xeyli çəkildilər geri,
Pişiklər:—Biz acıq! — deyə
Dağıldılar çöl, meşəyə.
Quşlara tutdular divan,
Qoymadılar onlarda can.

Quşlar düşərək təşvişə
Qan ağlayırdı bu işə.
Ac siçanlar, kasəyənlər
Tarlalara vurdu zərər.
Sünbülləri dişləriylə
Qırıb tökdü şələ-şələ.
Kor qoydular tarlaları,
Çəltik, arpa, buğda, darı
Səpələnirdi torpağa.
Ziyançılar tıxa-tıxa
Qoymadı bir dənli sünbül.
Qana döndü görən könül.
Onlar doyub çəkildilər,
Yatmaq üçün əkildilər.
Dan ağardı, güldü səhər.
Güldü çaylar, çöl, çəmənlər.
Hər bir yorğun-arğın yatan
Baş qaldırdı tez yuxudan.
At oynatdı açdı meydan.
Aldı süngü, qılınc, qalxan.
Bomba, qurşun yerdən-göydən
Dolu kimi yağdı birdən.
Çəmdək söykəndi cəmdəyə.
Fəryad, şivən qalxdı göyə.
Başladı! bir qanlı savaş,—
Daş üstündə qalmadı daş.
Yerdən, göydən vəzni ağır
Güllə, qurşun, bomba yağır.
Sönmüşdü hər yerdə həyat.
Açılmışdı qanlı büsat.
Məstan xan göstərdi hünər.
Əldən düşüb kəsəyənlər
Əsdi yarpaq tək qorxudan.
Bunu duyub ovçu Məstan,
Atı sürdü tez irəli,
Ürəkləndirdi əsgəri.
Bir nərə çəkdi meydanda,
Can qalmadı siçan xanda.
Düşmən geri çəkilərkən,
Əlli ovçu, Məstan birdən

Düşdü dərin bir xəndəyə.
Kəsəyən xan:—Zəfər!—deyə
Çaldırdı şənlik borusu.
Ürəkləndi xan ordusu.
Tutdu dərhal sağı, solu,
Bağlandı düşmənin yolu.
Siçanların üzü güldü,
Muncuq kimi gözü güldü.
Məstan xan tez çəkdi nərə,
Hay vurdu dərhal əsgərə:
— Yerinizdə möhkəm durun!
Hər yandan düşməni vurun!
Qalmasın onlardan əsər.
Gərək bizim olsun zəfər.
Yenidən başlandı savaş,
Bədənlərdə qalmadı baş.
Cəmdək söykəndi cəmdəyə,
Fəryad, şivən qalxdı göyə.
Uzun sürdü həmin savaş,
Dilə gəldi dağ, dərə, daş.
Göy çəmənlər batdı qana.
Ölüm çökdü hər bir yana.
Meşə, tarla alovlanır,
Ətrafı yandırır, yanır.
Yanğın keçir bağ-bostana,
Ordan yayılır hər yana.
Ancaq şəndi boz qarğalar,
Göy üzündə hey qırıldar,—
«Yeməyə leş vardır» deyə,
Qonurlar qanlı cəmdəyə.
Bu qan aşiqləri ancaq
Qırıldaşır, atılaraq
Qonurdular leşdən-leşə,
Şad idilər qanlı işə.
Kəsəyən xan ağayana
Əmr etdi ovçu Məstana
Qılınc, süngü, daş vurdular,
Əldən salıb lap yordular.
Qollarını kəndir ilə

Bağlayıb atdılar çölə.
Güldü ona bir kəsəyən:
— Qurtulmazsan əlimizdən.
Çırpınma, dartınma əbəs,
Yerindir bu möhkəm qəfəs!
Öz ipəkli çadırından
Çıxdı səhər Kəsəyən xan,
Fərman verdi başçılara:
— Düşmənimiz düşmüş tora.
Qurban verdik bax nə qədər.
Üstün gəldi bizim əsgər.
Bir qonaqlıq verin çöldə,
Dərd qalmasın bu könüldə.
Bəzəndi çöl, çəmən, dərə.
Açıldı bir geniş süfrə.
Bu süfrədə nələr yoxdur!—
Kəsəyən xandan buyruqdur.
Elə ki, məclis quruldu,
Süfrə yeməklərlə doldu,
Səs ucaldı:—Çəkil, çəkil!..
Çalındı tez şeypur, təbil.
Başında bir çox pəhləvan
Başa keçdi Kəsəyən xan,
Siçanların üzü güldü,
Qara muncuq gözü güldü.
Ləzzətlə başlandı yemək.
Xan bağırdı:—Düşmən gərək
Asılsın dar ağacından!
Səsinə səs verdi hər yan,
Çıxsın deyə bu gün canı,
Gətirməyə o Məstanı
Yüyürdü bir dəstə siçan,
Əllərində qılınc, qalxan.
Məstan əli, qolu bağlı,
Gözü dərdli, qəlbi dağlı
Gəldi süfrə ayağına.
Ürəyinin çırağına
Od düşmüşdü, hey yanırdı,
Zor-güc ilə dayanırdı.

Xan içmişdi, sərxoş idi,
Bir az da başı boş idi.
Baxdı ona gülə-gülə,
Sonra lovğa bir tövr ilə
— Qollarını açın!—dedi,—
Siz yanından qaçın!—dedi.
Açıldı Məstanın qolu,
Tutuldu hər yandan yolu.
Xan əlində qılınc, qalxan
Məstana çatdığı zaman,
Qılıncı vurmaq istərkən
Ovçu Məstan qalxdı yerdən.
Ov görmüş bir aslan kimi,
Gözü qızmış qaplan kimi,
Myoldayıb çəkdi nərə,
Atıldı o, birdən-birə.
Bir pəncədə boğdu xanı,
Kəsəyənin çıxdı canı.
Siçanlarda qalmadı can,
Qırdı, çatdı ovçu Məstan,
İtilədi tez dişini,
Boğdu birdən on beşini.
Qarşısına kim çıxırdı,
Pəncəsiylə tez yıxırdı.
İçlərinə düşdü qorxu,
Daş altına girdi çoxu.
Zor-güc ilə yerdə qalan
Pəncəsindən qurtardı can.
Bəzi girdi dar deşiyə,
Meydan qaldı qoç pişiyə.
Gülə-gülə baxdı dara,
Bığlarını bura-bura,
Keçdi tez yuxarı başa,
Yanaşdı dolmaya, aşa.
Yedi, içdi, sürdü dövran,
Nə qoçaqmış ovçu Məstan.

*1939*

## ZƏHMƏT VƏ ZİNƏT

Kənd içində Alış dayı
Adlı-sanlı əkinçiydi.
Əməyinə düşən payı
Ürəyinin sevinciydi.

İki çarıqcığı vardı,
Biri Zəhmət, biri Zinət,
Zinəti çox dost tutardı,
Bəsləyərdi ona hörmət.

Vurğun idi bu çarığa,
Səhər-axşam yağlayardı.
Qoyub dəmir bir sandığa,
Açar ilə bağlayardı.

İş zamanı Zəhmət yalnız
Ona sadiq yoldaş idi.
Hər bir çətin, hər amansız
Qara gündə qardaş idi.

Yer şumlayır, biçir, əkir
Toz-torpağa bürünərək.
Hər bir yükü Zəhmət çəkir
Ayaqlarda sürünərək.

Göy çırağı axşam sönür,
Yavaş-yavaş çökür zülmət.
Alış dayı evə dönür,
Ayağında tozlu Zəhmət.

Dəhlizə çatdığı zaman
Onu atır bir bucağa.
Zəhmət sızlar bu yaradan,
Tapdaq olur hər uşağa.

Qapıdan hər girən, çıxan,
Ayaqlayıb keçər onu.
İt-pişik də verməz aman,
Dırnağilə didər onu.
Alış bir gün döndü evə,
Açdı dəmir sandığını,
Dil tökərək sevə-sevə,
Yağladı öz çarığını.

Bu hörməti gördü Zinət,
Böyük qürur gəldi ona.
Toz-torpaqda yatan Zəhmət.
Baxdı ona yana-yana.

Dedi:—Zinət, biz yoldaşıq,
Bu sevimli gözəl qardaş,
Mən varlığam, sən yaraşıq,
Varlıq olur hər yerdə baş.

Bu haqqını yoxdur danan,
Bizə sənsən zinət, bəzək.
Mənəm sizi canlandıran
Qardaşa da hörmət gərək!

Nədən doğur bu başqalıq?
Sən başda, mən ayaqlarda?
Bu haqsızlıq, bu lovğalıq
Dastan olmuş dodaqlarda.

Zinət dedi:—Əziz qardaş,
Neyləmək, belədir insan!
Bu gün mənəm hər yerdə baş,
Sən də kölgəmdə gəz, dolan.

Bax, özün də etdin iqrar,
Mənsiz həyat nəyə gərək!
Düzdü, az-çox xidmətin var.
Sən göz olsan, mənəm bəbək.

Bu faydasız deyişmələr
Uzandıqca hey uzandı.
Ayranına kim turş deyər?
Biri yandı biri qandı.

İl dolandı, zaman keçdi,
Dəyişmədi onun halı.
Hey çalışdı, əkdi biçdi,
Gördü yoxdur istiqbalı.

Hey çalışır səhər-axşam,
Ancaq verilməyir qiymət.
Zinətə hər gündür bayram,
Buna qara gündür qismət.

Dedi:—Xeyrə qiymət verən
Tapılmayır bu torpaqda.
Əzizlənir zinət verən,
Mən çeynəndim hər ayaqda.

Alış dayı, Alış dayı,
Yaxşılığın bumu payı?

Zəhmət ordan uzaqlaşdı,
Az getdi o, üz getdi o,
Çaylar keçdi, dağlar aşdı,
Dərə-təpə düz getdi o.

Hər yerə ki basdı ayaq,
Yaşıllandı, çox şən oldu,
Hər bataqlıq, hər şor torpaq
Könül açan gülşən oldu.

Şənlik endi çəmənlərə,
Yaşıl geydi hər dağ-dərə.

Alış dayı o gün səhər,
Oyanmışdı qaranlıqdan.
Əkin-biçin onu gözlər,
Əsər yoxdur çarığından.

Hər tərəfə tez baş vurdu,
Alt-üst etdi o həyəti,
Ev xalqından bir-bir sordu,
Görən yox idi Zəhməti.

Bir-birinə vurdu kəndi,
Xəbər aldı hər yetəndən.
—Zəhmət!—deyə, çox rəsləndi,
Tapılmadı görən, bilən.

Yorğun-arğın döndü evə,
Unutdu artıq Zəhməti.
Oxşayaraq sevə-sevə
Yağladı nazlı Zinəti.

Könül quşu oldu Zinət,
Səhər-axşam kefə daldı.
Yedi, içdi bir az müddət
Təknələrə tapik çaldı.

İşsizlik tez yordu onu,
Daha gül açmadı murad.
Əyyaşlığın yoxdur sonu,
Dadsızdır zəhmətsiz həyat.

Artıq darıxırdı Alış,
Sanma hər kef ömürlükdür.
Könlündəki nəşə qaçmış,
Həyat ona ağır yükdür.

Azuqəsi çıxmış əldən,
Kənddə ac və çaşqın gəzir.
Hər gün töhmət alır eldən,
Ürəyini tənə əzir.

Zinətin də rəngi qaçmış,
Gündən-günə saralırdı.
Dərdi-qəmi başdan aşmış,
Xəstə kimi suzalırdı.

İnlədi:—A keçən günlər,
Zəhmət ilə qəlbim şəndi.
Bu tarlalar, çöl-çəmənlər
Mənim üçün bir gülşəndi.

—Alış, səndə oldu təqsir,
Küsdürdün dostun Zəhməti.
Bizdən ancaq gördü təhqir,
Etmədik lazım hörməti.

İnləyərək dedi Alış:
—Zəhmət imiş bizə kömək!
Bu çölləri qarış-qarış
Gəzib onu tapam gərək!

Hər ikisi qalxdı birdən.
Ulduz göz qırpırdı aya.
Gəzə-gəzə o çölləri
Çatdılar köhnə tarlaya.

Bir qayanın ətəyində
Bardaş qurdu Zinət ilə.
Keçmişləri ürəyində
Xatırladı həsrət ilə.

Döndü cansız bir qayaya,
Gözlərinə çökdü duman.
Baxdı işıq saçan aya.
Qəlbində qopdu həyəcan.

Dedi:—Zinət, bir baxsana,
Tayalardan yoxdur əsər.
Nəzər saldıqca hər yana,
Ürəyimi yeyir кədər.

Ahım ucalar göylərə,
Qəlbim yanıb кülə dönür.
Kədər verir bu mənzərə,
Gözlərimin odu sönür.

Zəhmət bir dağ çəкdi mənə.
Söylə, Zinət, biz neyləyəк?
—Dərdimi artırma yenə,
Çox inləmə, tez dur, gedəк!

Alış döndü boz qayaya,
Gözlərinə çökdü duman.
Bu ağrını duya-duya
Yol ilə getdi zaman.

Qarşısına bir qab çıxdı.
Alış götürüb tez açdı;
İçindən bir кitab çıxdı.
Oxuyunca rəngi qaçdı.

«Bu dünyada sev zəhməti,
Odur həyatın zinəti!»
Daldı dərin düşüncəyə,
Bir ah qopdu dodağından:

«Ey sevimli Zəhmət!»—deyə
Yaş töкüldü yanağından.
Dedi:—Səni gözəl əməк,
Harda olsan, tapam gərəк!

Baş götürüb duşdü yola,
Xəbər tutdu hər yetəndən.
Yollarda çatıb hər elə
Soruşurdu hər ötəndən.

Zinət ilə dağı-daşı,
Dəli kimi dolaşırdı.
Dincəlib hər keçid başı,
Başqa dərə, dağ aşırdı.

Çox axtardı, çox dolaşdı,
Gecələri etdi səhər,
Çöllər gəzdi, dağlar aşdı,
Zəhmətdən yox verən xəbər.

Çıxdı uca dik bir dağa,
Hər tərəfə etdi diqqət.
Göz gəzdirdi sola-sağa,
Yenə görünmədi Zəhmət.

Gördü döşündə iynə var,
Onu sancdı dağ qaşına.
İynə oldu böyük çinar,
Çıxdı çinarın başına.

Boylandı, əl göz üstündə,
Hər tərəfə saldı nəzər.
Qəlbi yandı köz üstündə,
Zəhmətdən görmədi əsər.

Bir də baxdı uzaqlara,
Gördü Zəhmət sürür kotan.
Toz-torpağı yara-yara
Hey çalışır yorulmadan.

Şumladığı yerin, gerçək,
Nə uçu var, nə bucağı.
Doğru imiş, dedi əmək
Şənləndirir hər torpağı.

Alış dayı endi dağdan,
İri-iri addım atdı.
Qəlbində odlu həyəcan
Gəldi o, Zəhmətə çatdı.

Salam verib hörmət ilə,
Dedi:—Zəhmət, bu nə işdir!
Məndən neçin küsdün, söylə?
Aman, bu nə tərpənişdir?

Ellər tənə vurur bizə,
Dostu atmaq nəyə gərək!
Gəl, qayıdaq evimizə,
At kotanı, durma, gedək!

Zəhmət dedi:—Alış dayı,
Get, səninlə barışmaram.
Bilməyirsən haqqı-sayı,
Köksümdə sızlayır yaram.

Məndən əl çək sən bir kərə,
Unut artıq, at daşımı...
Yox, dözmərəm o təhqirə,
Alçaltdın yüksək başımı.

Mənəm səni şənləndirən,
Mənəm sənə həyat verən,
Sərvət verən, zinət verən,
Uçmağa qol-qanad verən.

Yanında heç hörmətim yox,
Sən eylədin tapdaq məni.
İndi ki bir qiymətim yox,
Zinəti sev, burax məni.

Onu yağla, qoy sandığa,
Səninçin artıq mən nəyəm!
Get, hörmət et o çarığa,
O doğmadır, mən ögeyəm.

Alış dayı:—Sən haqlısan,
Ey canım, vicdanım Zəhmət!
Barışaq, keç günahımdan,
Məndən sənə min-min hörmət!

Başım dəydi daşdan-daşa,
Bildim daha qiymətini.
Düzdür, Zinət gəlir xoşa,
Mən tutaram hörmətini!

Zəhmət sevimli həyatdır;
Sənsən mənim qəlbim, canım.
Zinət bizə qol-qanaddır,
Ey istəkli mehribanım!

O gündən ki bu torpağa
Babalarım qoymuş, ayaq,
Bu ölkədə hər ocağa.
Şənlik saçan sənsən ancaq!

Bunu deyib o, Zəhməti
Birdən-birə qucaqladı,
Zinətin coşdu şəfqəti,
Onu gül kimi qoxladı

Dedi:—Qardaş, bir bax, sənsiz
Heyva kimi saralmışıq.
Səhvimizi anladıq biz,
Bu işdən ibrət almışıq,

Zəhmət uydu şirin dilə,
Dostlarımız barışdılar.
Yenə verdilər əl-ələ.
Təbiətlə yarışdılar.

Hər bir işə sevgi gərək,
Hey çalışır Zəhmət, Alış.
Yerin bağrını sökərək
Əkir, biçir, qarış-qarış.

Tarla geyib qızıl atlas,
Dəniz kimi dalğalanır.
Geniş-geniş alır nəfəs,
Beşik kimi yırğalanır.

Budaqlarda ötür bülbül,
Ətir saçır çəmən-çayır.
Ağır başlı sarı sünbül
Boynun bükmüş, parıldayır.

Ona baxdıqca hər könül
Doymaz, alar nəşə, sevinc.
Dənə dolmuş sarı sünbül
Deyir: «Zəhmət, gəl bizi biç!»

Zəhmət girdi o tarlaya,
Biçdi qızıl sünbülləri.
Hər tərəfdə vurdu taya,
Şənləndirdi könülləri.

Göydə parlayan ay, ulduz,
Yerə saçırdı aydınlıq,
Gecə olmuşdu bir gündüz,
Hər yana hakimdi işıq.

Mürgü çökmüş çölə, dağa,
Qalın meşə görür yuxu.
Qonmuş yaşıl bir budağa,
Kəsik-kəsik ötür ququ.

Ulduzlarla əylənərək
Ay göz qırpır. Zəhmət, Zinət
Tayalara söykənərək,
Şirin-şirin edir söhbət.

Hər tərəfə Alış baxdı,
Qəlbi güldü al şəfəq tək.
Gözlərində şimşək çaxdı,
Kişi oldu lap sevincək.

Hələ Zəhmətdə, Zinəti
Görüncə bir yerdə çox şən,
Ürəyində məhəbbəti
Dəniz kimi coşdu birdən.

Qaçıb girdi gülə-gülə
İki dostun arasına.
Saldı böyük fərəh ilə
Hər qolunu bir boyuna.

Bir yanında gözəl Zəhmət,
Ürəyinə saçır işıq.
Bir yanında nazlı Zinət
Verir həyata yaraşıq.

Baxdı coşqun təbiətə,
Gördü məhtab aləm açmış.
Baxdı Zəhmətə, Zinətə,
Dedi;—Kitab doğru yazmış:
«Bu dünyada sev zəhməti,
Odur həyatın zinəti!»

*1944*

# HEKAYƏLƏR

## MURAD

Tiflis şəhərinin yaxınlığında Kolbasan adlı bir kənd vardı. Bu kəndin dörd bir yanı bağlıq, meşəlik idi. Elə ki, bahar olurdu, ağaclar çiçəkləyir, təpələr, yamaclar yumşaq ot və çiçəklərlə döşənirdi, rəngbərəng güllərin ətri kəndi bürüyürdü, səhər-axşam quşların gözəl nağməsinin arası kəsilmirdi. Baharçağı, bu kənd o qədər gözəl olurdu ki, insan baxmaqdan doymurdu.

Həmin kənddə Bilqeys və Murad adında bacı-qardaş yaşayırdı. Bilqeys olduqca mehriban və tərbiyəli bir qız idi. Hər gün bağçalarındakı tut ağacının altında palaz salardı; oyuncaqlarını da yığıb öz-özünə oynardı. Arabir qonşuları Səltənət də gələrdi. Hər ikisi birlikdə deyər-gülər, oynardılar; otaq bəzəyərdilər, bir-birinə qonaq gedib-gələrdilər. «Ayaq sayma», «Gəlin-gəlin» oynardılar. Arabir də atası aldığı «Uşaq gözlüyü» kitabının şəkillərinə tamaşa edər və oxuyardılar. Günləri xoş və asudə keçərdi.

Amma Murad heç qapı-bacada tapılmazdı. Səhər evdən çıxar, bir də günorta evə qayıdardı. O gün olmazdı ki, Muradın üzü-başı cırılmış evə qayıtmayaydı. Hər kəs ilə döyüşür, söyüşürdü. Buna görə də onu heç kəs sevməzdi. Hətta öz ata və anası da Muradı sevməzdi. Onun əlindən bacısı Bilqeysin ki, heç rahatlığı yox idi. Onun oyuncaqlarını dağıdar və sındırar, bəzən də özünü döyüb qaçardı. Ona görə Bilqeys qardaşı Muradla heç oynamaz və ondan qorxardı.

Bilqeys mehriban bir qız olduğu üçün qapılarındakı heyvanları və quşları da çox sevərdi. Heyvanlar və quşlar da Bilqeysi sevər, ondan qaçmazdılar. Çox vaxt olurdu ki, bağçada oynadığı zaman Mərmər pişik, Dəmir it, Məstan xoruz, toyuq cücələr Bilqeysin başına cəm olar və onun əlindəki çörəyi alıb yemək istərdilər. Bilqeys isə çörəyi parça-parça, edib bir az Məstan xoruza, bir az toyuq-cücələrə, bir az da it və pişiyə atardı. Hamısı soxulub yeməyə başlardı. Bilqeys qara və iri gözlərini onlara dikib baxardı. Bir də görərdi ki, it öz çörəyini yeyib qurtardı. Yavaş-yavaş ağzını pişiyin qismətinə uzadır. Pişik də mırıldaya-mırıldaya çalışır ki, ağzındakı çörəyi yeyib qurtarsın. Həm də pəncələri ilə yerdə qalan çörəyi bərk-bərk tutub, acıqlı-acıqlı itə baxır. Amma it baxmayıb soxulur ki, pişiyin ya xoruz, toyuğun çörəyini qapıb yesin. Bu vaxt xoruz qaqqıldaya-qaqqıldaya itin üstünə atılırdı; ya da pişik belini qaldırıb, dişlərini itin üstünə qıcayıb mırıldayır və birdən-birə sıçrayıb itin üzünü cırmaqlayırdı.

Bilqeys bu tamaşadan doymazdı, gülə-gülə onların davasına baxardı.

Murad isə yoldaşlarını və bacısını incitdiyi kimi, heyvanları da incidirdi. Hələ qapılarındakı Dəmir köpəyə onun əlindən gün və diri-

lik yox idi. Qapı ağzında uzanıb yatarkən, Murad əlindəki daş ilə itin harası gəldi vurardı. Yazıq it quyruğunu böyrünə qısıb, vəngildəyə-vəngildəyə qaçar, sanki iri qara ağzını açıb Murada hürərdi. Onu harada görsə qaçıb gizlənərdi. Mərmər pişik də Muradı sevməzdi. Onun kölgəsini uzaqdan görüncə, quyruğunu qısıb, tələsik özünü bir yerə salardı. Çünki həmişə Murad onun, quyruğundan tutub dartardı. Murad pişiyin arxasınca düşdüyü zaman pişik əvvəlcə qaçar, Muradın ona yaxınlaşdığını görüncə birdən-birə dayanardı. Belini dikləyib, dişlərini qıcayıb «puf» edər və Muradın üstünə atılardı. hətta bir neçə dəfə əllərini, üzünü cırmaqlayıb ağlada-ağlada Muradı evlərinə göndərmişdi.

Elə ki, axşam olurdu, təpələrdən, yamaclardan naxır mələşə-mələşə kəndə gəlirdi. Murad əlinə çomağını alıb naxırın—içinə girərdi, əlindəki çomaq ilə o inəyin, bu öküzün harası gəldisə vurardı.

Murad bir dəfə bir qara inəyin arxasınca düşdü. İnək axırda təngə gəlib döndü, onu buynuzlarına götürüb yerə elə çırpdı ki, Murad qurbağa kimi yerə sərildi. O, tamam bir saat özünə gəlmədi. Ondan sonra Murad nə Dəmir köpəyə, nə Mərmər pişiyə, nə də inəklərə yaxın gedə bilirdi.

Bağçalarındakı yasəmən ağacı altında bir səbət içində toyuqlar yumurtlayırdı. Bir gün Murad bağçada gəzirdi. Çil toyuq yumurtlayıb çıxanda Murad gördü. Yavaş-yavaş gəlib yumurtaları cibinə doldurdu ki, aparsın. Məstan xoruz bunu uzaqdan görüb, uça-uça Muradın üstünü aldı.

Murad çox qorxmuşdu, bilmirdi ki, nə etsin. Axırda arxasında gizlətdiyi yumurtanı atıb qaçdı, xoruz əl çəkməyib onun arxasınca düşdü. Muradın ayağı bir ağaca ilişib yıxıldı; cibindəki yumurtalar sındı, cibi və paltarı yumurtaya bulandı.

Murad qorxusundan evə gedə bilmirdi. Çünki paltarları başdan-ayağa yumurta sarısı idi.

Murad bağçada bir alma ağacının altında oturub nə edəcəyini düşünürdü. Gördü ki, Bilqeys bağçaya çıxdı, «Məstan, Məstan!» deyə bağırdı. Bağçanın o biri başından xoruz uça-uça gəldi. Bilqeys xoruzun başına bir papaq tikmişdi.

Mehriban qız o balaca əlləri ilə xoruzun papağını başına qoydu, lentlə bağladı, sonra şirin dil ilə dedi:

— Məstan xoruzum, ceyran xoruzum, gör sənə nə gözəl papaq tikmişəm!

Deyəsən xoruz da Bilqeyisin mehriban dilini anlayırdı; gözlərini Bilqeysin üzünə dikib, dinməz-söyləməz dururdu. Bilqeysin qəlbinə dəymək istəmirdi. Çünki Bilqeys onları çox sevirdi. Hətta sarı toyuq da cücələri ilə Bilqeysin Məstan xoruza bağışladığı papağa diqqətlə baxırdı. Bilqeys çox şad idi.

Murad gördü ki, xoruzun başı Bilqeysə qarışıb, cəld qaçıb yenə də yasəmən ağacının altına getdi, qorxa-qorxa ətrafa baxdı ki, görsün bir kimsə varmı. Heç kəsi görmədi, yavaşca gəldi, yumurta səbətini arxasına aldı ki, qalxıb getsin.

Yaxında qazlar otlayırmış. Murad isə onları görməmişdi. Yumurtalarını səbət ilə oğurlayıb aparmaq istədiyini görən qazlar birdən-birə hər tərəfdən Muradın yolunu kəsdilər. Murad heç bilmədi ki, qorxusundan nə etsin. Çünki qazların hər biri Muradı bir tərəfə çəkirdi; xüsusən, anaş qazdan çox qorxmuşdu. Çünki o çox acıqlı idi. Qorxurdu ki, sıçrayıb gözlərini çıxarsın. Axırda arxasından səbəti ağzı üstə yerə atdı, yumurtaların hamısı sındı.

Murad bu dəfə əvvəlkindən də çox qorxmuşdu. Yenə alma ağacının altında oturdu. Çox qəmgin idi. Fikir edirdi ki, evə getsə, anası onu döyər; çünki həm paltarı yumurtaya batmışdı, həmdə də səbətdəki yumurtaları sındırmışdı.

Murad bu fikirləri eləyirdi, bir də gördü ki, Bilqeys əlində «Uşaq gözlüyü» əlifba kitabçası bağçaya çıxdı. Məstan xoruz, sarı toyuq və cücələri Bilqeysin ətrafını aldı. Bilqeys oturdu, kitabını açdı, sarı toyuğun başına əl çəkib dedi:

— Gözəl toyuğum! gəl sənə bu şəkilli kitabdan dərs verim, yaxşı?..

Sarı toyuq bir Bilqeysin üzünə baxdı, bir də kitabı dimdiklədi. Bilqeys dedi:

— Deynən «A».

Toyuq heç səs çıxarmadı. Bilqeys gördü ki, toyuq oxumur, cücənin birini kitabın üstünə qoyub dedi:

— Gözəl cücəm, deynən «A».

Cücə kitaba baxdı-baxdı, birdən-birə dimdiyini yuxarı qaldırıb «cik-cik» elədi. Bilqeys şadlığından bilmədi ki, nə etsin.

Bu zaman anası pəncərədən gülə-gülə Bilqeysin «dərs» verməsinə baxırdı. Bilqeys bir adam axtarırdı ki, cücəsinin kitab oxumasını ona göstərsin. Anasını pəncərədə görüncə sevinə-sevinə qışqırdı:

— Ana can, bircə cücəmə bax, gör nə yaxşı oxuyur. Gözəl cücəm, deynən «A».

Cücə Bilqeysə baxıb yenə də «cik-cik» elədi. Bilqeys gülə-gülə qara iri gözlərini anasına dikib dedi:

— Ana can, gördün nə yaxşı oxuyur? Anası gülə-gülə cavab verdi:

— Gözəl qızım, məgər sən pis oxuyursan ki, cücən də pis oxusun?..

Bu aralıq Məstan xoruz da, Bilqeysin başının üstündə durmuşdu. Xoruz kitaba baxdı-baxdı, birdən-birə ucadan banladı. Bilqeys balaca əlini xoruzun başına çəkib dedi:

— Məstan xoruzum, sən böyüksən, oxumaq bilirsən. Qoy bu balaca cücəni öyrədim.

Murad alma ağacının altında oturub qəmgin-qəmgin bunlara baxır, öz-özünə fikir eləyirdi: «Nə üçün Bilqeysi hamı sevir? Hamı ona məhəbbət yetirir? Amma məni heç kəs sevmir? Nə üçün?..»

*1910*

## ŞƏLƏQUYRUQ

Qarasu kəndində Qırt-qırt xanım adlı bir toyuq və Şələquyruq adında bir xoruz var idi. Bunlar kəndin yaxınlığında bir qaratikan komasının altında yuva eləmiş və bir-birilə çox məhəbbətlə dolanırdılar.

Qırt-qırq xanım hər gün bir yumurta yumurtlayardı. Elə ki, yumurta çoxalardı, Şələquyruq onları səbətlərə doldurub şəhərdə satardı. Qırt-qırt xanım qızı Cik-cik ilə birlikdə kənddə qalıb yuvalarına gözətçilik edərdilər.

Şələquyruq satdığı yumurtaların puluna şəhərdən qırmızı köynək, güllü dəsmal və bir çox şeylər alıb gətirərdi.

Bir gün yenə Şələquyruq şəhərə yumurta satmağa getmişdi. Qırt-qırt ağac altında eşələnirdi. Qızı Cik-cik xanım da otların üstündə bir çəyirtkəni tutmaqla məşğul idi.

Axşamüstü idi. Günəş yavaş-yavaş saralmağa başlamışdı. Quşlar axşam nəğmələrini oxuyurdu. Qırt-qırt xanım çox səbirsizliklə Şələquyruğun yolunu gözləyirdi. Fikir edirdi ki, görəsən Şələquyruq yumurtaları yaxşı qiymətə sata bildimi? O, arabir də başı üstündəki ağacda oxuyan quşun gözəl nəğməsinə qulaq asırdı. Birdən-birə qulağının ucunda «quqquluqu» səsi gəldi. Qırt-qırt xanım ayağa qalxdı. Gördü ki, Şələquyruq çiynində dolu xurcun gülə-gülə ona baxır. Qırt-qırt xanım cəld irəli gedib, xurcunu Şələquyruğun çiynindən alıb yerə qoydu. Hər ikisi şad oturdular. Cik-cik xanım da oynamaqdan qayıdıb gəldi, atasının alıb gətirdiyi şeyləri görüb sevincək yerə oturdu. Şələquyruq ona qırmızı güllü bir dəsmal verib dedi:

— Bax, qızım, bu güllü dəsmalı sənə almışam... Cik-cik xanım razılıq edib, sevinə-sevinə dəsmalı başına bağladı. Qırt-qırt xanım da çox şad idi. Şələquyruq aldığı qırmızı köynək, güllü dəsmal onun o qədər xoşuna gəlmişdi ki, gözlərini ondan ayırmaq istəmirdi. Şələquyruq şəhərdə gördüyü təəccüblü şeylərdən ona danışırdı. Qırt-qırt xanım çox maraqla qulaq asırdı. Çünki şəhəri heç görməmişdi. Axırda Qırt-qırt xanım yalvardı ki, bu dəfə şəhərə gedəndə onu da özü ilə aparsın. Şələquyruq əvvəlcə razı olmadı, dedi ki, «Əgər sən də getsən yuvamızda yumurtalara kim göz olar?»

Qırt-qırt xanım isə hər nə təhər olsa idi, istəyirdi ki, bir dəfə şəhərə getsin. Axırda Şələquyruq razı oldu.

Qırt-qırt xanım sevindiyindən yerlərə, göylərə sığmırdı. Hələ kiçik qızı Cik-cik xanım şadlığından sıçrayırdı. Qırt-qırt xanım cəld ocaq qaladı, yumurtaları bişirib səliqə ilə səbətlərə doldurdu. İyirmi yumurta da yuvada qoydular ki, şəhərdən qayıdandan sonra Qırt-qırt xanım kürt yatıb, balalar çıxarsın.

Şələquyruq çox çalışqan idi. Hər səhər alaqaranlıqdan durar və yuvasının yanındakı ağaca çıxıb ucadan banlardı. Kənd əhli onun səsinə oyanıb hər kəs bir işə məşğul olardı. Çobanlar sürülərini çöllərə, yamaclara otarmağa sürər, əkinçilər öküzləri qoşub cüt sürməyə gedərdilər. Biçinçilər oraq, çin götürüb taxıl və ot biçməyə məşğul olar, uşaqlar da çaylarını içib məktəbə vaxtında yetişməyə çalışardılar.

Şələquyruq adəti kimi o gün alaqaranlıqdan qalxıb, ağaca çıxıb ucadan banladı.

Dan qaranlıq idi. Hələ günəş doğmamışdı. Dərələri, çölləri seyrək duman bürümüşdü. Şələquyruq və Qırt-qırq xanım Cik-cikin əlindən tutub Yola düşdülər.

Qırt-qırt çox şad idi. Çünki ömründə şəhər üzü görməmişdi. ürəyində Şələquyruqdan razılıq edirdi.

Gecədən şeh düşmüş yumşaq otların üstü ilə gedirdilər. Günəş yavaş-yavaş doğur, al şəfəqlərini otların, çiçəklərin üstünə dağıdırdı. Quşlar ayılıb, yuvalarında gözəl-gözəl nəğmələr oxuyurdu; arılar, kəpənəklər çiçəklərə qonub xortumları ilə güllərin şirəsini sormağa məşğul idi. Bunların başı söhbətə elə qarışmışdı ki, yolun zəhmətini heç hiss etmədən az vaxtda şəhərə yaxınlaşmışdılar.

Yarım saat sonra şəhərdə idilər. Təmiz, geniş küçələrdən, iri camakanlı* mağazinlərin, uca və gözəl imarətlərin önündən keçərkən Qırt-qırt çox heyrət ilə baxır, gözlərini onlardan götürmək istəmirdi. Hər şey, ona təzə və təəccüblü görünürdü. Hətta adamlar da ona başqa təhər görünürdü, onun fikrincə, bunlar heç kənddə gördüyü adamlara bənzəmirdi. Qırt-qırt xanım heyrət içində idi. Hər şey onun yadından çıxmışdı. Addımlarını indi yavaş-yavaş atıb gedir, arabir düyükü̈b ona-buna baxan qızı Cik-cikin əlindən tutub çəkirdi. Şələquyruq da çox şad idi. Çünki Qırt-qırt xanımın bilmədiyi şeyləri göstərib ona qandırırdı.

Onlar gəlib bazara yetişdilər. Qırt-qırtın gözləri dörd oldu. Minlərcə alıcı və satıcıları görüb heyran-heyran baxırdı. Bir saat içində yumurtaları satdılar, sonra oradaca gördükləri, sevdikləri şeylərdən aldılar.Daha kəndə qayıtmaq lazım idi. Qırt-qırt və Cik-cik xanım şəhərdən heç ayrılmaq istəmirdilər. İstər-istəməz yavaş-yavaş şəhərdən çıxıb, kəndə tərəf yola düşdülər.

Kənddə Səfər və Əkbər adında iki uşaq var idi. Onlar Şələquyruğun və Qırt-qırtın o gün şəhərə getdiyini bilmişdilər. Oynaya-oynaya Qırt-qırtın yuvasına gəldilər və otların arasında gizlətdikləri yumurtaları görüb, çox sevindilər. Səfər tez qaçıb evdən bir səbət gətirdi, yumurtaları səbətə doldurdu və bir-bir yumurtaları götürüb, havaya atıb tutmağa başladı. Əkbər də istəyirdi ki, yumurtalardan alıb oynatsın, amma Səfər vermirdi. Axırda Əkbər acıqlanıb dedi.

— O yumurtalardan indi ki, mənə vermirsən mən də xortdana deyərəm səni yesin.

Əkbərin anası şəhərə gedəndə ona bir qutu almışdı ki, ağzını açanda ilan başı çıxırdı. Əkbər qutunu cibindən çıxarıb dedi:

— Bax, bu qutunun içində xortdan var, indicə ona deyəcəyəm ki, qutudan çıxıb səni yesin.

Səfər irəli gəlib dedi:

— Hanı? Görüm?..

Əkbər birdən-birə qutunun ağzını açdı, içindən qara ilan başı çıxdı.

Səfər onu görüncə qorxusundan gözləri kəlləsinə çıxdı. Dalıdalı gedib səbətin, üstünə yıxıldı, yumurtaların yarısı sındı, Səfər ağlaya-ağlaya yerindən qalxdı.

Əkbər əllərini bir-birinə vurub ona ucadan gülürdü. Gülməkdən ağzı qulaqlarına qədər çəkilmişdi.

Səfərin ona acığı tutmuşdu, bilmirdi ki, nə ilə ondan hayıf alsın. Axırda səbətdən bir yumurta götürüb Əkbərin burnunun üstündən vurdu. Yumurta dağılıb Əkbərin üzü-başı bulandı. Bunu görüb Səfər bərkdən gülməyə başladı. Əkbər ağlayır və acığından bilmirdi ki, nə etsin. Yumurta burnundan çox bərk dəymiş və burnu, yumurta boyda şişmişdi. Gözlərini başının ağrısından aça bilmirdi. həm də yumurta sarısı kirpiklərini elə örtmüşdü ki, gözlərini aça bilmirdi. Əkbər birtəhər üz-gözünü təmizlədi. Sonra Səfərin yaxasından tutub, savaşmağa başladı. Hər ikisi bir-birini boğur, üz-gözünü cırmaqlayır, üst-başını cırıb dağıdırdı. Hər ikisi al qana bulanmış olduqları halda, yenə də bir-birin-dən əl çəkmək istəmirdilər. Heç birisi o birinin günahını bağışlamaq istəmirdi. Axırda hər ikisi taqətdən düşüb, üzləri cırılmış, al-qana bulaşmış halda evlərinə qayıtdılar.

Şələquyruq və Qırt-qırt şəhərdən qayıdıb gəldilər; yuvalarını dağılmış və yumurtalarını oğurlanmış gördükdə Qırt-qırt xanım yerə oturub, ucadan «ağlamağa başladı:

— Bu yenə o yaramazların işidir. Onların əlindən mənə rahatlıq yoxdur. Mən artıq burada qala bilməyəcəyəm.

Şələquyruq zor-güc Qırt-qırt xanımı sakit etdi və tezliklə buradan başqa bir yerə köçməyə söz verdi. Bir həftə orada qaldılar, artıq

başqa yerə köçəcəkdilər. Qırt-qırt xanım çox şad idi. Ətəklərini çırmayıb ocaq qaladı, yola çıxmaq üçün bir az yumurta bişirməyə məşğul oldu. Şələquyruq da bir daş üstündə oturub, ona təzə bəyəndiyi yuvanı tərif edirdi. Qırt-qırt xanım deyirdi: «Hər necə yuva olsa razıyam, kaş ki, bu ydramazlardan uzaq olsun». Şələquyruq onu inandırırdı ki, təzə yuvaları həm uzaq, həm də elə bir yerdədir ki, heç kəs xəbər tuta bilməyəcək. Cik-cik xanım da arabir onların söhbətinə şərik olub, sevinə-sevinə soruşurdu: «Ata, o yuvamızın da yanında belə gözəl ağaclar, otlar, çiçəklər varmı?» Şələquyruq: «Qızım, var!» —deyə Cik-cikə ürək və təsəlli verirdi.

Bir saat sonra orada Şələquyruqdan, Qırt-qırt və Cik-cik xanımdan bir əsər yox idi. Oba köçüb, yurdu qalmışdı. Həmişə Cik-cik xanımın cik-cik ilə, Qırt-qırt xanımın qırt-qırt ilə, Şələquyruğun səsi ilə şən görünən yuva, o ağaclıqlar, yaşıllıqlar indi sakit və qəmgin-qəmgin durur, guya onların getməsindən göz yaşları töküb ağlayırdılar, hətta bir neçə gün sonra Səfər, Əkbər də gəlib onların yuvasını bomboş görüncə qəmgin olmuşdular. Tutduqları işdən peşiman olub, məyus halda qayıtmışdılar. Amma etdikləri bu insafsızlıq heç onların yadından çıxmır və Şələquyruğun dağılmış yuvasının yanından keçə bilmirdilər. Sanki Şələquyruq onların ətəyindən tutub dartır və acıqlı səslə deyirdi: «İnsafsız uşaqlar, mən sizə nə etmişəm? Nə üçün mənim yuvamı dağıtdınız? Nə üçün yumurtalarımı oğurladınız, zəhmətimizi, əməyimizi puç etdiniz?»

*1913*

## MEŞƏ GÖZƏTÇİSİ

Yenikənd gündən-günə gözəlləşirdi. Yaradan, işlək əllər gecə-gündüz çalışıb onu nümunəvi bir kolxoz kəndinə çevirmişdi: yeni küçələr salınmış, sıra ilə təzə evlər tikilmiş, ağaclar əkilmişdi, hər tərəfdən onu qucaqlamış olan böyük sovxoz bağları, əkin, bostan yerləri və ucu-bucağı görünməz qalın meşələr onun gözəlliyini daha da artırırdı.

Yayın məhsuldar çağı idi. Meyvələr yetişmiş olduğundan Yenikəndi şimaldan qoynuna almış yaşıl meşə öz geniş süfrəsini açıb qonaqların yolunu gözləyirdi.

Hər gün dəstə-dəstə arvad-uşaq meşəyə fındıq, zoğal, moruq dərməyə gedirdi. Meşə keşikçisi Sadıq əmi gələnlərin qabağını kəsib deyirdi:

— Bura baxın, meyvə dərməyinizə sözüm yoxdur, ancaq bir budaq qırılsa məndən inciməyin.

Bu zamanlar qoca keşikçinin əsəbi hallar keçirdiyi günlər idi. Budaq qırmasınlar, ağac kəsməsinlər deyə, onun gözü dörd idi.

O gün bir uşaq meyvə yığarkən üstü zoğal ilə dolu böyük bir şaxəni qırmışdı. Budaq sındırmaq, icazəsiz ağac kəsmək Sadıq əmiyə onu təhqir etməkdən də ağır gəlirdi. O, yerə enmiş iri ağac budağına nəzər saldıqdan sonra uşağı bərk danladı. Sadıq əminin çox qəzəbləndiyini görən uşağın anası Sənəm xala onu sakit etməyə çalışdı:

— Sadıq əmi, Xəlil elə uşaq deyil, bilməyib, daha sındırmaz...

Sadıq əmi onu acıqlı-acıqlı süzərək:

— Sən bilirsən ki, bu ilin gələn ili də var,—dedi,—hər gələn bir şaxə qırsa axırı nə olar? Mən buna yol vermərəm. Bir də belə etsə onu səninlə birlikdə meşəyə buraxmayacağam.

Sadıq əmi ortaboylu, üzü ətli, çıxıq yanaqları qırmızı, vücudu polad kimi möhkəm, sağlam bir kişi idi. O, cavanlığından qışda, yayda otaqda yatmazdı, açıq havanı çox sevərdi, hər səhər soyuq suda çimməyə vərdiş etmişdi. Altmış yaşa dolduğuna baxmayaraq bu vaxta qədər onun ağır xəstələndiyini görən, eşidən olmamışdı. Qar düşdüyü zamanlarda da açıq eyvanında, kefi gələndə gecəni də meşədə yatardı. Meşə ona öz canından da əziz idi. Gecə-gündüz çalışır, yeni ağaclar əkir, meşənin içini bağ kimi təmizləyirdi. Meşə-onun üçün hər şey idi.

Sadıq əmi yaxşı keşikçi, həm də mahir ovçu idi. Meşədi onun ən yaxın dostu quşlar olduğu kimi, ən böyük düşməni də quşları tələf edən, kəndə ziyan verən canavar, tülkü, çaqqal, çöl pişiyi və dovşan idi. Bunları görüncə vurub öldürərdi. Bu işdə an iri gövdəli Qurdbasan adlı boz köpəyi də az kömək etmirdi. Küçük vaxtından saxlayıb onu elə öyrətmişdi ki, Sadıq əminin hər sözünü, hər hərəkətini başa düşürdü. Onun köməyi ilə Sadıq əmi vəhşi heyvanları qırıb tələf edir və Ovçular İttifaqından tez-tez mükafat alırdı. Sadıq əmi meşədə qurdun kökünü çoxdan kəsmişdi. Artıq kolxoz heyvanlarının da canı dincəlmişdi. Ona görə də kolxozçular Sadıq əmini çox sevir və ona böyük hörmət bəsləyirdilər.

Qoca Mərdan kişi işini görüb qurtardıqdan sonra eşşəyini otlamaq üçün çox tez-tez naxır bulağının yanındakı çayırlığa hörükləyirdi.

Axşam qaranlığı çökmüş, naxır kəndə qayıtmış, quşlar yuvalarına, toyuq, xoruz hinlərinə çəkilmişdi. Mərdan kişi kənd içində dostu Əkbər kişinin qapısı ağzında oturub söhbət etməkdən doymayırdı. Söhbət Yenikəndin gündən-günə gözəlləşməsindən, kəndin şimal tərəfində salınacaq meşədən düşmüşdü. Mərdan kişi deyirdi:

— Sağ olsun Sadıq əmi, kəndimizin bəzəyi olar bu meşəni göz bəbəyi kimi qoruyur.

Əkbər kişi də onun sözünü təsdiq etdi.

Söhbət xeyli uzandı. Birdən Mərdanın otlağa buraxdığı eşşəyi yadına düşdü, tez ayağa qalxdı:

— Söhbət dananı qurda verər, gedib eşşəyi gətirim,—deyə dostu Əкbər ilə görüşüb getdi.

O, çayırlığa çatdıqda alaqaranlıqda gözünə qara кölgələr göründü. Dayanıb diqqətlə baxdı; iкi qurd eşşəyi yerə yıxıb yeyirdi. Əlində silah olmadığından yaxın getməyə qorxub tez qayıdıb кəndə səs saldı. Zəmidən yenicə qayıtmış кolxozçular it, silah götürüb gedincə qurdlar qaçıb getmişdi.

Ertəsi gün bu səs кəndə yayılmışdı. Səhər naxır bulağı başına yığışan кolxozçular: «Sadıq əmi daha qocalıb, qurdlar yenə кəndə yol salıb. Yazıq Mərdan кişinin eşşəyini dağıdıb yeyiblər» deyə onun arxasınca söylənirdilər. Sadıq əmini yaxşı tanıyanlar: «Bu qurdlar meşədən gəlməyib, görəsən hardan azıb кəndə daraşıbdır. Bir də Sadıq əmi meşə кeşiкçisidir. Sənin eşşəyinə də кeşiк çəкməyəcəк ha, mal sahibi öz malını özü saxlamalıdır. Buna Sadıq əmi neyləsin?» deyə, onu müdafiə edirdilər.

Deyişmə, söhbət getdiкcə uzandı. Deyişmənin qızğın çağında Sadıq əmi iкi anaş, üç bala qurdun dərisini bir-birinə кəndir ilə bağlayıb eşşəyin üstünə aşırmış olduğu halda gəldi. Bunu görən кolxozçulardan biri:

— Ay sağ ol, Sadıq əmi, səni bizim кəndin üstündən əsкiк olmayasan. De görəк, bu qurdları harda öldürdün?—deyə ondan soruşdu. Sadıq əmi кiçiк, qara gözlərini qıyaraq:

— Bu namərd qurdlar bu il hardansa azıb meşəyə giribdir. Meşədə bir ağac altında oturmuşdum, Qurdbasan da ayaqlarımın ucunda uzanmışdı. Birdən gözümə uzaqda кeçən iкi кölgə ilişdi. Tez qalxıb diqqətlə baxdım. Gözlərimə inanmadım, çünкi çoxdan bu meşədə qurd görməmişəm. İti tez götürüb onların izinə düşdüm. Səs çıxarmasın deyə, iti başa salmışdım. O mənim fiкrimi anlayıb səssiz yanımca gəlirdi. Qurdlar getdi, biz getdiк, qurdlar getdi, biz getdiк. Gördüm onlar meşədə кiçiк bir кöhülə girdi. Tez yüyürüb çatdım. Tüfəngi dörd-beş dəfə кöhülün içinə boşaldıb Qurdbasana qıs vurdum. Bu zaman bir qurd кöhüldən çıxıb qaçmaq istərкən nişan alıb vurdum. O biri кöhüldən çıxmadı. İtə qıs vurdum. İt кöhülə girib əvvəlcə yuvasında vurduğum qurudu çıxartdı, sonra bir-bir balalarını. Namərd qancıq üç bala doğubmuş.

Кənd əhli birağızdan Sadıq əmini alqışladı:

— Çox sağ ol, Sadıq əmi, bu qurdlar artıb döl salsaydı кəndin işi nə olardı?

Ferma müdiri Əsli bir qədər irəli gəlib gülə-gülə soruşdu:

— Sadıq əmi, bu beş qurda Ovçular İttifaqından nə qədər müкafat alacaqsan? Püstə bacının кefidir. — Sadıq əmi gülümsəyib cavab vermədi.

Qoca keşikçini dillәndirmәyә çalışan Әsli yenidәn soruşurdu:

— Sadıq әmi, bu qurdlar dünәn axşam çayırlıqda qoca Mәrdanın eşşәyini dağıdıblar, xәbәrin varmı?

Bu sözü eşitcәk Sadıq әminin nәşәsi qaçdı, qaşlarını çataraq acıqlı-acıqlı qurdlara baxdıqdan sonra:

— Onda yaxşı vaxtında intiqam almışam!— dedi.

Getdikcә uzanan yamyaşıl meşәnin arxasında dan yeri yavaş-yavaş sökülmәyә, göy üzünü әlvan şәfәqlәr bürümәyә başlamışdı. Göyün rәngi meşәyә әks etmiş olduğundan budaqlar, yarpaqlar gecә paltarını dәyişib incә, әlvan tül paltarını geyinmişdi. Günәş ucaldıqca tabiatın mahir rәssamı meşәni daha kәskin vә rәngin boyalar ilә bәzәyirdi. Dan yeli yavaş-yavaş әsdikcә yarpaqlar bir-biri ilә pıçıldaşır kimi sәslәnir, kollarda, budaqlarda ötüşәn quşlar yeni sәhәri yaradan günәşi salamlayırdı.

Sadıq әmi o gecә meşәdә yatmışdı. O, alaqaranlıqda oyanıb çeşmә başında әl-üzünü yuyub sildikdәn sonra çeşmәyә yaxın kiçik bir tәpәciyin başında oturub tәbiәtin gözәlliyini seyr edir, quşların cәh-cәhini böyük maraq ilә dinlәyirdi.

Qurdbasan da onun ayaqları altında uzanıb sanki quşların sәhәr konsertindәn zövq alırdı.

İşsiz durmağı sevmәyәn Sadıq әmi qalxıb böyük hәvәslә meşәdәki cavan ağacların yan-yörәsini, diblәrini qazıb tәmizlәmәyә başladı. Bu zaman qulağına qat-qarışıq sәslәr gәldi. Qurdbasan qulaqla- rını tez şәklәyib hürә-hürә sәs gәlәn sәmtә qaçdı. Sadıq әmi Qurdbasanı çağırdı. İt durdu. Çox çәkmәdi ki, qarşıda dәstә rәhbәri ilә birlikdә bir neçә qırmızı qalstuklu pioner göründü. Sadıq әmi onları çox mәhәbbәtlә qarşıladı:

— Gәlin, balalarım, gәlin, hamınızı tanıyıram. Kәndimizin küçәlәrini ağaclarla bәzәyәndә mәnә siz çox kömәk etmişsiniz. Sonra Sadıq әminin gözlәri Xәlilә sataşdı, onu pionerlәr arasında görüncә:

— Oho!.. Bacı oğlu, sәn dә gәlmisәn? Eybi yoxdur, xoş gәlmisәn. Ancaq gәrәk ağaclarla pis rәftarını tәrgidәsәn Ha!—dedi.

Dәstә rәhbәri Sadıq әminin töhmәtlәrinә tәәccüb etdi:

— Necә bәyәm? Sadıq әmi, yoxsa bizim Xәlil meşәyә gәlәndә budaq qırır?

Sadıq әmi Xәlilin başını sığallayaraq:

— Elә bir iş olmuşdu. Xәlil mәnә onda söz verdi ki, daha meşәdәn ağac qırmayacaq. İndi deyәsәn ağaclarla barışıb.

— Barışmaq azdır, Sadıq әmi, o bizim mәktәbimizin bağçasını, onun әtrafında әkilәn ağacları bәslәyәn, onlara hәr gün qulluq edәn pionerlәrimizdәndir—dedi.—Görünür töhmәtlәriniz ona yaxşı tәsir edib.

Sadıq әminin gördüyü işlәr, onun tәcrübәsi pionerlәri çox maraqlandırdı. Odur ki, onlardan biri soruşdu:

— Sadıq әmi, bu ağacı niyә çıxardırsan?

—Çıxartmıram, oğlum,—deyə Sadıq əmi cavab verdi,— belə cavan ağacların yan yörəsini təmizləyirəm. Payızda bunları çıxarıb təzə meşəliyə əkəcəyəm.—Sonra başını qaldırıb uzaqlara baxaraq:

— Arzularımız çox böyükdür. Bu meşəni o dağların ətəklərinə qədər böyüdəcəyik. Gələndə meşənin axırındakı açıqlıqda əkdiyim şitilləri gördunüzmü? Hamı bir səslə:

— Gördük, Sadıq əmi, gördük...—Sadıq əminin gözlərində fərəh qığılcımları doğdu, həsrətlə pionerlərə baxaraq:

— Hayıf ki, qocalıram, uşaqlar. On-on beş il sonra kəndimiz, əkin yerlərimiz və meşələrimiz tamam dəyişəcəkdir. Qorxuram o günləri görməyə ömrüm macal verməyə.

— Qorxmayın, Sadıq əmi. Siz hələ çox yaşayacaqsınız, o günləri özünüz doyunca görəcəksiniz,—deyə pionerlər bir-ağızdan ona təsəlli verdilər.

Bu sözlər sanki Sadıq əmiyə ürək-dirək verdi. O, ürəkləri suallarla dolu olan pionerlərə macal verməyib meşələrin əhəmiyyətindən, yaşıllıqları, bağları qorumaq yollarından uzun-uzadı söhbət açdı; görüləcək işlər və onların faydası haqqında geniş məlumat verdi.

Xəlil yerindən səsləndi:

— Sadıq əmi, təzə meşəyə şitil əkəndə bizi də köməyə çağırın.

— Çox sağ ol, oğlum. Siz dərslərinizə çalışın, mənim köməkçilərim çoxdur, — deyə, Sadıq əmi gülümsəyərək cavab verdi. Sonra üzünü uşaqlara tutub dedi:

— İndi də gedin, bir az meşəni gəzin, meyvələrindən yeyin, görün sizin üçün nə ağaclar bəsləmişəm.

Sadıq əminin deməsi ilə pionerlərin dağılması bir oldu, bir anda meşənin dərinliklərində gözdən itdilər.

Sadıq əmi öz işinə məşğul oldu. Bir neçə ağacın dibini qazıb təmizlədikdən sonra oturub dincəlmək istədi. Qurdbasan da onun ayaqları altında uzandı. Qoca keşikçi vaxtının çoxunu meşədə tək keçirdiyindən öz-özünə danışmağa və gördüyü işlərin nəticəsini xəyalında canlandırmağa vərdiş etmişdi. İndi də o, xəyal aləminə dalıb öz-özünə düşünürdü; o, nəzərinə dövlətin qərarı ilə Yenikənd meşəsinin şimalında salmağa başladıqları təzə meşəni gətirirdi. Yeni meşə bir tərəfdən əkin üçün əlverişli şərait yaradacaq, şimal tərəfdən əsən küləklərin qarşısını alacaq, torpağı nəmiş saxlayacaq və bu boz, şoran çöllərin bol məhsul verməsinə səbəb olacaqdı. Belə getsə beş-on il sonra bu meşədə hər kol dibində bir qırqovul yuvalayacaqdır. Bu şirin arzular onu o qədər həyəcana gətirdi ki, birdən-birə əllərini bir-birinə vurub: «Oh! Bu meşəni mən istədiyim kimi görsəydim» deyə ucadan dilləndi. O, elə şiddətlə səsləndi ki, ayaqları ucunda uzanan köpək yerindən sıçrayıb heyrətlə sahibinin üzünə baxdı. Sadıq əmi itin başını əli ilə oxşayaraq: «Uzan, Qurdbasanım, uzan, sən mənim qəlbimdəkini duya bilməzsən» deyə ona yenə uzanmağa işarə etdi.

Bu zaman əlli-altmış atdım məsafədə topa kolun içindən bir tülkü çıxıb qaçmağa başladı. Sadıq əminin ovçu gözləri onu görüncə tez tüfəngi alıb qalxdı və tülkünü nişan alıb vurdu.

Tülkü yerə yıxılınca bir qırqovul onun ağzından pırıltı ilə uçub yaxındakı budağa qondu. Qoca ovçunun gözləri parıl dadı. O, öz-özünə: «Yaxşı vaxtında vurmuşam, yoxsa bu namərd tülkü yazıq quşu yeyəcəkdi. Mən bu vəhşi heyvanları nə qədər qırıb tələf edirəm, bunlar yenə göbələk kimi artır».

Qurdbasan tülkünü gətirməyə getmişdi. Bu zaman yaxında, ağaclar arasında, bir yad it hürdü, onun arxasınca bir səs: «Keşikçi, keşikçi!» deyə səsləndi. Sadıq əmi bu yad adamın kim olduğunu bilmək üçün gözlərini qıyıb o səmtə baxdı, sonra iti addımlarla səs gələn tərəfə getdi. Uzunboylu arıq bir adam ona doğru gəlirdi. Keşikçini görüncə:

— İtin acıqlıdırmı?—deyə soruşdu.

Kişi sözünü qurtarmamışdı ki, Qurdbasan ağzında tülkünü gətirdi. Onu tez Sadıq əminin yanında qoyub iri, qara ağzını açaraq kəskin səs ilə hürə-hürə yad itə hücum etdi. O it qorxub yiyəsinin arxasına keçdi. Yad adam əlindəki tüfəngi ilə Qurdbasandan özünü, itini müdafiə etməyə çalışdı, Sadıq əmi tez itini boynundan tutub özünə tərəf çəkdi və ona bərk acıqlandı. Qurdbasan yerə çöməlib acıqlı-acıqlı onlara baxır və arabir mırıldanırdı. Yad adam Qurdbasanı gözucu süzdükdən sonra:

— İtin yaman sərtdir ha, onu açıb buraxmağın xatası çıxar.

Sadıq əmi itinin başını oxşayaraq:

— Qorxma, sərt olsa da mənim yanımda ziyan yetirməz. Yad it quyruğunu, qulaqlarını sallayıb gözlərini Qurdbasandan çəkmir, arabir mırıldanırdı. Sadıq əmi tüfənginə söykənib:

— Siz kimsiniz?—deyə soruşdu.

— Mən aqronomam, adım Rəhimdir.

— Çox yaxşı, bu meşəyə nə üçün gəlmisiniz?

— Quş ovlamağa gəlmişəm.

— Yox, ov vaxtı deyil. Ovçular İttifaqının ov mövsümünün başlanması haqqında əmri olmayınca mən bu meşəyə bir ovçu da buraxmayacağam.

Ovçu tüfənginin ucu ilə tülkünü göstərib:

— Sadıq əmi, sən özün meşədə ov edirsən, bəs məni neçin qoymursan?—dedi:

Sadıq əmi ovçunun onun adını haradan bildiyinə çox maraqlanıb:

— Siz mənim adımı hardan bilirsiniz?—deyə soruşdu. Ovçu sağ əlini havada oynadıb gülə-gülə:

— Sadıq əmini bu mahalda tanımayan kimdir? Səni kənddə uşaqlar da tanıyır. Sən də məni yaxşı tanıyırsan. Sizin aqronom Aslan ilə bu meşədə çox gəzmişik.

— Ola bilər, sifətin mənə tanış gəlir. Meşədə gəzməyə, sərin çeşmə sularından içməyə, meyvələrindən dərməyə mən də bir söz demirəm. Meylin olsa bulaq başında səni qonaq da edə bilərəm. Yaxşı təndir çörəyim, üzlü pendirim, ət soyutması var. Ancaq quş vurmağa razı olmaram.

Ovçu etiraz etdi:

—Yaxşı, Sadıq əmi, bəs məni ovsuz yola salmaq istəyirsən? Bu heç yaxşı iş deyil axı.

— Yox, elə yaxşısı budur. Mən qanunu poza bilmərəm. Quşlar təzə bala çıxarıblar, onları indi ovlamaq, yuvalarda balaları acından öldürmək deməkdir. Mən buna heç cür razı ola bilmərəm. Heç üz vurma, düzələsi iş deyil.—Ovçu məyus bir halda başını aşağı dikib durdu. Sadıq əminin ürəyi kövrəldi:

— Bilirəm, ovdan boş qayıtmaq ovçu üçün çox ağırdır. Al bu tülkünü sənə verirəm. Apar, qoy əllərin boş olmasın— deyə, hələ bədəni soyulmamış tülkünü ona tərəf uzatdı. Ovçu istər-istəməz tülkünü aldı. Ona təşəkkür etmək istəyirdi ki, Xəlil gəlib çıxdı. O, ciblərini meşədən yığdığı qabıqlı fındıqla doldurmuşdu. Qoltuğunda isə ağacların diblərindən çıxardığı on beşə yaxın şitil vardı. Xəlil yaxınlaşan kimi əvvəl yad adama salam verdi, sonra Sadıq əmiyə müraciətlə dedi:

— Sadıq əmi, baxın, bu yığdığım şitilləri aparıb həyətimizdə, evimizin qabağında əkəcəyəm. Gələn il bunları salmağa başladığımız təzə meşədə öz əlimlə basdıracağam.

Sadıq əmi Xəlilin bu təşəbbüsünü böyük sevinclə qarşıladı:

— Sağ ol, oğlum, bax bu işinə sözüm yoxdur, həmişə belə olmaq lazımdır,—dedi.

Sadıq əmi ilə Xəlilin arasında edən bu söhbətdən sonra, onlara çox diqqətlə qulaq asan aqronom artıq köhnə söhbətin təzələnməsinə səy göstərmədi. O görürdü ki, Sadıq əmi sözündə çox möhkəm adamdır. Aqronom elə bunları fikirləşirdi ki, Sadıq əmi gülə-gülə Xəlildən soruşdu:

— Xəlil, meşəmizə qonaq gələn gördüyün ovçu burada quş ovlamaq istəyir. Sən yay zamanı buna necə baxırsan?

Xəlil Sadıq əminin nə demək istədiyini çox yaxşı başa düşdü. Odur ki, heç fikirləşmədən cavab verdi:

— Sadıq əmi, indi ki, ov vaxtı deyil, quşlar bu saat bala gəzdirir...

Qoca bağban ovçuya mənalı-mənalı baxdı, ancaq bir söz demədi. Sadıq əmi Xəlili o qədər sevməyə başladı ki, uşağın ağac sındırmaq əhvalatını tamamilə yadından çıxartdı.

*1954*

# KİTABIN İÇİNDƏKİLƏR

## *Abbas Səhət*

Ön Söz . . . . . . . . . . 5

*Şerlər*

Şeyx Sadi . . . . . . . . . . 11
Xocə Hafiz . . . . . . . . . . 11
Şamaxı zəlzələsi . . . . . . . . . . 13
Dəvət . . . . . . . . . . 14
Qəzet nədir . . . . . . . . . . 15
Dilbəri-Hürriyətə . . . . . . . . . . 16
Yad et . . . . . . . . . . 17
Vaveylayi-Nifrət . . . . . . . . . . 18
Yaz . . . . . . . . . . 19
Yay . . . . . . . . . . 19
Payız çağında . . . . . . . . . . 20
Qış . . . . . . . . . . 20
Vətən . . . . . . . . . . 20
Alimnümalar . . . . . . . . . . 21
Sabir . . . . . . . . . . 22
Tərəqqi və tərbiyyə qanunu . . . . . . . . . . 23
Oxucularıma . . . . . . . . . . 24
Aləmi İslama . . . . . . . . . . 25
Ölü şəhər . . . . . . . . . . 26
Yadındamıdır . . . . . . . . . . 27
Füzulinin bir qəzəlinin tərbi . . . . . . . . . . 28
Yoldaşım üçün göz yaşı . . . . . . . . . . 29
Yaz gecəsi . . . . . . . . . . 30
Yay səhəri . . . . . . . . . . 30
Əkinçi nəğməsi . . . . . . . . . . 31
Qış32
Əhmədin qeyrəti . . . . . . . . . . 32
Yuxu . . . . . . . . . . 34
Yay səhəri . . . . . . . . . . 36
Oğlum üçün . . . . . . . . . . 36
Sabir . . . . . . . . . . 36
Vətən . . . . . . . . . . 37
Şair Şeir pərisi və Şəhərli . . . . . . . . . . 38
*Uşaq şeirləri* . . . . . . . . . . 47
Hekayələr . . . . . . . . . . 71
Pyeslər . . . . . . . . . . 83
Məqalələr . . . . . . . . . . 99
Tərcümələr . . . . . . . . . . 107

## *Abdulla Şaiq*

Ön söz . . . . . 133
*Şerlər*
1905—1917 . . . . . 136
Cümhuriyyət dövrü . . . . . 163
1921—1936 . . . . . 174
Stalinzmin ifşası . . . . . 179
1938—1959 . . . . . 184
Qəzəllər . . . . . 194
***Poemalar*** . . . . . 207
İki familiyanın məhvi . . . . . 215
***Pyeslər*** . . . . . 227
Şair və Qadın . . . . . 229
İdeal və insanlıq . . . . . 242
***Hekayələr*** . . . . . 255
Məktub yetişqmədi . . . . . 257
Köç . . . . . 260
***Uşaqlar üçün şeirlər*** . . . . . 263
Xoruz . . . . . 263
Keçi . . . . . 263
Yetim cücə . . . . . 264
Yeni köməkçi . . . . . 264
Səhər . . . . . 264
Təpəl Kəlim . . . . . 265
Layla . . . . . 265
Payız . . . . . 266
Cütçü . . . . . 266
Aslan, qurd və tülkü . . . . . 267
Top oyunu . . . . . 267
Dəmirçi . . . . . 268
Təmizlik . . . . . 268
Qərənfil . . . . . 268
Bənövşə . . . . . 269
Qızıl gül . . . . . 269
Zanbaq . . . . . 270
Bül bül . . . . . 270
Arı . . . . . 270
Kəpənək . . . . . 271
Kür çayı . . . . . 271
Ana yurdu . . . . . 272
Vətən nəğməsi . . . . . 272
***Mənzum hekayələr*** . . . . . 274
Tıq-tıq xanım . . . . . 274
Tülkü həccə gedir . . . . . 281
Ovçu məstan . . . . . 301
Zəhmət və Zinət . . . . . 311
***Uşaqlar üçün hekayələr*** . . . . . 323
Murad . . . . . 323
Şələquyruq . . . . . 326
Meşə gözətçisi . . . . . 329

*Abbas Səhhət,*
*Abdulla Şaiq*

# SEÇİLMİŞ ƏSƏRLƏRİ


| | |
|---|---|
| Nəşriyyatın direktoru | Eldar Əliyev |
| Mətbəənin direktoru | Səhraf Mustafayev |
| Texniki redaktoru | Fərid Kərimov |
| Kompüter operatoru | Fərid Əliyev |
| Redaktoru | Həqiqət Eldarova |
| Korrektorlar | Ofelya İsmayılova |
| | Könül Zamanova |
| Rəssam | Rəhimə Həsənova |

---

**Yığılmağa verilib 07.11.2005. Çapa imzalanıb 18.02.2006.**
**Formatı 70x100 $^{1}/_{16}$. F.ç.v. 21. Ş.ç.v. 39,19. Ofset çapı.**
**Sifariş № 09. Sayı 5000 nüsxə. (Birinci buraxılış 500 nüsxə).**
**Qiyməti müqavilə ilə.**

---

"*Çaşıoğlu*" nəşriyyatı.
"*Çaşıoğlu*" mətbəəsi.
Bakı ş., M.Müşfiq küç., 2a.
Tel. 447-49-71

AZƏRBAYCAN ƏDƏBİYYATI

Abbas Səhhət
Abdulla Şaiq

# Seçilmiş əsərləri